# AZƏRBAYCAN TARİXİ 6




METODİK VƏSAİT

ELNUR HÜSEYNOV
PƏRVİZ AĞALAROV
NİYAMƏDDİN QULİYEV
RAMİL TANRIVERDİ

Ümumi təhsil müəssisələrinin 6-cı sinifləri üçün

# AZƏRBAYCAN TARİXİ

fənni üzrə

**Metodik vəsait**

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**info@eastwest.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

# MÜNDƏRİCAT

DƏRSLİK VƏ MÜƏLLİM ÜÇÜN METODİK VƏSAİT HAQQINDA .......... 4

AZƏRBAYCAN TARİXİ FƏNNİNİN TƏDRİSİNİN MÜASİR TƏLƏBLƏRİ .......... 7

6-CI SİNİFLƏR ÜÇÜN AZƏRBAYCAN TARİXİ DƏRSLİYİNİN KONSEPSİYASI .......... 7

MƏZMUN XƏTLƏRİ ÜZRƏ ƏSAS VƏ STANDARTLAR .......... 11

FƏNDAXİLİ VƏ FƏNLƏRARASI İNTEQRASİYANIN ZƏRURİLİYİ .......... 12

6-CI SİNİF AZƏRBAYCAN TARİXİ FƏNNİ ÜZRƏ STANDARTLARIN İNTEQRASİYA İMKANLARI .......... 15

ŞAGİRD NAİLİYYƏTLƏRİNİN MƏKTƏBDAXİLİ QİYMƏTLƏNDİRİLMƏSİ .......... 29

TƏLİM MƏQSƏDLƏRİNİN DÜZGÜN REALLAŞDIRILMASI İLƏ BAĞLI TÖVSİYƏLƏR .......... 48

DƏRSLƏRİN İCMALI VƏ TÖVSİYƏLƏR .......... 72

MÖVZU 1. ƏSAS TARİXİ ANLAYIŞLAR VƏ ZAMAN ÖLÇÜ VAHİDLƏRİ (BİRİNCİ SAAT) .......... 73

MÖVZU. 1. ƏSAS TARİXİ ANLAYIŞLAR VƏ ZAMAN ÖLÇÜ VAHİDLƏRİ (İKİNCİ SAAT) .......... 76

MÖVZU 2. İBTİDAİ CƏMİYYƏT (BİRİNCİ SAAT) .......... 79

MÖVZU 2. İBTİDAİ CƏMİYYƏT (İKİNCİ SAAT) .......... 82

MÖVZU 2. İBTİDAİ CƏMİYYƏT (ÜÇÜNCÜ SAAT) .......... 85

MÖVZU 2. İBTİDAİ CƏMİYYƏT (DÖRDÜNCÜ SAAT) .......... 88

MÖVZU 2. İBTİDAİ CƏMİYYƏT (BEŞİNCİ SAAT) .......... 90

MÖVZU 2. İBTİDAİ CƏMİYYƏT (ALTINCI SAAT) .......... 92

MÖVZU 2. İBTİDAİ CƏMİYYƏT (YEDDİNCİ SAAT) .......... 95

MÖVZU 2. İBTİDAİ CƏMİYYƏT (SƏKKİZİNCİ SAAT) .......... 97

MÖVZU 3. ERKƏN DÖVLƏTLƏR (BİRİNCİ SAAT) .......... 100

MÖVZU 3. ERKƏN DÖVLƏTLƏR (İKİNCİ SAAT) .......... 103

MÖVZU 4. MANNA DÖVLƏTİ (BİRİNCİ SAAT) .......... 106

MÖVZU 4. MANNA DÖVLƏTİ (İKİNCİ SAAT) ... 109
MÖVZU 4. MANNA DÖVLƏTİ (ÜÇÜNCÜ SAAT) ... 111
MÖVZU 5. AZƏRBAYCAN E.Ə. VII–IV YÜZİLLİKLƏRDƏ (BİRİNCİ SAAT) ... 115
MÖVZU 5. AZƏRBAYCAN E.Ə. VII–IV YÜZİLLİKLƏRDƏ (İKİNCİ SAAT) ... 119
MÖVZU 6: ATROPATENA DÖVLƏTİ (BİRİNCİ SAAT) ... 122
MÖVZU 6: ATROPATENA DÖVLƏTİ (İKİNCİ SAAT) ... 125
MÖVZU 7: ALBANİYA DÖVLƏTİ (BİRİNCİ SAAT) ... 127
MÖVZU 7: ALBANİYA DÖVLƏTİ (İKİNCİ SAAT) ... 130
MÖVZU 7: ALBANİYA DÖVLƏTİ (ÜÇÜNCÜ SAAT) ... 132
MÖVZU 8: AZƏRBAYCANDA FEODAL MÜNASİBƏTLƏRİNİN YARANMASI ... 134
MÖVZU 9: AZƏRBAYCAN SASANİ İMPERİYASI DÖVRÜNDƏ (BİRİNCİ DƏRS) ... 136
MÖVZU 9: AZƏRBAYCAN SASANİ İMPERİYASI DÖVRÜNDƏ (İKİNCİ DƏRS) ... 139
MÖVZU 9: AZƏRBAYCAN SASANİ İMPERİYASI DÖVRÜNDƏ (ÜÇÜNCÜ DƏRS) ... 142

# DƏRSLİK VƏ MÜƏLLİM ÜÇÜN METODİK VƏSAİT HAQQINDA

Sizə təqdim etdiyimiz VI sinif üçün Azərbaycan tarixi dərslik komplekti Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təsdiq etdiyi Azərbaycan Respublikasının ümumi təhsil müəssisələri üçün Azərbaycan tarixi fənni üzrə təhsil proqramı (kurikulumu) əsasında hazırlanmışdır. Dərslik komplekti özünün funksiyasına, məzmun və strukturuna görə fənn üzrə tədris planı və proqramı əsasında hazırlanmış, nəzəri və praktik biliklərin əsaslarının sistemli və anlaşıqlı şəkildə izahı verilməklə təqdim olunmuşdur.

**Dərsliklərin komplekt şəkildə nəşr olunması:**

• təhsil prosesində müəllim-şagird fəaliyyətinin tam təsəvvür olunmasını və üzvi şəkildə əlaqələndirilməsini təmin edir;

• müəllimin planlaşdırmadan qiymətləndirməyə qədər bütün fəaliyyətini istiqamətləndirir;

• təlim prosesində şagirdlərin müstəqilliyinin və tətbiq bacarıqlarının genişlənməsinə imkan yaradır;

• şagirdlər məlumatlar əldə etmək üçün axtarışlara cəlb olunur, müstəqil surətdə tədqiqatlar aparır, bunun üçün onlara fəal təlim şəraiti yaradır;

• şagirdlərin fərdi marağı nəzərə alınmaqla onlarda zəruri həyati bacarıqların formalaşdırılmasına, məntiqi, tənqidi və yaradıcı təfəkkürünün inkişaf etdirilməsinə imkan yaradır, təlimə marağı artırır.

Bildiyiniz kimi, müasir dövrdə dərslik təhsil sistemində məzmun və funksiyasına görə əhəmiyyətli resurslardan biri hesab edilir. Şagird səxsiyyətinin formalaşdırılmasında və inkişafında dərsliklərin rolu əhəmiyyətli dərəcədə əvəzsizdir və onun tələblərə uyğun hazırlanması zəruridir. Sizə təqdim etdiyimiz dərslik komplekti özünün funksiyasına, məzmun və strukturuna görə fənn üzrə tədris planı və proqramı əsasında hazırlanmış, nəzəri və praktik biliklərin əsaslarının sistemli və anlaşıqlı şəkildə izahı verilməklə təqdim olunmuşdur. İdraki təhsilin əsas resurslarından biri hesab edilən dərslik özünəməxsus, orijinal xüsusiyyətləri ilə daha çox maraq doğuracaqdır.

Ən zəruri informasiyalar, tapşırıq, sual və çalışmaları əks etdirən Azərbaycan tarixi dərsliyi istiqamətverici, yönəldici, düşündürücü funksiyaları özündə birləşdirir. Dərslikdə artıq informasiya yükünə yer verilməmiş, məzmunun keyfiyyətli olması üçün orijinallıq qorunmuşdur. Fənn kurikulumlarına uyğunluq dərsliyin əsas keyfiyyətlərindən biri kimi qeyd edilə bilər.

**Hazırlanmış dərslik:**

✓ fəal təlim prosesində bir komponent kimi şagirdi idraki fəallığa sövq edəcək;

✓ təqdim olunan şəkil və illüstrasiyalar, yaradıcı sual və tapşırıqlar şagirdləri tədqiqatçılığa və yaradıcılığa istiqamətləndirəcək;

✓ təkcə bilik vermək, məlumatlandırmaq funksiyasına deyil, şəxsiyyətin formalaşmasına, şagirdlərin öz üzərilərində çalışmasına, tənqidi, məntiqi və yaradıcı təfəkkürünü formalaşdıraraq inkişaf etdirmək funksiyasına imkan yaradacaqdır.

Bildiyiniz kimi, şagirdləri fəaliyyətə sövq etmək, həmçinin praktik olaraq işin icrasına imkanlar yaratmaq müasir dərsliklərin əsas keyfiyyətlərindən hesab edilir. Orada baca-

rıqları formalaşdıra bilmək imkanının olması üstün cəhət kimi dəyərləndirilir. Bunun üçün kifayət qədər müxtəlif növ çalışma və tapşırıqlardan istifadə edilməsi tələb olunur. Bu tələbləri nəzərə almaqla dərslikdə, eləcə də müəllim üçün metodik vəsaitdə əsas nüanslara yer ayrılmışdır. Bununla yanaşı, inteqrativ bacarıqların inkişafına imkan yaratmaq, onu şəxsiyyətin ümumi keyfiyyətinə çevirmək üçün dərslik komplektində yetərincə imkanlar açılmış, şagirdlərin dünyagörüşünün formalaşdırılmasının diqqət mərkəzində saxlanılması üçün lazımi məlumatlar, şəkil və illüstrasiyalar, eləcə də digər öyrədici və düşündürücü vasitələr özünü qabarıq şəkildə əks etdirmişdir.

Yeni dərslikləri kurikulumların tələblərinə uyğun səviyyədə hazırlamaq üçün bir sıra mühüm pedaqoji prinsiplərin gözlənilməsi zəruridir. Bu gün Azərbaycanda təhsilin məzmunu şagirdyönümlülük, tələbyönümlülük, nəticəyönümlülük, inkişafyönümlülük və inteqrativlik kimi prinsiplərə əsaslanır.

Şagirdyönümlülük təhsilin məzmunu tərtib və tətbiq edilərkən hər bir şagirdin ehtiyac və maraqlarının nəzərə alınması, bütün öyrənənlərin təlim prosesinə fəal cəlb olunması;

Tələbyönümlülük cəmiyyətdə gedən ictimai, iqtisadi dəyişikliklərin, elm və texnikanın inkişafının, habelə dünyada gedən qloballaşmanın həyat və məişətimizə gətirdiyi yeniliklərin nəzərə alınması;

Nəticəyönümlülük nail olunması nəzərdə tutulan nəticələrin əvvəlcədən müəyyən olunması və təlimin təşkilində məhz həmin nəticələrin əldə rəhbər tutulması;

İnkişafyönümlülük müxtəlif fənlər üzrə nəzərdə tutulan bilik və bacarıqların təhsilin inkişaf səviyyəsinə ardıcıl və davamlı şəkildə tətbiq olunması;

İnteqrativlik ayrı-ayrı fənlər üzrə bilik və bacarıqların həm bir-biri, həm də həyatla əlaqəli olmasıdır.

Bu prinsiplər müasir metod və metodologiyanın fəlsəfi, hüquqi, psixoloji, pedaqoji və praktik əsasını təşkil edir.

Bununla yanaşı, dərslikdə əyanilik, oxunaqlılıq, yaş səviyyəsinə uyğunluq, inklüzivlik və s. bu kimi məsələlər də nəzərə alınmış, eləcə də fəal təlim üçün şərait yaradılmışdır.

**Əyanilik.** Dərslikləri baxımlı etmək, onu şagirdin ən yaxın müsahibi kimi dəyərləndirmək, eləcə də stimullaşdırıcı vasitəyə çevirmək üçün əyaniliyə mühüm didaktik prinsip kimi müraciət olunur. Aşağıdakılar nəzərə alındıqda bu prinsipin tam reallaşdırıldığı aydın görünür:

✓ şəkillər, fotolar;
✓ illüstrasiyalar;
✓ sxemlər;
✓ cədvəllər;
✓ xəritələr;
✓ qrafiklər;
✓ QR kodlar.

Əyaniliyi təmin etmək üçün yuxarıda sadalanan bütün vasitələrin eyni bir dərsliyə daxil edilməsi tələb olunmur. Azərbaycan tarixi dərsliyi hazırlanarkən onun özünəməxsus cəhətləri, xüsusiyyətləri əsas götürülmüş, zəruri hesab edilən müvafiq əyani vasitələr seçilib təqdim olunmuşdur.

**Oxunaqlılıq.** Oxunaqlılığın nəzərə alınması üçün, ilk növbədə, məzmun materiallarının maraqlı olması vacibdir. Belə materiallar şagirdlərin diqqətinə səbəb olur, onları öyrənməyə sövq edir. Təlim materiallarının lakonikliyi, aydın üslubda, sadə dildə olması öyrənmə fəaliyyətinin səmərəliliyini artırır.

Bu tələbin də nəzərə alınması maksimum gözlənilmiş, dərslikdə hadisələrin şərhi aydın və anlaşılan şəkildə verilmişdir.

**Yaş səviyyəsinə uyğunluq.** Dərslik şagirdlərin yaş səviyyəsinə uyğun hazırlanmalıdır. Bu zaman iki əsas tələb diqqət mərkəzində saxlanılmalıdır:

a) dizayn;

b) təlim materiallarının məzmunu, həcmi, maraqlılığı.

Bütün bunlar şagirdin yaş xüsusiyyəti nəzərə alınmaqla seçilir.

Dərslik hazırlanarkən şagirdin sinif mühiti ilə yanaşı, müstəqil işləməsinə şərait yaradan amillər nəzərə alınmış, motivasiya imkanları gücləndirilmiş, vaxt nəzərə alınmaqla verilən materiallarda ən zəruri və düşündürücü məqamlara yer ayrılmışdır.

**İnklüzivlik.** Bu prinsip əsasında yazılmış dərslik özünün əhatəliliyinə görə seçilməli, təlim prosesində müxtəlif səviyyələri ehtiva etməli, istedadlı şagirdlərlə yanaşı, müəyyən səbəblərdən geridə qalanların da təlim maraqlarını ödəyə bilməlidir. Bunun üçün təlim materiallarının seçilməsinə və dərsliyə daxil edilməsinə diferensial yanaşılmalı, hər bir sinifdə şagirdlərin inkişaf səviyyələri nəzərə alınmalıdır.

Dərslikdə inklüzivlik dövrün əsas tələbi kimi diqqət mərkəzində saxlanılmış, şagirdlərin inkişafı üçün zəruri olacaq imkanlar təqdim olunmuşdur.

Fəal təlim üçün şəraitin yaradılması. Fəal təlim müasir təhsil prosesinin əsas atributlarından hesab edilir. Onun qurulmasında bir çox amillərlə yanaşı, dərslik də həlledici rol oynayır. Nəticəyönümlü kurikulumlar məhz belə dərsliklərin hazırlanmasını tələb etdiyi üçün bu tələbə uyğunluğu qoruyub saxlamağa çalışmışıq. Ona görə də dərslik hazırlanarkən fəal təlim üçün şəraitin yaradılmasına mühüm didaktik prinsiplərdən biri kimi önəm verilmişdir. Hər bir paraqrafda təlim materiallarının verilməsi fəal təlim prosesinə uyğunlaşdırılmış, təlim marağının formalaşdırılması, problemin qoyuluşu, həll edilməsi, təqdim olunma və qiymətləndirmə üçün şəraitin yaradılması dərsliyin hazırlanmasında əsas tutulmuşdur.

Ən zəruri informasiyalar, tapşırıq, sual və çalışmaları özündə əks etdirən VI sinif Azərbaycan tarixi dərsliyi istiqamətverici, yönəldici, düşündürücü funksiyaları özündə birləşdirir. Dərslikdə artıq informasiya yükünə yer verilməmiş, məzmunun keyfiyyətli olması üçün orijinallıq qorunmuşdur. Sadədən mürəkkəbə, xronoloji və məntiqi ardıcıllığı nəzərə almaqla dərslik 9 paraqraf və 3 bölmədən ibarət tərtib edilmişdir. Paraqraflar tərtib olunarkən standartlar və onların reallaşdırılması üçün mənbələr, xəritələr, illüstrasiyalar, sxemlər, cədvəllər, sual və tapşırıqlar və s. vasitələr nəzərə alınmışdır. Metodik vəsaitin hazırlanmasında standartlar, inteqrasiya cədvəli, dərslərin icmalı, interaktiv dərs nümunələri, qiymətləndirmə və qiymətləndirmə vasitələri öz əksini tapmışdır. Tərtib edilmiş paraqrafların hər biri qruplaşdırılmış, forma və üsullar təqdim olunmuş, işin texnologiyasına aydınlıq gətirilmiş, dərslikdən istifadənin bütün mexanizmləri işıqlandırılmışdır. Bununla yanaşı, dərslik və metodik vəsaitin hazırlanmasında istifadə edilmiş mənbə və ədəbiyyatlar, istifadəsi mümkün olan resursların siyahısı təqdim edilmişdir. Bir sözlə, dərslik komplektinə daxil olan dərslik və müəllim üçün metodik vəsait dövlətin və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin qoyduğu tələbi maksimum səviyyədə gözləməklə tərtib olunmuşdur.

# AZƏRBAYCAN TARİXİ FƏNNİNİN TƏDRİSİNİN MÜASİR TƏLƏBLƏRİ

***Ümumi müddəalar:***

Müasir dövrdə dünyada bir çox sahələrdə olduğu kimi, təhsil sahəsində yeni çağırışlar aktualdır. Təhsil sahəsi də yeni dövrlə ayaqlaşmalı və texnologiyalara adekvat qurulmalıdır. Digər fənlər kimi, Azərbaycan tarixi fənninin tədrisində də yeni dövrün tələbləri nəzərə alınmalıdır. Tarix hadisə və proseslərin, tarixi şəxsiyyətlərin fəaliyyətinə aid faktların yadda saxlanılması deyil, onların müqayisə edilməsi, təhlili və dəyərləndirilməsidir. Ona görə də Azərbaycan tarixi fənninin tədrisinin müasir tələblərə uyğunlaşdırılması zəruridir. Bu istiqamətdə ən vacib amillərdən biri də tədris prosesinin əsas resurslarından biri olan dərsliklərin məzmun və forma baxımından təkmilləşdirilməsi, onların yalnız bilik mənbəyi deyil, həmçinin bacarıq və dəyərlər aşılamaq üçün vasitə olmasına çalışılmalıdır. Bu modelin əsasında tarixi hadisə, təzahür və proseslərə aid məlumatları, anlayışları və dəyərləri qazandırmaqla yanaşı, şagirdlərə gələcəkdə istifadə edə biləcəkləri müqayisə, təhlil, ümumiləşdirmə və nəticəyə gəlmə bacarıqları qazandırmaq təşkil edir. Beynəlxalq təcrübə şagirdlərdə aşağıdakı bacarıqları formalaşdırmağı hədəfləyir:

- tarixi hadisə, proses və təzahürləri araşdırmaq və nəticələrini təqdim etmək;
- tarixi mənbələri təsnif etmək, orada verilən məlumatları anlamaq, analiz etmək, sintez etmək və dəyərləndirmək;
- tarixi hadisələri müvafiq dövrün tarixi şərtləri əsasında dəyərləndirmək və bu günü anlamaqda ondan istifadə etmək;
- müəyyən tarixi hadisə və proseslə bağlı məlumatları sistemləşdirmək, yəni səbəb-nəticə əlaqəsini təsbit etmək;
- təhlil və sintezə əsaslanan şifahi və yazılı təqdimat hazırlamaq.

## 6-cı SİNİFLƏR ÜÇÜN AZƏRBAYCAN TARİXİ DƏRSLİYİNİN KONSEPSİYASI

***Ümumi müddəalar:***

Hazırda bəşəriyyət dördüncü sənaye çevrilişi hesab edilən yeni bir mərhələyə qədəm qoymuşdur.Texnologiyaların sürətli inkişafı, əldə edilən nailiyyətlər, insan faktorunun daha da önə çəkilməsi təhsil sahəsində də yeni çağırışları zəruri edir. Müasir dövrün gerçəklikləri ilə ayaqlaşan, müvafiq bacarıqlara və vərdişlərə malik şəxsiyyətin, nəslin yetişdirilməsi təhsil sisteminin qarşısında duran əsas vəzifələrdəndir.

Yeni çağırışlar, dövrün tələbləri Azərbaycan tarixi fənninin tədrisində də nəzərə alınmalıdır. Tarix – hadisə və proseslərin, tarixi şəxsiyyətlərin fəaliyyətinə aid faktların yadda saxlanılması deyil, onların müqayisə edilməsi, təhlili və dəyərləndirilməsidir. Ona görə də bu fənnin tədrisinin müasir tələblərə uyğunlaşdırılması zəruridir. Bu istiqamətdə ən vacib amillərdən biri də tədris prosesinin əsas resurslarından biri olan dərsliklərin məzmun və forma baxımdan təkmilləşdirilməsi, onların yalnız bilik mənbəyi deyil, həmçinin bacarıq və dəyərlər aşılamaq üçün vasitə olmasına nail olmaqdır. Bu modelin əsasında tarixi ha-

disə, təzahür və proseslərə aid məlumatları, anlayış və dəyərləri qazandırmaqla yanaşı, şagirdlərə gələcəkdə istifadə edə biləcəyi müqayisə, təhlil, ümumiləşdirmə və nəticəyə gəlmə bacarıqları qazandırmaq təşkil edir. Beynəlxalq təcrübə şagirdlərdə aşağıdakı bacarıqları formalaşdırmağı hədəfləyir:

- tarixi hadisə, proses və təzahürləri araşdırmaq və nəticələrini təqdim etmək;
- tarixi mənbələri təsnif etmək, orada verilən məlumatları anlamaq, analiz etmək, sintez etmək və dəyərləndirmək;
- tarixi hadisələri müvafiq dövrün tarixi şərtləri əsasında dəyərləndirmək və bu günü anlamaqda ondan istifadə etmək;
- müəyyən tarixi hadisə və proseslə bağlı məlumatları sistemləşdirmək, yəni səbəb-nəticə əlaqələrini təsbit etmək;
- təhlil və sintezə əsaslanan şifahi və yazılı təqdimatlar hazırlamaq.

***Azərbaycan tarixi fənninin tədrisinin ümumi məqsədləri:***

Azərbaycan tarixi ölkəmizin ərazisində uzaq və yaxın keçmişdə yaşamış insanların həyatını, onların həyatında baş verən hadisələri və dəyişiklikləri səbəb-nəticə əlaqəsində öyrənən elmdir. Onun bir fənn kimi ümumi təhsil müəssisələrində öyrənilməsi xüsusi əhəmiyyət daşıyır.

Bu fənnin ümumi təhsil müəssisələrində tədrisi dərin və əhatəli biliyə, bacarıq və vərdişlərə, yüksək intellektə, geniş dünyagörüşünə malik olan və onu daim inkişaf etdirməyə çalışan şəxsiyyət formalaşdırmağa, öz soykökünə, adət-ənənələrinə, milli-mənəvi dəyərlərə əsaslanan, şərəfli tarixi keçmişinə dərindən yiyələnən, ailəsini, vətənini, millətini sevən və onu daim ucaltmağa çalışan vətəndaş tərbiyə etməyə xidmət edir.

Azərbaycan tarixi fənni şagirdlərdə ünsiyyət qurmaq və əməkdaşlıq etmək kimi yüksək mənəvi keyfiyyətlərin, mühakimə yürütmək, qoyulmuş problemə fərqli baxış nümayiş etdirmək, öz nöqteyi-nəzərini əsaslandırmaq, hüquqlarını qorumaq, başqalarının hüquqlarına hörmətlə yanaşmaq, dövlət, cəmiyyət və xalq qarşısında vəzifələrinə məsuliyyətlə yanaşmaq bacarığının formalaşmasında mühüm rol oynayır.

Bu fənnin tədrisi şagirdlərdə xalqımızın dövlət qurma bacarığını dəyərləndirməyə, müstəqil dövlətə malik olmanın əhəmiyyətini anlamağa daha geniş imkanlar yaradır. Şagirdlər tariximizi öyrəndikcə Azərbaycanın dünyadakı mövqeyini, yerləşdiyimiz coğrafiyanın özünəməxsus xüsusiyyətlərini, geosiyasi reallıqları, dövlətlərimizin və tarixi şəxsiyyətlərimizin Azərbaycanda və regionumuzdakı rolunu, həmçinin xalqımızın dünya mədəniyyətinə bəxş etdiyi töhfələri olduğu kimi dəyərləndirmə bacarığına yiyələnir.

Azərbaycan tarixi fənni üzrə təhsil proqramının (kurikulumun) əsas cəhətlərindən biri kimi ***nəticə yönümlülük:***

1. Şagird fəaliyyətinin ardıcıl izlənilməsini, onun nailiyyətlərindəki irəliləyişlərin müntəzəm qiymətləndirilməsini təmin edir.

2. Şagirdlərə gündəlik həyatda lazım olan zəruri bacarıqların aşılanmasını və onun ardıcıl olaraq inkişaf etdirilməsini ön plana çəkir, təlim prosesi ilə gözlənilən nəticə arasında qarşılıqlı əlaqə üçün zəmin yaradır.

3. Ümumi təhsil müəssisələrində Azərbaycan tarixi fənninin əsas məqsədi məktəblilərdə vətənpərvərlik, fəal vətəndaşlıq mövqeyi, digər xalqlara, ümumbəşəri humanist dəyərlərə hörmət, ənənəvi və mədəni nailiyyətlərə əsaslanan əqidə prinsipləri, dövlətçilik ənənələrinə sədaqət hissi formalaşdırmaq üçün onlara keçmiş və müasir dövrün hadisələrini sərbəst təhlil etmək, faktları ümumiləşdirmək, əldə olunan biliklərdən cəmiyyətin müasir vəziyyətinin qiymətləndirməsində istifadə, tarixi mənbə, müxtəlif fikir və konsepsiyaları təhlil etmək, başqalarının fikirlərinə hörmət etmək, eləcə də sərbəst nəticə çıxarmaq və kollektivdə işləmək bacarıq və vərdişləri aşılamaqla informativ-kommunikativ və hüquqi mədəniyyət formalaşdırmaqdan  ibarətdir. Bu məqsədin reallaşdırılması üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi məqsədəmüvafiq hesab edilir:

- tarixi hadisələrin, həmçinin müasir həyatda baş verən ictimai hadisələrin dərk, təhlil və təsnif edilməsi;
- milli-mənəvi dəyərlərdən, mədəni irsdən istifadə etməklə daxili potensialın zənginləşdirilməsi və onların gələcək nəsillərə ötürülməsi;
- dövlətçilik ənənələrinə istinad olunması, ölkəmizin müstəqil dövlət quruculuğunda şüurlu və məsuliyyətli vətəndaş kimi iştirak etməsi;
- vətənin tarixində baş vermiş hadisələr nəzərə alınmaqla milli mənafenin və maraqların qorunması;
- müxtəlif mənbələri təhlil etməklə onlardan nəticələrin çıxarılması, sosioloji məlumatlar üzərində işin təşkili, sosial, iqtisadi, mədəni problemlərin tarixi baxımından inkişafının digər fənlərlə əlaqədə izlənilməsi;
- tarixi hadisələrin qarşılıqlı əlaqələrini təhlil etməklə məntiqi və yaradıcı təfəkkürün inkişaf etdirilməsi.

## 6-cı SİNİFLƏR ÜÇÜN AZƏRBAYCAN TARİXİ DƏRSLİYİNİN YENİDƏN TƏRTİB EDİLMƏSİNDƏ BAŞLICA MƏQSƏDLƏR:

– Dərsliyin yeni təhsil proqramının (kurikulum) standartlarına uyğunlaşdırılması;

– Azərbaycan coğrafi adı və tarixi əsasında şagirddə zaman və məkan anlayışının formalaşdırılması;

– Şagirdlərin yaş səviyyəsinə uyğun olmayan faktoloji materialların azaldılması, dərsliyin  sadələşdirilməsi, şagirdlər üçün daha maraqlı və oxunaqlı vəziyyətə gətirilməsi;

– Dərsliyin həcminin optimallaşdırılması, aktual olmayan mövzuların çıxarılması;

– Mətnlərin tarixi hekayə janrına uyğunlaşdırmaqla daha cəlbedici olmasının təmin edilməsi;

– Şagirdlərdə azərbaycançılıq anlayışının formalaşdırılması, onlara ölkənin multikultural ənənələrinin öyrədilməsi;

– Azərbaycanda qalaların, şəhərlərin necə və hansı zərurətdən meydana gəlməsinin, tikilmə texnologiyasının maraqlı formada təqdimi;

– Azərbaycanın dünyadakı mövqeyi və rolunu,  dünyanın bizə baxışını sadə şəkildə dəyərləndiməyə imkan verən mövzulara yer verilməsi;

– Tariximizə ümumi baxış formalaşdırmaq;

– Şəkillər, illüstrasiyalar əsasında sadə tədqiqat imkanı yaradılması;

– Mövzularla bağlı tarixi xəritələrdən istifadənin öyrədilməsi;

– Tarixi mənbələr haqqında ilkin anlayışların yaradılması;

– Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirmə imkanının yaradılması.

Yuxarıda göstərilən şərtlər əsasında Azərbaycan tarixi fənnini şagirdlərə yaş səviyyəsinə uyğun şəkildə öyrətməyə imkan verən bir dərslik tərtib etmək qarşıya qoyulan başlıca məqsəddir.

Deyilənləri nəzərə alaraq, tarixçi düşüncəsinin necə olduğuna, qavrama prosesində hansı dəyişikliklərin olmasına dair, tarixin tədrisi zamanı əsas bacarıq və fəaliyyət sahələrini özündə əks etdirən interaktiv sxemi sizə təqdim edirik.




## 6-cı SİNİF AZƏRBAYCAN TARİXİ FƏNNİ ÜZRƏ MƏZMUN STANDARTLARI

**VI sinfin sonunda şagird:**

• mühüm hadisə, proses və təzahürlərin xronoloji çərçivələrini müəyyən edir və zaman oxunda təsvir edir;

• maddi mədəniyyət abidələri, illüstrasiya və yaxud muzey eksponatları əsasında tədqiqatlar aparır;

• insanların birgə yaşayış formalarını fərqləndirir;

• qədim insanların həyat tərzini Azərbaycan ərazisinin təbii- coğrafi şəraiti ilə əlaqələndirir və ilk insan məskənlərini, dövlət qurumlarını, qədim dövlətləri xəritədə müəyyənləşdirir;

• Azərbaycanda  qədim dövlətlərin yaranmasını, daxili və xarici siyasətini izah edir;
• qədim dövlətlərin yaranması və inkişafında tarixi şəxsiyyətlərin rolunu dəyərləndirir;
• Azərbaycan mədəniyyətinin inkişafını, müxtəlif xalqların mədəniyyətləri ilə qarşılıqlı əlaqələrini izah edir.

## MƏZMUN XƏTLƏRİ ÜZRƏ ƏSAS VƏ ALT STANDARTLAR

### 1. Tarixi zaman

**Şagird:**

*1.1. Xronologiya ilə bağlı tarixi anlayışları mənimsədiyini nümayiş etdirir.*

1.1.1. Mühüm hadisə, proses və təzahürlərin xronoloji çərçivələrini müəyyənləşdirir.

1.1.2. Mühüm hadisə, proses və təzahürləri zaman oxunda təsvir edir.

*1.2. Mənbələr üzərində  tədqiqat bacarıqları nümayiş etdirir.*

1.2.1. Dövrün öyrənilməsində maddi və yazılı mənbələrin rolunu izah edir.

1.2.2. İllüstrasiya və yaxud muzey eksponatları əsasında sadə tədqiqatlar aparır.

*1.3. İnsanların həyat tərzindəki dəyişiklikləri sivilizasiyalarla əlaqələndirir.*

1.3.1. İnsanların birgə yaşayışının müxtəlif formalarını fərqləndirir.

### 2. Tarixi məkan

**Şagird:**

*2.1. Azərbaycan ərazisinin təbii-coğrafi şəraitini tarixi hadisə, proses və təzahürlərlə əlaqələndirir.*

2.1.1. Qədim insanların həyat tərzini və məşğuliyyətlərini Azərbaycan ərazisinin təbii-coğrafi şəraiti ilə əlaqələndirir.

2.1.2. Xəritələrdə Azərbaycan ərazisində ilk insan məskənlərini, dövlət qurumları və qədim dövlətlərin yerini müəyyənləşdirir.

### 3. Dövlət

**Şagird:**

*3.1. Azərbaycan ərazisində dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik və bacarıqlar nümayiş etdirir.*

3.1.1. Azərbaycanda dövlət qurumları və qədim dövlətlərin yaranmasını, idarə olunmasını,  sosial-iqtisadi münasibətləri təsvir edir.

3.1.2. Qədim dövlətlərin daxili və xarici siyasətini izah edir.

3.1.3. Qədim Azərbaycan dövlətləri haqqında mənbələr əsasında məlumatlar toplayır, təqdim edir.

### 4. Şəxsiyyət

**Şagird:**

*4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.*

4.1.1. Dövlətlərin yaranmasında, inkişafında tarixi şəxsiyyətlərin (İranzu, Tomiris, Atropat, Oroys və b.) rolunu dəyərləndirir.

4.1.2. Tarixi şəxsiyyətlər haqqında kiçik hekayə qurur.

**5. Mədəniyyət**

**Şagird:**

*5.1. Mədəniyyət və sivilizasiyaları qiymətləndirir.*

5.1.1. Sivilizasiyayaqədərki və sivilizasiya dövrünün mədəniyyətlərini izah edir.

5.1.2. Azərbaycan mədəniyyətinin müxtəlif xalqların mədəniyyəti ilə qarşılıqlı əlaqələrini izah edir.

5.1.3. Mədəni əlaqələrə dair cədvəllər tərtib edir.

## FƏNDAXİLİ VƏ FƏNLƏRARASI İNTEQRASİYANIN ZƏRURİLİYİ

Azərbaycan tarixi fənninin tədrisində də fəndaxili və fənlərarası əlaqələrin tətbiqi əsasdır və təlimin interaktivliyini təmin etmək üçün başlıca amildir. Ənənəvi təlimdə daha çox şagirdlərə faktlar toplusu verilir və onları əzbərləmək tələb olunurdu. Nəticədə şagirdlər həyatda onlara lazım olmayan məsələləri də öyrənməli olurdular. İnteqrativ tədris isə fənn sahələrinin kombinasiyasını özündə əks etdirməklə şagirdi obyektə deyil, subyektə çevirir. Burada təhsilin məqsədinə hadisə və təzahürləri öyrənmək və bilmək deyil, həm də əldə olunmuş bilik, bacarıq və dəyərlərdən müxtəlif situasiyalarda istifadə etmək, araşdırmaları təkmilləşdirmək, anlama, birbaşa şəxsi iştirak daxildir. Bu cür yanaşma şagirdlərə öyrənmə zamanı müxtəlif fənlər arasında bilik və konsepsiya səviyəsində dəyərli əlaqələr yaratmaqda köməklik göstərir.

**İnteqrasiya necə həyata keçirilməlidir?**

İnteqrasiya çox zaman biliklərin əlaqələndirilməsi formasında həyata keçirilir. Burada bir fakt haqqında biliyə həmin fakt haqqında başqa fənlərdə verilən məlumat əlavə olunur. Müasir dövrdə inteqrasiyaya tamamilə başqa cür yanaşılır. Digər fənlərdə olduğu kimi, tarix fənn kurikulumunda da inteqrasiya fəndaxili əlaqələr (üfüqi inteqrasiya), fənlərarası əlaqələr (şaquli inteqrasiya) şəklində həyata keçirilir. Bu inteqrasiya məzmun xətləri, siniflər üzrə gözlənilən təlim nəticələri və məzmun standartları arasında (bilik və bacarıqlar sistemində) reallaşdırılır. Belə ki, ümumi orta təhsil səviyyəsində formalaşdırılan bacarıqlarla tam orta təhsil səviyyəsində formalaşdırılan bacarıqlar məzmun etibarilə bir-biri ilə sıx əlaqəlidir, biri digərini tamamlayır və inkişaf etdirir.

Azərbaycan tarixi fənninin tədrisi prosesində iki tip inteqrasiya tətbiq etmək məqsədəuyğundur. Birinci tipə fənn daxilində (şaquli və üfüqi) inteqrasiya, ikinci tipə isə fənlərarası (üfüqi) inteqrasiya daxildir. Birinci tip inteqrasiya özündə aşağıdakı modelləri birləşdirir:

- *fraqmentləşdirilmiş (hissələrə bölünmüş) inteqrasiya;*
- *əlaqəli inteqrasiya;*
- *sıxlaşdırılmış (iç-içə yerləşdirilmiş) inteqrasiya.*

Kurikulumun ənənəvi planlaşdırma və təşkili modeli olan fraqmentləşmiş inteqrasiya digər fənlərdə olduğu kimi, Azərbaycan tarixinin də müstəqil tədris sahəsidir. Ümumi

orta və tam orta təhsil pillələrində Azərbaycan tarixi ayrıca fənn kimi tədris olunur. Bu modeldə fraqmentlənmə olmasına baxmayaraq, Azərbaycan tarixi fənninin daxilində tədris prioritetlərini sistemli təşkil etmək, üst-üstə düşmə və yüklənmə hallarını azaltmaq üçün inteqrasiya mövzularının, bacarıqların və konsepsiyaların sıra ilə qeyd olunması və dəyərləndirilməsi vacibdir. Bütün ölkələr, o cümlədən Azərbaycan ibtidai cəmiyyət mərhələsindən keçdiyi üçün o dövrlərdə baş vermiş hadisə və təzahürlərdə oxşarlıq çoxdur. Bu mövzuların inteqrasiyası şagirdlərə Azərbaycan tarixinin həmin dövrünü tam halda dəyərləndirməklə yanaşı, hadisə və təzahürlər arasında oxşar və fərqli prosesləri müqayisə edərək səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək imkanı verir. Bu inteqrasiya modeli məzmun, konsepsiya və bacarıqların şaquli əlaqələndirilməsinin sadə forması da ola bilər.

Əlaqəli inteqrasiya modeli Azərbaycan tarixi fənninin daxilində diqqəti mövzulara, bacarıqlara və konsepsiyalara yönəldir. Bu modeldə fənn daxilindəki mövzular, bacarıqlar və konsepsiyalar arasındakı əlaqələr aydın şəkildə qurulur. Məsələn, insanlar arasında bərabərsizliyin yaranmasının nəticəsi olaraq sosial qrup və təbəqələrin meydana çıxması ilk dövlət qurumlarının və dövlətlərin yaranması ilə, onlar da, öz növbəsində, xalqın fiziki və mənəvi varlığının qorunması üçün tariximizin bütün mərhələlərində müstəqil dövlətçiliyə malik olmaq və s. ilə əlaqələndirilir. Bu modelin üstünlüyü ondadır ki, hər bir sinifdə, hər bir təhsil mərhələsində dövlətçilik və onun qorunması konsepsiyası əlaqələndirilir, sistemləşdirilir və genişləndirilir. Bu da, öz növbəsində, fənn daxilində mövzuların və bacarıqların əvvəlkilərə istinad olunaraq yenidən nəzərdən keçirilməsinə və mənimsənilməsinə gətirib çıxarır.

Sıxlaşdırılmış (iç-içə yerləşdirilmiş) modelə çox vaxt "yuva" modeli də deyirlər. Azərbaycan tarixinin inteqrativ kurikulumunda bu modeli açıq şəkildə əlaqələndirmələrin və ya kombinasiyaların qurulması yolu ilə tətbiq etmək mümkündür. Bu modelin tətbiqi diqqətin fənnin daxilində çoxşaxəli bacarıqlara (sosial bacarıq, düşünmə bacarığı və məqsədyönümlü bacarıq) yönəldilməsinə şərait yaradır. Məsələn, müəllim Qərbi Avropada və Rusiyada təhkimli kəndli əməyindən istifadəni şagirdlərin diqqətində saxlamaqla yanaşı, onlara "Mərkəzləşdirilmiş dövlətlə digər dövlətlərin fərqi" mövzusunda esse yazılmasına nail ola bilər. Bu modelin tətbiqi diqqətin eyni vaxtda müxtəlif sahələrə yönəldilməsinə, əhatəli və məqsədyönümlü bilik əldə olunmasına şərait yaradır.

İnteqrasiyanın ikinci tipi fənlər arasında tətbiq olunur. Bu zaman Azərbaycan tarixi fənninin ümumi orta və tam orta təhsil səviyyəsində Azərbaycan dili, Ümumi tarix, Coğrafiya, Ədəbiyyat, Xarici dil və s. fənlərlə inteqrasiyası mümkündür. Azərbaycan tarixinin inteqrativ kurikulumunda fənlər arasında inteqrasiyasının aşağıdakı modellərini tətbiq etmək mümkündür:

- *ardıcıl (sıralanmış model);*
- *ümumi (ortaq model);*
- *zəncirvari (hörülmüş) model.*

Azərbaycan tarixinin Ümumi tarix fənni ilə inteqrasiyası daha çox ardıcıl (sıralanmış) modelin tətbiqi nəticəsində mümkündür. Bu fənlərdə çoxlu oxşar bölmələr və mövzular vardır ki, onlar ayrı-ayrılıqda tədris olunur. Lakin onları elə planlaşdırmaq olar ki, (bunun üstün cəhəti həmin fənlərin eyni müəllim tərəfindən tədris olunmasıdır) əlaqəli konsepsiyalar, biliklər, bacarıqlar eyni çərçivədə yaranır və eyni vaxtda öyrənilir. Bu cür inteqrasiyanın həyata keçirilməsi üçün kurikuluma dair sənədlərdə məzmun mütləq balanslaşdırılmalıdır. Bu zaman standartın standartla uyğunluğu mütləq nəzərə alınmalıdır.

Ümumi model iki müxtəlif fənni vahid istiqamət üzrə bir araya gətirir. Ümumi model üzrə yanaşmaya əsasən inteqrasiya apara bilmək üçün fənn müəllimləri təlim prosesinə fənlərarası mövqedən yanaşaraq fənbirləşmə yığıncaqlarında əsas konsepsiyaları, bacarıq və dəyərləri müəyyənləşdirirlər. Bu daha çox Azərbaycan tarixi və Ədəbiyyat fənlərinin tədrisində mümkündür.

Zəncirvari model tarixin tədrisinin inteqrasiyası kurikulumun tələbinə görə fənlərarası standartların üst-üstə düşən konsepsiyaları və onların məlum olan xüsusiyyətləri əsasında tətbiq olunur. Bu model ortaq (ümumi) modellə oxşardır. Lakin model elm sahələri üzrə üst-üstə düşən bacarıqlar, konsepsiyalar və dəyərlər üzərində qurulur. Bu model fənn sahələrini sinergetik birləşdirir, yəni bir fənn üzrə biliklər digər fəndən ayrılmır, bölünmə yalnız fərqləndirilən məzmunun və ya anlayışın tədrisində baş verir. Bu model inteqrasiya fənlərinin məzmunundan əlaqəli fikirləri seçib ayırmaq nəticəsində yaranır.

## 6-cı SİNİF AZƏRBAYCAN TARİXİ FƏNNİ ÜZRƏ STANDARTLARIN İNTEQRASİYA İMKANLARI

| Tarixi zaman | |
|---|---|
| **Standartlar** | **Digər fənlərlə inteqrasiya** |
| 1.1.1. Mühüm hadisə, proses və təzahürlərin xronoloji çərçivələrini müəyyənləşdirir. | Ümumi tarix (Ü.t.) 1.1.3.<br>Azərbaycan dili (A.d.) 1.2.4. |
| 1.1.2. Mühüm hadisə, proses və təzahürləri zaman oxunda təsvir edir. | Ümumi tarix (Ü.t.) 1.1.2.<br>Azərbaycan dili (A.d.) 3.1.2.<br>Xarici dil (X.d.) 2.1.3. |
| 1.2.1. Dövrün öyrənilməsində maddi və yazılı mənbələrin rolunu izah edir. | Ümumi tarix (Ü.t.) 1.1.2.<br>Azərbaycan dili (A.d.) 2.2.3.<br>Ədəbiyyat (Əd.) 2.1.3. |
| 1.2.2. İllüstrasiya və yaxud muzey eksponatları əsasında sadə tədqiqatlar aparır. | Ümumi tarix (Ü.t.) 1.1.2.<br>Azərbaycan dili (A.d.) 1.1.2.<br>Ədəbiyyat (Əd.) 3.1.3.<br>Xarici dil (X.d.) 3.1.4.<br>Coğrafiya (Coğ.) 2.1.8.<br>İnformatika (İnf.) 3.3.1. |
| 1.3.1. İnsanların birgə yaşayışının müxtəlif formalarını fərqləndirir. | Ümumi tarix (Ü.t.) 1.1.2.<br>Azərbaycan dili (A.d.) 1.1.4.<br>Ədəbiyyat (Əd.) 3.1.2. |
| **Tarixi məkan** | |
| **Standartlar** | **Digər fənlərlə inteqrasiya** |
| 2.1.1. Qədim insanların həyat tərzini və məşğuliyyətlərini Azərbaycan ərazisinin təbii-coğrafi şəraiti ilə əlaqələndirir. | Ümumi tarix (Ü.t.) 2.1.1.<br>Azərbaycan dili (A.d.) 3.1.2.<br>Biologiya (Bio.) 3.1.2., 4.1.1.<br>Coğrafiya (Coğ.) 3.2.4.<br>Xarici dil (X.d.) 3.1.4. |
| 2.1.2. Xəritələrdə Azərbaycan ərazisində ilk insan məskənlərini, dövlət qurumları və qədim dövlətlərin yerini müəyyənləşdirir. | Ümumi tarix (Ü.t.) 2.1.2.<br>Coğrafiya (Coğ.) 1.3.1., 3.1.2., 3.2.2.<br>Xarici dil (X.d.) 2.1.2. |
| **Dövlət** | |
| **Standartlar** | **Digər fənlərlə inteqrasiya** |
| 3.1.1. Azərbaycanda dövlət qurumları və qədim dövlətlərin yaranmasını, idarə olunmasını, sosial-iqtisadi münasibətləri təsvir edir. | Ümumi tarix (Ü.t.) 3.1.1.<br>Azərbaycan dili (A.d.) 2.2.1., 2.2.3.<br>Ədəbiyyat (Əd.) 1.1.5.<br>Coğrafiya (Coğ.) 3.2.3.<br>Xarici dil (X.d.) 2.1.3. |

| | |
|---|---|
| 3.1.2. Qədim dövlətlərin daxili və xarici siyasətini izah edir. | Ümumi tarix (Ü.t.) 3.1.2.<br>Azərbaycan dili (A.d.) 1.2.4.<br>Ədəbiyyat (Əd.) 1.2.4.<br>Xarici dil (X.d.) 2.1.3. |
| 3.1.3. Qədim Azərbaycan dövlətləri haqqında mənbələr əsasında məlumatlar toplayır, təqdim edir. | Ümumi tarix (Ü.t.) 3.1.2.<br>Azərbaycan dili (A.d.) 2.2.3.<br>Xarici dil (X.d.) 4.1.1.<br>İnformatika (İnf.) 3.3.1., 3.2.3. |
| **Şəxsiyyət** | |
| **Standartlar** | **Digər fənlərlə inteqrasiya** |
| 4.1.1. Dövlətlərin yaranmasında, inkişafında tarixi şəxsiyyətlərin (İranzu, Tomiris, Atropat, Oroys və b.) rolunu dəyərləndirir. | Ümumi tarix (Ü.t.) 4.1.1.<br>Azərbaycan dili (A.d.) 2.2.1.<br>Ədəbiyyat (Əd.) 1.2.2.<br>Xarici dil (X.d.) 3.1.4. |
| 4.1.2. Tarixi şəxsiyyətlər haqqında kiçik hekayə qurur. | Ümumi tarix (Ü.t.) 4.1.2.<br>Azərbaycan dili (A.d.) 1.1.2.<br>Ədəbiyyat (Əd.) 3.1.3.<br>Xarici dil (X.d.) 4.1.1. |
| **Mədəniyyət** | |
| **Standartlar** | **Digər fənlərlə inteqrasiya** |
| 5.1.1. Sivilizasiyayaqədərki və sivilizasiya dövrünün mədəniyyətlərini izah edir. | Ümumi tarix (Ü.t.) 5.1.1.<br>Azərbaycan dili (A.d.) 4.1.1.<br>Ədəbiyyat (Əd.) 1.1.5.<br>Xarici dil (X.d.) 2.1.3. |
| 5.1.2. Azərbaycan mədəniyyətinin müxtəlif xalqların mədəniyyəti ilə qarşılıqlı əlaqələrini izah edir. | Ümumi tarix (Ü.t.) 5.1.2.<br>Azərbaycan dili (A.d.) 4.1.2.<br>Ədəbiyyat (Əd.) 2.1.2.<br>Xarici dil (X.d.) 2.1.3. |
| 5.1.3. Mədəni əlaqələrə dair cədvəllər tərtib edir. | Ümumi tarix (Ü.t.) 5.1.3.<br>Azərbaycan dili (A.d.) 1.2.4.<br>İnformatika (İnf.) 3.2.3. |

## Tədris prosesinin təşkili üçün qeydlər

Tədrisə yenicə başlayan müəllimlər dərslərini keçərkən şagirdlərin diqqətini dərsə cəlb etmək üçün dərslərini “daha canlı” keçməkdə çətinlik çəkirlər. Bunu nəzərə alaraq, müəllimə dəstək üçün “şagirdlərin dərsə marağını necə artırmaq, nəticəni necə yüksəltmək məqsədilə” aşağıdakıları tövsiyə edirik.

Müəllim tərəfindən şagirdlərə verilən tövsiyələr;

Dərsdə yeni materialın mənimsənilməsinin yolları:

1. Dərsin mövzusunu yadda saxlayın. Bunun üçün ən yaxşı üsul mövzunun adını dərhal lövhəyə (dəftərə) yazmaqdır.

2. Müəllimin verdiyi tapşırığa diqqət edin. Tapşırığın məqsədini ayırd etməyə çalışın. Beləliklə, siz dərsin əsas məzmununa köklənə bilərsiniz.

Əgər tapşırıq yoxdursa, özünüz öz qarşınıza dərsin öyrənilən məqsədini qoyun. Dərsin sonunda yoxlayın. Siz qoyduğunuz məqsədə çatdınızmı?

3. Dərsin planına diqqət ayırın. Plan yeni məlumatların tədqiqini nəzərdə tutan bəndlərdən və yarımbəndlərdən ibarət olmalıdır.

4. Əsas materialı ikinci dərəcəli materialdan ayırmağa çalışın. Əsas materiala aiddir: əldə edilən nəticələr, tarixi şəxsiyyətlərin, hadisə və təzahürlərin qiymətləndirməsi; əsas hadisələrin tarixləri, faktlar, anlayışlar, tarixi şəxsiyyətlərin adları, coğrafi adlar.

Bunları bilmədən mövzunu anlamaq mümkün deyil.

Qayda olaraq, müəllim diqqətini dərsin əsas materialına yönəldir: "pauza edir, səs tonu ilə fərqləndirir, şagirdlərdən əsas faktları dəftərə yazmağı, lövhəyə baxmalarını istəyir" və s. Əgər siz bunu özünüz etməyi öyrənsəniz, onda dərsdəki fəaliyyətiniz və ev tapşırığını icra etmək rahat olar.

5. Tədris materialını yaxşı mənimsəmək üçün onun əsas məzmununun qeydlərini aparın. Məsələn: tarixlər, adlar. Qeydləri qısa konspekt və ya plan kimi apara bilərsiniz. Bu diqqətinizi dərsə cəmləməkdə, ev tapşırığınızı icra edən zaman və keçilən materialı daha möhkəm mənimsəməkdə sizə kömək edər.

6. Dərsdə aktiv olmağa çalışın. Sizdən soruşulmasa belə, dərslikdəki bütün suallara düşündürücü, aktivliyə yönəldən, materialı daha yaxşı yadda saxlamağa və anlamağa kömək edən suallara cavab hazırlayın.

7. Əgər materialı başa düşməmisinizsə, müəllimə sual verin.

8. Verilən cavabın təkcə sizə deyil, eləcə də digər sinif yoldaşlarınıza maraqlı olduğunu düşünürsünüzsə, müəllimə, həmçinin mövzu ilə bağlı müəyyən izahlar verən sinif yoldaşınıza sual verin.

### Dərketmə, anlama məsələlərinin həll edilmə yolları

1. Tapşırığın şərti ilə diqqətlə tanış olun. Bilmədiyiniz terminlərin mənasını lüğətin, dərsliyin, məlumat xarakterli vəsaitlərin köməyi ilə aydınlaşdırın.

2. Tapşırığın tələbini onun şərti ilə uzlaşdırın:

a) Tapşırığın həlli üçün şərtin nə istədiyini ayırd edin;

b) Tapşırığın həlli üçün hansı bilgilərin və mənbələrin cəlb olunacağını fikirləşin.

3. Suala verilə biləcək cavabı qeyd edin.

4. Gəldiyiniz qənaəti təsdiq edə biləcək sübut düşünün.

5. Əldə etdiyiniz cavabın düzgünlüyünə əmin olun:

a) Verilən cavab tapşırıqda soruşulanla uyğunluq təşkil edirmi;

b) Əgər tapşırığa bir neçə sual qoyulubsa belə, bu sualların hər birinə cavab verilibmi;

c) Sizin dəlilləriniz arasında təzad yoxdur ki;

d) Hazırladığınız cavabda tapşırığın şərtini özündə əks etdirən məlumatlar yoxdur ki;

e) Gələcəyiniz nəticədən fərqli olaraq, tapşırığın şərtində hər hansı digər qənaətə gəlinməsi mümkündürmü.

6. Sizin fikrinizcə, inandırıcı faktları, dəlilləri, nəticələri özündə əks etdirən son cavab variantınızı formalaşdırın.

### Tarixi şəxsiyyəti təsvir etməyin üsulları

1. Tarixi şəxsiyyətin həyat və fəaliyyətinin dövrünü adlandırın;
2. Kimin və ya nəyin onun şəxsiyyətinə və baxışlarına təsir etdiyinin izahını verin;
3. Tarixi şəxsiyyətin fəaliyyət göstərdiyi tarixi şəraiti göstərin;
4. Onun fəaliyyətinin istiqamət, məqsəd və hədəflərini formalaşdırın;
5. Tarixi şəxsiyyətin hansı yolla məqsədlərinə çatdığını deyin. Onun qoyduğu hədəflərə çatmaq üçün istifadə etdiyi vasitələri qiymətləndirməyə çalışın;
6. Tarixi şəxsiyyətin fəaliyyətinin son nəticələrini göstərin;
7. Sadalanan nəticələrə (ölkə, xalq üçün əhəmiyyətli, sonrakı hadisələrə təsiri və s.) uyğun ümumiləşdirilmiş xarakteristika verin.
8. Bu tarixi şəxsiyyətin fəaliyyətinə öz münasibətinizi bildirin (Siz onun fəaliyyətini təqdir edib dəstəkləyirsiniz və ya alqışlamırsınız. Nə üçün?; Cəmiyyətin inkişafı naminə qiymətləndirmək mümkündürmü?).

### Plan hazırlamağın yolları

Plan mövzunun əsas məsələlərini özündə əks etdirir. Qısa cümlələr (təsdiq və ya sual formasında da ola bilər) formasında hazırlanan plan ayrı-ayrı məsələləri özündə əks etdirir və nömrələnir. Sadə plan bir neçə benddən ibarət olur. Mürəkkəb plan isə əsas bəndlərdən və onların yarımbəndlərindən ibarət olur.

1. Bütün mətni diqqətlə oxuyub, onun məzmunun əhəmiyyətli hissəsini seçin;
2. Mətnin hər əhəmiyyətli hissəsində əsas məzmunu ayırd edin. Əhəmiyyətli hissəyə ad qoyun və planın əsas bəndlərini yazın;
3. Əgər vacibdirsə, mətnin əsas məzmununun əhəmiyyətini açıqlamaq üçün yarımbəndlər əlavə edin;
4. Plan mətnin müvafiq hissəsinə dair, informasiyanı özündə əks etdirən, dəqiq və qısa formada olmalıdır;
5. Bəzən mətndə hadisələr ardıcıl olmur. Eyni məsələ haqqında mətnin müxtəlif hissələrində bəhs edilir. Bunun üçün materialların özünüzə uyğun düzülüş formasını müəyyən edin. Məsələn: xronoloji ardıcıllıqla.
6. Planın bəndləri bir-biri ilə əlaqəli olmalıdır.

### İzahlı şifahi cavabı hazırlamağın üsulları

İzahlı şifahi cavab problemin, məsələnin əhatəli açıqlanmasının verildiyi çıxışdır. Bu, giriş, əsas hissə və nəticədən ibarət olmalıdır.

1. Mürəkkəb plan hazırlamaqla izahlı şifahi cavab hazırlayın;
2. Cavab mütləq verilən mövzuya (qoyulan suala) uyğun olmalıdır;
3. Girişdə mövzunun adını demək və bir-iki cümlə ilə qısa izah vermək vacibdir. Bu, sualın verilmə şəraiti, səbəbi, informasiya mənbəyinin təsviri, hadisənin yeri və tarixinin göstərilməsi, harada baş verməsi, tarixi şəxsiyyətin ümumi qısa təsviri və s. ola bilər;
4. Cavabın əsas hissəsində problemin məğzi açılır, hadisələrin ardıcıllığı formalaşır, bioqrafiya şərh edilir və s.

Sizin cavabınız aşağıdakı formada olmalıdır:

- Məlumat xarakterli: şagird bütün faktları və mövzunun bütün məsələlərini sadalamalı:
- Məntiqi xarakterli: şagird qurulmuş plana ciddi əməl etməli;
- Qrammatik xarakterli: şagird nitqində tarixi məfhumlardan istifadə etməli, sözlərdəki vurğuları düzgün qoymalı;

5. Cavab zamanı xəritəyə, əlavə illüstrasiyalara müraciət etməli.

Nəticə hadisə və təzahürün şəxsiyyətin əhəmiyyətinin qiymətləndirməsini əks etdirməlidir. Çıxış üçün sitat, aforizm, ritorik sual, tanınmış şəxslərin (tarixçi, politoloq, yazıçı və s.) fikirləri və ya sizin məsələyə şəxsi münasibətinizi əks etdirən fikir formasında effektiv nəticə seçmək olar.

### Layihənin təqdimatı zamanı necə çıxış etməli?

1. Əgər auditoriya qarşısında çıxış edirsinizsə, özünüzü təqdim edin və mövzunu aydın deyin;
2. Çıxışınızın mətninə deyil, sizi dinləyənlərə baxaraq sərbəst danışmağa çalışın;
3. Çıxışınızı böyük vərəqlərdənsə, kiçik kağızlara yazın. Burada da sizin hazırladığınız çıxış planı, əsas adlar, tarixlər, yerlər, ifadələr, planın hər bəndinin açılışı, göstərilən slaydlar – illüstrasiyalar əksini tapmalıdır.
4. Reqlamentə riayət edin.
5. Çıxışın sonunda nəticə çıxarmağı unutmayın.
6. Əlavə suallara cavab verməyə hazır olun.

### Layihəni hazırlamağın yolları

1. Tapşırığın tələbinin mənasını ayırd edin;
2. Tapşırığı icra etmək üçün hansı bacarıqların lazım olacağını düşünün;
3. Tapşırığın icra planını hazırlayın. Hansı suallara cavab verilməsinin vacibliyini müəyyənləşdirin;
4. Tapşırığı yerinə yetirmək üçün hansı yolla lazımi informasiyanın əldə ediləcəyini müəyyənləşdirin (hansı mənbələrə müraciət edilməli);
5. Əgər tapşırıq qrup şəklində yerinə yetirilirsə, onun üzvləri arasında vəzifə bölgüsü aparın;

6. Tapşırığın icra müddətini təyin edin (mərhələli şəkildə);

7. Nəzərdə tutduğunuz planı müəllimlə və ya qrupunuzda müzakirə edin. Lazım gəldiyi halda onlara düzəlişlər edin;

8. Planınızı həyata keçirin;

9. Tapşırığın tam yerinə yetirildiyinə əmin olun:

a) Tarixi informasiyanın kifayət qədər yığılıb-yığılmamasını, sizin müraciət ediyiniz mənbələrin inandırıcı olub-olmamasını qiymətləndirin;

b) Yığılmış informasiyanı təhlil edin və onu ümumiləşdirin;

c) Gəldiyiniz qənaətin nə dərəcədə inandırıcı olduğunu yoxlayın;

d) Tapşırığın icrası zamanı müəllimin şifahi, yazılı və ya nəzəri göstərişlərinə uyğun olaraq əlavə sualları dəqiqləşdirin;

10. Fəaliyyətinizin nəticələrini təqdimat formasında hazırlayın;

11. Hazırladığınız çıxışı məşq edin;

12. Hazırladığınız tapşırığın təqdimatını edin;

13. Əməyinizin necə qiymətləndiriləcəyini fikirləşin. Tapşırığın icrası zamanı nəyin düzəldilməsinin və ya dəyişdirilməsinin mümkünlüyünü fikirləşin.

## Tarixi mövzuda təqdimat hazırlamağın üsulları

Görülən işin uğurlu olması məlumatın təqdimat (layihə) formasında nə qədər tam və dolğun formada təqdim edilməsindən asılıdır.

### I. Çıxışın planlaşdırılması

Sinif yoldaşlarının (dinləyicilərin) anlayıb mənimsəyəcəyi məlumat xarakterli materialları seçin. Bu material hadisənin səbəb, nəticə, xüsusiyyət və ya əhəmiyyəti haqqında ola bilər:

- əsas hadisənin tarixi;
- tarixi-coğrafi məkan;
- tarixi şəxsiyyətlərin adları;
- nəzərdən keçirilən sənədlərin əsas vəziyyəti və s.

Təqdimat üçün, ilk növbədə, şifahi anlaşılması çətin olan material seçin. Slaydda əks etdirməsi mümkün olan məlumatın hər hissəsinin əhəmiyyətli fikrini dəqiq və qısa ifadə ilə ayırd edin. Təqdimatın seçilmiş hissəsində hansının illüstrasiyaya ehtiyacı olduğunu ayırd edin. Bu, tarixi şəxslərin şəkilləri, bərpa edilmiş şəkillər, fotolar, məlumatda haqqında bəhs edilən hadisələr ola bilər. Təqdimat, ilk növbədə, sxem, cədvəl, xəritə, şəkil və s. kimi sözlə izah etməsi mümkünsüz olan illüstrativ materialı özündə əks etdirməlidir.

### II. Təqdimatın strukturunu yaratmaq

1. Təqdimatın şablonunu seçin. Yadda saxlayın:

- Təqdimatı formalaşdıran zaman bir rəng və çalardan artıq istifadə etməyin.
- Mətn mütləq ağ fonda tünd rənglərlə verilməlidir.
- Mətn dinləyənlər tərəfindən yaxşı görülməlidir. Şriftin həcmi 20-dən çox olmalıdır.
- İllüstrasiyanın keyfiyyəti yaxşı olub, dinləyicilər tərəfindən yaxşı görülməlidir.
- Təqdimatın forması sadə olmalıdır.

2. Məlumatlarınızın ardıcıllığını düzün.

3. Slaydlardakı materialların ardıcıllığını müəyyənləşdirin.

4. Slaydların sayını müəyyənləşdirin.

5. Çıxışın mətnini və illüstrasiyaları slaydlara gətirin. Yadda saxlayın:

• Təqdimatın slaydı mətnin həcmindən asılı olaraq ekranda 30 saniyədən az, 2 dəqiqədən çox qalmamalıdır. Buna görə də slaydı mətnlə çox yükləmək olmaz.

• Dinləyənlərin eyni zamanda üç faktdan, nəticədən və ya qənaətdən çox yadda saxlaya bilmədiklərini nəzərə alaraq, məlumatın əsas bəndlərini (səbəb-nəticə əlaqələrini, vəziyyəti, islahat və ya sülh müqavilələrini) animasiyalı slayd formasında ardıcıllıqla, tək-tək əks etdirmək.

**III. Məzmunun və ya məntiqi ötürmənin yoxlanılması**

1. Məlumatın əsas müddəalarının slaydlarda əks olunduğunu yoxlamaq;

2. Slaydlarda əks olunan müddəaların ardıcıllığını yoxlamaq.

• Unutmayın ki, təqdimat sizin məlumatverici mətninizlə eyni zamanda getməlidir. Sizin nitqiniz təqdimatda əksini tapan illüstrasiyaları izah etməlidir.

Sinif yoldaşlarının çıxışını (layihə və ya təqdimatı) necə qiymətləndirməli.

1. Çıxışın məzmununu yada salmaq:
• Mövzu açıqlanıbmı;
• Çıxış struktura uyğundurmu (çıxış planınıza uyğundurmu);
• Məlumat üçün seçilən material nə qədər keyfiyyətli seçilib;
• Nəticə çıxarılıbmı;
• Çıxış edən əlavə suallara cavab verə bildimi;
• Təqdim edilən material nə dərəcədə maraqlı idi.

2. Təqdim edilən illüstrasiyaları təhlil edin:
• İşin bütün məzmunu illüstrasiyalaşdırılmışdırmı;
• Onlar izləyicilər tərəfindən yaxşı görülürdümü;
• Çıxış zamanı illüstrasiyalardan istifadə edildimi;
• Təqdimat nə dərəcədə mükəmməl hazırlanmışdı.

3. Təqdimatın edilmə tərzinə fikir verin:
• Təqdim edən sərbəst çıxış edirdi və ya oxuyurdu.
• Çıxış savadlı idimi (terminlərin səsləndirilməsi, vurğuların düzgünlüyü);
• Təqdimat zamanı lazımi illüstrasiyalar vaxtındamı görülürdü;
• Reqlamentə riayət olundumu.

4. Ümumiləşdirən zaman təqdimatın nə dərəcədə yararlı və maraqlı olduğuna dair nəticə çıxarın.

Təqdimatın təhlili zamanı əvvəlcə işin müsbət tərəflərini bildirmək, sonra isə çatışmazlıqları nəzərə çatdırmaq lazımdır. Təqdimatın müsbət və mənfi tərəflərini ayırd edəndə emosional qiymətləndirmədən qaçın. Təqdimat edənlərin təqdimatına görə təşəkkür etməyinizi də unutmayın.

### Təlim prosesində oxunun rolu

Şagirdlərin oxu bacarıqlarını necə yüksəltmək olar?

Məlumdur ki, bunun yolu şagirdləri ardıcıl şəkildə oxu ilə məşğul edib məktəbin digər fəaliyyətlərindən təcrid saxlamaqda deyil. Nə də şagirdləri kitabxanaya göndərməklə buna nail olmaq mümkün olmur. Müəllimlər bir məsələni qəbul etməlidir ki, şagirdlərə oxumağı öyrətmək yalnız Azərbaycan dilli müəllimlərinin vəzifəsi hesab edilə bilməz. Hər bir fənn müəllimi öz fənni üzrə mətnlərin oxu texnikasını şagirdlərə mənimsətməli və onları inandırmalıdır ki, strategiyalı oxu yalnız fənnin daha yaxşı təliminə xidmət göstərməyəcək, həm də yaşadıqları bu mürəkkəb həyatda uğura nail olmasını təmin edəcək.

Təlimi oxudan kənarda təsəvvür etmək qeyri-mümkündür. Odur ki müvafiq strategiyalardan, metod və üsullardan istifadə etmək, mətnin oxusunun düzgün təşkilinə nail olmaqla şagird fəaliyyətinin məhsuldarlığının artırılmasına və oxu üzrə təlim nəticələrinin yüksəldilməsinə geniş imkanlar yaratmaq lazımdır. Şagirdlərin strategiyalı oxusunu anlayaraq, dərk edərək təşkil edilmiş oxuya cəlb olunmasıdır.

Strategiyalı oxu ilə bağlı müxtəlif yanaşmalar mövcuddur. Bəzi mütəxəssislər hesab edirlər ki, strategiyalı oxu  düşünərək oxudur. Bəziləri isə strategiyalı oxunun şagirdə daha məharətlə düşünməyi öyrətdiyini güman edirlər. Üçüncülər isə hesab edirlər ki, strategiyalı oxu təhsilin məqsədidir, yəni oxu təlimə, tətbiqə və təhlilə aparan əsas yoldur. Bununla oxucu çevik düşünmək, sual vermək, keçmiş biliklərə əsaslanan yeni biliklər əldə etmək, fikir mübadiləsinə nail olmaq, nəticədə fikri dəqiq müəyyənləşdirmək və onlardan həyati problemlərin həllində bəhrələnmək kimi bacarıqlara yiyələnir. Bütün bunlardan çıxış edərək mütəxəssislər strategiyalı oxunu üç mərhələdə təsnif etmişlər:

• Strategiyalı oxu şagirdlərin öz oxu fəaliyyətini təşkil və idarə etməsidir. Yəni onlar oxu üçün təqdim olunan mətnin mənasını dərk etməyi problem, mətnin oxusunu isə problemi həlletmə forması kimi dəyərləndirir, məqsədə nail olmaq üçün fəaliyyətini düşünülmüş şəkildə təşkil edir. Oxuya strategiyalı yanaşma ona xidmət edir ki, şagirdlər gözlənilən nəticəni mətnin oxusuna başlamazdan əvvəl aydın təsəvvür etsinlər. Onlar dəqiq bilirlər:

*– Hansı suallar cavablandırılmalıdır?*
*– Hansı plana əsasən oxu təşkil edilməlidir?*
*– Bu barədə artıq nələri bilirlər?*
*– Uğura nail olmaq üçün nələr etmək lazımdır?*

• Strategiyalı oxu şagirdlərə müstəqil olaraq öz oxu nəticəsini yoxlama imkanı verir. Şagirdlər oxu zamanı gəldiyi qənaətlər barədə düşünürlər. Bu onların mühüm idraki bacarıqları: əsas məsələnin aşkar olunması, oxudan əvvəl mövcud biliklərlə əlaqələndirilməsi, digər mətn materialları ilə müqayisə aparılması, mətnin ssenarisinə uyğun xəyalla-

rın qurulması və s. inkişaf etdirir. Bu, təfəkkürün inkişafının yüksək mərhələsi olaraq təxəyyülə atılan ilk addım kimi dəyərləndirilə bilər. Bu zaman şagirdlər yalnız mətndəki mənanı dərk etmir, həm də mənanın dərk edilməsi prosesini şüurlu şəkildə dərk edirlər.

• Strategiyalı oxu materiallar əsasında oxunun təşkili, idarə edilməsi və nəticənin qiymətləndirilməsi mərhələsindən sonra məzmundan əldə edilən qənaətlərin müxtəlif həyati problem və tapşırıqların həllində istifadə edilməsində və şagirdin dünyagörüşünün zənginləşdirilməsinə xidmət edən vasitə kimi dəyərləndirilə bilər.

Yuxarıda göstərilənlər belə nəticəyə gəlməyə əsas verir ki, strategiyalı oxu "oxu qaydaları"nın praktik tətbiqi ilə düşünmə mühitinin yaradılması deməkdir.

**Şagirdyönümlü sinfin yaradılması.** Təhsildə şagirdyönümlülük strategiyalı oxuların inkşafında xüsusilə əhəmiyyətli məsələdir. Strategiyalı oxunun inkişafı o deməkdir ki, şagirdlər zehinlərindən ilkin düşüncələrini təlimlə əlaqələndirməyi öyrənməlidirlər.

Hər fənn üzrə oxunun özünəməxsus cəhətləri olduğundan şagirdlərə öncə fənlər üzrə materialları oxumağın yolları mənimsədilməlidir. Müəllimlər uşaqlara, sadəcə, "Kitablarınızı açın və mətni oxuyun!" deməməli, onları oxudan əvvəl, oxu zamanı və oxudan sonra mühüm təlim strategiyalarının tətbiqinə istiqamətləndirməlidir.

Şagirdyönümlü sinifdə təlimin səmərəliliyinə nail olunmasında öyrənənlərin mətnlə, başqa şagirdlərlə, müəllimlə qarşılıqlı fəaliyyəti böyük əhəmiyyət daşıyır. Təlimin təşkilində müəllimin vəzifəsi yeni prizmadan təqdim edilir. Müəllim şagirdin əvəzinə mətnin məzmununu başa düşə bilməz. Şagird bunu özü etməlidir. Tədqiqatlar göstərir ki, şagirdyönümlü sinifdə müəllim mühüm səkkiz prinsipə əsaslanmaqla təlimi təşkil edirsə, bu zaman təlim üçün məsuliyyəti şagirdlərin öz üzərinə götürməsinə şərait yaratmış və onları mühüm vəsaitlərlə təmin etmiş olur.

Tədqiqatçılar strategiyalı oxunun səkkiz prinsipini müəyyənləşdirmişlər. Belə ki strategiyalı öyrənən:

*1) idraki və yüksək idraki bacarıqları əlaqələndirir;*
*2) məqsədləri müəyyənləşdirir və inkişaf haqqında düşünür;*
*3) yeni məlumatları mövcud bilikləri ilə əlaqələndirir;*
*4) mətnin mənasının dərk edilməsində fəal iştirak edir;*
*5) təşkilati işarələrdən istifadə edir;*
*6) fərdi oxu üslubunu faydalı hesab edir;*
*7) təlim zamanı başqaları ilə əməkdaşlıq edir;*
*8) düşünmənin üç mərhələsinə cəlb edilir.*

**1. Strategiyalı oxucu idraki (koqnitiv) və yüksək idraki (metokoqnitiv) bacarıqları əlaqələndirir.**

Yüksək idraki bacarıqlara malik olan şəxs bu bacarıqları nəzarətdə saxlayır. Strategiyalı oxucu avtomatik olaraq təlimdən əvvəl, təlim zamanı və təlimdən sonra baş verən idraki bacarıqları bir-biri ilə əlaqələndirir. Şagird əvvəl mövcud bilikləri üzərində düşünür, sonra bilik və bacarıqlarını genişləndirir. Strategiyalı öyrənən təlim zamanı problemi görür və strategiyalardan istifadə edərək onları aradan qaldırır.

Strategiyalı oxucu oxu zamanı strategiyalardan düşünərək istifadə edir. Mətnin hər hansı hissəsini dərk edə bilməyən şagird bələd olduğu oxu strategiyalarını tətbiq edərək həmin hissənin mənimsənilməsinə nail olur. Məsələn; "Ucadan düşünmək" strategiyası mürəkkəb mətnlərin məzmununun dərk olunması üçün çox faydalıdır. Şagirdlərin "Oxudan əvvəl mülahizələr yürütdüm", "Oxu zamanı özümə suallar verdim", "Mətnin hissələri arasında əlaqələr yaratdım" kimi fikirləri onların öz yüksək idraki bacarıqlarından istifadə etdiyini göstərir. Ümumiləşdirmək, sual vermək, mətndən nəticə çıxarmaq və yekunlaşdırmaq kimi bacarıqlar metokoqnitiv bacarıqlardır. Şagirdlər metokoqnitiv bacarıqları nə qədər çox istifadə edirlərsə, o qədər tez təlim materiallarını mənimsəyirlər.

**2. Strategiyalı oxucu məqsədləri müəyyənləşdirir və inkişaf haqqında düşünür.**

Strategiyalı öyrədənlər məqsədlərini müəyyənləşdirməyi bacarırlar və öz təlimlərini idarə edirlər. Onlar bilirlər ki, məqsədini müəyyənləşdirən öyrənənlər həyatda daha çox müvəffəqiyyət qazananlardır. Məqsədlərini dəqiq müəyyənləşdirən insanın həmin tapşırığı yerinə yetirmək ehtimalı yüksəkdir, yəni məqsədlər nə qədər dəqiq olarsa, tapşırıqların da keyfiyyəti o qədər yüksək alınar.

Məqsədin müəyyənləşməsində seçmək bacarığı mühüm amildir. Şagirdlər əsas fikrin nəyə yönəldilməli olduğunu dəqiq biləndə tapşırıqların icrasını daha maraqla və ruh yüksəkliyi ilə həyata keçirir, sərf olunan səyləri ilə nəticələr arasında əlaqəni görürlər. Strategiyalı öyrənənlər ardıcıl şəkildə öz inkişafları üzərində işləyəndə, lazım gəldikdə müvafiq düzəlişlər apardıqda məqsədə o zaman nail olurlar.

Strategiyalı oxucular məqsədi müəyyənləşdirdikdən sonra oxu fəaliyyətinə başlayır, nəyin və necə oxunmasının səmərəli olduğunu müəyyən edirlər. Bu zaman BİBÖ və digər məqsədləri müəyyənləşdirmə strategiyaları intensiv şəkildə istifadə edilir. Kollektiv sinif əməkdaşlıq şəraitində oxuya şərait yaradır. Şagirdlər təlim qrupunun üzvü olduqda onların təlim prosesində iştitrakı daha da fəallaşır.

**3. Strategiyalı oxucu yeni məlumatları mövcud biliklərlə əlaqələndirir.**

İstənilən yeni təlim ilkin biliklərə əsaslanır. İlkin biliklər öyrənənin mövzu baxımından bildiyi və tətbiq etdiyi bütün məsələlərlə əlaqələndirilir.

Strategiyalı oxucular avtomatik olaraq mövcud biliklərini oxu materialı ilə bağlayırlar. Onlar bilirlər ki, oxunun əsasını hansı ilkin təcrübələr təşkil edir. Bilmək oxunun məqsədi olub, oxu müddətində diqqəti istiqamətləndirir. İlkin bilikləri qiymətləndirmək oxucunun

diqqətinin ən mühüm məsələlərə yönəldilməsində mühüm rol oynayır. İlkin biliklərin oxunan mətnin başa düşülməsində böyük rolu olduğundan şagirdlər mövcud biliklərini qiymətləndirməyin yollarına da bələd olmalıdırlar. Bunun üçün bir çox strategiyalar mövcuddur. Bunlardan "Anlayışları müəyyənləşdirmək üçün xəritə tərtib etmək" strategiyası diqqəti cəlb edir. Bu strategiya yeni sözlərin mənasını öyrənməkdə çox əhəmiyyətlidir.

Məsələn;




Əgər oxucu öz ehtiyacına cavab verən strategiyanı düzgün seçib tətbiq edirsə, deməli, o, strategiyalı oxucudur.

### 4. Strategiyalı oxucu mətnin mənasının dərk edilməsində fəal iştirak edir.

Məna müəllimin yazılı izahı və ya mətn kimi başa düşülməməlidir. Məna dinlənilən və ya oxunulan məlumatlarla qarşılıqlı fəaliyyət əsasında yaranır. Mənalı olmayan məlumat tezliklə unudulur. Ən son toplantılarınızı yadınıza salın. Orada siz çox insanlar gördünüz. Lakin onların hamısı yadınızda deyil. Yadınızda qalanlar hər hansı qarşılıqlı fəaliyyətdə olduğunuz insanlardır.

Mənanı dərk etməyə yönəldən nədir? Şagird təlim materialının öyrənilməsində maraqlı olanda və ya hər hansı məlumatı almağa ehtiyac duyanda mənanı dərk edir. Oxucu mənanı dərk etmək üçün məzmunu əlaqələndirməli, nəticə çıxarmalı və məzmunla bağlı şərhlər verməlidir. Strategiyalı oxucular bilirlər ki, suallar tərtib etmək, məsələ haqqında digərləri ilə söhbət etmək və düşündürücü yazılar yazmaq mənanı dərk etməyin yollarıdır. Oxu mətn vasitəsilə düşünmək deməkdir. Oxucu mətnlə qarşılıqlı fəaliyyət nəticəsində mənanı dərk edir. Bu, əlbəttə ki, yazılmış işarələrin üzərinə göz gəzdirmək deyil. Hər bir oxucu oxuduğu materialdan anladığı mənanı müəllifin yazdığı və ya nəzərdə tutduğu məna ilə müqayisə edir. Bu zaman mənanın dərk edilməsi üçün ilkin biliklər cəlb olunur və müvafiq strategiyalardan istifadə edilir. Strategiyalı oxucu intensiv olaraq bacarıq və strategiyaların köməyi ilə mənanı başa düşür. Məsələn, strategiyalı oxucu oxudan əvvəl bütün ilkin biliklərini səfərbər edir. Məlumatlarla rastlaşdıqca bu haqda fikirlərini başqaları ilə müzakirəyə çıxarır. Aydın olmayan və sual doğuran fikirlərlə bağlı kitaba bənd etdikləri vərəqlərdə qeydlər aparır.

**5. Strategiyalı oxucu mətnin təşkili quruluşundan istifadə edir.**

Strategiyalı oxucu bilir ki, düşünmək və öyrənmək üçün məlumatların təşkil edilməsi mühüm şərtdir. O, təşkilati quruluşdan istifadə edərək fikirlərini həm konsepsiyalar, həm də yazılmış mətn şəklində formalaşdırmağın yollarını öyrənir. Məsələn, strategiyalı oxucu, Venn diaqramında verildiyi kimi, oxşarlıqları və fərqləri müəyyən edə bilər.

Şagirdlərə quruluşdan, strukturdan düzgün istifadənin yolları öyrədiləndə məlumatların yaddaşda mühafizəsinin təşkilinin keyfiyyəti də yüksəlir. Müəllim müxtəlif təşkilati işarələrdən düzgün istifadə etməyi nümunələr əsasında ardıcıl olaraq göstərəndə şagirdlər onu məqsədyönlü düşünmək, məlumatları qiymətləndirmək, yadda saxlamaq, fərqli şəraitlərdə istifadə etmək sistemi kimi qavrayırlar.

Oxu zamanı mətnin quruluşunu müəyyən etmək çox faydalıdır. Məlumatlandırıcı və hekayə xarakterli mətnlərin quruluşu fərqli olduğu kimi, bu, fərqli düşünmə tərzi də tələb edir. Hekayə xarakterli mətnlərin oxucusu hekayənin başlanğıc, əsas hissə və nəticəsi kimi elementləri ilə bağlı məlumatlar alır. Məlumatlandırıcı mətn isə əsasən:

- səbəb
- müqayisə etmək
- anlamaq
- məqsəd
- problem
- sübut etmək
- ardıcıllıq tələb edir.

Hər təşkilati strukturun unikal xüsusiyyəti var və düşünməni də fərqli yollarla təşkil edir. Bu strukturlarla tanışlıq yeni anlayışların öyrənilməsini maksimum dərəcədə yüksəldir. Bəzən mətnlər struktur baxımından zəif və qeyri-mütəşəkkil olduğundan oxucuların onu anlaması çətinləşir. Belə mətnlərin oxusu və dərk edilməsi üçün şagirdlər həmin materialların təşkili strukturunu müəyyən etməyin və məzmunu aydınlaşdırmağın yollarını bilməlidirlər. Strategiyalardan istifadə etməklə oxucular hətta ən zəif təşkil olunmuş mətnin strukturunu belə müəyyənləşdirə bilirlər.

**6. Strategiyalı oxucu fərdi oxu üslubunu faydalı hesab edir.**

Öyrənmə arzusu və bacarığı daim insanları düşündürən xüsusiyyətlərdir. Lakin oxucuların öyrənmə üslubları fərqlidir. Bəzi şagirdlər mənzərəni dəqiqliklə təsəvvür edərək məsələni bütövlükdə, digərləri isə problemi kiçik hissələrə ayıraraq dərk edirlər.

Hovard Qardner tədrisin təşkilində dərketmənin müxtəlif növlərini əhəmiyyətli hesab edir. O inanır ki, hər bir şagird müəyyən qabiliyyətlərə malikdir və müəllim həmin qabiliyyəti aşkarlayaraq təlimi müvafiq şəkildə təşkil etməlidir. Bəzi şagirdlər tətqiqatların nəticələri haqqında yazmağa, digərləri isə şifahi təqdimatlar etməyə üstünlük verirlər. Eləlləri də var ki,  problemlə bağlı şeir yazmağı, mahnı qoşmağı və ya film çəkməyi xoşlayırlar. Təlim zamanı dərketmənin bütün imkanlarının nəzərə alınması öyrənənlərin müvəffəqiyyəti ilə nəticələnir. İnsanlar müxtəlif olduğu kimi, onların öyrənmə tərzləri, öyrənmənin təşkili və bilikləri nümayiş etdirmə yolları da fərqlidir.

Hər kəs bu haqda düşünə bilər: “Mən necə oxucuyam?”, “Mən hansı şəraitdə oxumağı sevirəm?”, “Mən hansı vərdişlərə sahibəm?” “Siz söz, fikir və obrazlar haqqında götür-qoy edərək oxuyursunuz, ya oxuduğunuzu bir film kimi təsəvvür edirsiniz?”, “Bəlkə də, sürətlə oxuyursunuz, fikirləri çevik müəyyənləşdirərək irəliləyirsiniz?”

Kinestetik oxucular aramla və mətni emosional şəkildə əlaqələndirməklə oxuyurlar. Onlar oxu zamanı bədənlərini hərəkətə gətirir və barmaqları ilə izləməyi xoşlayırlar. Sətiraltı əsas fikirlərə böyük əhəmiyyət vermək və yapışqanlı qeyd vərəqlərindən istifadə etmək kinestik oxucuların əsas göstəricisidir.

Vizual intellekti yüksək olan oxucular oxuduqlarını film kimi yadda saxlayırlar və ya mövcud biliklərindən istifadə edərkən xəyallarındakı filmləri sözlərlə ifadə edirlər. Bu oxucular oxuduqlarını sxem və ya qrafiklər şəklində də yaddaşlarında mühafizə edirlər.

Dinləmə intellekti yüksək olan oxucular, əsasən, sürətli oxucular kimi səciyyələnirlər və materialları ucadan təkrar-təkrar oxumağı sevirlər. Onlar məlumatları tez fəhm edir və suallara çevik cavab verirlər.

Bütün bunlar yalnız şagirdlərin öyrənmə üslubu haqqında məlumatlı olması deyil, həm də oxu zamanı onlara köməyin təşkil edilməsi üçün yararlıdır. Müxtəlif oxu üslublarının modelləşdirilməsi, şagirdlərə oxu zamanı boyalardan istifadə etmək şəraitinin yaradılması strategiyalı oxucuların formalaşması istiqamətində görülən mühüm işlərdir. Boyalardan istifadə etməyin yolunu, qrafiklər hazırlamağı, təlim materiallarını ucadan oxumağı şagirdlərə öyrətmək onların oxu bacarıqlarını yüksəldir. Mürəkkəb mətnlərin oxusu zamanı anlamaq məqsədinə nail olmaq üçün müxtəlif strategiyalardan istifadə etməklə şagirdlər daha da təkmilləşirlər.

### 7. Strategiyalı oxucu öyrənmək üçün başqaları ilə əməkdaşlıq edir.

Təlim ictimai baxımdan fəaliyyətdir və şagirdlər öyrənmək məqsədilə bir-biri ilə qarşılıqlı fəaliyyətdə olmağa ehtiyac duyurlar. Qrup fəaliyyətləri təlimin təşkilində böyük əhəmiyyət daşıyır. Həyatda da insanların birlikdə fəaliyyət göstərməsinə tez-tez ehtiyac duyulur. Birlikdə çalışan şagirdlər bu cür fəaliyyətdən necə faydalanırlar:

- Mövzu ilə bağlı düşünməyin müxtəlif yollarını aşkar edirlər;
- Mürəkkəb tapşırıqların yerinə yetirilməsində bir-birinə kömək göstərirlər;
- Başqa şagirdləri hörmətlə dinləməyi öyrənir və eşitdikləri fikirlərdən yararlanırlar;
- Qarşılıqlı şəkildə faydalanmağın yollarını aşkar edirlər;
- Məsələ ilə bağlı rəylərini dəlillərlə müdafiə, eləcə də müxtəlif baxışları təsdiq etməyi öyrənirlər.

Əməkdaşlıq təlimini əhatə edən siniflərdə şagirdlər öyrənən icmaların üzvünə çevrilirlər. Bir yerdə işləyərkən onlar bir-birinin istedadına hörmətlə yanaşmağı və qarşılıqlı şəkildə bəhrələnməyi mənimsəyirlər. Strategiyalı öyrənənlər mətnin kəsb etdiyi məzmunu fərdi və qrup şəklində müəyyənləşdirirlər. Onlar bir-biri ilə əməkdaşlıq edərkən müəllifin ismarıclarını anlamaq və ya dünyagörüşlərinin formalaşmasına nail olmaq məqsədi daşıyırlar.

Şagirdlərə qruplarda təlimi öyrətmək çox əhəmiyyətlidir. Onlar bir-birlərinin təlimi üçün böyük məsuliyyət daşımağa başlayırlar. Çünki hər hansı bir məsələni kiməsə öyrədəndən sonra o, insanın özünə daha aydın olur. Strategiyaya əsasən şagirdlərdən biri

ucadan oxuyur, digəri isə onu dinləyir və oxunanları ümumiləşdirir. Mətnin oxusu başa çatdıqdan sonra cütlər vəzifələrini dəyişirlər. Digər “Kitab müzakirələri” strategiyalarına əsasən isə şagirdlər qruplarda oxuduqları kiçik və ya böyük mətnləri, eləcə də kitabları həll edirlər. Müzakirə zamanı onlar məzmunu daha yaxşı anlayır, biliklərini digər şagirdlərin bilikləri ilə müqayisə edir, qiymətləndirirlər.

### 8. Strategiyalı oxu şagirdi hər üç mərhələsinə cəlb edir.

Uğurlu təlim düşünmənin üç mərhələsində baş verir: təlimdən əvvəl, təlim prosesi zamanı və təlimdən sonra.

• I mərhələ – “Planlaşdırma mərhələsi” beyni təlimə hazırlayır.

• II mərhələ – “Qarşılıqlı fəaliyyət mərhələsi” təlim zamanı düşünərək yadda saxlamağı təmin edir.

• III mərhələ – “Düşünmə mərhələsi” təlimdən sonra inteqrasiya edir, əlaqələndirir və fikirləri tətbiq edir.

Planlaşdırma mərhələsi təlimin ilk addımı olduğundan ən məsuliyyətli mərhələdir. Öyrənən tapşırığı təhlil edib təlimin daha səmərəli təşkili üçün planlaşma aparır. İlkin hazırlıq nə qədər keyfiyyətli olarsa, şagirdin uğuru da o qədər yüksək alınar.

“Təlim prosesi” mərhələsi şagirdlərin düşünməsini və təliminin nəticələrinin qiymətləndirməsini təmin edən metokoqnitiv (yüksək idraki) strategiyaların tətbiqini tələb edir. Şagird təlim zamanı düşünməsini təmin edən qrafiklər tərtib edir və ya icmal hazırlayır. Bu vaxt müəllim nümayiş etdirilən filmi, aparılan təcrübəni saxlamaqla şagirdlərin diqqətini xüsusi məqamlara yönəldə bilər. İnformasiyalardan birini və ən mühümünü vurğulamaq üçün təlim prosesində şagirdləri saxlamaq, yoxlamaq, bilikləri möhkəmləndirmək və ümumiləşdirmək çox əhəmiyyətlidir.

“Təlimdən sonra” mərhələsində tətbiq edilən strategiyalar təlimdən sonra şagirdin düşünməsinin təşkilinə yönəldilir. Bu mərhələdə nail olunan nəticələrin təhlil və müqayisəsi, məsələ ilə bağlı şagirdlərin daha əhatəli düşünməsi, qənaətlərin ümumiləşdirilməsi əsas məqsəd kimi dəyərləndirilir.

Strategiyalı oxucular təlimin bu üç mərhələsi ilə yalnız tanış olmur, həm də onları oxu zamanı tətbiq edirlər. Onlar bilməlidirlər ki, oxu materialı oxudan əvvəl lazimi fəaliyyətlər yerinə yetiriləndə daha yaxşı dərk edilir. Təlim o zaman başlayır ki, oxucu məqsədi müəyyənləşdirsin, ilkin biliklərini təşkil etsin və təlimlə bağlı proqnozlaşdırma aparsın.

Strategiyalı oxucular bilirlər ki, oxunun interaktiv mərhələsi şagirdlərin oxu materialı ilə bağlı fikirlərinin yoxlanması və nizamlanması deməkdir və bu, dərketmənin yüksəldilməsinə xidmət edir. Əgər hər hansı parça anlaşıqlı deyilsə, şagirdlər oxunu saxlayır, həmin hissəni yenidən, aramla və ya ucadan oxuyur, kənarda sadə qələmlə qeydlər edirlər.

Şagirdləri oxuduqları materiallarla bağlı suallar verməyə istiqamətləndirmək təlim prosesinin nizamlanmasında onlara kömək edir. Oxu zamanı yeni öyrənilmiş məsələləri artıq bilinən və ya proqnozlaşdırılan məsələlərlə müqayisə etmək imkanları yaranır. Strategiyalı oxucu təlim prosesinin əngəlləndiyi məqamı hiss edir və problemi aradan qaldırmağın yollarını bilir.

Con Dyui demişdir: “Biz gördüyümüz işlər haqqında düşünən zaman öyrənirik”. Strategiyalı oxucular oxuduqları materiallar üzərində düşünür, məqsədə çatıb-çatmadıqları

haqqında qərarlar qəbul edir, tapşırığı yerinə yetirir, əldə edilmiş yeni bilikləri mövcud biliklərlə əlaqələndirir.

Oxu prosesinin istiqamətləndirilməsi üçün təlimin göstərilən səkkiz prinsipinin düşünülmüş şəkildə əlaqələndirilməsindən şagirdlər əhəmiyyətli dərəcədə faydalana və strategiyalı oxuculara çevrilə bilərlər.

## ŞAGİRD NAİLİYYƏTLƏRİNİN MƏKTƏBDAXİLİ QİYMƏTLƏNDİRİLMƏSİ

Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici şagirdin təlim nailiyyətləridir. Qiymətləndirmə isə onu üzə çıxaran ən etibarlı mənbədir. Qiymətləndirmə təlim nəticələri ilə balanslaşan bir prosesdir. Təlim prosesinin təkmilləşdirilməsi, habelə dövlət təhsil standartlarının monitorinqinin həyata keçirilməsində də qiymətləndirmə bir mexanizm kimi əvəzolunmaz mövqeyə malikdir. Bu sistem hüquqi cəhətdən "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişiklikər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1633 nömrəli Fərmanının 3-cü hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Təhsil Nazirliyinin 28 dekabr 2018-ci il tarixli 8/1 nömrəli Kollegiya Qərarı ilə təsdiq edilmiş "Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (məktəbdaxili qiymətləndirmənin) aparılması Qaydası" ilə tənzimlənir.

Qiymətləndirmənin ən əhəmiyyətli növü məktəbdaxili qiymətləndirmədir. Məktəbdaxili qiymətləndirmə məzmunca öyrənənin biliklərə yiyələnmək, onlardan istifadə etmək, nəticə çıxarmaq bacarıqları haqqında məlumatların toplanması kimi qəbul edilir, şagird irəliləyişlərinin (geriləmələrinin) izlənilməsi (monitorinqi); təlim prosesində qərarların qəbulu; şagirdin təlim nəticələrinin qiymətləndirilməsi; kurikulumun qiymətləndirilməsi məqsədlərinə xidmət edir. Şagird nailiyyətlərinin qiymətləndirilməsi şagirdin biliklərə yiyələnmək, onlardan istifadə etmək, nəticə çıxarmaq bacarıqları haqqında məlumatların toplanması prosesi kimi qəbul edilir.

### Qiymətləndirmənin planlaşdırılması

Qiymətləndirmənin planlaşdırılması müxtəlif amillər üzrə həyata keçirilə bilər. Məsələn:

1. Dərsin təlim nəticələrinə görə (formativ qiymətləndirmə);
2. Sərf olunacaq zamana görə (formativ qiymətləndirmə);
3. Hazırlanan alətin xüsusiyyətinə görə (formativ qiymətləndirmə);
4. Qiymətləndiriləcək şagirdin sayına görə (formativ qiymətləndirmə);
5. Nəticələr qeyd olunmasına görə (formativ qiymətləndirmə) və s.

Məktəbdaxili qiymətləndirməni başlayarkən müəllim, ilk növbədə, onu nə məqsədlə həyata keçirməsini aydınlaşdırmalıdır:

- şagirdin bilik və bacarıqlarının ilkin səviyyəsini müəyyənləşdirmək;
- şagirdlərin təlim ehtiyaclarını öyrənmək;
- şagirdlərin maraq dairəsi, dünyagörüşü, yaşadığı mühit haqqında məlumat toplamaq;

• şagirdin məzmun standartlarından irəli gələn bilik və bacarıqlara nail olması üçün onun fəaliyyətini izləmək və irəliləyişini müəyyən etmək;

• şəraitə görə təlim məqsədləri və strategiyalarında çevik dəyişikliklər aparmaq;

• tədris prosesini düzgün istiqamətləndirmək və səmərəliliyini təmin etmək;

• şagirdin ayrı-ayrı mövzu və bəhslərin mənimsənilməsi ilə bağlı fəaliyyəti barədə məlumat toplamaq;

• şagirdin kurikulum standartlarına nail olmasının səviyyəsini müəyyənləşdirmək;

• təhsilin hər hansı mərhələsində (tədris vahidinin, yarımilin və ilin sonunda) şagirdlərin əldə etdikləri nailiyyətləri qiymətləndirmək.

Məqsədlərin müəyyənləşdirilməsi nəticəsində hansı növ qiymətləndirmə aparılacaq məsələsi üzrə qərarın çıxarılması mümkün olur: diaqnostik, formativ və ya summativ qiymətləndirmə. Sonra tələb olunan qiymətləndirmənin növünü nəzərə alaraq aşağıda təqdim edilən yanaşmada əks olunan məsələlərin planlaşdırılması başlanır.

Məktəbdaxili qiymətləndirmə, əsasən, 3 planlaşdırma məsələsini (aspektləri) özündə cəmləşdirən prosesdir:

**A. Qiymətləndirmənin məzmun aspekti:**

1. Nəyi qiymətləndiririk? (alt standartlar, təlim nəticələri, qiymətləndirmə standartları)
2. Nəyin əsasında? (meyar və göstəricilər)

**B. Qiymətləndirmənin fəaliyyət aspekti:**

1. Hansı tapşırıqlar əsasında? (Blum taksonomiyasını nəzərə alaraq)
2. Hansı alətlərlə (metod/texnikalar və vasitələr) və hansı formada (fərdi, cütlərdə, kiçik qrupda, bütün sinifdə)?
3. Kim tərəfindən? (müəllim, rəhbərlik və ya şagirdlər tərəfindən qiymətləndirmə, şagirdin özünüqiymətləndirməsi daxil olmaqla)

**C. Qiymətləndirmənin təşkili aspekti:**

1. Nə zaman? (məsələn, tədris vahidinin əvvəlində, dərs zamanı, bəhs və ya bölmə, yarımilin sonunda)
2. Nəticələr harada və necə qeyd olunacaq? (şagirdin portfoliosunda (faylda), şagird kitabçasında, dəftərində, sinif jurnalında və s. sözlərlə (rəy), rəqəmlərlə (qiymət, səviyyə)
3. Qiymətləndirmənin nəticələri necə istifadə olunacaq, nəyə təsir edəcək? (hansı müəllim və ya şagird fəaliyyətinin seçilməsinə təsir edəcək, şagirdin hansı nailiyyətinə təsir göstərəcək, kimə çatdırılacaq (şagirdə, valideynə, rəhbərliyə), hansı sənədlərin tərkibində istifadə olunacaq).

Bu aspektlər aşağıdakı bölmələrdə daha ətraflı əks olunacaq və hər bir aspektin təsviri addım-addım bu prosesin gedişatını izah edəcəkdir. Bunu sadələşdirmək üçün müəllimin bu sahədə bacarığını formalaşdırmaq məqsədilə hər bir aspektə müvafiq olan alətlər (çərçivələr) təklif olunacaq. Bu çərçivələr, sadəcə, öyrədici xarakter daşıyır, heç bir rəsmi sənəd status daşımır. Gözlənilir ki, onların əsasında müəllim məktəbdaxili qiymətləndirmə prosesini daha aydın təsvir və həyata keçirmə bacarıqları əldə edərək onu daha səmərəli, obyektiv təşkil edə bilər.

**Qiymətləndirmə prosesinin tətbiq edilməsinin səbəbi:**

- Təlim nəticələrinin standartların mənimsənilməsi səviyyəsini öyrənmək;
- Şagirdlərin təlimə marağını yüksəltmək;
- Şagirdin güclü və zəif cəhətlərini müəyyən etmək;
- Şagird nailiyyətini dəyərləndirmək;
- Şagirdin nəyə nail olduğuna əmin olmaq;
- Şagirdin gələcək uğurlarını maksimallaşdırmaq.

**Qiymətləndirmələrin aparılmasında aşağıdakı prinsiplərə riayət olunur:**

- məqsədəuyğunluq;
- nailiyyətlərin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi;
- toplanılmış məlumatların keyfiyyətcə müvafiqliyinin və etibarlılığının təmin olunması;
- qiymətləndirmədə şəffaflıq, ədalətlilik, qarşılıqlı razılaşma və əməkdaşlıq;
- təlim fəaliyyətində qiymətləndirilmə nəticələrinin inkişafetdirici rolunun təmin olunması.

Prosesin tamlığı üçün şagird nailiyyətlərinin qiymətləndirilməsi biri digərinin mövcudluğunu təmin edən və aparılmasına zəmin yaradan üç növ üzrə həyata keçilir:

- diaqnostik (ilkin səviyyənin qiymətləndirilməsi);
- formativ (irəliləmə və geriləmələrin izlənməsi);
- summativ (yekun).

**Diaqnostik qiymətləndirmə**

Diaqnostik qiymətləndirmə şagirdin bilik və bacarıqlarının ilkin səviyyəsini müəyyənləşdirməklə müəllim üçün məktəblilərin potensial imkanlarını, meyil və maraqlarını nəzərə alan təlim strategiyalarının seçilməsinə xidmət edir. O, öyrədənin təlim strategiyasının müəyyənləşdirməsində əvəzolunmaz rola malikdir. Bir qayda olaraq, təhsil səviyyəsinin, dərs ilinin, tədris vahidlərinin əvvəlində sinifdəki şagirdlərin bilik və bacarıqları, eyni zamanda şagird bir ümumi təhsil müəssisəsindən digərinə köçürüldükdə, yəni sinfi dəyişdikdə və digər zəruri hallarda onun bilik və bacarıqları haqqında məlumat toplamaq, şagirdə fərdi yanaşmanı təmin etmək məqsədilə aparılır. İlkin səviyyənin dəyərləndirilməsi zamanı müəllim aşağıda təqdim olunan konkret məzmunlu suala cavab tapmağı qarşısına məqsəd kimi qoymalıdır:

- Şagirdlər əsas bilik və bacarıqlara müəyyən dərəcədə malikdirlərmi?

İlin əvvəlində həyata keçirilən qiymətləndirmə şagirdə bəxş etdiyi xüsusiyyətlərə görə tamam başqa məzmun kəsb edir. Diaqnostik qiymətləndirmə şagirdlərlə iş zamanı müəllimə pedaqoji fəaliyyətini tənzimləməyə, planlaşdırmağa yardım edir. Prosesin reallaşdırılmasında üsul və vasitələrin seçimi birbaşa müəllimdən asılıdır. Onu da nəzərə almaq lazımdır ki, siniflər üzrə onlardan istifadə eynilik təşkil edə bilməz. Təlimə başlamazdan əvvəl aparılan səviyyə müəyyənetmə ilə ilin davamında yeri gəldikcə aparılan diaqnostik qiymətləndirmə məzmunca fərqlənir. Məhz bu səbəbdən həmin üsul və vasitələrin seçimi müəllimdən xüsusi diqqət və yaradıcılıq tələb edir.

Diaqnostik qiymətləndirmənin nəticələri rəsmi sənədlərdə qeyd olunmur, yalnız müəllimin şəxsi qeyd dəftərində öz əksini tapır, yekunlar barədə valideynlər, sinif rəhbəri və digər fənləri tədris edən müəllimlər məlumatlandırılır. O, formativ və summativ qiymətləndirmələr üçün bazis, zəmin rolunu oynayır.

Düzgün diaqnoz nəticəsində sonrakı fəaliyyətin aspektləri konkret olaraq müəyyənləşir.

## Formativ qiymətləndirmə

Qiymətləndirməyə yeni yanaşmanın əsas mahiyyətini formativ qiymətləndirmə (FQ) təşkil edir və şagirdlərin təlim fəaliyyətini izləmək, qarşıya çıxan problemləri aşkar etməklə aradan qaldırmaq məqsədinə xidmət edir.

Pedaqoji termin olaraq formativ qiymətləndirmə şagirdlərin öyrənmə fəaliyyətinin izlənməsi kimi şərh olunur və onların təlim nəticələrinə, summativ qiymətləndirmədəki nailiyyətlərinə əhəmiyyətli təsir göstərir. Belə ki fənni tədris edən müəllim dərs ili ərzində müntəzəm olaraq şagirdlərin öyrənmə fəaliyyətini meyarlar üzrə izləyir, şagirdin təlim ehtiyaclarını öyrənir, təlim fəaliyyətinə təsir göstərən səbəbləri müəyyənləşdirir, maneələri aradan qaldırmaq, həmçinin fəaliyyəti stimullaşdırmaq üçün tədbirlər görür.

FQ qeyri-formal xarakter daşıyır və onun meyarları fəaliyyətyönümlü olur. Həmçinin formativ qiymətləndirmə üsulları da təlim nəticəsinin deyil, təlim fəaliyyətinin izlənilməsi üçün nəzərdə tutulur. FQ həmçinin şagirdin fəaliyyətində maraqlı tərəfləri təlim zamanı və təlim haqqında məlumatlandırmağa xidmət edir. Həmin məlumatlar müşahidə, özünüqiymətləndirmə, cütlərin və ya qrupların bir-birini qiymətləndirməsi, portfolio və digər bu kimi vasitələrlə toplanılır.

FQ növbəti addımların müəyyənləşdirilməsində müəllimlərin bələdçisidir. Müəllimin bütün müşahidələri vaxtında, düzgün aparmasına baxmayaraq, əgər ondan öz işini qurmaq üçün istifadə etməzsə və zəif şagirdi elə zəif olduğuna görə diqqətdən kənarda saxlayarsa, formativ qiymətləndirmənin aparılmasından söhbət gedə bilməz.

Formativ qiymətləndirmə məlumatları aşağıdakı suallara cavab verməyə kömək edir:

- *Şagird nələri öyrənmişdir?*
- *Daha nələri öyrənməlidir?*
- *İnkişaf üçün hansı addımları atmalıdır?*

FQ müxtəlif vasitələrlə aparılır. Hansı vasitənin istifadə edilməsindən asılı olmayaraq, toplanan məlumatdan istifadə edərək növbəti fəaliyyətləri şagirdlərin ehtiyacına uyğunlaşdırmaq vacibdir. Əks halda bu, formativ qiymətləndirmə deyil.

Formativ rəsmi qiymətləndirmə olmadığından nəticələr məktəbli kitabçasında şagirdin idraki və hərəki fəaliyyətinin səviyyələrinə uyğun sözlərlə ifadə olunur. Heç bir rəqəm və ya simvollardan, “mənimsəyir”, “mənimsəmir”, “bilir”, “bilmir”, “yaxşı”, “orta”, “zəif” və sair bu kimi ifadələrdən istifadə edilmir. Müəllim dərs ilinin yarımillərinin sonunda “Müəllimin FQ dəftəri”ndəki qeydlər əsasında təhsilalanın yarımillik fəaliyyətinin qısa təsvirini hazırlayır və həmin təsvir təhsilalanın ümumi təhsil müəssisəsindəki fərdi qovluğunda saxlanılır.

**Formativ qiymətləndirməni həyata keçirən müəllimin aşağıda qeyd olunanları bilməsi məqsədəuyğundur:**

- Fənn üzrə hər bir dərs müəyyən məzmun standartlarının reallaşdırılmasına xidmət edir.
- Hər dərsdə müəllim təlim prosesini şagirdlərin məzmun standartlarının tələblərinə uyğun bilik və bacarıqlara yiyələnməsinə yönəltməlidir.
- Şagirdlər fəaliyyətlərində potensial imkanları daxilində həmin bacarıqlara yiyələnmənin müxtəlif səviyyələrini nümayiş etdirə bilərlər.
- Müəllim əvvəlcədən hazırladığı qiymətləndirmə meyarları əsasında şagirdlərin müşahidə oluna biləcək fəaliyyət səviyyəsini zəif, orta, yüksək olmaqla qruplaşdırmalı və şagirdin adının qarşısında fəaliyyətinə uyğun müvafiq qeydlərini yazmalıdır. Formativ qiymətləndirmədə müəllim əvvəlcədən proqnozlaşdırmadığı və dərs prosesində müşahidə etdiyi fəaliyyətləri də uyğun ifadələrlə təsvir edə bilər.

## Formativ qiymətləndirmə metodlarının seçilməsi prinsipləri

Formativ qiymətləndirməni həyata keçirmək üçün müəllim əsas FQ strategiyaları, metod və texnikaları bilməlidir. Formativ qiymətləndirmənin strategiyası formativ qiymətləndirmənin məqsədlərinə nail olmaq üçün ümumi yanaşmanı əks etdirir. Ədəbiyyatda ən tanınmış strategiyalar Dilan Vilyamın 5 FQ strategiyasıdır:

1. Müvəffəqiyyət üçün şagirdlərin öyrənmə niyyətlərini və müəllimin qiymətləndirmə meyarlarını müəyyənləşdirin, onlarla bölüşün və aydınlaşdırın – dərsin əvvəlində şagirdlə təlim fəaliyyətinin nədən ibarət olacağını başa düşməli və onların fəaliyyətinin necə qiymətləndiriləcəyini (hansı meyar və “uğur göstəriciləri” əsasında) bilməlidirlər. Bununla şagirdin təlim fəaliyyəti istiqamətləndirilir (“Mən bilirəm, mən nəyi öyrənməliyəm”).
2. Təlim məqsədlərinin əsasında müvəffəqiyyətin ölçülməsinə imkan verən səmərəli təlim metodları (müzakirələr, suallar, tapşırıqlar və s.) seçin və onlar vasitəsilə formativ qiymətləndirməni həyata keçirin.
3. Öyrənmə prosesində yaranan problemləri və onların həlli yollarını daha yaxşı başa düşmək üçün şagirdlərə lazımi əks-əlaqəni verin və onlar bir-biri üçün öyrənmə resursu kimi çıxış etsin. Bununla da öyrənmə prosesinin inkişafı təmin olunacaqdır.
4. Müzakirələrdə və iş qruplarında iştirakı zamanı şagirdləri bir-birinə əks-əlaqə verməyə cəlb edin.
5. Şagirdləri öyrənmə prosesinin sahibləri kimi aktivləşdirin – öyrənmə prosesinin onun özü tərəfdən tənzimlənməsi şagirdin işini yaxşılaşdırmağa gətirib çıxarır. Onlar öz fəaliyyətlərinin refleksiyasını apararaq daha səmərəli öyrənib məsuliyyətli olurlar.

Formativ qiymətləndirmənin kim tərəfindən həyata keçirilməsini nəzərə alaraq (müəllim, cütlər, şagird) beş strategiyadan istifadə aşağıdakı kimi fərqlənir:

| Kim aparır | 1-ci addım | 2-ci addım | 3-cü addım |
|---|---|---|---|
| Müəllim | Şagirdlərin öyrənmə niyyətlərini və müəllimin qiymətləndirmə meyarlarını müəyyənləşdirin və bölüşün (1-ci strategiya). | Səmərəli təlim metodları (müzakirələr, suallar, tapşırıqlar və s.) seçin və formativ qiymətləndirməni həyata keçirin (2-ci strategiya). | Şagirdlərlə lazımi əks əlaqəni verin. |
| Cütlər | Şagirdlərin öyrənmə niyyətini müəyyənləşdirin və bölüşdürün (1-ci strategiya). | Şagirdlər əks-əlaqəni verir və bir-biri üçün öyrənmə resursu kimi çıxış edir (3-cü və 4-cü strategiya). | |
| **Şagird** | Şagirdlərin öyrənmə niyyətini müəyyənləşdirin (1-ci strategiya). | Şagirdləri öyrənmə prosesinin sahibləri kimi aktivləşdirin (5-ci strategiya). | |

Formativ qiymətləndirmənin metodu FQ strategiyalarını həyata keçirmək üçün istifadə oluna bilən müxtəlif yolları əks etdirir. Formativ qiymətləndirmənin texnikaları müəyyən FQ metodunun ümumi cəhətlərini saxlamaqla müxtəlif üsullarını əks etdirir.

Aşağıdakı cədvəldə əsas FQ metod və texnikalarının təsnifatının bir nümunəsi göstərilir.

| N° | Metod | Texnikalar |
|---|---|---|
| 1. | Sual vermə | Açıq sualların verilməsi, testin hazırlanması, BİBÖ, Blits turnir, Yanlış tapmaca, 5 “Niyə?” və s. |
| 2. | Sual-cavab (şifahi, yazılı) | Sorğu, Proqress testi, cavab kartı, imla, inşa, siyahı yarat, cümləni davam et və s. |
| 3. | Müşahidə | Meyar cədvəli, qeydiyyat vərəqi, təsvir və s. |
| 4. | Proyektor və təqdimatlar | Eksperimentlər, təcrübələr, lahiyələr, multimedia təqdimatları, referatlar, səhnələr, pantomimalar və s. |
| 5. | Fəaliyyətlər | Tapşırıqlar, diskussiya, debat, dialoqlar, “Karusel”, “Düşün–Cütdə müzakirə et–Paylaş” (Think – Pair – Share), “Dostunu öyrət”, “Auksion”, “4 künc”, “Blits turnir” və s. |
| 6. | Qeyri-verbal və kinestetik | Fərdi ağ lövhə ya jestlər (barmaqlar yuxarı-aşağı, 1-2-3-4-5-), kodlar, işarələr “+;=;-“, səslər, fiziki hərəkətlər, rəqs və s. |
| 7. | Qeydiyyat üsulları | Rubriklər, meyar cədvəli, portfolio, qeyd kartları (“Giriş/çıxış kartlar” və ya “İndeks kart”), öyrənmə jurnalı (nə öyrəndim, qalan suallar) və s. |
| 8. | Vizual üsullar | Qrafik orqanayzerlər (sxemlər, diaqramlar, cədvəllər, qrafiklər və s.), şəkillər, kodlar, simvollar, “Arzu ağacı”, “Fikirlər xəritəsi” və s. |
| 9. | Yaradıcı işlər | Təkmilləşmiş məhsullar (əşyalar, proseslər, qaydalar, və s.), proqnozlar, yeni əsərlər, modellər, maketlər, sinkveyn, esse, akrostik poema və s. |
| 10. | Ümumiləşdirmə və refleksiya | Əqli hücum, 1-2-3, panel, şifahi reaksiya, refleksiya jurnalı, Qeyd jurnalı/dəftəri/kartları, SWOT analiz |

Formativ qiymətləndirmə metodlarının digər təsnifatları da mövcuddur. Məsələn:

1. Ümumiləşdirmə və refleksiya üsulları əsasən xüsusi fasilitasiya sualları, yaxud jurnallar və sorğular əsasında məlumatı təhlil edir.

2. Siyahılar, diaqramlar və qrafiki orqanayzerlər. Şagirdlər müxtəlif qrafiki orqanayzerlər vasitəsilə məlumatı təşkil edir, əlaqələr qurur və əlaqələri izləyir.

3. Məlumatın vizual təqdimatı. Şagirdlər məlumatı sözlərlə və ya şəkillərlə kodlaşdırır.

4. Əməkdaşlıq əsasında fəaliyyətlər. Şagirdlər müxtəlif birgə fəaliyyətlərdə öz bilik və bacarıqlarını nümayiş etdirirlər.

### Formativ qiymətləndirmə metod və texnikalarının seçilməsi meyarları:

1. Məqsədi. Nəyi qiymətləndirir?
2. Vaxt. Nə qədər vaxt sərf olunacaq?
3. Şagird sayı. Neçə şagirdi əhatə edə bilər?
4. Keçirilmə zamanı. Təlim tapşırığının tərkibindədir va ya ayrıca aparılmalıdır?
5. Dəqiqlik. Nə dərəcədə dəqiqdir?
6. Əhatəlilik. Şagirdləri qiymətləndiriləcək bacarıqla əhatə edirmi? Birini və ya bir neçəsini?

Formativ qiymətləndirmənin səmərəli həyata keçirilməsi üçün müəllim, ilk növbədə, FQ-nin fəlsəfəsinə ("öyrənmək üçün qiymətləndirmə") uyğun olaraq onun əsas mexanizmləri və strategiyalarını tətbiq etməlidir. Dərsin təlim nəticələrinə uyğun olaraq meyarları və göstəriciləri hazırlamaq və onlarla şagirdləri tanış etməklə formativ qiymətləndirmənin səmərəliliyinin artırılmasını təmin etmək mümkündür. Təlim prosesində müvafiq FQ fəaliyyətləri həyata keçirmək üçün meyar və göstəricilərə əsasən tapşırıqların planlaşdırılması və müvafiq metod və texnikaların seçilməsi də çox vacibdir.

### Şagird nailiyyətinin artırılmasında effektiv əks-əlaqənin (rəy vermənin) rolu

Əks-əlaqə formativ qiymətləndirmənin əsas fəaliyyətlərindən biridir. Müəllim tərəfindən əks-əlaqənin verilməsi, ilk növbədə, şagirdlərin güclü və zəif tərəflərinin izlənilməsi və təhlili əsasında həyata keçirilir və bu prosesdə şagird inkişaf üçün dəstəklənir. Eyni zamanda şagird tərəfindən müəllimə verilən əks-əlaqə tədrisin təkmilləşdirilməsinə istiqamət verir.

### Uşaq tərbiyəsində əks-əlaqə

Müasir psixologiyada uşaq tərbiyəsində rəğbətləndirmə (mükafatlandırma) və cəzalandırmadan istifadənin mənfi hallarla nəticələndiyi, bunun əvəzinə, uşaq tərbiyəsində əks-əlaqədən istifadə etməyin daha səmərəli olduğu qeyd olunur. Çünki uşaq tərbiyəsində cəzalandırma və yersiz mükafatlandırmadan istifadə edildikdə uşaq yanlış davranışdan cəzalandırılacaq deyə imtina edir, müsbət davranışı isə mükafat alacaq deyə icra edir. Yəni davranış və onun nəticələri analiz edilmir, bununla da davranışın niyə yaxşı və ya pis olduğu uşaq tərəfindən dərk edilmir. Yanlış və ya icra edilməyən davranışa görə

cəza vermək uşaqlarda mənfi emosiyalar yaradır, onların yaddaşında mənfi psixoloji “izlər” qoyur, bəzi cəzalar isə uşaq şəxsiyyətinin alçaldılması ilə nəticələnir. Məsələn, ev tapşırıqlarını icra etmədikdə cəza alan uşaq ev tapşırığını icra etsə belə, bu prosesi sevməməyə başlayır, çünki prosesə qarşı neqativ münasibət formalaşır. Uşağa müsbət davranış və ya fəaliyyətə görə davamlı mükafat vermək onları gördükləri işin doğru olduğuna deyil, gəlirli olduğuna inandırır. Məsələn, “ev tapşırıqlarını icra etsən, sənə şirniyyat almağa və ya uşaqlarla oynamağa icazə verəcəm”. Bu halda uşaq ev tapşırığını icra etsə belə, yalnız mükafata görə edir. Diqqət öyrənmə prosesinə deyil, mükafata görə icra etməyə yönəlir. Bu da öyrənmə imkanlarını məhdudlaşdırır. Əgər müsbət davranışa görə mükafat vermək istəyirsinizsə, 2 qaydaya diqqət edin: bunu əvvəlcədən şərt olaraq irəli sürməyin və davamlı etməyin.

Psixoloqlara görə, tərbiyə prosesində əks-əlaqədən istifadə etmək uşaqların fəaliyyət və ya davranışı düzgün dəyərləndirmələrinə və onların doğru yola istiqamətləndirilmələrinə kömək edir. Bu hal proseslərlə bağlı şüurluluğu artırır.

Bəs əks-əlaqə nədir? Bir davranışın nəticəsi haqqında ətrafdakı insanlardan əldə edilən məlumata əks-əlaqə deyilir. Bu məlumatı, yəni əks-əlaqəni bəzən uşaq özü əldə edir, davranışının nəticəsini özü dəyərləndirir. Məsələn, öz otağını səliqəyə saldıqda bu halın ona rahatlıq yaratdığının fərqinə vara bilər. Özünün əldə etdiyi əks-əlaqə uşağın daha müstəqil və özünə inamlı olmasına şərait yaradır.

Bəzən də uşağa əks-əlaqəni ətrafdakı insanlar verir. Uşaq otağını səliqəyə saldıqda ona yalnız “Afərin” desəniz, bu, mükafata əsaslanan əks-əlaqə olacaqdır. Əgər bu uşaqla otağını səliqəyə salmaq davranışının nə işə yaradığı haqqında danışsanız, məsələn, “artıq axtardığın kitabı daha rahat tapa bilirsən, buna görə də səhərlər çantanı daha tez hazırlayırsan və dərsə gecikmirsən” desəniz, ona əks-əlaqə vermiş olacaqsınız. Verilən bu əks-əlaqənin içərisində həm mükafat, həm də davranışın analizi var. Lakin hər mükafatda onun niyə qazanıldığı haqqında məlumat və ya əks-əlaqə olmaya bilər. Unutmayın, mükafat cəzadan, əks-əlaqə mükafatdan üstündür.

Əks-əlaqə konstruktiv və destruktiv ola bilər. Destruktiv əks-əlaqə vermək fəaliyyət və ya davranışla bağlı səhvlərin və onun mənfi nəticələrinin vurğulanmasını ehtiva edir. Yəni biz uşağa onun yalnız zəif cəhətləri, icra edilməyən, yanlış və ya səhv icra edilən fəaliyyətin doğurduğu mənfi nəticələr haqqında məlumat versək, bu, destruktiv əks-əlaqə olacaq. Məsələn, “Sən dərslərini oxumasan, universitetə daxil ola bilməyib, uzaqbaşı fəhlə işləyəcəksən”. Destruktiv əks-əlaqənin nəticələri cəzalandırma ilə oxşar olur. Yəni uşaq fəaliyyət və ya davranışla bağlı mənfi hisslər keçirir.

Konstruktiv (dəstəkləyici) əks-əlaqə zamanı isə uşağa əvvəlcə güclü və ya müsbət cəhətləri və onun nəticələri haqqında məlumat verilir. Daha sonra zəif cəhətləri və ya yanlış icra olunan fəaliyyət və onun aradan qaldırılması yolları (və ya nəticəsi) haqqında məlumat verilir.

**Konstruktiv və destruktiv əks-əlaqənin nəticələri**

| Destruktiv əks-əlaqə | Konstruktiv əks-əlaqə |
|---|---|
| - Uşağı özünü müdafiəyə təhrik edir.<br>- Bacarıqları inkişaf etdirmir.<br>- Özünə hörmət və inamı azaldır.<br>- Növbəti addımı təyin etmir.<br>- Uşaqda mühakimə olunmaq hissini yaradır. | - İnam və əməkdaşlıq mühiti yaradır.<br>- Bacarıqları inkişaf etdirir.<br>- Özünə hörmət və inamı artırır.<br>- Növbəti addımın nə olacağını müəyyən etməyə kömək edir.<br>- Uşağı özünü inkişaf etdirməyə həvəsləndirir. |
|  |  |

### Təlim prosesində əks-əlaqə

Mütəxəssislər qeyd edirlər ki, uşaq tərbiyəsində effektiv olan əks-əlaqə yanaşması təlim zamanı da müsbət nəticələr verir. Xüsusilə də tapşırıqların icrası ilə bağlı əks-əlaqə vermək effektivdir. Tədqiqatlar göstərir ki, müəllimin şagirdlərə tapşırıqlarla bağlı əks-əlaqə verməsi onların təlim nailiyyətlərini və motivasiyalarını artırır.

Müəllimlər şagirdlərə tapşırıq və ya onların davranışları ilə bağlı daha çox birbaşa şagird şəxsiyyətinə və ya şagirdlərin bir-biri ilə müqayisəsinə əsaslanan rəy verirlər. Bu, eqo-yönümlü rəy adlanır. Bu zaman tapşırıq və ya davranışla bağlı əlavə izah verilmir. Məsələn:

- “Afərin sənə!”
- “Sinifdə bunu hamıdan yaxşı sən bacarırsan”.
- “Sən Riyaziyyat fənnindən zəifsən”.

Eqo yönümlü rəy zamanı biz şagirdləri bir-biri ilə müqayisə edirik ki, bu da onlar arasında rəqabət mühiti formalaşdırır. Bu zaman şagird başqalarından daha yaxşı olmaq üçün çalışır. Eqo yönümlü rəy “Mən başqalarından daha yaxşıyam” və ya “faydasızam” fikrini formalaşdıra bilər. Buna görə bu tipli rəylər sinifdə mənfi reaksiyalara səbəb olur. Müntəzəm olaraq təriflənən şagirdlər tapşırıqla əlaqəli fəaliyyət göstərmək üçün motivasiya üçün “eqo”nu artırıcı xüsusiyyətlərə diqqət yetirirlər ki, bu da onların öyrənməyə davam etmə potensiallarına zərər verə bilər.

Dəstəkləyici əks-əlaqə diqqəti işin yaxşılaşdırılmasına yönəldir. Davamlı olaraq mənfi rəy alan şagirdlər artıq fəaliyyətdəki iştiraklarını uyğun hesab edə bilmədikləri üçün dərsə marağı itirirlər. Həmçinin onlarda “öyrəşilmiş çarəsizlik” sindromu yaranmağa başlayır. Yəni “uğurlu olmaq üçün əlimdən gələni etdim, lakin bu məndə alınmır” düşüncəsi formalaşır.

Eqo-yönümlü rəyin əvəzinə, şagirdlərə tapşırıqla bağlı dəstəkləyici əks-əlaqə verdikdə şagird tapşırığı daha səmərəli necə icra edə biləcəyini öyrənir. Tapşırıqla bağlı əks-əlaqənin verilməsi aşağıdakı kimi ola bilər:

- Afərin! Bu tapşırığı doğru icra etmisən, bu göstərir ki, sən mövzunu düzgün qavramısan və növbəti mövzuları qavramaq sənin üçün daha asan olacaq.

- Tarixi şəxsiyyətlərin dövlətdə oynadığı rolu anlayırsan, ancaq onların fəaliyyətini sosial qrupların mənafeyi baxımından təhlil etsən, daha yaxşı olar.

Şagirdin mövcud nailiyyət səviyyəsi və şagirdə uyğun hədəfi müqayisə etdikdə görəcəyik ki, onlar arasında “boşluq” və ya çatışmazlıq var. Gəlin belə bir nümunəyə baxaq: Müəyyən bir qiymətləndirmədə 75 bal toplamağa can atan, lakin 50 bal toplamış bir şagirdə 75 bal almaq üçün hansı cəhətləri inkişaf etdirmək və ya hansı addımları atmaq lazım olduğunu deyiriksə, bu, əks-əlaqə verməkdir.

Bu mexanizmdən çıxış edərək əks-əlaqəyə belə tərif verilir: “Əks-əlaqə, real nailiyyət səviyyəsi, bu səviyyədən hədəf səviyyəyə çatmaq üçün onlar arasında olan çatışmazlıq və onun necə dəyişdirilməsi haqqında məlumatdır”. Əgər biz şagirdə yalnız bu çatışmazlıq haqqında məlumat veririksə, necə aradan qaldırmaq yolunu demiriksə, bu,

destruktiv əks-əlaqə olacaqdır. Məsələn, “müxtəlif ölkələrdə oxşar tarixi faktların müxtəlif zamanlarda baş verməsinin səbəb və nəticələrini izah edə bilmirsən”, “baş verən dəyişiklikləri məkan baxımdan qiymətləndirməyin düzgün deyil”, “dünyanın siyasi inkişaf mərhələsini şərh etsən, daha yaxşı olar” və s.

Əks-əlaqə yazılı və ya şifahi formada verilə bilər. Dəstəkləyici əks-əlaqə vermək üçün əvvəlcə şagirdə tapşırığın icrası ilə bağlı müsbət cəhətləri deyin, daha sonra səhvləri, yaxud çatışmayan cəhətləri deyin və şagirdi daha səmərəli iş üçün istiqamətləndirin.

Davamlı olaraq tapşırıq və fəaliyyətlərlə bağlı dəstəkləyici əks-əlaqə alan şagirdlər:

- Onlara verilmiş qiymətlərin nəyə əsaslandığını bilirlər.
- Növbəti tapşırıq və ya fəaliyyətləri necə daha səmərəli icra edəcəklərini bilirlər.
- Təlim nailiyyətlərini artırmağın yolunu dərk edirlər.
- Güclü və zəif tərəflərini müəyyənləşdirirlər.
- Özünü və başqalarını düzgün qiymətləndirmə bacarıqları inkişaf edir.
- Ömür boyu öyrənənlərdən olurlar.
- Öz bilik və bacarıqlarını başqaları ilə deyil, yalnız özlərinin əvvəlki göstəriciləri ilə müqayisə edirlər.

Əks-əlaqənin iki növü var: formal və qeyri-formal.

### 1. Formal əks-əlaqə

Bu əks-əlaqə, adətən, summativ qiymətləndirmənin nəticəsi olaraq müəllim və ya məktəb direktoru tərəfindən edilən şərhlərin həm şagirdlərə, həm valideynlərə verilməsidir. Əks-əlaqənin həyata keçirilməsi zamanı müəllimlər üçün, adətən, qiymətlərdən istifadə olunur. Formal əks-əlaqə daha çox yekun nəticəyə (yarımil və ya ilin sonu üzrə) yönəldilmişdir və növbəti tədris vahidi üçün şagirdlərə verilən məsləhətlərdə əks olunur. Eyni zamanda formal əks-əlaqə reytinq cədvəli vasitəsilə siniflər üzrə də verilə bilər (sinfin ümumi nəticəsinə görə).

### 2. Qeyri formal əks-əlaqə

Müəllim tərəfindən verilir və şagirdlər onun əsasında uğur aldə etmək üçün nə etmək lazım olduğunu müəyyənləşdirməyi öyrənə bilər. Qeyri-formal əks-əlaqə daha çox təlim prosesinə yönəldilmişdir və son nəticəni qiymətləndirmir.

Əks-əlaqə müxtəlif formatda təqdim oluna bilər:

1. Məsləhət;
2. İstiqamətləndirmə;
3. Müzakirə;
4. Tövsiyə;
5. Tapşırıq;
6. Səviyyənin müəyyənləşdirilməsi.

Müəllim tərəfindən şagirdə verilən əks-əlaqə şagirdin hal-hazırdakı təlim nəticələrinin vəziyyətini və öyrənməyi təkmilləşdirmək üçün zəruri olan addımlar müəyyənləşdirir. Şagirdin irəliləyişini dəstəkləmək üçün əks-əlaqə həm konstruktiv olmalı, həm də vaxtında verilməlidir, onun öyrənmə bacarıqları və təlim nailiyyətlərinin inkişafına yönəlməlidir.

Əks-əlaqə şagirdləri öyrənmə və özünüqiymətləndirmə ilə bağlı qərarlara yönəltmək, düşünməyə və onların metakoqnitiv bacarıqlarını yaratmağa kömək edir. Şagird özünüqiymətləndirmədə təlimi necə yaxşılaşdırmağı başa düşdüyündə bu, şagirdin öyrənmə motivasiyasına və özünə hörmətə böyük təsir göstərir. Bununla əks-əlaqə şagirdləri daha çox öyrənmə problemlərinin həll edilməsinə yönəldir və onların inkişafını formalaşdırır.

### Əks-əlaqə hansı yollarla verilə bilər?

Adətən əks-əlaqə dərs zamanı verbal (şifahi) və qeyri-verbal yolla və ya gündəlikdə yazılı şəkildə verilir. Eyni zamanda onun çatdırılması müəyyən vaxt dövrü üzrə və kim tərəfindən verilməsi cəhətdən fərqlənə bilər:

- Müəllim tərəfindən bütün şagirdlərə eyni zamanda, fərdi və ya kiçik qruplara;
- Sadəcə, dərs zamanı müəllim ilə şagirdin qarşılıqlı əlaqələri zamanı;
- Bir-birinin işini qiymətləndirən sinif yoldaşlarından.

Əks-əlaqənin formativ qiymətləndirmə funksiyalarının səmərəli həyata keçirilməsi üçün onun aşağıdakı xüsusiyyətləri olmalıdır:

1. Dəqiq, anlaşılabilən, vaxtında və mövzu üzrə olan;
2. Təlim nailiyyətləri və boşluqlar barədə məlumat verən;
3. Şagirdlərə doğru cavab vermək, səhvləri düzəltmək və düşüncə tərzini dəyişdirmək üçün vaxt verən;
4. Təlim prosesinin necə keçiriləcəyini izah edən;
5. Qarşılıqlı hörmət və xoş niyyət şəraitində verilən;
6. Şagirdin müvəffəqiyyətini təmin edən.

### Əks-əlaqə və formativ qiymətləndirmə strategiyaları

1. Əks-əlaqənin verilməsi və dəstəkləmə (stimullaşdırma). Müəllim şagirdlərin güclü və zəif tərəflərinin təhlili əsasında onlara əks-əlaqə verir və hər bir şagirdi inkişaf üçün dəstəkləyir.

2. Şagirdlərin müəllimə verdiyi əks-əlaqənin nəticəsində müəllim də öz fəaliyyətini təkmilləşdirir.

Təlimin səmərəliliyini təmin edən formativ qiymətləndirmənin mexanizmlərində də onun zərurəti bir daha xatırlanır:

1. Müəllim tərəfindən şagirdə mütəmadi olaraq dəstəkləyici əks-əlaqənin verilməsi (tez-tez və davamlı aparılan qiymətləndirmə həm təlim materialının dəqiq mənimsənilməsini, həm də tərəqqiyə diqqət yetirməyə imkan verir).
2. Ümumi olmayan, xüsusi əks-əlaqənin verilməsi (şagirdlərə necə inkişaf edə biləcəyini konkretləşdirməyə imkan verir).

### Qiymətləndirmə prosesinin sistemli planlaşdırılması

Formativ qiymətləndirmə planlaşdırılmış bir prosesdir. Bu prosesdə şagirdlərin mövcud bilik və bacarıqları mənimsəmə statusu qiymətləndirilir və bu məlumatlar onların ha-

zırkı tədris taktikasını uyğunlaşdırmaq və həmçinin şagirdlərə hazırkı öyrənmə yollarını təkmilləşdirmək üçün istifadə olunur.

Qiymətləndirmə prosesinin sistemli planlaşdırılması üçün:

Qiymətləndirmə zamanı həyata keçirilən bütün fəaliyyətlər standartların tələblərinə nail olmağa yönəlməlidir. Bunun üçün təlim vahidi dövründə inkişaf etməli alt standartlar üzrə formativ qiymətləndirmənin neçə dəfə qiymətləndirilməsi planlaşdırılmalıdır (cədvəl 1) və bunun üçün müvafiq üsullar seçilməlidir (cədvəl 2).

Təlim, tədris və qiymətləndirmə fəaliyyətləri bir-biri ilə sıx əlaqəli olmalıdır. Müəllim formativ qiymətləndirmənin dərs prosesində və ya sonunda aparılmasını planlaşdırmalıdır.

Təlimin hər bir mərhələsində həm ondan əvvəlki qiymətləndirmə nəticələri, həm də dərsin gözlənilən təlim nəticələri və qiymətləndirmə məqsədləri nəzərə alınmıalıdır.

Dərsin təlim nəticələrini ölçmək üçün hansı meyar və göstəricilərə əsaslanmalı ("uğur göstəriciləri") və hansı qiymətləndirmə strategiya və metodlarından, forma və resuslardan istifadə müəyyən olunmalıdır.

**Cədvəl 1.**

| **1. Tarixi zaman** | | |
|---|---|---|
| Standart | Tarix | Nailiyyət səviyyəsi |
| 1.1.1. | | |
| 1.1.2. | | |
| 1.2.1. | | |
| 1.2.2. | | |
| 1.3.1. | | |
| 2. Tarixi məkan | | |
| 2.1.1. | | |
| 2.1.2. | | |
| 3. Dövlət | | |
| 3.1.1. | | |
| 3.1.2. | | |
| 3.1.3. | | |
| 4. Şəxsiyyət | | |
| 4.1.1. | | |
| 4.1.2. | | |
| 5. Mədəniyyət | | |
| 5.1.1. | | |
| 5.1.2. | | |
| 5.1.3. | | |

**Cədvəl 2.**

| **Metodlar** | **1.1.1.** | **1.1.2.** | **1.1.3.** | **2.1.1.** | **2.1.2.** | **3.1.1.** | **3.1.2.** |
|---|---|---|---|---|---|---|---|
| Müşahidə | | | | | | | |
| Tapşırıqlar / fəaliyyətlər | | | | | | | |
| Sual/cavab | | | | | | | |
| Təqdimat / Layihə | | | | | | | |
| Vizual | | | | | | | |
| Refleksiya | | | | | | | |
| Yaradıcılıq | | | | | | | |

## Summativ qiymətləndirmə

Summativ qiymətləndirmə hər bir fənn üzrə təhsil proqramında (kurikulumda) müəyyənləşdirilmiş məzmun standartlarının mənimsənilməsi ilə bağlı təhsilalanların əldə etdiyi nailiyyətlərin müəyyən olunması məqsədilə aparılır. Summativ qiymətləndirmə aşağıdakı iki formada aparılır:

1. Hər bir fənn üzrə dərsliklərdə nəzərdə tutulmuş hər bölmənin daxilində və ya bölmənin sonunda keçirilən kiçik summativ qiymətləndirmə;
2. Hər yarımilin sonunda keçirilən böyük summativ qiymətləndirmə.

Summativ qiymətləndirmədə tapşırıqvermə üsulundan istifadə olunur. Kiçik summativ qiymətləndirmə hər yarımildə 3 dəfədən az, 6 dəfədən çox olmamaqla müəllim tərəfindən aparılır. Hər fənn üzrə kiçik summativ qiymətləndirmələrin aparılacağı tarix haqqında məlumat tədris ilinin birinci həftəsi ərzində fənn müəllimi tərəfindən sinifdə təhsilalanlara elan olunur. Hər bir fənn üzrə kiçik summativ qiymətləndirmə həmin fənnin tədris olunduğu 1 (bir) dərs saatı ərzində aparılır.

VI siniflərdə Azərbaycan tarixi fənnindən böyük summativ qiymətləndirmə yalnız müəssisənin Pedaqoji Şurasının qərarı ilə keçirilə bilər. Pedaqoji Şuranın müvafiq qərarı dərs ilinin əvvəlində qəbul edilir və təhsilalanlara elan edilir.

Kiçik və böyük summativ qiymətləndirmələr 100 ballıq şkala ilə ölçülür. Summativ qiymətləndirmədə istifadə olunan suallar hər bir sinif və fənn üzrə 4 səviyyədə tərtib edilir. 1-ci səviyyə ən aşağı, 4-cü səviyyə isə ən yüksək səviyyəni əks etdirir. Suallar müxtəlif mürəkkəblik səviyyəsində hazırlanır. 1-ci və 2-ci səviyyəyə təhsilalanların əksəriyyətinin cavablandıra biləcəyi suallar aid edilir. 3-cü və 4-cü səviyyəyə daha hazırlıqlı şagirdlərin cavablandıra biləcəyi suallar aid edilir. Səviyyələr üzrə sualların qiymətləndirmə ballarının 100 ballıq şkalada bölgüsü aşağıdakı kimi nəzərdə tutulur:

– 1-ci səviyyə üzrə suallar qiymətləndirmənin 20%-ni (və ya 20 bal) təşkil edir;
– 2-ci səviyyə üzrə suallar qiymətləndirmənin 30%-ni (və ya 30 bal) təşkil edir;

– 3-cü səviyyə üzrə suallar qiymətləndirmənin 30%-ni (və ya 30 bal) təşkil edir;
– 4-cü səviyyə üzrə suallar qiymətləndirmənin 20%-ni (və ya 20 bal) təşkil edir.

Təhsilalanın summativ qiymətləndirmədə topladığı balların 2, 3, 4, 5 qiymətlərinə uyğunluğu aşağıdakı qaydada müəyyənləşdirilir:

| N° | Şagirdin yerinə yetirdiyi tapşırıqların faizlə miqdarı | Şagirdin qiyməti |
|---|---|---|
| 1 | [0% – 30%] | 2 (qeyri-kafi) |
| 2 | (30.01% – 60%] | 3 (kafi) |
| 3 | (60.01% – 80%] | 4 (yaxşı) |
| 4 | (80.01% – 100%] | 5 (əla) |

**Summativ qiymətləndirməni aparmaq üçün müəllim aşağıda qeyd edilən bilik və bacarıqlara malik olmalıdır:**

- ✓ summativ qiymətləndirmənin tətbiqi bacarığı;
- ✓ qiymətləndirmə standartlarının mahiyyətini nümunələrlə şərh etmək;
- ✓ qiymətləndirmə standartlarından istifadə yollarını bilmək.

### Qiymətləndirmənin üsul və vasitələri

Hər bir fənn kurikulumunda məzmun standartları və onların mənimsənilməsi üçün istifadə edilən strategiyalarla yanaşı, nail olunmuş təlim nəticələrinin, əldə edilmiş bilik və bacarıqların qiymətləndirilməsi məqsədilə müvafiq qiymətləndirmə standartlarının nümunələrindən də istifadə olunur.

Fənn kurikulumlarında təyin edilmiş standartlar olmadan şagirdlərin kurikulum üzrə fəaliyyətini qiymətləndirmək üçün tələb olunan vasitələri hazırlamaq mümkün deyil. Fənlərin məzmun standartlarının təsis edilməsində əsas məqsəd bu standartların hər bir şagird tərəfindən mənimsənilməsi istiqamətində təlim məqsədlərinin təyin edilməsidir.

Xüsusi qeyd etmək lazımdır ki, qiymətləndirmə vasitələri (eyni çətinlik dərəcəli və müxtəlif variantlı testlər, yardımçı tədris materialları) nümunələrə və müvafiq təlimatlara əsasən müəllimlər tərəfindən hazırlanır, məktəbin rəhbərliyi tərəfindən təsdiq edilir. Qiymətləndirmə vasitələrinin hazırlanması zamanı əvvəlcə qiymətləndirmənin hansı növünün aparılması müəyyənləşdirilməlidir, yalnız bundan sonra prosesi icra etmək olar. Vasitələr qiymətləndirmənin hər bir növü üzrə (həm diaqnostik, həm formativ, həm də summativ qiymətləndirmə), onların məzmununa uyğun aparılmalıdır ki, nəticədə qarşıya qoyulmuş məqsədə çatmaq mümkün olsun. Məktəbdaxili qiymətləndirməni aşağıdakı üsul və vasitələrə ayırmaq mümkündür.

| Üsul | Vasitə |
|---|---|
| Müşahidə | Müşahidə vərəqi |
| Müsahibə (şifahi yoxlama) | Qeydiyyat vərəqi |
| Söhbət | Qeydiyyat vərəqi |
| Şifahi sorğu (sual-cavab) | Qeydiyyat vərəqi, qiymətləndirmə şkalası |
| Yazılı sorğu | Sorğu vərəqi |
| Tapşırıqvermə | Çalışma, tapşırıq, laboratoriya işi, qiymətləndirmə şkalası |
| Valideyn və digər fənn müəllimləri ilə əməkdaşlıq | Qeydiyyat vərəqi |
| Oxu | Qeydiyyat vərəqi |
| Layihə | Meyarlar cədvəli |
| Şifahi və yazılı təqdimat | Meyarlar cədvəli |
| Test | Test tapşırıqları |
| Yaradıcılıq əl işləri | Şagirdlərin işləri |
| Özünüqiymətləndirmə | Özünüqiymətldirmə vərəqi |
| Qarşılıqlı qiymətləndirmə | Qiymətləndirmə vərəqi |

### Refleksiyanın və özünüqiymətləndirmənin rolu və tətbiqi

**Refleksiya (əks etdirmə)** şagirdlərin öz işlərini təhlil etməsinə imkan verir və öyrənməyi öyrənmək bacarığının (və ya qabiliyyətin) inkişafını təmin edir. Şagirdlər öz təlim fəaliyyətlərinin təhlil edilməsini öyrənərək təlimdə müvəffəqiyyət qazanmağa nail olurlar.

**Qarşılıqlı qiymətləndirmə.** Bir-birini qiymətləndirmədə şagirdlər yoldaşlarının işləri ilə bağlı müxtəlif qərarlar verirlər. Formativ qiymətləndirmə zamanı istifadə olunan bir-birini qiymətləndirmə üsulu şagirdlərdə tənqidi düşüncə və hər hansı bir işi meyarlar əsasında qiymətləndirmə bacarığını formalaşdırır. Bir-birini qiymətləndirmə yalnız bir şəxs tərəfindən deyil, eyni vaxtda bir çox şəxs tərəfindən də aparıla bilər. Qarşılıqlı qiymətləndirmə prosesində qiymətləndirmə meyarları onlara daha aydın olur və bununla onların təlim fəaliyyəti istiqamətləndirilir və daha səmərəli olur.

**Özünüqiymətləndirmə.** Şagirdlərin öz işləri barədə qərar verməsidir. Özünü qiymətləndirmə üsulu ilə şagirdlərə işləri barədə rəy bildirməklə, onlara tənqid etmə bacarığı aşılanır. Özünü qiymətləndirmə zamanı şagirdlərdən tələb olunan öz fəaliyyətlərinin güclü və zəif tərəflərini müəyyənləşdirmələridir. Özünü qiymətləndirmək üçün şagird aşağıdakı üsullardan istifadə edə bilər:

- “giriş-çıxış” kartlarının müxtəlif formalarından,
- özünüqiymətləndirmə və bir-birini qiymətləndirmə meyar cədvəllərindən,
- düşündürücü məsələlərdən və suallardan və s.

Formativ qiymətləndirmə metod və texnikalarının böyük qismi təlim prosesində də istifadə oluna bilər. Eyni zamanda bu metod və texnikalardan təlim prosesində istifadə edərək müəllim formativ qiymətləndirmə də apara bilər.

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN MEYARLARIN İŞLƏNİB HAZIRLANMASI

Müəllim üçün ən çətini və eyni zamanda ən vacibi həm ayrı-ayrı şagirdlərin işini, həm də bütövlükdə kiçik qruplardakı işi kifayət qədər obyektiv qiymətləndirməyə imkan verən qiymətləndirmə meyarlarını tərtib etməkdir.

Qiymətləndirmə “qarşılıqlı əlaqə” yaratmalı, yəni şagirdlərlə müəllimlərin bir-birlərini yaxşı başa düşməsinə imkan verməlidır. Buna görə müəllim işlənib hazırlanmış qiymətləndirmə meyarları ilə şagirdləri də tanış etməlidir. Bundan əlavə, müəllim xahiş edə bilər ki, şagirdlərin özləri kiçik qruplarda “əla”, “yaxşı” və “kafi” qiymət meyarlarını müəyyənləşdirsinlər və sonra siniflə birlikdə bunları müzakirə etsinlər.

Dürüst tərtib edilmiş qiymətləndirmə meyarları obyektiv qiymətləndirməyə kömək etməlidir. Bu meyarların əsasında müxtəlif müəllimlər bu və ya digər şagirdin işlərini eyni bir mövqedən qiymətləndirə bilərlər.

Şagirdlərin özünüqiymətləndirmə metodundan istifadəsi də müəllim üçün çox faydalıdır. Özünüqiymətləndirmə prosesi sorğu vərəqləri və anketlərinin doldurulması formasında keçirilə bilər. Şagirdlərin öz fəaliyyətlərini qiymətləndirməsi çox vacibdir, belə ki bu onları öz davranışlarına yüksək məsuliyyətlə yanaşmağa sövq edir, onlarda obyektivlik hissi tərbiyə edir, onlara öz münasibətlərini düzgün və qarşılıqlı anlaşma prinsipləri üzərində qurmağı öyrədir.

Nəzərə almaq lazımdır ki, bu qiymətlər qeyri-səmimilik və özünüaldatma səbəbindən təhrif oluna bilər. Lakin insanın özü özünü necə gördüyünü müəyyən etmək daha əhəmiyyətlidir. Bu halda özünüqiymətləndirmə və kənardan verilən qiymətlər arasındakı fərq qrup və fərd üçün zəngin informasiya mənbəyi rolunu oynaya bilər. Yekun qiymət şagirdin özünüqiymətləndirməsindən və müəllimin verdiyi qiymətin toplanmasından yarana bilər.

Aşağıda qruplardakı işin, təqdimatda iştirakın və s. qiymətləndirilməsinin bəzi forma və meyarları, habelə fəal təlim metodlarının tətbiqi ilə keçən dərslərdə müəllimin öz şagirdlərinin özünü qiymətləndirməsi üçün istifadə etməli olduğu nümunələr göstərilib. Müəllimlər öz qiymətləndirmə sistemlərini yaradarkən bunlardan tövsiyə kimi istifadə edə bilərlər.

Hər bir sinfin, məktəbin özünəməxsus cəhətlərini nəzərə almaqla, müəllimlər mövcud meyarları müxtəlif variantlarda tətbiq edə, onlara əlavələr edə və öz istədikləri kimi dəyişdirə bilərlər.

### Təqdim edilmiş informasiyanın qiymətləndirilməsi

İnformasiyanın toplanması və təhlili kimi qabiliyyətlərin qiymətləndirilməsi üçün 5 bal sistemindən istifadə etmək məsləhət görülür.

A) İnformasiyanın təqdim edilməsi

- Həmişə dəqiqdir – **5**
- Əsasən dəqiqdir – **4**
- Kifayət qədər dəqiq deyil – **3**
- Qeyri-dəqiqdir– **2**
- İnformasiya yoxdur – **1**

B) İnformasiyanın təhlili aşağıdakı meyarlar üzrə qiymətləndirilə bilər:

**Empirik səviyyə:** şagird hadisələri təsvir edir, lakin onların mahiyyətini başa düşmür.

**Nəzəri səviyyə** daha yüksək səviyyədir. Belə ki şagird nəinki hadisəni təsvir edir, həm də hadisələrin mahiyyətini izah edir və nəticə çıxarır.

### Dəyərlərin qiymətləndirilməsi

Müəllim üçün ən çətini dəyərlərin qiymətləndirilməsidir, çünki insan hüquqları dəyərlərinin heç də hamısı bir dərs daxilində bütün şagirdlər tərəfindən mənimsənilə bilməz.

Ola bilər ki, bu dəyərlər bu və ya digər şagirdin şəxsi baxışları sisteminə uyğun gəlməsin. Bunların dərk edilməsi və şagirdlərin şəxsi dəyərlərinə çevrilməsi üçün müəyyən vaxt lazımdır. Buna görə müəllim, qiymətləndirmə zamanı şagirdlərin mövcud problemə yanaşmasına və ya başqa sözlə desək, "mənəvi baxışların genişliyi"nə üstünlük verməli və qiymətləndirilməlidir.

"Mənəvi baxışların genişliyi"nin qiymətləndirilməsi meyarları:

- ✓ Şagird yeni ideyaları və yeni fəaliyyət növlərini mənimsəyə bilirmi?
- ✓ O, işdə yeni metodlardan istifadə etməyə hazırdırmı?
- ✓ O, müzakirə və mübahisə zamanı faktları duyğulardan yüksək tutmağı bacarırmı?
- ✓ O, yeni faktlarla əlaqədar öz fikrini dəyişirmi?
- ✓ O, hər kəs barəsində ədalətlə fikir yürüdürmü?
- ✓ O, stereotip və qərəzli rəylərə meyil göstərirmi?

### Dəyərlərin inkişafında özünüqiymətləndirmə

Dərsin sonunda müəllim cədvəlləri paylayır və şagirdlərə aşağıdakı suala cavab verməklə cədvəli doldurmağı təklif edir:

Aşağıda sadalananlar barədə öz şəxsi keyfiyyətlərinizi necə qiymətləndirirsiniz?

| Meyarlar | A – əla | B – yaxşı | C – kafi | D – qeyri-kafi |
|---|---|---|---|---|
| Başqalarına hörmət | | | | |
| Başqalarına maraq | | | | |
| Dinləmək bacarığı | | | | |
| Başqalarının ehtiyaclarına humanist yanaşma | | | | |
| Başqaları haqqında ədalətlə fikir yürütmə | | | | |
| Əməkdaşlıq | | | | |
| Hərəkət etməzdən qabaq düşünmək | | | | |
| Səmimiyyət | | | | |
| Başqalarına kömək | | | | |
| Səhvin etirafı | | | | |

**Qruplarda işin qiymətləndirilməsi**

Qrupda işləmək bacarığını əhəmiyyətinə görə sıralama metodu ilə qiymətləndirmək olar: şagirdə hər bir qiymətləndirmə meyarına görə müvafiq bal verilə bilər.

Qrupda işləmək bacarığının qiymətləndirilməsinə nümunə:

Müəllim konkret vəziyyətdən asılı olaraq, bəzi meyarlara əlavələr edə, yaxud onları dəyişdirə bilər.

| Meyarlar | Ballar |
|---|---|
| Qrup üzvlərinin hazırlığı və təşkili qənaətbəxşdir. | |
| Qrupun hər bir üzvü mövzu üzərində çalışır. | |
| Qrup üzvləri birlikdə  və məhsuldar işləyir. | |
| Qrup bütün sinfi fəal olmağa sövq edir. | |
| Qrupun hər bir üzvü təmkinlə öz yoldaşlarına kömək edir. | |
| Qrup təqdimat üçün bir neçə üsuldan istifadə edir. | |

### Diaqnostik qiymətləndirmə zamanı daha çox istifadə olunan vasitələr

- Çalışmalar;
- Müəllimin qeydiyyat vərəqi (şagirdlə, müvafiq hallarda qrup, yaxud siniflə aparılan şifahi yoxlama zamanı müəllimin öyrənmək (diaqnoz qoymaq) istədiyi məsələnin yazıldığı vərəq);
- Söhbət və müəllimin sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq).

### Formativ qiymətləndirmə zamanı daha çox istifadə olunan vasitələr

- Müşahidə vərəqləri;
- Şifahi nitq bacarıqları üzrə qeydiyyət vərəqi;
- Çalışmalar;
- Söhbət, sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq);
- Dinləmə üzrə qeydiyyat vərəqi;
- Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən olunmuş meyar cədvəli;
- Nailiyyət səviyyələri üzrə qiymətləndirmə şkalası;
- Meyar cədvəli;
- Test tapşırıqları;
- Özünüqiymətləndirmə vərəqləri.

### Summativ qiymətləndirmə zamanı daha çox istifadə olunan vasitələr

- Yoxlama yazı işləri üzrə qeydiyyət vərəqi;
- Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən edilmiş meyar cədvəli;
- Şifahi sorğu üzrə qeydiyyət vərəqi;
- Test tapşırıqları;
- Tapşırıq, çalışma;
- Rəsmlər, hazırlanan məmulatlar və digər əl işləri.

Hazırda test tapşırıqları qiymətləndirmə vasitəsi kimi genişmiqyaslı tətbiq olunsa da, müəllim diaqnostik, formativ və hətta summativ qiymətləndirmədə yalnız bir üsula məxsusi aludəçilik göstərməməli, şagirdlərin şifahi və yazılı nitq bacarıqlarını, məntiqi təfəkkürünü, müstəqil düşünmə qabiliyyətini inkişaf etdirən üsullardan – layihə (qiymətləndirmə vasitəsi – şagirdlərin təqdimatı və müəllimin tərtib etdiyi meyar cədvəli), şifahi sorğu (qiymətləndirmə vasitəsi – şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), yoxlama yazı işlərindən (imla, inşa, esse, məsələ və misal həlli) də istifadə etməlidir. Test tapşırıqlarının yalnız davamlı olmamaqla, yeri gəldikcə tətbiqi tövsiyə olunur.

## TƏLİM MƏQSƏDLƏRİNİN DÜZGÜN REALLAŞDIRILMASI İLƏ BAĞLI TÖVSİYƏLƏR

Məzmun standartlarının düzgün və vaxtında reallaşmasını təmin etmək üçün birinci şərt təlim məqsədlərinin düzgün yazılmasıdır. Yaxın və uzaq hədəfləri özündə birləşdirən məqsədlərin yazılması müəllimdən böyük istedad tələb edir. Bunun üçün müəllim tənqidi düşüncəyə, yaradıcı təfəkkürə, məntiqi əsaslanmaya, planlaşdırma bacarığına, perspektivi görmə istedadına malik olmalıdır. Təlim məqsədlərinin düzgün yazılmasının şərtləri aşağıdakılardır:

- təlim məqsədinin məzmun standartının tələblərinə uyğunluğu;
- məqsəd çıxararkən məzmun standartlarının qismən və ya bütövlükdə reallaşdırılacağının müəyyən edilməsi;
- məzmun standartlarındakı ümumi məsələlərin mövzu baxımından xüsusiləşdirilməsi;
- məzmun standartında biliyin kateqoriyalarının müəyyən edilməsi (deklarativ, prosedural, kontekstual);
- məzmun standartında bacarığın xüsusiyyətinin müəyyən edilməsi (idraki, emosional, psixomotor);
- hər məqsədin yalnız bir fəaliyyəti əks etdirməsi və ölçülə bilən olması;
- təlim məqsədlərinə uyğun şagird nailiyyətinin qiymətləndirilməsinin üsul və vasitələrinin seçilməsi.

Təlim məqsədləri yazılarkən mərhələlilik və əlaqəlilik mütləq nəzərə alınmalıdır. Məqsədlər taksonomiya – sadədən mürəkkəbə doğru zəncirvari, iyerarxiya üzrə inkişafı əks etdirən şəkildə yazılmalıdır. Təlim məqsədlərinin taksonomik quruluşu tədris prosesini planlaşdırmaq və onun nəticəsini ölçmək imkanı verir. Məqsədləri qruplaşdıran zaman sadədən mürəkkəbə prinsipi nəzərə alınmalıdır. Təlim məqsədlərinin, standartların (məzmun və qiymətləndirmə) və şagird fəaliyyətinin səviyyələndirilməsi zamanı hər üç taksonomiyadan istifadə etmək faydalı olardı:

- İdraki (təfəkkür, koqnitiv);
- Emosional (hissi, affektiv);
- Psixomotor (hərəki).

Vəsaitdə məqsədlər yazılan zaman standartların ardıcıllığı əsasında iyerarxik – pilləli, əlaqəli və taksonomiyanın mərhələlərinə uyğunluq gözlənilmişdir.

İstifadə olunan təlim texnologiyaları idrak (Blum) taksonomiyasının mərhələlərinə uyğun şəkildə seçilmiş və təsnif edilmişdir. Aşağıdakı cədvələ uyğun olaraq fəaliyyətlər təsbit olunmuş və mərhələlərə uyğun texnologiyalarla müşayiət edilmişdir.

| Bilmə | Şagird |
|---|---|
| Bu kateqoriya öyrənilmiş tədris materialının yadda saxlanılması və yenidən əks etdirilməsi, yada salınmasıdır. Bu kateqoriyanın tədris məqsədi lazımi məlumatların yada salınmasıdır. | istifadə olunan terminləri bilir;<br>konkret faktları bilir;<br>proseduru və metodları bilir;<br>əsas anlayışları bilir;<br>prinsipləri və qaydaları bilir. |
| Anlama | **Şagird** |
| Bu kateqoriya öyrənilmiş biliyin əhəmiyyətini başa düşməsi mərhələsidir. Onun göstərişi öyrənilmiş materialın bir formadan başqasına, bir dildən başqasına və ya yığcam izahata (nəticənin izahı) keçməkdir. Tədrisin belə nəticələri dərs materialının sadə yadda saxlanılmasından üstündür. | prinsipləri, qaydaları və faktları başa düşür;<br>materialı öz sözləri ilə izah edir;<br>sxemləri, diaqramları izah edir;<br>materialın sözlərlə izahını başqa anlayışlarla əvəz edə bilir;<br>əldə edilmiş biliklərdən gələcəkdə əldə edilə bilən nəticəni təsvir edir. |
| Tətbiqetmə | **Şagird** |
| Bu kateqoriya öyrənilmiş materialı yeni situasiyalarda, konkret şəraitdə tətbiq etmək bacarığıdır. Bura daxildir: prinsiplərin, qanunların, metod və üsulların tətbiqi. Tədris nəticələrinin, sadəcə, başa düşülməsi yox, onun daha yüksək səviyyədə nəticələrindən istifadə etmək qabiliyyətidir. | yeni şəraitdə prinsiplərdən və anlayışlardan istifadə edə bilir;<br>konkret praktiki situasiyalarda qanunları, nəzəriyyələri tətbiq edir;<br>prosedur və metodların düzgün tətbiqini nümayiş etdirir. |
| Təhliletmə | **Şagird** |
| Bu kateqoriya tədris materialını əsas hissələrə ayırmaq, onun strukturunu müəyyənləşdirmək bacarığıdır. Bura bütövün hissələrə bölünməsi, onların arasında əlaqələrin üzə çıxarılması, bütövün təşkili prinsiplərinin başa düşülməsidir. Bu zaman tədrisin nəticələri, sadəcə, başa düşmə və tətbiq etmək deyil, daha yüksək intellektual səviyyəyə uyğun olur. | gizli, gözə görünməyən təsəvvürləri açıqlayır;<br>məntiqi izahatda səhvləri və unudulmuşları görür;<br>faktlar və nəticələr arasında fərqi üzə çıxarır;<br>dəlillərin əhəmiyyətini qiymətləndirir. |
| Sintez | **Şagird** |
| Bu kateqoriya elementləri, hissələri birləşdirmək, yeniliyə malik bütövün əldə edilməsi bacarığıdır. Bu yolla müəyyən çıxış, məruzələrin hazırlanması və ya sxemlərin təşkili mümkündür. Beləliklə, təhsil nəticələri yaradıcı xarakter daşıyaraq, yeni sxem və strukturların formalaşmasına imkan yaradır. | kiçik yaradıcı xarakterli inşa yazır;<br>eksperimentin həyata keçirilmə planını təklif edir;<br>müəyyən problemin həlli üçün plan hazırlamaq üçün müxtəlif bilik sahələrindən istifadə edir. |
| Dəyərləndirmə | **Şagird** |
| Bu kateqoriya bu və ya digər materialın əhəmiyyətini qiymətləndirmə, əsaslandırma və onun izahı bacarığıdır. Şagirdin mühakiməsi dəqiq müəyyənləşmiş meyarlara əsaslanmalıdır. Meyarlar daxili və xarici struktura, məntiqi xüsusiyyətlərə malik ola bilər. Bu kriteriyalar şagirdin özü tərəfindən və ya kənardan (müəllim tərəfindən) müəyyənləşə bilər. | materialın məntiqi quruluşunu qiymətləndirir:<br>nəticələrin faktlara əsaslanmasını qiymətləndirir;<br>bu və ya digər fəaliyyət nəticəsində əldə edilmiş məhsulun keyfiyyətini meyarlar əsasında qiymətləndirir. |

| İdraki bacarıqlar | Təfəkkürün inkişaf mərhələləri |
|---|---|
| BİLMƏ | xatırlamaq, tanımaq, göstərmək, sadalamaq, adlandırmaq |
| ANLAMA | izah etmək, nümunə göstərmək, öz sözləri ilə təsvir etmək, fərqləndirmək |
| TƏTBİQETMƏ | həll etmək, istifadə etmək, cümlə qurmaq |
| TƏHLİLETMƏ | hissələrə ayırmaq, struktur müəyyənləşdirmək, müqayisə etmək |
| SİNTEZ | yaratmaq, plan tutmaq, tərtib etmək |
| DƏYƏRLƏNDİRMƏ | münasibət bildirmək, qərar qəbul etmək |

Praktika onu göstərir ki, məktəblərdə dərs deyən müəllimlər hələ də şagirdləri formativ qiymətləndirən zaman çox vaxt onları səviyyələr üzrə necə qiymətləndirəcəkləri ilə bağlı çətinlik çəkirlər.

**Hörməli müəllimlər!** Deyilənləri nəzərə alaraq sizlərə taksonomiya nəzərə alınmaqla aşağıdakı formada şagirdlərin dərs prosesində səviyyələr üzrə qiymətləndirilməsi üçün bir neçə nümunə təklif edirik.

Onu da deyək ki, mövcud olan standartlar heç də həmişə aşağıdakı nümunə formasında şagirdləri qiymətləndirməyə imkan vermir. Bununla belə, ümidvarıq ki, təqdim etdiyimiz nümunə sizə dərs prosesində şagirdləri formativ qiymətləndirən zaman yararlı olacaqdır.

### 2.1.2. STANDARTINA AİD QİYMƏTLƏNDİRMƏ NÜMUNƏSİ

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Xəritələrdə Azərbaycan ərazisində ilk insan məskənlərini, dövlət qurumları və qədim dövlətlərin yerini göstərir. | Xəritələrdə Azərbaycan ərazisində ilk insan məskənlərini, dövlət qurumları və qədim dövlətlərin yerini izah edir. | Xəritələrdə Azərbaycan ərazisində ilk insan məskənlərini, dövlət qurumları və qədim dövlətlərin yerini istifadə edir. | Xəritələrdə Azərbaycan ərazisində ilk insan məskənlərini, dövlət qurumları və qədim dövlətlərin yerini ***müəyyənləşdirir.*** |

Cədvəldən göründüyü kimi, IV səviyyədə 2.1.2. standartını olduğu kimi nümunə olaraq verilmişdir. Əslində, bu yerdə sizin keçiləcək dərsin standartınaa söykənən məqsədiniz olmalıdır. IV səviyyə taksonomiyanın TƏHLİLETMƏ səviyyəsini özündə əks etdirir. Belə olan halda taksonomiyaya söykənərək şagirdlərin TƏTBİQETMƏ (III səviyyə), ANLAMA (II səviyyə), BİLMƏ (I səviyyə) səviyyələrinə uyğun olaraq qiymətləndirilməsi tövsiyə olaraq sizlərə təqdim edilir.

### 3.1.3. STANDARTI ƏSASINDA QİYMƏTLƏNDİRMƏ NÜMUNƏSİ:

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Qədim Azərbaycan dövlətləri haqqında mənbələr əsasında məlumatlar toplayır və topladıqları məlumatları fərqləndirir. | Qədim Azərbaycan dövlətləri haqqında mənbələr əsasında məlumatlar toplayır və topladıqları məlumatları müqayisə edir. | Qədim Azərbaycan dövlətləri haqqında mənbələr əsasında məlumatlar toplayır, təqdim etmək üçün plan tərtib edir. | Qədim Azərbaycan dövlətləri haqqında mənbələr əsasında məlumatlar toplayır, ***təqdim edir.*** |

Cədvəldən göründüyü kimi, IV səviyyədə 3.1.3. standartından çıxış edən nümunə verilmişdir. IV səviyyə taksonomiyanın DƏYƏRLƏNDİRMƏ səviyyəsini özündə əks etdirir. Belə olan halda taksonomiyaya söykənərək şagirdlərin SİNTEZ (III səviyyə), TƏHLİLETMƏ (II səviyyə), ANLAMA (I səviyyə) səviyyələrinə uyğun olaraq qiymətləndirilməsi məqsədəmüvafiq hesab edilir.

### 4.1.1. STANDARTINA AİD NÜMUNƏ:

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Dövlətlərin yaranmasında, inkişafında tarixi şəxsiyyətlərin (İranzu, Tomiris, Atropat, Oroys və b.) rolunu göstərir. | Dövlətlərin yaranmasında, inkişafında tarixi şəxsiyyətlərin (İranzu, Tomiris, Atropat, Oroys və b.) rolunu öz sözləri ilə təsvir edir. | Dövlətlərin yaranmasında, inkişafında tarixi şəxsiyyətlərin (İranzu, Tomiris, Atropat, Oroys və b.) rolunu müəyyənləşdirir. | Dövlətlərin yaranmasında, inkişafında tarixi şəxsiyyətlərin (İranzu, Tomiris, Atropat, Oroys və b.) rolunu ***dəyərləndirir.*** |

Cədvəldən göründüyü kimi, IV səviyyədə 4.1.1. standartına uyğun nümunə verilmişdir. Bu nümunədə də şagirdlərin taksonomiyanın BİLMƏ (I səviyyə), ANLAMA (II səviyyə), TƏHLİLETMƏ (III səviyyə) və DƏYƏRLƏNDİRMƏ səviyyəsinə uyğun qiymətləndirilməsi məqsədəmüvafiqdir.

### 5.1.3. STANDARTINA AİD NÜMUNƏ:

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| **Mədəni əlaqələrə dair cədvəlləri göstərir.** | Mədəni əlaqələrə dair cədvəlləri öz sözləri ilə təsvir edir. | Mədəni əlaqələrə dair cədvəllərin strukturunu müəyyənləşdirir. | Mədəni əlaqələrə dair cədvəllər tərtib edir. |

Cədvəldən göründüyü kimi, IV səviyyədə 5.1.3. standartından çıxış edən nümunə verilmişdir. IV səviyyə taksonomiyanın SİNTEZ səviyyəsini özündə əks etdirir. Belə olan halda taksonomiyaya söykənərək şagirdlərin TƏHLİLETMƏ (III səviyyə), ANLAMA (II səviyyə), BİLMƏ (I səviyyə) səviyyələrinə uyğun olaraq qiymətləndirilməsi məqsədəmüvafiq hesab edilir.

## İNTERAKTİV TƏDRİS FORMASI

Müstəqil Azərbaycan təhsil sisteminin beynəlxalq sistemə inteqrasiyası üçün bu sahədə köklü dəyişikliklər, islahatlar gedir. Bu islahatların məqsədi demokratik cəmiyyət üçün sağlam düşüncəli, sərbəst fikir söyləmək qabiliyyətinə malik, ətrafda baş verən hadisələrə tənqidi yanaşmağı, münasibət bildirməyi bacaran gənclər yetişdirməkdir. Elm və texnikanın inkişafı, informasiya bolluğu böyüməkdə olan gənc nəslə imkan verir ki, hadisələrin məcrasında bilavasitə özləri iştirak etsin, baş verən hadisələrdən nəticə çıxarmağı bacarsınlar. Onları bu sahədə düzgün istiqamətləndirmək isə məktəbin, müəllimlərin öhdəsinə düşür.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, yeni əsrdə cəmiyyətin və insanların inkişafı üçün yaradıcı, müstəqil düşünən və inkişaf edən şəxsiyyət formalaşmalıdır. Müasir şəxsiyyəti hafizənin gücləndirilməsinə və yalnız informasiya toplanılmasına yönəlmiş, real həyatın tələblərini nəzərə almayan təlim şəraitində tərbiyə etmək mümkün deyildir. Yəni ənənəvi dərsdə təlim, yadda saxlama qabiliyyətinə əsaslanır, şagird materialın təhlilini, təsvirini, nəticələri və ümumiləşdirmələri hazır şəkildə alır. Həyatın belə bir dinamik inkişafında həmişə ənənəvi dərs metodlarından istifadə bugünkü məktəbliyə cansıxıcı, darıxdırıcı görünür, onların dərsə olan marağını azaldır.

Beləliklə də, məktəb dövründə həyat üçün gərəkli olan, əldə etməli olduqları bilik və bacarıqlarda boşluq yaranır. Həmin vaxt ikinci dərəcəli işlərə yönəldilir ki, bu da yaranmış boşluğu doldurur.

Bu gün məktəblidə elmə marağı artırmaq, onlarda yaradıcı fəaliyyət bacarığı tərbiyə etmək, humanist dünyagörüşü, milli özünüdərk, vətəndaşlıq mövqeyi, milli dəyərlərə hörmət və məhəbbət hissi formalaşdırmaq günün ən aktual problemlərindəndir. Bu baxımdan əməkdaşlığa, tənqidi və yaradıcı təfəkkürün inkişaf etdirilməsinə əsaslanan yeni təlim metodları mühüm əhəmiyyət kəsb edir.

Əlbəttə, biz bunu deməklə ənənəvi dərs metodlarını kölgədə qoymaq istəmirik. Bö-

yük bir nəsil məhz bu metodlarla formalaşmış, cəmiyyətin inkişafında xüsusi rol oynamışdır. Sadəcə, həyatın elə məqamları, elə dövrü var ki, hər bir cəmiyyət özünə lazım olan şəxsin formalaşmasını diktə edir. Bu gün bazar iqtisadiyyatına keçid, demokratik cəmiyyət qurulması hadisələri olduğu kimi qəbul etməyi deyil, ona tənqidi yanaşmağı, öz münasibətini bildirməyi bacaran sərbəst düşüncəli, azad fikirli şəxsiyyətin yetişdirilməsini tələb edir.

Bunun üçün biz tədris prosesinin hər sahəsini, hər mərhələsini aktiv öyrənmə ilə zənginləşdirə bilərik. İnteraktiv təlimdə yalnız məzmunu deyil, həm də prosesi düşünməliyik. Bu, şagirdləri daha çox maraqlandırsa da, onların öyrənmə prosesinə nəzarət imkanı verir.

Aktiv öyrənmə bütün öyrənənlərdə tədrisə böyük həvəs oyatmaqla yanaşı, onların diqqətlərini öyrənmələrinə yönəltməyə təşviq edir. Aktiv öyrənmə intellektual cəhətdən stimullaşdırır. Bu yanaşmanı qəbul etməklə şagirdlərimizlə akademik müzakirəni inkişaf etdirə, müəllim olaraq bu prosesdən zövq ala bilərik. Sağlam müzakirə öyrənmə prosesində şagirdlərin müəllimlə birgə məşğul olmasıdır.

Aktiv öyrənmə şagirdlərdə analitik bacarıqları inkişaf etdirərək, onlara problemləri daha yaxşı həll etməyə və öz biliklərini daha səmərəli tətbiq etməyə yardımçı olur. Çətin və gözlənilməz vəziyyətlərə hazırlayır. Nəticə etibarilə şagirdlər özlərinə daha çox güvənərək öyrənməyə davam edir, məktəbi bitirdikdən sonra ali təhsil ocağına və iş yerinə keçid üçün daha hazırlıqlı olurlar.

## İnteraktiv təlim prosesində müəllimin rolu

Dərs prosesində fasilitator rolunu oynayan müəllim dərslikdə verilən materialla yanaşı, keçiləcək mövzu ilə bağlı əlavə maraqlı məlumata da malik olmalıdır. Qəbul etmək vacibdir ki, aktiv öyrənmə strategiyalarından istifadə müəllimin rolunu kökündən dəyişdirir. “Müəllim yönümlü” tədris əvəzinə, müəllim şagirdlər üçün bələdçi rolunu oynayır.

Bunun üçün müəllim aşağıdakıları etməlidir:

- Şagirdlərə dərsdə yeni materialı necə öyrənmənin faydalı olduğunu xatırlatmalı;
- Müxtəlif növ mənbələrdən tarixi məlumatların əldə edilməsi yollarına dair göstərişlər verməli;
- Şagirdlərin dərsin ümumi məqsədini bilmələrinə əmin olmalıdır. Bunun üçün fəaliyyətə başlamalarından əvvəl şagirdlərə bəzi təlimatları, əsas anlayışları, hədəfləri, meyarları xatırlatmaq məqsədəmüvafiqdir.
- Tədrisi “dəyişmənin” yollarını tapmalıdır. Şagirdlərə kitablar, məqalələr, veb-saytlar yaratmaq və ya onları təqdim etmək tapşırığı vermək yaxşı olardı. Bu zaman onlar (səviyyəsindən asılı olmayaraq) daha yüksək səviyyəli təfəkkürə söykənməklə yeni dərsi əvvəlcədən öyrənə və dərsə hazır gələ bilərlər. Bunun üçün çox diqqətli düşünmək lazımdır: şagirdlər nə araşdırmalı olduğuna dair konkret bir təlimat almalıdırlar. Əgər şagirdlər müəllimindən lazımi qədər dəstək almazlarsa, onların araşdırmaları məqsədsiz və yöndəmsiz olar.

• Tarixi mövzuda tədqiqatların aparılmasının, tezislərin, proyektlərin və təqdimatların hazırlanmasının və s. yollarını öyrətməyə, bu sahədə şagirdlərə lazımi dəstək verməyə hazır olmalı;

• Birgə öyrənmə üçün münasib şərait yaratmağa kömək etməlidir. Əgər müəllim şagirdlərin yaradıcı yanaşmada və fikir mübadiləsində özlərini inamlı və rahat hiss etməsini istəyirsə, onda dinləmənin və bölüşmələrin qarantı kimi sinifdə dəstəkləyici davranış qaydaları qurmalıdır. Fəal öyrənmə mühiti şagirdləri risk etməyə və mülahizələrini irəli sürməyə sövq edir. Bu zaman onların özlərini rahat hiss etmələrinə əmin olmaq lazımdır. Əgər şagirdlər nədənsə çəkinsələr və ya özlərini təzyiq altında hiss etsələr, effektiv öyrənmə alınmayacaq.

• Şagirdlərin marağını stimullaşdıran cəlbedici öyrənmə mühiti yaratmalıdır. Öyrənənlər onu yeni bir formaya salmaq imkanı olan materialla fəal çalışırlar. Bunun üçün çox diqqətli bir planlaşdırma lazımdır.

• Ayaq üstə düşünün: şagirdlərdən yaradıcı olmağı xahiş etdiyiniz zaman bəzən onların yanaşmalarına təəccüblənirsiniz! Bu, mürəkkəb olsa da, onların öyrənmələrinin qiyməti risk etməyə dəyər.

• Sinfin bütün üzvlərinin öyrənmə ehtiyaclarını diqqətdə saxlamaq lazımdır. Fərqləndirilmiş ehtiyaclara cavab verən aktiv öyrənmə strategiyaları hazırlamalıdır.

• Dərsi həssas bir mövzuya yönəltmək, yanlış təsəvvürləri və ya faktiki səhvləri düzəldə bilmək üçün lazımi məlumatlara malik olmalıdır.

• Sinifin bütün üzvlərinin uğurlu nəticələr göstərməsinə yardımçı olmaq üçün şagirdlərin işləri yoxlanmalıdır. Dərsdə şagirdlərin bilməsini və anlamasını qiymətləndirmək üçün imkan tapmaq lazımdır.

• Şagirdləəri müzakirəyə, təhlil etməyə, səbəb və nəticə əlaqələrini müəyyənləşdirməyə, müqayisələr aparmağa, tarixi şəxsiyyətlərin fəaliyyətini qiymətləndirməyə, sual verməyə sövq etməlidir;

• Əməkdaşlıq fəal öyrənmənin vacib bir tərəfidir. Sadəcə, müəllimi dinləmənin əvəzinə, şagirdlər fikirlərini bir-biri ilə bölüşəcəklər. Buna kömək etmək üçün müəllim sinfin quruluşu barədə düşünməlidir. Şagirdlərin həmyaşıdları ilə fikirlərini bölüşmək, həm də müəllimin göstərişlərini dinləmək imkanları olmalıdır. Bəzi şagirdlər fikirlərini bölüşməkdə çətinlik çəkirlər. Hansı şagirdin necə işlədiyini, birlikdə çalışıb-çalışmadıqlarını onlara aydın şəkildə necə çatdıracağınızı anlamaq üçün diqqətlə düşünmək lazım gələcəkdir.

• Qruplaşdırma çox vacibdir. Bu zaman müəllim daha az idarəedici kimi çıxış etməli, şagirdlər həmyaşıdları tərəfindən dəstəkləndiklərini hiss etməlidirlər.

**Qrup işi zamanı fikir verin:**

– Hansı şagird yaxşı dinləyir?

– Kim daha sakit və ya özünə daha az güvənən şagirdlərin öyrənməsini dəstəkləyə bilər?

– Hansı biri öz biliklərinə arxayın olaraq daha az qabiliyyətli şagirdlərə yaxından yardım edə bilər?

### Müəllim məsləhəti

Davamlı peşə inkişafı müəllimlər üçün olduğu kimi şagirdlərimiz üçün də təlimin və tədrisin keyfiyyətinin artırılmasına yönəlmiş uzunmüddətli bir prosesdir. Bu, tez-tez yeniliyi və əməkdaşlığı inkişaf etdirməklə həyata keçirilir. Müxtəlif tipli məlumatların əldə edilməsi məktəbinizdə və ya daha geniş yerli və ya milli səviyyədə öyrənməyinizə fayda gətirəcəkdir. Məktəbinizdə peşəkar şagird birliyini inkişaf etdirilməsi sizə uğurlu təcrübələri bölüşmək və öyrənmə yanaşmalarını, fərqli mövzu sahələrində araşdırmalar aparmağa imkan verə bilər.

Tarixin səmərəli tədrisi üçün fəal-interaktiv metodların tətbiqi şəxsiyyətin formalaşmasına və inkişafına kömək edir. Hazırda tarixin tədrisində əsas məqsəd ondan ibarətdir ki, dərs şagirdyönümlü, standartlara və məqsədə uyğun olsun.

İnteraktiv təlim metodları ilə işləmək üçün aşağıdakı prinsipləri gözləməyiniz yaxşı olardı:

*1. Fəal təlim üçün iş formalarının müəyyənləşdirilməsi;*

*2. Fəal dərsin mərhələləri;*

*3. Fəal dərsin strukturu.*

İnteraktiv metoda müxtəlif növ üsullar, iş formaları daxildir. Fəal-interaktiv üsullara rollu oyunlar, modelləşdirmə, diskussiyalar, debat, akvarium, xəritə üzərində iş və s. daxildir. Üsullarla yanaşı, iş formaları, fərdi, cüt, qrup və kollektiv iş formalarının da müasir təlimdə tətbiq olunması zəruri hesab olunur. Bu cür metodlar şagirdlərdə nəinki dərsə marağı artırır, həm də daha dərindən mənimsəməni, vətəndaşlıq vərdişlərinin tərbiyələndirilməsini və demokratik dəyərlərə bağlılığı təmin edir. İnteraktiv metodikanın tətbiqi nəticəsində müasir dərs şagirdlərdə araşdırma və nəticə çıxarma bacarığını formalaşdırır.

**Ardıcıl suallar üsulu.** Şagirdlərə mətni birgə diqqətlə oxumağa, onu düşünməyə köməklik edir. Şagirdlər növbə ilə lazım olan mətni hissə-hissə ucadan oxuyurlar. Bir abzas oxuduqdan sonra ikinci şagird oxunan hissədən sual verir, birinci şagird onun sualını cavablandırır. Sonra onlar rollarını dəyişirlər. Sual verən şagird oxumağa davam edir, ikinci isə oxunan abzasdan ona sual verir.

**Mətndə əsas (açar) sözlərin araşdırılması üsulu.** Əsas sözlər və söz birləşmələri təlim materialını yadda saxlamağa kömək edir. Bu dəstək sözlərin köməyi ilə mətnin əsas məzmununu asanlıqla bərpa etmək olar. Şagirdlər mətndə əsas sözləri seçib onları vərəqə (dəftərə) köçürürlər. Adətən, əsas anlayışlar dərslikdə qalın şriftlə verilir. Əsas sözlər məlumatın sonradan açılması üçün seçilir. Seçilmiş dəstək sözlərə əsaslanaraq şagirdlərə mətnin hissəsini danışmaq təklif oluna bilər. Mətn üzrə əsas sözlər şifahi cavabın əsası ola bilər.

**Açar sözlər əsasında dərsliyin mətninə suallar tərtib edilməsi.** Bu metod şagirdlərdə suallar hazırlamaq vərdişlərini inkişaf etdirir. Şagirdlər növbə ilə mətni abzasla oxuyurlar, birlikdə bu abzasdan açar sözləri seçir və onu iş vərəqlərinə yazırlar. Termin

sözlərdən suallar tərtib edirlər. Onları çoxda böyük olmayan vərəqlərə yazırlar. Şagirdlərdən biri bu sualı oxuyur, ikincisi ona cavab verir. Əgər cavab düzgün kimi qəbul edilirsə, vərəqin arxa tərəfinə yazılır. Bu cavab kartını şagirdlər sonradan mövzu üzrə biliklərini yoxlamaq üçün istifadə edə bilərlər.

**Planın və köməkçi sxemlərin tərtib edilməsi.** Plan və sxemlər əsas olanı əsas olmayandan ayırmağa, mətnin əsas məzmununu müəyyən etməyə, hissələrin qarşılıqlı əlaqələrini araşdırmağa kömək edir. Bunlar hamısı materialın sistemləşdirilməsinə gətirib çıxarır.

Plan – mətnin struktur məzmunun təşkilini (mikromövzuların ardıcıllığını, onların qarşılıqlı əlaqələrini) əks etdirən xüsusi bir sxemdir.

**Birlikdə oxuyaq.** Metodik üsul bu və ya digər informasiyanın, sadəcə, təkrarlanmasını deyil, təlimi başa düşmək səviyyəsinə yönəltməyə imkan verir. Metodun istifadə edilməsi şagirdlərin müxtəlif növ fəaliyyətlərinin təşkilinə imkan verir: biri mətni oxuyur və oxuduqlarını izah edir, digəri isə mətnə aid suallar hazırlayır. Bu zaman tapşırıqdan asılı olmayaraq, bütün şagirdlər mətni dərindən düşünməli, onu qruplaşdırmalı, suallar verməli və onları cavablandırmalıdır.

**Mətnə əsasən cədvəlin doldurulması.** Cədvəllər mətnin əsas ideyasını aşkar etməyə imkan verir. Mətnlə işləyən zaman bir neçə növ cədvəldən istifadə oluna bilər: sadalanan obyektlərin, anlayışların, təriflərin cədvəlin müvafiq sütunlarına yerləşdirilməsi, müqayisə olunan obyektlərdə (qruplarda) müəyyən əlamətlərin olub-olmaması, göstərilən alqoritmlə qismən doldurulmuş cədvəli bitirmək və s. Bu və ya digər proseslər haqqında məlumatlar olan mətnlə işlədikdə işin gedişi boyunca "Nə? Harada? Nə zaman? Hansı səbəbdən?" cədvəlini doldurmaq olar:

| Nə? | Harada? | Nə zaman? | Hansı səbəbdən? |
|---|---|---|---|
| | | | |

**Karvan üsulu.** Bu stansiyalarla iş üsuludur. Şagirdlər 4 qrupa ayrılırlar, 4 flipçartda hərəsində mövzu ilə bağlı bir sual qoyulur. Qruplar növbə ilə saat əqrəbi istiqamətində suallara, ən azı, 3 cavab yazırlar. Sonra növbə ilə digər qrupların cavablarını qiymətləndirərək öz cavablarını yazırlar. Hər cavabın qarşısında üç işarədən biri qoyulur: razıyam (✓), razı deyiləm (-), başa düşmədim (?) işarəsi qoyulur. Qruplara fərqli qələmlər verilir: qırmızı, qara, göy, yaşıl və ya başqa rəng. Sonda müəllim müzakirə keçirir. İşarələrin mənası açılır. Hər qrup işini müdafiə edir. Qruplarda olan üzvlərə iş tapşırıla bilər: vaxta nəzarət edən, qeydlər aparan, təqdimatçı, nəzarətçi və s. Üsulun digər üsullardan ən üstün cəhəti ondan ibarətdir ki, heç kim boş qalmır, hamı müəyyən bir işlə məşğuldur.

**Bilinqvial təlim metodu.** Bu metod çoxdilli təlimdir. Bu təlim zamanı şagirdlər problemlə bağlı bir videonu xarici dildə izləyirlər. Əsas açar sözləri qeyd edirlər. Şagirdlərə problemin mahiyyətini açmaqda müəllim də yardım edir. Bununla da şagirdlər fənlə bağlı bəzi informasiyaları xarici dillərdə də mənimsəyirlər.

Müəllimlərimiz artıq kurikulum üzrə tarix dərslərinin təşkilində müəyyən təcrübə qazanmışlar. Bu metodik vəsaitdə verilmiş dərs nümunələrinə, eləcə də fəal/interaktiv dərsin quruluşunu əks etdirən cədvəldəki tövsiyələrə təlim prosesində yaradıcı yanaşılmalıdır. Metodik tövsiyələrdən bəhrələnən müəllim dərs dediyi sinfin hazırlıq səviyyəsindən, qarşıya qoyduğu məqsəddən çıxış edərək özü dərs nümunələri yarada bilər.

**Proqnozlaşdırılmış oxu.** Məzmunun mənimsənilməsinə həsr olunan dərsdə mövzudan bir hissə oxunur, fasilə edilir və şagirdlər hadisələrin sonrakı inkişafı barədə fərziyyələrini dəftərlərindəki proqnoz cədvəlində qeyd edirlər. Mövzunun hissələri "Sizcə, nə baş verəcək?, Nə üçün belə düşünürsünüz?, Nə baş verdi?, Hadisə necə davam edərdi?" kimi suallarla cavablandırılmaqla davam edə bilər.

**İkihissəli gündəlik.** Bu iş növünün yalnız "sitat" və onun «şərhi» (yəni mətndən sitat seçilir və nə üçün seçilməsinin səbəbi şərh olunur) kimi qələmə verilməsi onun imkanlarının məhdudlaşdırılması deməkdir. Şagirdlər bu gündəlikdə («şərh» bölməsində), yeri gəldikcə, müstəqil aydınlaşdıra bilmədikləri sualları da yazırlar. Eləcə də mətndən seçilərək yazılan qeydlər şagirdlərdə hansı hiss və düşüncə oyadıbsa, həyat təcrübəsi ilə səsləşibsə, yadına müəyyən əhvalat salıbsa və s. gündəliyin şərh bölməsində yazıla bilər. Təcrübə göstərir ki, cədvəlin birinci tərəfində "mövzuda diqqətimi daha çox cəlb edənlər", ikinci tərəfdə "bunun səbəbi" yazılması məqsədəuyğundur. "İkihissəli gündəlik" müxtəlif formalarda tətbiq oluna bilər. Şagirdlər mətni oxuya-oxuya gündəlikdə müvafiq qeydlər aparırlar. Mövzunun oxunması, qeydlərin aparılması başa çatdıqdan sonra şagirdlər yenidən mətnə müraciət edir, qeydlərini zənginləşdirirlər.

**Restavrasiya üsulu.** Bu üsul şagirdlərə mətnlə işləməklə yanaşı, konspekt yazmaq və ondan istifadə etmək bacarığını da formalaşdırır. Bunun üçün onlara xüsusi şəkildə işarələnmiş, şərti işarələri olmayan, ixtisar edilmiş mətn verilir. Şagirdlər müəyyən edilmiş vaxt çərçivəsində mətni bərpa edib genişləndirməlidirlər.

**Mühazirə üsulu.** Mühazirə üsulu müəllimdən şagirdə məlumatın ötürülməsi üsuludur. Digər fənlərdə olduğu kimi, Azərbaycan tarixi fənninin tədrisində də bu üsuldan geniş istifadə edilir. Araşdırılacaq problemlə bağlı şagirdin təsəvvürünün formalaşdırılması üçün, problemin həllinin qısa yolla izahı və məlumatı çatdırmaq üçün istifadə edilir. Mühazirələr 10-15 dəqiqə ərzində aparılır.

Mühazirə deyərkən aşağıdakıları nəzərə almaq tövsiyə edilir:

- Mühazirənin məqsəd və vəzifələrini dəqiq müəyyənləşdirmək;
- Plan tərtib etmək və onu şagirdlərə paylamaq (və ya lövhədə yazmaq);
- Əyani və texniki vasitələrdən istifadə etmək.

Müəllim mühazirə prosesini verbal (suallar vermək) və vizual (şagirdlərin üz ifadəsini və jestlərini müşahidə etmək) olaraq tənzimləməlidir.

**Müzakirə.** Azərbaycan tarixi fənninin tədrisində müzakirə mövzu ətrafında ideya, məlumat, təəssürat, təhlil və təkliflərin qarşılıqlı mübadiləsidir. Onun əsas vəzifəsi problemi təhlil edərək həlli yolunu tapmaq, düzgün qərar qəbul etmək üçün imkan yarat-

maqdır. Müzakirə dinləmək, təqdim etmək, sual vermək mədəniyyətini formalaşdırır, şagirdlərin məntiqi və tənqidi təfəkkürünü, şifahi nitqini inkişaf etdirir. Müzakirə apararkən əvvəlcədən şagirdlərə müzakirə qaydaları xatırladılır. Mövzu aydın şəkildə ifadə olunur. Müzakirə prosesini inkişaf etdirən suallar vermək və şagirdlərin cavablarını nəzərdən keçirməklə müəllim müzakirəni tənzimləyir. Bu zaman cavabı "bəli" və ya "xeyr" olan qapalı suallar vermək məqsədəuyğun hesab edilmir.

**Diskussiya.** İnsan hüquqları üzrə təlimin ən mühüm metodik üsullarından biridir. Diskussiya müstəqil metodik üsul kimi, eləcə də fəaliyyətin digər növlərinə əlavə kimi tətbiq edilə bilər. Diskussiya prosesində şagirdlər müzakirə olunan bu və ya digər məsələ barədə öz fikirlərini söyləməklə, öz baxışlarını əsaslandırmağı, faktları təhlil etməyi öyrənirlər. Bu zaman dinləmək və növbə ilə danışmaq bacarığı, başqa baxışlara dözümlülük, diskussiya mədəniyyəti kimi vərdişlər inkişaf etməyə başlayır.

Diskussiya mədəniyyəti olduqca vacib və geniş bir məsələdir. Diskussiya mədəniyyətinin mühüm cəhətlərindən biri başqalarının fikir və əqidəsinə dözümlü münasibətdir. Bu çoxcəhətli anlayış yalnız əxlaqi-normativ məzmuna deyil, həm də dərin sosial-pozitiv məzmuna malikdir, belə ki o, ilk növbədə, ünsiyyət prosesini pozan mütləq dözümsüzlük amilinin antitezası kimi çıxış edir.

Yuxarıda göstərilən vərdişlərə (dinləmək bacarığı, başqa baxışlara dözümlülük və s.) nail olmaq üçün şagirdlərə diskussiya aparmağı öyrətmək lazımdır. Müəllim şagirdlərə təklif edə bilər ki, diskussiya aparmaq qaydalarını özləri tərtib etsinlər.

Şagirdlər "əqli hücum" üsulu ilə diskussiyanın uğurla aparılmasına kömək edə biləcək təklifləri irəli sürürlər. Qaydalar aşağıdakılardan ibarət ola bilər:

- ✓ eyni vaxtda yalnız bir nəfər danışa bilər;
- ✓ danışanı dinləmək;
- ✓ sözü kəsməmək;
- ✓ tənqid edəndə danışanı deyil, fikri tənqid etmək;
- ✓ reqlamenti nəzərə almaq;
- ✓ heç kəsi məsxərəyə qoymamaq;
- ✓ söz demək istədikdə əl qaldırmaq və s.

Müəllim bu qaydaları iri vərəqdə yaza, sinifdə divardan asa bilər. Bu qaydaları dərs ilinin axırına qədər saxlamaq olar ki, sonralar ona istinad etmək və ya ona əlavələr və düzəlişlər etmək mümkün olsun.

Diskussiyanın gedişinin düzgünlüyünün qiymətləndirilməsi:

- ✓ düzgün təriflər, aydın mülahizələr;
- ✓ yadda qalan və aktual misallar;
- ✓ sanballı dəlillər və analogiyalar;
- ✓ ümumiləşdirmə aparma və yekun vurma bacarığı;
- ✓ başqalarını dinləmək bacarığı.

Diskussiya vaxtı düzgün olmayan hərəkətlərə – mülahizələrdə təkrarlar, mövzuya aid olmayan faktlar, anlaşılmaz müddəalar, dəlillərin yoxluğu, mövzudan qaçma, çıxış edənləri günahlandırma, şəxsi təhdid və s. aid edilə bilər.

**Prezentasiya.** Fəal təlim üsulları ilə aparılan dərslərin mühüm elementlərindən biridir. Bu zaman şagirdlər tədqiqat fəaliyyətinin nəticələrini təqdim edirlər. Təqdimat şifahi,

yazılı, vizual, rollar üzrə oyun və s. formalarda ola bilər. Şagirdlər təqdimatı fərdi şəkildə və ya qrup halında keçirə bilərlər.

Müəllim təqdimatın növünü və onun keçirilmə şəraiti və şərtlərini şagirdlərlə birgə müəyyən edir. Şagirdlərin özü təqdimatın elə bir üsulunu seçə bilərlər ki, gördükləri iş barədə səmərəli şəkildə danışmaq və öz biliklərini bölüşdürmək üçün şərait və imkanları olsun. Şagird öz biliklərini və əqli vərdişlərini başqalarına ötürə bilmək üçün zəruri ünsiyyət vərdişlərinə malik olmalıdır.

Ünsiyyətin ən vacib ünsürlərindən biri şagirdin öz fikirlərini dəqiq və aydın ifadə edə bilməsidir. Şərhin aydınlığı informasiyanın təşkilindən asılıdır. Yaxşı təşkil edilmiş təqdimatın zəruri şərtləri – problemin mahiyyəti üzərində fikri cəmləyə bilmək bacarığı, faktiki informasiyaya əsaslanan başlıca ideya və nəticələrə dəstək verən münasib nümunə və misalların mövcudluğudur. Yaxşı təşkil edilmiş təqdimat onun növündən asılı olmayaraq, şagirdlərin biliklərinin və əqli vərdişlərinin yüksək səviyyəsini göstərir.

Təqdimatın hər bir növünün müəllimin nəzərə almalı olduğu özünəməxsus qaydaları və ənənələri vardır. Məsələn, şifahi təqdimat keçirilərkən səsdən, jestlərdən, foto, video və digər əlavə materiallardan bacarıqla istifadə, illüstrasiyaların, fotoşəkillərin seçimi və s. faktlar nəzərə alınmır.

Formalaşmış ünsiyyət vərdişlərinə malik olan şagirdlərin təqdimatı öz dəqiqliyi və yaxşı təşkil olunması, bu və ya digər təqdimat formasının keçirilməsi üzrə qaydalara və ümumi normalara riayət olunmasına xüsusi diqqətcilliyi ilə seçilir. Bu cür təqdimatlar həm də materialın dəqiq şərhi, informasiyanın bacarıqla təşkili, illüstrasiya və nümunələrin yüksək keyfiyyəti, çıxarılan nəticələrin mükəmməlliyi ilə diqqəti cəlb edir. Artıq deyildiyi kimi, göstərdiyimiz bütün metodik üsullar fəal (interaktiv) xarakterə malikdir.

**Sorğu vərəqləri və müsahibə.** Bu üsullar araşdırılan məsələ ilə bağlı fakt və hadisələr haqqında müəyyən qrupların ictimai rəyini öyrənmək məqsədilə aparılır. Sorğu vərəqi Azərbaycan tarixi fənninin tədrisində araşdırılan məsələ ilə bağlı tərtib edilir və burada suallar qoyulur. Sorğuda iştirak edənlər bu vərəqi müstəqil doldurur. Müsahibə isə araşdırılan məsələ ilə bağlı məlumat almaq üçün aparılır.

Bu üsullardan istifadə edərkən aşağıdakı mərhələlər gözlənilərsə, daha doğru olar:

1. Problemi müəyyən etmək;
2. İşi təşkil etmək (sorğu və ya müsahibə keçirmək üçün suallar hazırlamaq);
3. Məlumatları toplamaq (sualların cavablarını toplamaq);
4. Əldə edilmiş məlumatları təhlil etmək və ümumləşdirmək.

**“Üç cümlə” üsulu.** Şagirdlərə verilmiş tapşırığı əsaslandırılmış şəkildə daha qısa həcmdə həll etmək tövsiyə edilir. Kim hekayəni daha qısa yazıbsa, o qalib gəlir. Bu zaman məzmun əsas götürülür.

**Xəritələrlə iş.** Tarixi məlumatın şagirdlərin yaddaşında möhkəmləndirilməsində mühüm vasitələrdən biri də xəritələrlə işdir. Xəritələrlə iş mühüm hadisələri məkanla (hadisə yeri ilə), həmçinin müasir dövrlə əlaqələndirməyə imkan verir.

Şagirdlərə müxtəlif mürəkkəblik səviyyəsi olan tapşırıqlar verilir:

1. Xəritədə dünyanın hansı hissəsi təsvir olunur?

2. Öyrənilən ölkənin ən şimal, cənub, şərq və qərb nöqtələrini müəyyənləşdirin.

3. Xəritə üzrə öyrənilən ölkənin və ya yerin təbii şəraitini təsvir edin.

4. Ərazinin təbii şəraitinə əsasən buranın yerli əhalisi üçün hansı fəaliyyət növü daha sərfəli olardı?

5. Mühüm ticarət yollarının, hərbi yürüşlərin, dəniz ekspedisiyalarının və s. marşrutların hansı ölkələrdən keçdiyini xəritədə müəyyən edin.

6. Problemin həlli üçün xəritələrin müqayisəli təhlilindən istifadə edin.

7. Müqayisədə öz mövqeyinizi xəritənin köməyi ilə əsaslandırın.

8. Göstərilən ərazidə hansı müasir ölkələrin yerləşdiyini müəyyənləşdirin.

Bu prosesdə fəallıq növləri: qruplarda xəritə üzrə fikir mübadiləsi, xəritə haqqında rəy, kontur xəritələrlə iş, xəritənin yaradılması (əgər proqramda xəritə yoxdursa) və s. ibarətdir.

**Zaman oxu ilə iş.** Zaman oxu ilə işin təşkili Azərbaycan tarixi fənninin şagirdlərə öyrədilməsində ən əhəmiyyətli məsələlərdən biridir. Şagirdlərə müxtəlif mürəkkəblik səviyyəsi olan tapşırıqlar verilir:

1. Zaman oxunda hansı tarixlər qeyd olunub?
2. Nəyə görə orada məhz bu tarixlər göstərilib?
3. Bu tarixlərdən hansı ən ilkindir (sonuncudur)?
4. Ən ilkin (son) tarixdən bu günə kimi neçə il keçib?
5. Zaman oxunda göstərilən bir hadisə ilə digəri arasında neçə il var?
6. Zaman oxunda bir neçə hadisədən hansı ən tez (və ya gec) baş verib?

Dərslikdə yoxdursa, zaman oxunun ilk mənbələr, ədəbiyyat, xəritələr və digər sənədlərdən götürülmüş tarixlər hesabına tərtib edilməsi və onunla işin təşkili vacib məsələlərdən biridir.

**İNSERT.** Bu üsuldan dərsin dərketmə mərhələsində istifadə olunur. O, oxu zamanı şagirdlərin öz qavrayışını yoxlamasına imkan yaradır. Bu üsuldan istifadə iki mərhələdə həyata keçirilir. Birinci, üzərində əməliyyat aparılacaq mətn, istifadə olunacaq zəruri işarələr (bu işarələr şagirdlərin yaşına və hazırlıq səviyyəsinə görə müxtəlif ola bilər) müəyyən olunur. İkinci, şagirdlər tapşırığın məzmunu ilə tanış olur və onu yerinə yetirirlər. Məsələn,

- Əvvəldən bildiyiniz bir məlumatı təsdiq edən əlavə məlumatlara rast gəlmisinizsə, yoxlama işarəsi (✓) qoyun.
- Oxuduğunuz məlumatlar əvvəllər bildiyinizi rədd edirsə, yaxud ona ziddirsə, mənfi (–) işarəsi qoyun.
- Müsbət (+) işarəsi o zaman qoyulur ki, rast gəldiyiniz məlumat sizin üçün təzə olsun.

**Rollu oyunlar.** Rollu oyunlar təlim qeyri-dildə olan məktəblərdə Azərbaycan dilinin tədrisinin səmərəliliyini yüksəldir. Şagirdlərə özləri və ətrafdakılar haqqında şifahi məlumat əldə etməyə, danışıq səslərini, sözləri düzgün tələffüz etməyə imkan verir. İfadəli nitq bacarıqlarının formalaşması və inkişafına təsir göstərir. Dialoq qurma tapşırıqları bura aid edilə bilər.

**Tarixi mənbələrlə iş.** Tarixi məlumatın şagirdlərin yaddaşında möhkəmləndirilməsində mühüm vasitələrdən biri də tarixi mənbələrlə işdir. Mənbələrlə iş şagirdlərdə

tədqiqatçılıq bacarığının inkişaf etdirilməsi ilə yanaşı, onları tənqidi düşünməyə sövq edir. Bu zaman şagirdlərə müxtəlif mürəkkəblik səviyyəsi olan tapşırıqlar verilir.

Tarixi mənbə ilə iş zamanı şagirdlərə verilə biləcək sual və tapşırıqlar:

– Başlığı oxuyun (əgər o varsa);

– Tarixi mənbənin növünü adlandırın. O hansı şəraitdə yaranıb? Mənbənin yaradılmasının məqsədi nə olub?

– Mənbənin müəllifinin adını oxuyun (əgər o varsa). Onun haqqında sizə nə məlum olduğunu yada salın və ya öyrənin.

– Mətni oxuyun. Tanış olmayan ifadələri və terminləri izah edin.

– Sualları oxuyun və cavabını tarixi mənbədən tapın.

– Bu sənəd sizə məlum olan hər hansı bir məlumatı təsdiq edirmi? Əgər bildiklərinizlə ziddiyyət təşkil edən nəsə varsa, o nədir?

– Mənbə əsasında hansı yeni məlumat əldə etdiniz?

## İllüstrasiyalarla iş

İllüstrasiyalar dərslik və ya dərs üçün yaraşıq deyil, həm də şagirdlər üçün əlavə məlumat mənbəyi olmalıdır. Buna görə də illüstrasiyalarla iş üçün suallar və tapşırıqlar təklif edilməlidir.

### İllüstrasiyanın təsviri və ondan məlumat alınması

**Müxtəlif mürəkkəblik səviyyəsi olan tapşırıqlar:**

1. İllüstrasiyaya əsasən tarixi dövrü və məkanı (hadisə yerini) müəyyən et.
2. Göstərilmiş tarixi hadisələri və onların iştirakçılarını, şəraiti, mühiti təsvir et.
3. İllüstrasiyada əks olunan tarixi dövrün tipik nümayəndələrini müəyyənləşdir (geyim, davranış xüsusiyyətləri).
4. Süjet və detallara görə əsər müəllifinin əsas fikrini aydınlaşdır.
5. İllüstrasiya materiallarının növünü və onun müəllifinin əsas ideyasına müvafiqliyini müəyyənləşdir.
6. Şəkilaltı mətni (əgər varsa) illüstrasiyanın məzmunu ilə tutuşdur.
7. İllüstrasiya üzrə hekayə hazırla.

**İllüstrasiyalarla iş zamanı şagirdlərin fəallıq növləri:**

1. İllüstrasiya üzrə ümumi söhbət;
2. İllüstrasiyaya imza toplamaq;
3. "Bərpaçı"nın vərəqəsinin tərtib olunması;
4. Cütlərdə "rəssam"la müsahibə;
5. Cütlərdə sualların qoyuluşu.

**İllüstrasiyaların dərk olunması və tətbiqi. Müxtəlif mürəkkəblik səviyyəsi olan tapşırıqlar:**

1. Sizcə, illüstrasiya naturadan çəkilib, yoxsa sonradan yaradılıb?
2. Əgər o, sonradan yaradılıbsa, onun mənbəyi nə olub?
3. İki və daha artıq eyni planlı illüstrasiyaları müqayisə edin.
4. Müxtəlif tip illüstrasiyalarda hadisələrin obrazlı əksini müqayisə edin.

5. Müxtəlif illüstrasiyalarda məzmunu və dəyərləndirici əlaqələri təyin edin.
6. İllüstrasiyanın dəyərlər sistemini və subyektivlik səviyyəsini müəyyən edin.
7. Müxtəlif planlı illüstrativ materialları qiymətləndirin və nəticə çıxarın.
8. Problemin həlli üçün illüstrasiya və mənbələrin müqayisəli təhlilindən istifadə edin.
9. Öz mövqeyinizi illüstrasiyanın köməyi ilə əsaslandırın.

**Fəallıq növləri:**
1. Qruplarda illüstrasiyalar üzrə fikir mübadiləsi aparmaq;
2. Cütlüklərdə müzakirə etmək;
3. Şəklin yaranması haqqında hekayə tərtib etmək;
4. İllüstrasiyalar haqqında rəy yazmaq.

**"Cavab əldə et" metodu.** Bu zaman şagird ayrı-ayrı mənbələrdən müxtəlif məlumatlar araşdırmağa məcbur olacaq. Şagirdlər onlara verilən məhdud vaxt ərzində aldıqları tapşırıqların cavablarını ya internet, ya da paylama materialları (kitab da ola bilər) əsasında hazırlamalıdırlar. Bu zaman tapşırığı elə qoymaq lazımdır ki, tədqiqatçılığa söykənmiş olsun. Yarışmanı xatırladan dərsin sonunda tapşırığa daha tez və dəqiq yerinə yetirən qrup qalib gəlir.
Dərsdə şagirdlərə internetdən istifadə etmək imkanı da vermək olar.

**Mətn üzərində iş.** Adından göründüyü kimi, bu üsul şagirdlərə təqdim edilmiş mətn üzərində işi nəzərdə tutur. Bu zaman şagirdlərə aşağıdakı tapşırıqları vermək məqsədəuyğundur:
– Mətni oxuyun. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun.
– Mətnin hər hissəsinə ad qoyun. Planın bəndlərinin adı formalaşdırıla bilər:
Sual kimi;
Mətnin əsas fikrini əks etdirən mətndəki bir ifadə kimi.
– Planın bəndlərinin bir-birini təkrar etməməsinə diqqət yetirin.
– Mürəkkəb plan quranda bəzi və ya bütün bəndlər yarımbəndlərin məzmununu əhatə etməlidir.

**Müasir interaktiv dərslərdə aşağıda verilən tələblər əsas götürülür:**
- Diqqət, ilk növbədə, şagirdin şəxsiyyətinin formalaşmasına yönəlir.
- Müəllim, ilk növbədə, təlim idrak fəaliyyətinin əlaqələndiricisi, şagirdlərin məsləhətçisi və köməkçisi kimi çıxış edir.
- Müəllim və şagird arasında əməkdaşlıq, məktəblilərin dəlillərinə və fəaliyyətinə diqqət.
- Təlim məsələlərinin həlli prosesində bilik və bacarıqların tətbiqi dərsin bütün mərhələlərində (yeni materialın mənimsənilməsi, onun möhkəmləndirilməsi və bilik, bacarıq səviyyəsinin yoxlanılması) əsas yer tutur. Nəticədə dərsin müxtəlif mərhələ və funksiyalarının birləşməsi, təlim prosesinin fəallaşmasına yönəlmiş sintezi baş verir.
- Təlim prosesində şagirdlər arasında ünsiyyət olur, cüt, qrup və kollektiv şəkildə təlim fəaliyyəti həyata keçirilir.

- Müasir nəzəriyyə müxtəlif fənlərdən dərs deyən bir neçə müəllim tərəfindən keçirilən fənlərarası dərsləri istisna etmir.
- Təhsilin məzmunu ilə yanaşı, şagirdlərin tərbiyə və inkişafında təlim metodları və təşkilati formalar da mühüm rol oynayır.
- Dərs tarixi yerlərə ekskursiyalar, tarixi abidələrə, muzey və sərgilərə baxış kimi təlim formaları ilə sıx əlaqəlidir.
- Ənənəvi olaraq digər formaların əlamətləri dərs sayılan və ona qarşı qoyulan bəzi elementləri (məs.: seminar-dərs, oyun-dərs, yarış-dərs, konfrans-dərs və s.) assimilyasiya edir.
- Müəllimin funksiyalarının bir hissəsinin şagirdlərə verilməsi səciyyəvidir: bilik və bacarıqların yoxlanılması və qiymətləndirilməsi (qarşılıqlı və özünüqiymətləndirmə), işin planlaşdırılması, tədqiqat və özünüqiymətləndirmə elementləri.
- Təhsil islahatı proqramında təlimverici, tərbiyələndirici və inkişafetdirici təlim metodlarının geniş tətbiqinə diqqət verilməsi tövsiyə edilir.

Fəal təlim zamanı şagirdlər təlim prosesinin tamhüquqlu iştirakçıları olurlar və bilikləri onlar fəal axtarış və kəşflər zamanı mənimsəyirlər. Müəllim bu zaman şagird tərəfindən biliklərin əldə edilməsi yolunda bələdçi rolunu yerinə yetirir, şagirdlər isə tədqiqatçı olurlar.

Fəal təlim metodlarına aşağıdakı xüsusiyyətlər aiddir:

1. Şagirdlərin fəal öyrənmə mövqeyi;
2. Təfəkkürün müstəqilliyi və sərbəstliyi;
3. Əməkdaşlıq və qrupda qarşılıqlı fəaliyyət;
4. Həyati məqsədlərə nail olmaq üçün biliklərin yaradıcı tətbiqi və s.

Şagirdlərdə tənqidi təfəkkür formalaşdırmaqla hadisələrə münasibət bildirmək, məlumatı qiymətləndirmək qabiliyyətini aşılamaq əsas məqsədlərdən biridir. Şagird verilən məlumatı təhlil edərək baş vermiş prosesin və ya şəxsiyyətin müsbət və mənfi cəhətlərini göstərməklə qiymətləndirmək qabiliyyətinə malik olurlar.

Didaktik təfəkkür vasitəsilə hadisələrdə ziddiyyətlərin vəhdətini və mübarizəsini, yeniliklərin necə yarandığını görmək və onların inkişaf istiqamətlərini aşkar etmək nəzərdə tutulur.

Verilən sual və tapşırıqların köməyi ilə məntiqi təfəkkür – müqayisə, ümumiləşdirmə, təsnifat və sistemləşdirmə bacarıqları formalaşır.

## MÜƏLLİMİN TƏLİM FƏALİYYƏTİNİN PLANLAŞDIRILMASINA DAİR TÖVSİYƏLƏR

Planlaşdırmanın iki növü vardır: gündəlik və perspektiv. Müasir təhsil islahatının tələblərinə uyğun olaraq gündəlik və perspektiv planlaşdırma mahiyyətini əvvəlki formasından xeyli dəyişmiş, interaktivliyə və nəticəyönümlülüyə şərait yaradan formada tərtib edilir.

Dərslikdə müəllimin həm gündəlik, həm də illik planlaşdırmasını aparmaq üçün kifayət qədər material və resurs verilmişdir. Planlaşdırma müəllimlərin qarşısında duran ən mühüm vəzifədir. Planlaşdırma əsas məqsədləri müəyyənləşdirmək və onlara nail olmaq üçün müəllimlərin fəaliyyət istiqamətidir. İllik planlaşdırmada tədris vahidinin nə za-

man və hansı ardıcıllıqla tədris ediləcəyi, eyni zamanda hər fəslə ayrılacaq vaxt göstərilir. Müəllimlər üçün perspektiv plan nümunəsi vəsaitdə verilsə də, onun müstəqil tutulma qaydası ilə tanış olmaq üçün fənnin planlaşdırılması ardıcıllığı daxil edilmişdir. Bu ardıcıllıq aşağıdakı kimidir:

**1. Tədris vahidlərini dəqiqləşdirmək, ardıcıllıq prinsiplərini müəyyənləşdirmək.** Məzmunun ardıcıllığı (asandan çətinə doğru), xronoloji ardıcıllıq (zaman ardıcıllığı), məntiqi ardıcıllıq (əvvəlcə o anlayışlar öyrədilir ki, onlar növbəti anlayışların açılmasında mühüm əhəmiyyət daşıyır) nəzərdə tutulur.

**2. Hər tədris vahidi üçün tədris planına əsasən vaxt bölgüsü aparmaq** (Tədris vahidləri üçün vaxt bölgüsünü müəyyənləşdirərkən fənn üzrə illik dərs saatlarının ümumi sayı nəzərə alınır. Hər tədris vahidinə onun əhəmiyyətliliyi və mürəkkəbliyi baxımından vaxt ayrılır).

**3. Dərsliklə əlaqəli şəkildə işləmək.** İllik planlaşdırma apararkən müəllim mütləq məzmun standartları, qiymətləndirmə standartları, tədris planı, dərslik (istifadə olunacaq mətnlər və digər materiallar), müəllim üçün vəsaitə istinad etməlidir. Dərs ilinin həftələri, tədris ilində baş verəcək mühüm hadisələr (tarixi günlər), tədris vahidlərinin və onlara daxil olan mövzuların adı müəyyən edilməlidir.

### Planın qurulması

Plan mövzunun əsas məsələlərini özündə əks etdirir. Qısa cümlələr (təsdiq və ya sual formasında da ola bilər) formasında qurulan plan ayrı-ayrı məsələləri özündə əks etdirir və nömrələnir. Sadə plan bir neçə banddan ibarət olur. Mürəkkəb plan isə əsas bəndlərdən və onların yarımbəndlərindən ibarət olur.

1. Bütün mətni diqqətlə oxuyun, onun məzmununun əhəmiyyətli hissəsini seçin.

2. Mətnin hər əhəmiyyətli hissəsində əsas məzmunu ayırd edin. Əhəmiyyətli hissəyə ad qoyun və planın əsas bəndlərini yazın.

3. Əgər vacibdirsə, mətnə əsas məzmunun əhəmiyyətini açıqlamaq üçün yarımbəndlər əlavə edin.

4. Plan mətnin müvafiq hissəsinə dair informasiyanı özündə əks etdirən dəqiq və qısa formada olmalıdır.

5. Bəzən mətndə hadisələr ardıcıl olmur. Eyni məsələ haqda mətnin müxtəlif hissələrində bəhs edilir. Bunun üçün materialların özünüzə uyğun düzülüş formasını müəyyən edin. Məsələn: Xronoloji ardıcıllıqla. Unutmayın planın bəndləri bir-biri ilə əlaqəli olmalıdır.

### Planlaşdırma

Fəal-interaktiv təlimdə gündəlik dərsin mərhələləri aşağıdakı kimidir.

Dərsliyimizdə nəinki aktiv təlimin tələbləri nəzərə alınmış, hətta interaktiv təlimin prinsipləri tam şəkildə ehtiva edilmişdir. Bu məsələyə iki məqamdan yanaşmaq olar:

– Müəllimin idarə etdiyi təlim prosesində interaktiv təlim;

– Şagirdin müstəqil təlim mühitində həm aktiv (fəal), həm də interaktiv təlim.

Dərslikdə və müəllim üçün vəsaitdə bu iki proses qarşılıqlı əlaqəli şəkildə təqdim edilmişdir.

Aşağıda təqdim edilən cədvəldə bu iki proses arasındakı qarşılıqlı əlaqəni diqqətinizə çatdırırıq.

<table>
<tr><th>Fəal dərsin mərhələləri</th><th>Müəllimin idarə etdiyi təlim prosesi</th><th>Şagirdin müstəqil təlim mühiti</th></tr>
<tr><td colspan="3">TƏLİMDƏN ƏVVƏL</td></tr>
<tr><td>Motivasiya</td><td>• İlkin biliklər müəyyənləşdirilir.<br>Şagirdlər müəllim tərəfindən mövzu üzərində düşünməyə sövq edilir: bu dərsdə nədən bəhs edilə bilər? Bu (söz, hadisə, əşya) sizə nəyi xatırladır? Fərziyyələr,<br>proqnozlar alınır. Bü mərhələdə beyin həmləsi, BİBO cədvəlinin birinci sütunu (Bilirəm),<br>Klaster üzrə iş və uyğun digər üsullardan istifadə edilir.<br>• Suallar verməklə şagirdlər cavabını tapmaq istədikləri məsələləri müəyyənləşdirmək üçün istiqamətləndirilir. BİBO cədvəlinin ikinci sütunu (İstəyirəm bilim) üzrə iş aparıla bilər, uyğun digər üsullardan da istifadə edilə bilər.<br>• Əlaqələndirmə prosesində şagirdlərə əldə etdikləri bilik və bacarıqları özlərinin, yaxınlarının həyatlarında, təbiət və cəmiyyətdə baş verən hadisələrlə əlaqələndirmək üçün<br>müvafiq suallar verilir. Bu gün öyrəndiklərinin həyatda onlara necə gərək olacağı haqqında düşünməyə sövq edilir.<br><br>• Məqsədini müəyyənləşdirir.<br>Problem situasiya yaradılır. Bu gün öyrəniləcək məsələlərin həmin problemin həllində yararlı olduğu şagirdlərin diqqətinə çatdırılır. Şagirdlər yiyələnəcəkləri bilik və bacarıqların məqsədi üzərində düşünməyə kollektiv şəkildə sövq edilir.</td><td>• İlkin biliklər müəyyənləşdirilir.<br>Dərsin mövzusu və ya oxu materialının başlığı üzərində müstəqil düşünür: bu dərsdə, bu oxu materialında nədən bəhs edilə bilər? Mən bu barədə nə bilirəm?<br>Fərziyyələr yürüdür, proqnozlar verir.<br><br>• Suallar verməklə təlim prosesində cavab tapmaq istədiyi sualları müəyyənləşdirir. Qeyd aparır.<br><br>• Əlaqələndirmək<br><br>Öyrəndiklərinizi indiyə qədər bildiklərinizlə, yaxınlarınızın təcrübəsi ilə, həyatla əlaqələndirin.<br><br>• Məqsədini müəyyənləşdirir.<br><br>Bu suallara nəyə görə cavab tapmalıyam? Bu mənə nə<br><br>üçün lazım ola bilər? Bu öyrəndiklərimdən harada istifadə edə bilərəm?</td></tr>
</table>

| *Fəal dərsin mərhələləri* | *Müəllimin idarə etdiyi təlim prosesi* | Şagirdin müstəqil təlim mühiti |
|---|---|---|
| | *TƏLİM PROSESİ* | |
| *Motivasiya* | • ***Dərketməni yoxlamaq***<br>Müəllim məqsədə çatmaq üçün bir az əvvəl yaratdığı problemin həllinə istiqamətlənmiş təlim tapşırıqlarını və problemin həlli üçün yararlı olan məlumatları, yaxud onların mənbələrini fərdlərə, cütlərə, qruplara təqdim edir. Bu prosesdə müəllim replika və suallarla şagirdlərin tədqiqat işinə müdaxilə edir, onları saxlayır, düşündürür. Dərk edib-etmədiklərini yoxlayır. Diqqətlərini xüsusi məqamlara yönəldir. Beləliklə, təlimdən əvvəl cavab tapılması nəzərdə tutulan sualların cavablandırılması təşkil edilir.<br><br>• ***Əldə edilən nailiyyəti yoxlamaq***<br>Cavabların nə qədər keyfiyyətli, anlaşıqlı və aydın olduğu barədə şagirdlər cüt və ya qrup müzakirələrində düşünməyə sövq edilir. Əvvəlcədən bütün sinfə təqdim edilmiş qiymətləndirmə meyarlarından şagird özünüqiymətləndirmə məqsədilə istifadə edir. | • ***Dərketməni yoxlamaq***<br>Tapşırığı yerinə yetirərkən və ya mətni oxuyarkən düşünməni təmin edən, sistemləşdirən qrafiklər çəkin, yaxud icmal hazırlayın. Nəyisə dərk etmədiyinizi, anlamadığınızı hiss etsəniz, dayanın, tutduğunuz istiqamət üzərində düşünün. Seçdiyinz yolun düzgünlüyünə əmin olandan sonra yenidən çalışın. Özünüzün əvvəlcədən hazırladığınız suallara cavab verin.<br><br>• ***Əldə edilən nailiyyəti yoxlamaq***<br>Cavablarınızın nə qədər aydın və analşıqlı olduğunu yoxlayın. Boşluqlar hiss etdikdə həmin istiqamətdə işlər aparın. |

| *Fəal dərsin mərhələləri* | *Müəllimin idarə etdiyi təlim prosesi* | Şagirdin müstəqil təlim mühiti |
|---|---|---|
| *TƏLİMDƏN SONRA* | | |
| *Məlumat mübadiləsi* | • ***Yoldaşlarınızın fikirlərini öyrənmək*** Əldə edilən nəticələrin, gəlinən qənaətlərin fərdlər, cütlər və qruplar arasında mübadiləsi təqdimatların dinlənilməsi yolu ilə təşkil edilir. | • Yoldaşlarınızın fikirlərini öyrənin. Yoldaşlarınızla müzakirə edin. Fikirlərinizi bildirin. Onların da münasibətini öyrənin. |
| Məlumatın müzakirəsi və təşkili | • ***Səmərəli fikirlərdən yararlanıb işi təkmilləşdirmək*** Dinlənilən təqdimatlara digər şagirdlər tərəfindən münasibət bildirilməsi, əlavələr edilməsi, təqdimatçıların səmərəli fikirlərdən yararlanması təmin edilir. | • ***Səmərəli fikirlərdən yararlanıb işi təkmilləşdirmək*** Yoldaşlarınızın fikirlərindən yararlanın və işin keyfiyyətini yüksəldin. |
| Nəticələrin çıxarılması | • Müəllim tərəfindən dərsin ümumiləşdirilməsi və ***nəticələrə gəlmək*** | • Öyrəndiklərinizi ümumiləşdirin və nəticə çıxarın. |
| Yaradıcı tətbiqetmə | • Sinifdə, sinifdənxaric, məktəbdənkənar şəraitdə qazanılmış bilik və bacarıqların ***yaradıcı tətbiqinə*** imkan yaradan tapşırıqlar verilir. | • ***Öyrəndiklərinizi tətbiq etmək*** üçün fərqli situasiya axtarın. |
| Qiymətləndirmə, refleksiya | • Fərdlərin, cütlərin, qrupların fəaliyyəti ***qiymətləndirilir***, habelə “Biz bu gün nə öyrəndik?” sualı üzərində bir daha düşünülür. | • Biz nə öyrəndik? “Əvvəlcədən müəyyən etdiyim məqsədə çata bildimmi?” sualına cavab verin və ***nailiyyətinizi dəyərləndirin***. |

Cədvəldən göründüyü kimi, təlimin fəallığını, yəni aktivliyini (bizim dərslikdə isə interaktivliyini) təmin etmək üçün öyrənmənin üç mərhələdə həyata keçirilməsi zəruridir:

1. Təlimdən əvvəl
2. Təlim prosesində
3. Təlimin sonunda

"Təlimdən əvvəl" aparılacaq işlərin fəal dərsin "Motivasiya" mərhələsində həyata keçirilməsi nəzərdə tutulur. Əslində, bu mərhələnin özü də dörd hissədən ibarətdir:

- İlkin biliklərin müəyyənləşdirilməsi;
- Sualların verilməsi;
- Əlaqələndirilmə;
- Məqsədin müəyyənləşdirilməsi.

"Təlim prosesi" mərhələsində aparılması nəzərdə tutulan işlər fəal dərsdə "Tədqiqatın aparılması" zamanı həyata keçirilməlidir. Bu mərhələ isə iki hissədən ibarətdir.

- Dərketmənin yoxlanılması;
- Əldə edilən nailiyyətin yoxlanılması.

"Təlimin sonunda" mərhələsi fəal dərsin beş mərhələsini əhatə edir:

- Yoldaşlarının fikrini öyrənmək;
- Səmərəli fikirlərdən yararlanıb işini təkmilləşdirmək;
- Ümumiləşdirmə və nəticəçıxarma;
- Yaradıcı tətbiqetmə;
- Qiymətləndirmə.

### Motivasiya qurmaq üçün müəllimə məsləhət

Hörmətli müəllimlər! Sizə təqdim olunan dərsliyin elə paraqrafı var ki, onun tədrisinə iki saat vaxt verilmişdir. Bir paraqrafın ayrı-ayrı saatlarına motivasiyanın qurulması müəllimin mövzuya yanaşmasından və dərsini qurmasından asılıdır. Yeni dərsə motivasiya təkcə eyni mövzuya ayrılan bir neçə saatda deyil, səhnələşdirilmiş, ekskursiya, disput və s. tipli dərslərin keçirildiyi vaxt, "oyunlar" keçirilən zaman da qurula bilər.

Bəzən müəllimlər motivasiyanı quran zaman müxtəlif çətinliklərlə üzləşirlər. Məs., texniki imkanların və ya lazımi vəsaitin olmaması və ya bunlardan istifadənin mümkünsüzlüyü zaman müəllim hekayə qurmaq yolu ilə dərsə giriş edə, şagirdlərdə hansısa formada dərsə maraq yarad bilər.

Bu məqsədlə də, hörmətli müəllimlər, sizlərə hər bir dərsə motivasiya qurmaq üçün 6-cı siniflər üçün 2021-ci ildə "Şərq-Qərb" nəşriyyatında nəşr olunmuş Azərbaycan tarixi dərsliyinin metodik vəsaitində yeni dərsə giriş kimi dialoq formasında "Motivasiya qurmaq üçün hekayə qurmaq modeli" təqdim etmişik.

Dərsliyin ilk paraqraflarından etibarən müvafiq olaraq ən sonuncu mövzusuna qədər (*hətta tədrisinə bir neçə saat ayrılan paraqrafın hər bir saatı üçün də*) "Motivasiya qurmaq üçün hekayə qurmaq modeli"ndən motivasiya kimi istifadə edilə bilər. Təbii ki, müvafiq mövzulara suallar qoymaq yolu ilə.

## FƏAL DƏRSİN PLANLAŞDIRILMASINA DAİR TÖVSİYƏLƏR

Hər bir dərsin yeddi mərhələdən ibarət olması mütləq deyil. Ümumi götürdükdə dərsi üç əsas mərhələyə ayırmaq olar:

1. Şagirddə dərsə maraq oyatmaq;
2. Araşdırma;
3. Nəticəçıxarma.

Dərsin neçə mərhələdən ibarət olması bir neçə amildən asılıdır. Təkcə dərsin məqsəd və vəzifələri, eləcə də forma və üsulundan asılı olaraq, dərsin mərhələlərini azaltmaq (*mərhələləri birləşdirmək və ya hər hansı bir mərhələyə müraciət etməməklə*) mümkündür. Məsələn, ümumiləşdirici dərsdə motivasiya, yaradıcı tətbiqetmə, refleksiya kimi dərs mərhələlərindən istifadə etməmək mümkündür.

Dərsin neçə mərhələdən ibarət olmasına öyrəniləcək materialın həcmi, şagirdlərin paraqrafdakı məlumatlarla tanışlıq səviyyəsi, mənbələrin sayı, inteqrasiya imkanları, xəritə və ya kontur xəritə ilə işləmək imkanı, standartı (*və ya standartları*) reallaşdırmaq imkanı, şagirdlərin fəallıq səviyyəsi, dərs əsnasında diaqnostik qiymətləndirmənin aparılıb-aparılmamasının nəzərə alınması və s. də təsir göstərə bilər.

### Perspektiv planlaşdırma

Perspektiv planlaşdırma hazırlanarkən tədris vahidi və mövzular üzrə dəqiqləşmələr aparılmalı, standartların reallaşdırılması üçün lazımi imkanlar müəyyən edilməli, tədris vahidlərinin və mövzuların ardıcıllığı müəyyənləşdirilərkən sadədən mürəkkəbə, məntiqi və xronoloji ardıcıllıq nəzərə alınmalıdır.

Azərbaycan tarixi fənni üçün bu ardıcıllığı müəyyənləşdirərkən bir neçə prinsip nəzərə almalıdır ki, bunun da birincisi məzmun ardıcıllığı baxımından məntiqi və xronoloji ardıcıllıq prinsipidir.

İnteqrasiya imkanları müəyyən edilməli və planlaşdırılmada qeyd olunmalıdır. Metodik vəsaitdə sizlərə təqdim olunmuş illik planlaşdırma cədvəlində məzmun standartlarının digər fənlərlə inteqrasiya imkanları göstərilmişdir.

Əlavə resursların seçilməsi mövzunu, inteqrasiyanı müəyyənləşdirdikdən sonra aparılmalıdır. Mövzulara görə məqsədyönlü vaxt bölgüsünün aparılması mühüm bacarıqlardan biridir. Tədris planına əsasən 6-cı sinifdə Azərbaycan tarixi fənninin tədrisinə ayrılan saatdan kənara çıxmamaq şərtilə daha vacib, eyni zamanda şagirdlərin çətin qavradıqları mövzulara çox, asan mövzulara isə az vaxt ayıra bilərsiniz.

# DƏRSLƏRİN İLLİK PLANLAŞDIRILMASI

| Nº | Mövzu | Standart | Saat | Qiymətləndirmə |
|---|---|---|---|---|
| **Diaqnostik qiymətləndirmə** | | | | |
| **I bölmə: Azərbaycanda ibtidai cəmiyyət** | | | **12** | |
| 1. | Əsas tarixi anlayışlar və zaman ölçü vahidləri | 1.1.1., 1.1.2., 1.2.1. | 2 | Formativ |
| 2. | İbtidai cəmiyyət | 2.1.1., 2.1.2. | 2 | Formativ |
| | **Kiçik summativ qiymətləndirmə** | | **1** | |
| 2. | İbtidai cəmiyyət | 1.1.1., 1.1.2., 1.2.2., 1.3.1., 2.1.1. | 6 | Formativ |
| | **Kiçik summativ qiymətləndirmə** | | **1** | |
| 3. | Erkən dövlətlər | 1.2.1., 2.1.1., 3.1.1., 3.1.3. | 2 | Formativ |
| 3. | Yekunlaşdırıcı ümumiləşdirmə | 1.2.1., 1.2.2., 3.1.3., 4.1.1., 4.1.2., 5.1.2., 5.1.3. | **1** | Formativ |
| **Kiçik summativ qiymətləndirmə** | | | **1** | |
| **II bölmə: Azərbaycanda qədim dövlətlər** | | | **10** | |
| 4. | Manna dövləti | 3.1.1., 3.1.2., 4.1.1., 4.1.2., 5.1.1., 5.1.2. | 3 | Formativ |
| 5. | Azərbaycan e.ə. VII–IV yüzillikdə | 1.1.1., 1.1.2., 3.1.1., 3.1.2., 3.1.3. | 2 | Formativ |
| **Kiçik summativ qiymətləndirmə** | | | 1 | Formativ |

| | | | | |
|---|---|---|---|---|
| 6. | Atropatena dövləti | 3.1.1., 3.1.2., 4.1.1., 4.1.2., 5.1.2. | 2 | Formativ |
| 7. | Albaniya dövləti | 3.1.1., 3.1.2., 4.1.1., 4.1.2., 5.1.1., 5.1.3. | 3 | Formativ |
| **Kiçik summativ qiymətləndirmə** | | | **1** | |
| 8. | Azərbaycanda feodal münasibətlərinin yaranması | 1.1.1., 2.1.1. | 1 | Formativ |
| 9. | Azərbaycan Sasani imperiyası dövründə | 1.1.2., 3.1.1., 3.1.2., 3.1.3., 4.1.2. | 3 | Formativ |
| | Yekunlaşdırıcı ümumiləşdirmə | 1.2.1., 1.2.2., 3.1.3., 4.1.1., 4.1.2., 5.1.2., 5.1.3. | 1 | Formativ |
| **Kiçik summativ qiymətləndirmə** | | | **1** | |
| **YEKUN** | | | **34** | |

## DƏRSLƏRİN İCMALI VƏ TÖVSİYƏLƏR

Hörmətli müəllimlər, sizə təqdim edilmiş mövzuların icmalı tövsiyə xarakterlidir. Siz 6-cı sinif Azərbaycan tarixi fənn kurikulumunun standartlarına uyğun olaraq qarşıya qoyduğunuz məqsədlərinizi mövzular vasitəsilə reallaşdıra bilərsiniz. Bu zaman forma və üsulların seçilməsində, eləcə də inteqrasiya imkanlarının reallaşdırılmasında sərbəstsiniz. İnteqrasiya kimi hansı dərsə hansı fənn standartının (və ya standartları) seçilməsində sizə metodik vəsaitin 15-ci səhifəsində verilmiş “VI sinif Azərbaycan tarixi fənni üzrə standartların inteqrasiya imkanları” cədvəli kömək etmiş olar.

Dərslərə resursların seçilməsi birbaşa sizin dərsə yanaşmanızdan irəli gələ bilər. İstənilən resursun Azərbaycanın hər bir guşəsində eyni formada əlçatan olmadığını nəzərə alaraq dərs icmalı zamanı hansı resurslardan istifadə olunduğunu qeyd etməyi məqsədəmüvafiq saymadıq. Bununla da keçəcəyiniz dərsə uyğun olaraq resursların seçilməsini öhdənizə buraxdıq.

Bütün gündəlik dərslərin vaxt bölgüsü və planlaşdırılması da sizdən asılıdır. Tələblərə uyğun olaraq gündəlik planlaşdırmanın aparılması və qiymətləndirmənin həyata keçirilməsi şagirdlərin xüsusiyyətinə və metodunuza uyğunlaşmış şəkildə reallaşdırılarsa, daha səmərəli nəticə əldə oluna bilər. Təqdim olunmuş icmalların sonunda qiymətləndirmə səviyyələrin verilməsini məqsədəuyğun hesab etsək də, bu bir tövsiyədir. Çünki sizə hazır şəkildə təqdim edilmiş səviyyələr sizin sinfinizdə keyfiyyətin düşməsinə səbəb ola bilər. Siz səviyyələri öz sinfinizin şagirdlərinin bacarıqlarına uyğun müəyyən etməklə formativ qiymətləndirməni həyata keçirin.

Hörmətli müəllimlər, kitabın fəal dərsin quruluşu hissəsində fəal təlimdə gündəlik planlaşdırma zamanı dərsin yeddi mərhələsini ardıcıllıqla versək də, mövzuların icmalı zamanı biz bu ardıcıllığa, demək olar ki, riayət etməmiş və çox zaman dərsin üçüncü və dördüncü mərhələlərini birləşdirib məlumatın mübadiləsi ilə müzakirəsi mərhələsi kimi vermiş, bəzən motivasiyaya, bəzən isə yaradıcı tətbiqetməyə yer ayırmamış, dərsin yeni bir mərhələsi kimi ev tapşırığını qeyd etmişik. Yuxarıda qeyd etdiyimiz kimi, dərs, ümumilikdə, üç əsas mərhələdən – şagirdi dərsə maraqlandırma, araşdırma və nəticəçıxartma mərhələsindən ibarət olduğundan hər bir müəllim şəraitinə, sinfinin səviyyəsinə, əldə etdiyi materiala, ən əsası, seçdiyi standarta və qarşısına qoyduğu məqsədə uyğun olaraq dərsini planlaşdıra və keçə bilər.

Əsas odur ki, müəllim bir 45 dəqiqə ərzində seçdiyi standartı və qarşısına qoyduğu məqsədi reallaşdırsın.

Hörmətli müəllimlər, inanırıq ki, sizə təqdim etdiyimiz tövsiyələr köməyinizə çatacaq və dərslikdən istifadənizi rahatlaşdıracaqdır.

# Mövzu 1. Əsas tarixi anlayışlar və zaman ölçü vahidləri (birinci saat)

**Qeyd:** Mövcud paraqrafın tədrisinə iki saat ayrılmışdır. Bu paraqraf dərsliyin 8-17-ci səhifələrini əhatə edir. Bu paraqraf tədris saatına uyğun olaraq aşağıdakı qaydada bölünmüşdür:
– Birinci dərs səhifə 8-dən başlayıb 12-ci səhifənin sonunadək olan məlumatları əhatə edir. Təbii ki, bu səhifələrdə yer alan sxemləri, şəkilləri, illüstrasiyaları, terminlərin izahlarını, sual və tapşırıqları diqqətdən kənarda saxlamaq düzgün olmaz.
– İkinci dərs saatı 13-cü səhifədəki Tarixi dövrlər yarımbaşlığından paraqrafın sonunadək olan materialları əhatə edir.
Onu da qeyd edək ki, bu bölgü mütləq deyil. Bu bölgünü siz dəyişə və yeni bölgü forması yarada bilərsiniz.

**Standart:**
1.2.1. Dövrün öyrənilməsində maddi və yazılı mənbələrin rolunu izah edir.

**Təlim məqsədləri:**
Tarixin öyrənilməsində ilkin və ikinci dərəcəli mənbələrin rolunu izah edir.

**Təlim formaları:** böyük və kiçik qruplarla is
**Təlim üsulları:** beyin həmləsi, karusel

**Dərsin gedişi**
**Motivasiya.** Şagirdlərdə dərsə maraq yaratmaqdan ötrü beyin həmləsi üsulundan istifadə edilə bilər. Bunun üçün lövhədə aşağıdakı sözlər yazılır:
– Ulu öndərin doğum tarixi – 10 may 1923-cü il;
– Azərbaycanın Müstəqillik Günü – 28 may 1918-ci il;
– Azərbaycan Respublikasının Zəfər Günü – 8 noyabr 2020-ci il;
– Əsrin müqaviləsi – 20 sentyabr 1994-cü il.
Lövhədə yazılan sözlər səsləndirildikdən sonra şagirdlərə aşağıdakı suallar verilə bilər:
– Bu yazılanlar sizə nə deyir?
– Bu hadisələri ümumi bir ad altında necə qruplaşdırmaq olar?
– Nə üçün əsrin müqaviləsi?
Alınan cavablar ümumiləşdirilib şagirdlərin diqqəti zaman ölçü vahidlərinə yönəlir və yeni dərsə keçid edilir.

**Tədqiqat sualı: Tarixin öyrənilməsində ilkin və ikinci dərəcəli mənbələrin hansı rolu və əhəmiyyəti var?**

**Tədqiqatın aparılması.** Tədqiqat sualı elan olunandan sonra kiçik qruplarla iş formasında "karusel" təlim üsulundan istifadə etməklə dərs qurulur. Bunun üçün məsləhət olar ki, şagirdlərə dərs üsulu haqqında qısa məlumat verilsin: "Hər qrupa mövzuya aid suallar yazılmış iri ağ kağızlar paylanılacaq. Sualı oxunur və buna uyğun cavablar aydın formada yazılır. Müəyyən vaxt bitdikdən sonra cavabların yazıldığı kağızlar saat əqrəbi istiqamətində müəllimin köməkliyi ilə digər qruplara ötürüləcək. "Karusel" kimi kağızlar bütün digər qruplardan

keçərək axırda öz qrupuna qayıdacaq. Müəyyən vaxt ərzində əvvəlki qrupların cavabları diqqətlə oxunur və verilən vaxt ərzində razılaşdığınız cavabın qarşısında müsbət, razılaşmadığınız cavabın qarşısında mənfi işarəsini qoymağınız, eləcə də sonda öz əlavələrinizi (əgər əlavələriniz varsa) yazmağınız vacibdir. Sonda kağızlar yazı lövhəsində asılacaq və bütün sinif cavabları müzakirə edəcək".

Bu dərs üsulu bir qədər çox vaxt tələb etdiyindən şagirdlərə verilən sual və tapşırıqların yerinə yetirilməsi nisbətən az vaxt aparmalıdır. Qruplara tədqiqat üçün aşağıdakı sual və tapşırıqlar, yaxud müəllimin məsləhət bildiyi tapşırıqlar verilə bilər.

**I qrup**

**1. Tarix elmi haqda bildiklərinizi izah edin.**

**II qrup**

**1. Maddi, yazılı və şifahi mənbələrin izahını verin.**

**III qrup**

**1. İkinci dərəcəli mənbələrin növlərini izah edin.**

**IV qrup**

**1. İlkin mənbələrin növlərini izah edin.**

Karusel dərs üsulunun birinci mərhələsində qrup işinə ayrılmış vaxt bitdikdən sonra, əslində, müəllim dərsin yeni mərhələsinə – məlumatın mübadiləsi və müzakirəsi mərhələsinə keçid etmiş olur. Çünki bu mərhələdə müəyyən edilmiş zaman ərzində hər bir qrup digər qrupların yazdıqları ilə tanış olmaq və "rəqiblərinin" yazdıqlarına münasibət bildirmək imkanına malik olur. Dərsin bu mərhələsi bitəndən sonra növbəti mərhələyə keçid etmək olar.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Vaxta qənaət etmək üçün qrup təqdimatları dərsin ümumiləşdirmə və nəticənin çıxarılması mərhələsində edilə bilər. Lakin bu zaman da müəllim ümumiləşdirmələr aparmaq və müəyyən nəticələrə gəlmək üçün şagirdlərə suallar verməlidir. Veriləcək sualları əvvəlcədən hazırlamaq məqsədəmüvafiqdir. Şagirdlərə aşağıdakı suallarla da müraciət edilə bilər:

– Sizcə, A.Bakıxanov niyə tarixi insanı əxlaqlı və bilikli edən elm hesab edirdi?

– “Mənbəsiz tarix yoxdur” fikri ilə razısınızmı? Niyə?

– Sizcə, nə üçün yazıyaqədərki tarixin öyrənilməsində maddi mənbələrin əhəmiyyəti böyükdür?

– Sizcə, hansı mənbələri daha etibarlı saymaq olar? Nə üçün belə hesab edirsiniz?

**Ev tapşırığı:** Tarixin öyrənilməsində hər hansı bir mənbənin vacibliyini qabardan afişa hazırlayın.

**Qiymətləndirmə meyarı:** izahetmə

Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə, bu mərhələ zamanı müəllim müxtəlif suallar verməklə də təlim prosesində izlədiyi şagirdin tədris meyarına necə cavab verdiyini dəqiqləşdirə bilər. Bu zaman yuxarıda verilmiş meyar nəzərə alınmaqla müəyyən edilən səviyyələr üzrə şagirdlər qiymətləndirilə bilər.

Təqdimat mərasimini şagirdlərin özləri də qiymətləndirə bilərlər. Onlar aşağıda göstərilmiş vərəqi doldururlar. Əgər bunu təqdimatı keçirən qrupun üzvləri edirlərsə, o zaman bu, özünüqiymətləndirmə sayılır. Özünüqiymətləndirmə vərəqindən istifadə etməklə şagirdlər həm də qrupun işini bütövlükdə, yəni qrupun onların qarşısında qoyulmuş vəzifənin öhdəsindən necə gəldiyini qiymətləndirə bilərlər.

Adı, soyadı, ata adı ______________________________

Tarix ____________________

| Meyarlar | Xeyr | Qismən | Tam |
|---|---|---|---|
| Tapşırığı başa düşdüm və fikrimi izah etdim. | | | |
| Dərsdə diqqətli idim. | | | |
| Məntiqli yanaşmam var idi. | | | |
| Sual-cavabda aktiv idim. | | | |
| Əməkdaşlıq etdim. | | | |
| Etiket qaydalarına riayət etdim. | | | |

# 1 Əsas tarixi anlayışlar və zaman ölçü vahidləri (ikinci saat)

**Standartlar:**
1.1.1. Mühüm hadisə, proses və təzahürlərin xronoloji çərçivələrini müəyyənləşdirir.
1.1.2. Mühüm hadisə, proses və təzahürləri zaman oxunda təsvir edir.

**Təlim məqsədləri:** 1. Mühüm hadisələrin xronoloji çərçivələrini müəyyənləşdirir.
2. Mühüm hadisələri zaman oxunda təsvir edir.

**Təlim forması:** kiçik qruplarla iş
**Təlim üsulu:** zaman oxu ilə iş
**Dərsin gedişi**
**Motivasiya.** Mövcud dərs "Əsas tarixi anlayışlar və zaman ölçü vahidləri" paraqrafının tədrisi üçün nəzərdə tutulan ikinci saat olduğunda dərsə motivasiya qurulması məqsədəmüvafiq deyil.

**Tədqiqat sualı: Mühüm hadisələrin xronoloji çərçivələrinin müəyyənləşdirilməsi bizə nə verir?**

**Tədqiqatın aparılması.** Dərsin kiçik qruplarla iş formasında keçilməsi məqsədəmüvafiqdir. Bu zaman şagirdlər kiçik qruplara ayrılır və hər qrupa iş vərəqləri paylanır. Zaman oxu ilə işin təşkili Azərbaycan tarixi fənninin şagirdlərə öyrədilməsində ən əhəmiyyətli məsələlərdən biridir. Qruplara verilən tapşırıqlar aşağıdakı formada ola bilər:

**I qrup**
1. Tarix elminin köməkçi elmlərindən olan Antropologiyanın izahını verin.

______________________________________________

______________________________________________

2. Hadisələri başvermə ardıcıllığına uyğun olaraq düzün.
1) 1136-cı il Eldənizlər dövlətinin yaradılması
2) 2020-ci il Qarabağın işğaldan azad olunması
3) 816-cı il Babəkin başçılığı ilə xürrəmilər üsyanına başçılıq etməsi
4) 1918-ci il Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması
5) E.ə. 843-cü il Manna adının ilk dəfə tarixdə çəkilməsi

3. Dərsliyin 16-cı səhifəsindəki düstura uyğun olaraq 2020-ci ili (miladi tarix) hicri tarixinə çevirin.

______________________________________________

______________________________________________

4. Dərsliyin 17-ci səhifəsindəki qrafikə uyğun olaraq 1136-cı ili yüzilliyə, yarım yüzilliyə, rübə bölün.

______________________________________________________________

______________________________________________________________

**II qrup**

1. Tarix elminin köməkçi elmlərindən olan Epiqrafikanın izahını verin.

______________________________________________________________

______________________________________________________________

2. Hadisələri başvermə ardıcıllığına uyğun olaraq düzün.
   1) 2020-ci il Qarabağın işğaldan azad olunması
   2) 1501-ci il Səfəvilər dövlətinin yaradılması
   3) 816-cı il Babəkin başçılığı ilə xürrəmilər üsyanının başlanması
   4) 1918-ci il Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması.
   5) E.ə. 590-cı il Manna dövlətinin süqutu

3. Dərsliyin 16-cı səhifəsindəki düstura uyğun olaraq 1918-ci ili (miladi tarix) hicri tarixinə çevirin.

______________________________________________________________

______________________________________________________________

4. Dərsliyin 17-ci səhifəsindəki qrafikə uyğun olaraq 1501-ci ili yüzilliyə, yarım yüzilliyə, rübə bölün.

______________________________________________________________

______________________________________________________________

**III qrup**

1. Tarix elminin köməkçi elmlərindən olan Etnoqrafikanın izahını verin.

______________________________________________________________

______________________________________________________________

2. Hadisələri başvermə ardıcıllığına uyğun olaraq düzün.
   1) 2020-ci il Qarabağın işğaldan azad olunması
   2) E.ə. 330-cu il Əhəməni dövlətinin süqutu
   3) 1514-cü il Çaldıran vuruşması
   4) 1918-ci il Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması
   5) 359-cu il Amid şəhəri yaxınlığında döyüş

3. Dərsliyin 16-cı səhifəsindəki düstura uyğun olaraq 1325-ci hicri ilini miladi tarixinə çevirin.

______________________________________________________________

______________________________________________________________

4. Dərsliyin 17-ci səhifəsindəki qrafikə uyğun olaraq 2020-cı ili yüzilliyə, yarım yüzilliyə, rübə bölün.

______________________________________________________________

______________________________________________________________

**IV qrup**

1. Tarix elminin köməkçi elmlərindən olan Xronologiyanın izahını verin.

______________________________________________________________

______________________________________________________________

2. Hadisələri başvermə ardıcıllığına uyğun olaraq düzün.
   1) 2020-ci il Qarabağın işğaldan azad olunması
   2) 1918-ci il Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması
   3) 1027-ci il Xudafərin körpüsünün tikilməsi
   4) E.ə. 590-cı il Manna dövlətinin süqutu
   5) 359-cu il Amid şəhəri yaxınlığında döyüş

3. Dərsliyin 16-cı səhifəsindəki düstura uyğun olaraq 1248-ci hicri ilini miladi tarixinə çevirin.

______________________________________________________________

______________________________________________________________

4. Dərsliyin 17-ci səhifəsindəki qrafikə uyğun olaraq 1918-ci ili yüzilliyə, yarım yüzilliyə, rübə bölün.

______________________________________________________________

______________________________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qrup işi üçün ayrılmış vaxt bitdikdən sonra dərsin mübadilə və müzakirə mərhələsi həyata keçirilir. Bu mərhələdə müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur, buraxılan səhvlər düzəldilir. Bu zaman digər qruplardan da kömək alınır. Müzakirələr zamanı bütün sinif şagirdlərinin fəallığının təmin olunması müəllimdən asılı olacaqdır. Şagirdlərin müzakirələrdə fəal iştirakı nəticələrin alınmasında yardımçı olar.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin bu mərhələsində şagirdlərə verilən yönləndirici suallar vasitəsilə onların Tarixin köməkçi elmlərindən, minillik, yüzillik, rüb, eradan əvvəl, bizim era və s. bu kimi anlayışlar haqqında məlumatlı olduqlarını, mühüm hadisələrin xronoloji çərçivələrini necə müəyyənləşdirdikləri, mühüm hadisələri zaman oxunda necə təsvir etdikləri aydınlaşdırılır. Bu da, öz növbəsində, tədqiqat sualına cavab tapmağa kömək etmiş olar. Bununla belə, tədqiqat sualının tam cavabını almaqdan ötrü aşağıdakı suallar da yardımçı ola bilər:

– Tarixin dövrlərə görə öyrənilməsinin əhəmiyyətini necə izah edərdiniz?
– Nə üçün arxeologiya elmi tarixin öyrənilməsində mühüm yer tutur?
– Xronologiyanın tarixin öyrənilməsində rolu nədir?
– Yazının meydana gəlməsinin əhəmiyyətini necə izah edərdiniz?
– Sizcə, zaman ardıcıllığı olmadan tarixi öyrənmək mümkündürmü?
– Miladdan əvvəl və eramızda baş verən hadisələri zaman oxu üzərində düzəndə hansı fərq gözə çarpır?
– Sizcə, dünyanın əksər dövlətlərində vahid il hesabı olmasaydı, nə baş verərdi?

**Qiymətləndirmə meyarları:** müəyyənləşdirmə, təsviretmə

Formativ qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə, bu mərhələ zamanı müxtəlif suallar verməklə də təlim prosesində izlənilmiş şagirdin hansı meyara cavab verdiyi dəqiqləşdirilə bilər. Qiymətləndirmə zamanı şagirdlərin yuxarıdakı meyara uyğun olaraq səviyyələr üzrə qiymətləndirilməsi də unudulmamalıdır.

Eləcə də qrup işi aşağıda verilmiş formada qiymətləndirilə bilər.

| Qruplar | Mübadilədən düzgün istifadə | Əməkdaşlıq | Tapşırığın vaxtında yerinə yetirilməsi | Tapşırığın düzgün yerinə yetirilməsi | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

# 2 İbtidai cəmiyyət (birinci saat)

**Qeyd:** İbtidai cəmiyyət adlı mövzunun tədrisinə səkkiz saat ayrılmışdır. Bu paraqraf dərsliyin 18-63-cü səhifələrini əhatə edir. Bu paraqraf tədris saatına uyğun olaraq aşağıdakı qaydada bölünmüşdür:

– Birinci dərs saatı 18-ci səhifədən 22-ci səhifədəki "Qədim daş dövrü" yarımbaşlığına qədərki məlumatların tədrisinə hesablanmışdır.

– İkinci dərs saatında 22-ci səhifədəki "Qədim Daş dövrü" yarımbaşlığından 28-ci səhifədəki "Neandertal insan" yarımbaşlığına qədərki materialların tədqiqata cəlb edilməsi nəzərdə tutulmuşdur.

– 28-ci səhifədəki "Neandertal insan" yarımbaşlığından 33-cü səhifədəki "Orta Daş dövrü" yarımbaşlığına qədərki məlumatlar üçüncü dərs saatının tədrisi üçün nəzərdə tutulmuşdur.

– Dördüncü dərs saatında şagirdlərin tədqiqatı üçün nəzərdə tutulan məlumatlar dərsliyin 33-cü səhifəsindəki "Orta Daş dövrü" yarımbaşlığından 37-ci səhifədəki "Mis-Daş dövrü" yarımbaşlığına qədərki materiallardır.

– Beşinci dərs saatında şagirdlər 37-ci səhifədəki "Mis-Daş dövrü" yarımbaşlığından 44-cü səhifədəki "Tunc dövrü" yarımbaşlığınadək olan məlumatlar əsasında tədqiqatlarını apara bilərlər.

– Altıncı dərs saatı 44-cü səhifədəki "Tunc dövrü" yarımbaşlığından 49-cu səhifədəki "Orta Tunc dövrü" yarımbaşlığınadək olan materialların tədqiqi üçün nəzərdə tutulmuşdur.

– 49-cu səhifədəki "Orta Tunc dövrü" yarımbaşlığından 56-cı səhifədəki "Son Tunc və Erkən Dəmir dövrü" yarımbaşlığınadək olan informasiyalar əsasında yeddinci dərs saatının tədrisi planlaşdırılmışdır.

– 56-cı səhifədəki "Son Tunc və Erkən Dəmir dövrü" yarımbaşlığından paraqrafın sonunadək olan materiallar əsasında isə səkkizinci tədris saatının keçirilməsi məqsədəmüvafiq olardı.

Onu da bildirək ki, bu bölgü mütləq deyil. Bu bölgü müəllimin təlim strategiyasına, sinifdəki şagirdlərin bacarığına uyğun olaraq dəyişdirilə və yeni bölgü forması yaradıla bilər. Yuxarıdakı bölgüyə uyğun olaraq dərsi keçən zaman dərsliyin səhifələrində verilən bütün şəkil və illüstrasiyaları, sxem və cədvəlləri, sual və tapşırıqları, eləcə də maraqlı məlumatları diqqətdən kənarda saxlamamaq mütləqdir.

**Standartlar:**
2.1.1. Qədim insanların həyat tərzini və məşğuliyyətlərini Azərbaycan ərazisinin təbii-coğrafi şəraiti ilə əlaqələndirir.
2.1.2. Xəritələrdə Azərbaycan ərazisində ilk insan məskənlərini, dövlət qurumları və qədim dövlətlərin yerini müəyyənləşdirir.

**Təlim məqsədləri:**
1. Azərbaycanda yaşayan qədim insanların həyat tərzini və məşğuliyyətlərini təbii-coğrafi şəraitlə əlaqələndirir.
2. Azərbaycan ərazisində ilk insan məskənlərinin yerini xəritədə müəyyənləşdirir.

**Təlim forması:** böyük qruplarla iş

**Təlim üsulları:** problemli situasiya, akvarium

**Dərsin gedişi**

**Motivasiya:** Şagirdlərdə dərsə maraq yaratmaq üçün, bəlkə də, ən yaxşı yol "problemli situasiya" yaratmaqdır. Bunun üçün onlara aşağıdakı sualla müraciət etmək olar:

– Fərz edin, tənha bir adaya düşmüsünüz və sizdə nə yemək, nə vəhşi heyvanlardan qorunmaq üçün hər hansı bir silah, nə daldalanmağa bir yer, nə də hər hansı bir alət yoxdur. Sağ qalmaq üçün, yaşamaq üçün nə edərdiniz?

Şagirdlərin fərziyyələri toplanır, köməkçi suallar vasitəsilə lazımi məcraya yönəldilir və fikirləri ibtidai insanlarla əlaqələndirilib motivasiya qurulur.

**Tədqiqat sualı:** Təbii-coğrafi şərait qədim insanların həyat tərzi və məşğuliyyətlərində nə kimi rol oynadı?

**Tədqiqatın aparılması.** Tədqiqatın böyük qruplarla iş formasında aparılması tövsiyə edilir. Bu zaman akvarium metodundan yararlanmaq olar. Bu iş üsulu üçün sinfi iki dairəyə – iç və çöl dairələrinə bölüb, iç dairəyə müəyyən vaxt müddətində hər hansı bir problemin müzakirəsi tapşırıla bilər. Sonra akvarium dərs üsulunun qaydalarına uyğun olaraq dairədəki şagirdlər yerlərini dəyişib müzakirəni davam etdirməlidir. Müzakirə üçün aşağıdakı tapşırıqlardan istifadə edilə bilər:
– *İbtidai insanların həyatında təbii-coğrafi şəraitin rolunu dəyərləndirin.*
– *Qədim insanların daş dövründə inkişafını şərh edin.*
"Akvarium"da iş zamanı, əslində, dərsin məlumatın mübadiləsi və müzakirəsi mərhələsi də həyata keçirilmiş olur. "Akvarium"da iş üçün ayrılmış vaxt bitdikdən sonra dərsin növbəti mərhələsi həyata keçirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin sonunda əldə olunan nəticələr müəyyən edilir. Yardımçı sual və tapşırıqlar kimi aşağıdakılardan istifadə edilə bilər.
– Nə üçün ilk əmək alətləri çay daşlarından hazırlanırdı?

– Azərbaycanın ən qədim insan məskənlərindən biri olmasını şərtləndirən amillər hansılardır?
– Nə üçün ilk vaxtlarda təbiətin insanlara təsiri daha güclü olmuşdur?
– Azərbaycan ərazisində hansı qədim yaşayış düşərgələri aşkar olunmuşdur?
– İbtidai cəmiyyətin Daş, Tunc və Dəmir dövrlərinə bölünməsinin səbəbini izah edin.
– Mağaraların qədim insanların həyatında mühüm rol oynadığını əsaslandırın.

**Yaradıcı tətbiqetmə:**
– Azərbaycan ərazisində ilk insan məskənlərinin yerini xəritədə müəyyənləşdirin.
– Dərsliyin 18-ci səhifəsindəki sxem əsasında danışın.

**Ev tapşırığı:** Şagirdlərə Azərbaycanın qədim mağaraları haqqında məlumat toplamaq tapşırılır.

**Qiymətləndirmə meyarları:** əlaqələndirmə, müəyyənləşdirmə

Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bu mərhələ zamanı müxtəlif suallar verməklə də təlim prosesində izlənilmiş şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirmək və müəyyən edilən səviyyələr üzrə qiymətləndirmək olar. Eləcə də hər bir şagirdin öz fəaliyyətini qiymətləndirilməsi həyata keçirilə bilər. Bunun üçün aşağıdakı cədvəl kömək edə bilər.

**Adı, soyadı, ata adı** ____________________________

| Dərsdə diqqətli idim. | Sual-cavabda aktiv idim. | Məntiqli yanaşmam var idi. | Əməkdaşlıq etdim. | Tapşırığı tam və düzgün yerinə yetirdim. | Etiket qaydalarına riayət etdim. |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |

# 2 İbtidai cəmiyyət (ikinci saat)

**Standartlar:**

1.2.2. İllüstrasiya və yaxud muzey eksponatları əsasında sadə tədqiqatlar aparır.

1.3.1. İnsanların birgə yaşayışının müxtəlif formalarını fərqləndirir.

**Təlim məqsədləri:**

1. Dərslikdəki illüstrasiyalar əsasında sadə tədqiqatlar aparır.
2. “Bacarıqlı insan”ın birgə yaşayış formasını fərqləndirir.

**Təlim formaları:** böyük qruplarla və fərdi iş

**Təlim üsulu:** fasiləli oxu

**Dərsin mərhələləri**

**Motivasiya:** Tədris olunan dərs eyni paraqrafın ikinci saatına aiddir. Ona görə də bu dərsə motivasiya qurmağa ehtiyac yoxdur. Bununla belə, müəllimin tədqiqat sualını elan etmək üçün dərsə bir-iki cümləlik giriş verməsi mütləqdir.

**Tədqiqat sualı: Qədim insanların Qədim Daş dövründə inkişafı necə baş verdi?**

**Tədqiqatın aparılması:** Bu mərhələni həyata keçirmək üçün fasiləli oxu üsulundan istifadə etmək olar. Məlum olduğu kimi, bu üsulla dərsi keçən zaman şagirdlər növbə ilə mövzunu oxuyub müəyyən hissələrdə fasilələrə yol verirlər. Mövzuarası verilmiş sual və tapşırıqlar fasilə hissələri ola bilər. Şagirdlərin səviyyəsindən asılı olaraq, bu fasilələri mürəkkəb görünən və düşünməyə, eləcə də mülahizələr söyləməyə imkan yaradan hissələrdə də etmək olar. Və bu zaman da şagirdlərə dərslikdə verilmiş və müəllim tərəfindən əvvəlcədən hazırlanmış sual və tapşırıqlarla müraciət edilə bilər:

– Sizcə, dərsliyin 22-ci səhifəsindəki alətlərdən nə kimi istifadə etmək olar? Fikrinizi əsaslandırın.

– Turkana gölü ətrafında aparılan tədqiqatların əhəmiyyəti nədir?

– Dərsliyin 23-cü səhifəsindəki sxemi öz sözlərinizlə izah edin.

– Mənimsəmə təsərrüfatı nədir?

– Çapacaq nə üçün hazırlandı?

– Dərsliyin 25-ci səhifəsindəki sxem əsasında müstəqil fikirlər yürüdün.

– Ulu icma necə yarandı?

– Dərsliyin 26-cı səhifəsindəki şəkillər əsasında qədim insanların odu necə əldə etməsi və oddan hansı məqsədlə istifadə etməsini izah edin.

– Ovçuluğun qədim insanların həyatında oynadığı rolu izah edin.

– Azıx mağarasında əldə edilən tapıntılar nəyi sübut edir?

– Dərsliyin 28-ci səhifəsindəki illüstrasiya əsasında ovçuluğu şərh edin.

Sual və tapşırıqların müzakirəsi zamanı şagirdlərin cavablarına hörmətlə yanaşılır. Şagirdlərə verilən suallar onların əvvəllər əldə etdikləri biliklərinin üzə çıxmasına şərait yaradacaq. Onlar həm dərslikdə verilən məlumatlardan nəticə çıxarmaqla, həm də əvvəllər öyrəndikləri materiallara istinad etməklə faktlar söyləyəcəklər. Şagirdlərin izahı onların münasibət bildirmə, izahetmə bacarıqlarının da formalaşmasına yardımçı olar.

Şagirdlər öz fikirlərini söyləyərkən ən zəruri sayılan məqamları lövhədə və ya flipçartda (bunu vatman kağızı da əvəz edə bilər) qeyd etsələr, yaxşı olar. Çünki bu fikirlər sonda ümumiləşdirmə və nəticələrin əldə olunması zamanı lazım olar. Fasiləli oxu zamanı təkcə mövzunu əhatə etmiş sual və tapşırıqlar deyil, şəkillər, illüstrasiyalarla yanaşı, xüsusən mənbələr də diqqət mərkəzində saxlanılmalıdır. Mövzunun oxunuşu zamanı fasilə verməklə qısa vaxt ərzində şagirdlərin qiymətləndirməsini həyata keçirmək olar.

Fasiləli oxu zamanı yuxarıda sadaladığımız sual və tapşırıqları şagirdlərə verməklə və verilməyən sual və tapşırıqların müzakirəsini təşkil etməklə, əslində, dərsin məlumatın mübadiləsi və müzakirəsi mərhələsi də həyata keçirilmiş olar.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Burada şagirdlərə əlavə olaraq “bacarıqlı insan”, mənimsəmə təsərrüfatı, daş əmək alətləri, Azıx adamları ilə bağlı əlavə sual və tapşırıqlar verilə bilər. Şagirdlərin verdikləri cavablar dinlənilir. Deyilən arqumentlər lövhədə qeydə alınır. Səslənmiş fikirlər müzakirə edilir. Bununla da dərsin bu mərhələsi yekunlaşdırılır. Yaddan çıxartmaq lazım deyil, dərsin məqsədlərinə və tədqiqat sualına yönəlmiş olan sualların əvvəlcədən hazırlanması vacibdir.

Dərsin gedişindəki müzakirələrlə yanaşı, ümumiləşdirmə və nəticənin çıxarılması mərhələsində aparılan müzakirələr nəticəsində şagirdlər dərslikdəki illüstrasiyalar əsasında sadə tədqiqatlar apara, “bacarıqlı insan”ın birgə yaşayış formasını fərqləndirə biləcəklər.

**Ev tapşırığı:** Dərsliyin 27-ci səhifəsində verilmiş tapşırığın icrası tapşırılır.

**Qiymətləndirmə meyarları:** sadə tədqiqataparma, fərqləndirmə

Təlim məqsədinə uyğun olaraq aparılan qiymətləndirmə dərsin bütün mərhələlərində həyata keçirilə bilər. Şagirdlər bilik və bacarıqları əsasında 4 səviyyə üzrə qiymətləndirilir. Bu səviyyələr meyara uyğun həyata keçirilməlidir. Bu səviyyələr ən zəif bacarığa malik olan şagirddən tutmuş ən yüksək bacarıqlı şagirdə görə dəyişə bilər.

Dərsin sonunda şagirdlərə aşağıdakı formada özünüqiymətləndirmə vərəqini paylamaq olar.

**Qrupun qiymətləndirmə vərəqi**
**Qrupun adı** ____________________

Bu anket özünüqiymətləndirmə məqsədilə hazırlanmışdır. Gördüyünüz işləri ən düzgün formada ifadə edən seçimi işarələyin (X).

| Qabiliyyətlər | Dərəcələr | | |
|---|---|---|---|
| | Həmişə | Bəzən | Heç vaxt |
| 1. Müəllimin izahlarını və məsləhətlərini dinlədim. | | | |
| 2. Təlimata əməl etdim. | | | |
| 3. Verilən hissəni səlis oxudum. | | | |
| 4. Yaxşı opponentlik etdim. | | | |
| 5. Mövzuya uyğun bir neçə sual verdim. | | | |
| 6. Verilən sualları cavablandırdım. | | | |
| 7. Oxuduğumu anladım. | | | |
| 8. Dərslikdəki illüstrasiyalar əsasında sadə tədqiqatlar apardım. | | | |
| 9. “Bacarıqlı insan”ın birgə yaşayış formasını fərqləndirdim. | | | |

10. Bu dərs müddətində ən yaxşı gördüyüm işlər:

ŞƏRHLƏR:

# 2 İbtidai cəmiyyət (üçüncü saat)

**Standartlar:**
1.3.1. İnsanların birgə yaşayışının müxtəlif formalarını fərqləndirir.
2.1.1. Qədim insanların həyat tərzini və məşğuliyyətlərini Azərbaycan ərazisinin təbii-coğrafi şəraiti ilə əlaqələndirir.

**Təlim məqsədləri:**
1. Azərbaycanda yaşayan qədim insanların birgə yaşayışının müxtəlif formalarını fərqləndirir.
2. Azərbaycanda yaşayan qədim insanların həyat tərzini və məşğuliyyətlərini təbii-coğrafi şəraitlə əlaqələndirir.

**Təlim formaları:** böyük və kiçik qruplarla iş

**Təlim üsulu:** restavrasiya

**Dərsin mərhələləri**

**Tədqiqat sualı: Qədim insanların həyat tərzi və məşğuliyyətlərinə Azərbaycanın təbii-coğrafi şəraiti necə təsir göstərdi?**

**Tədqiqatın aparılması:** Tədqiqatın kiçik qruplarla iş formasında aparılması tövsiyə edilir. Fəal təlimin restavrasiya üsulundan istifadə etmək məsləhətdir. Bu üsul şagirdlərə mətnlə işləməklə yanaşı, onlardan konspekt yazmaq və ondan istifadə etmək bacarığını formalaşdırır. Bunun üçün şagirdlərə xüsusi işarələrlə işarələnmiş, şərti işarələri olmayan ixtisar olunmuş mətn verilir. Şagirdlər müəyyən edilmiş vaxt çərçivəsində mətni bərpa edib onu genişləndirməlidirlər.

Bu zaman qruplara tədqiqat üçün aşağıdakı tapşırıqlar verilə bilər.

**I qrup**

Verilmiş mətni bərpa edin:

Qədim Daş dövrünün növbəti mərhələsində əhalinin sayı artmış və onlar ________________
____________________________________________________________
____________________________________________________________
______________________________________________ Mustye mədəniyyəti dövründə qədim insanların bədən quruluşunda, alətlərin ____________________________________
____________________________________________________________
______________________________________________________ Bu onların inkişafi ilə əlaqədar olaraq meydana ____________________________________________
____________________________________________________________

### II qrup

Verilmiş mətni bərpa edin:

Mustye dövrünün sakinləri neandertallar idi. ______________________________

________________________________________________________________________

________________________________________________________________________

______________________________

Neandertallar yaşayış tikililərini ______________________________ ________

________________________________________________________________________

________________________________________________________________________

________________________________________________________________

Arxeoloji qazıntılar zamanı neandertalların qəbirləri ______________________ ________

________________________________________________________________________

________________________________________________________________________

### III qrup

Verilmiş mətni bərpa edin:

Qədim insanlar müəyyən etmişlər ki, ______________________________ ____________

________________________________________________________________________

________________________________________________________________________

_________

Təxminən, 35 min bundan əvvəl ________________________________________

________________________________________________________________________

______________________________________________________________ İnsan fiziki və əqli cəhətdən daha da inkişaf etdi. __________________________________________

________________________________________________________________________

___________________

### IV qrup

Verilmiş mətni bərpa edin:

Səsli nitq ilk vaxtlar tək-tək sadə səslərdən ____________________________

________________________________________________________________________

________________________________________________________________________

________________________________________________

Bu dövrdə ulu icmanı qəbilə icması əvəz etdi. ____________________________

________________________________________________________________________

______________________________________________________________

Buna görə qəbilədə ana ______________________________________________

________________________________________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi:** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra məlumatın mübadiləsi və müzakirəsi mərhələsi başlayır. Bu mərhələdə şagirdlərə müəyyən vaxt verilir və onlardan bu vaxt ərzində cavabları hazırlayıb təqdim etmələri istənilir. Təqdim edilən cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Əvvəlcədən müəyyən etdiyiniz meyarlar əsasında qruplar qiymətləndirilə bilər.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Dərsi ümumiləşdirib nəticə çıxarmaq üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət edilə bilər.

– Dövrün Mustye mədəniyyəti adlandırılmasının səbəbini izah edin.
– Dərsliyin 30-cu səhifəsindəki məlumat əsasında neandertalların məşğuliyyətini izah edin.
– Sizcə, qədim insanlar nədən danışa bilərdilər?
– Sizcə, insanların qəbilədə birləşməsinin hansı üstünlükləri oldu?
– Qəbilə ilə ulu icma arasında hansı oxşarlıqlar və fərqlər var?
– Dərsliyin 32-ci səhifəsindəki sxem əsasında danışın.
– Neandertal insanların kimliyini şərh edin.

**Yaradıcı tətbiqetmə:** Azıx adamı ilə Ağıllı insanı həyat tərzi baxımından müqayisə edin.

| | **Azıx adamı** | **Ağıllı adam** |
|---|---|---|
| **Fərqli cəhət** | | |
| **Oxşar cəhət** | | |

**Qiymətləndirmə meyarları:** fərqləndirmə, əlaqələndirmə

Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə, bu mərhələ zamanı müxtəlif suallar verməklə də təlim prosesində izlənilmiş şagirdin hansı meyara cavab verdiyi dəqiqləşdirilə bilər. Dərsin sonunda şagirdlərə aşağıdakı formada özünüqiymətləndirmə vərəqi də verib cədvəli doldurmaq təklif edilə bilər.

Aşağıda sadalananlar barədə öz şəxsi keyfiyyətlərinizi necə qiymətləndirirsiniz?

| **Meyar** | **Qeyri-kafi** | **Kafi** | **Yaxşı** | **Əla** |
|---|---|---|---|---|
| **Əməkdaşlıq** | | | | |
| **Başqalarına kömək** | | | | |
| **Başqalarına hörmət** | | | | |
| **Dinləmək bacarığı** | | | | |
| **Səhvin etirafı** | | | | |
| **Düzgünlük** | | | | |
| **Başqaları haqqında ədalətlə fikir yürütmə** | | | | |
| **Azərbaycanda yaşayan qədim insanların birgə yaşayışının müxtəlif formalarını fərqləndirmə** | | | | |
| **Azərbaycanda yaşayan qədim insanların həyat tərzini və məşğuliyyətlərini təbii-coğrafi şəraitlə əlaqələndirmə** | | | | |

# 2 İbtidai cəmiyyət (dördüncü saat)

**Standartlar:**

1.2.2. İllüstrasiya və yaxud muzey eksponatları əsasında sadə tədqiqatlar aparır.

2.1.1. Qədim insanların həyat tərzini və məşğuliyyətlərini Azərbaycan ərazisinin təbii-coğrafi şəraiti ilə əlaqələndirir.

**Təlim məqsədləri:**

1. İllüstrasiyalar əsasında sadə tədqiqatlar aparır.

2. Azərbaycanda yaşayan qədim insanların həyat tərzini və məşğuliyyətlərini təbii-coğrafi şəraitlə əlaqələndirir.

**Təlim formaları:** kollektiv, fərdi

**Təlim üsulu:** bir dəqiqə

**Dərsin gedişi**

**Tədqiqat sualı. Qədim insanların həyat tərzi və məşğuliyyətlərinə Azərbaycanın təbii-coğrafi şəraiti necə təsir göstərdi?**

**Tədqiqatın aparılması:** Tədqiqat sualı elan olunduqdan sonra dərsin tədqiqatın aparılması mərhələsini reallaşdırmaq üçün "bir dəqiqə" üsulundan istifadə etmək məqsədəmüvafiq olardı. Bunun üçün şagirdlərə materialla tanışlıq üçün vaxt verib onlara bu dərs üsulunun qaydaları xatırladıla (materialla tanış olmaq üçün veriləcək müddət bitdikdən sonra sizə bir sual və ya bir cümlə veriləcək. Siz də, öz növbənizdə, səsləndirilən problemi bir dəqiqə ərzində durmadan şərh etməlisiniz) bilər. Bu üsulun tətbiqi zamanı aşağıdakı sual və tapşırıqlardan istifadə etmək məqsədəmüvafiq olardı.

– Ox və kamanın ixtirası ilə qədim insanların həyat tərzinin dəyişməsini əlaqələndirin.

– Maldarlığın yaranmasını şərh edin.

– Əkinçiliyin yaranmasını şərh edin.

– Mənimsəmə təsərrüfatından istehsal təsərrüfatına keçidi əlaqələndirin.

– Dərsliyin 33-cü səhifəsindəki şəkil əsasında Mezolit dövründəki həyatı təsvir edin.

– Dərslikdəki illüstrasiyalardan istifadə etməklə Mezolit dövrünün əmək alətlərinin izahını verin.

– Mezolit dövründəki ibtidai incəsənətin inkişafını insanların həyat tərzi və dini ayinlərlə bağlılığını əlaqələndirin.

– Neolit dövrünün nailiyyətlərini şərh edin.

– Dərsliyin 36-cı səhifəsindəki şəkil əsasında Neolit dövrünün təsərrüfat həyatını təsvir edin.

– Neolit dövrünün əmək alətlərinin izahını verin.

**Qeyd:** Hörmətli müəllimlər, yuxarıda verilmiş tapşırıqlar azlıq təşkil edərsə, siz özünüz əlavə tapşırıqlar hazırlaya və ya eyni tapşırığı (təbii ki, tam cavablandırılmayan tapşırığı) təkrarən digər şagirdə verə bilərsiniz.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Dərsin tədqiqatın aparılması mərhələsi bitdikdən sonra məlumatın mübadiləsi və müzakirəsi mərhələsinə keçid edilir. Burada şagirdlərə əlavə olaraq sual və tapşırıqlar vermək olar. Şagirdlərin verdikləri cavablar dinlənilir. Deyilən arqumentlər lövhədə qeydə alınır. Səslənmiş fikirlər müzakirə edildikdən sonra dərsin bu mərhələsini yekunlaşdırmaq olar. Yaddan çıxarmaq lazım deyil, dərsin məqsədlərinə və tədqiqat sualına yönəlmiş olan suallar əvvəlcədən hazırlanmalıdır.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Dərsi ümumiləşdirmək üçün şagirdlərə aşağıdakı ümumiləşdirici suallarla müraciət edilə bilər.

– Sizcə, əkinçiliyin inkişafı üçün əsas vacib olan nədir? Fikrinizi əsaslandırın.

– Mənimsəmə təsərrüfatından istehsal təsərrüfatına keçmək insanların həyatında hansı dəyişikliklərə gətirib çıxartdı?

– Qobustanı nə üçün "Açıq səma altında muzey" adlandırırlar?

– Nəyə "Neolit inqilabı" deyirlər?

– Azərbaycanda yaşayan qədim insanların həyat tərzinə təbii-coğrafi şəraitin hansı təsiri oldu?

Dərsin gedişindəki müzakirələrlə yanaşı, ümumiləşdirmə və nəticənin çıxarılması mərhələsində aparılan müzakirələr nəticəsində şagirdlər qədim insanların həyat tərzindəki dəyişiklikləri nümunə göstərməklə təsvir edə, insan və cəmiyyətin həyatı üçün vacib olan əlverişli təbii amilləri nümunə kimi göstərməyi, Orta Daş dövrü və Yeni Daş dövrü əmək alətlərinin yaradılması, istifadəsi haqda müstəqil fikir yürütməyi, illüstrasiyalar əsasında sadə tədqiqat aparmağı, qədim insanların həyat tərzini və məşğuliyyətlərini Azərbaycan ərazisinin təbii-coğrafi şəraiti ilə əlaqələndirməyi bacararlar.

**Yaradıcı tətbiqetmə:** Qədim insanların fəaliyyət sahələri ilə bağlı afişa hazırlayın.

**Qiymətləndirmə meyarları:** sadə tədqiqatlar aparma, əlaqələndirmə

Göstərilən meyarlar əsasında şagirdlərin formativ qiymətləndirməsi həyata keçirilir. Formativ qiymətləndirməni aşağıda verilmiş nümunə əsasında özünüqiymətləndirmə vərəqindən istifadə etməklə də yazmaq olar.

**Şagirdin özünüqiymətləndirmə vərəqi**

**Adı, soyadı** ________________________ **Tarix**__________________

| Meyarlar | Xeyr | Qismən | Tam |
|---|---|---|---|
| İllüstrasiyalar əsasında sadə tədqiqatlar apara bilirəm. | | | |
| Azərbaycanda yaşayan qədim insanların həyat tərzini və məşğuliyyətlərini təbii-coğrafi şəraitlə əlaqələndirirəm. | | | |
| Məntiqli yanaşmam var idi. | | | |
| Sual-cavabda aktiv idim. | | | |
| Dərsdə diqqətli idim. | | | |
| Etiket qaydalarına riayət etdim. | | | |
| Əməkdaşlıq etdim. | | | |

# 2 İbtidai cəmiyyət (beşinci saat)

**Standartlar:**

1.1.2. Mühüm hadisə, proses və təzahürləri zaman oxunda təsvir edir.

2.1.1. Qədim insanların həyat tərzini və məşğuliyyətlərini Azərbaycan ərazisinin təbii-coğrafi şəraiti ilə əlaqələndirir.

**Təlim məqsədləri:**

1. Mis-Daş dövründə baş verən mühüm hadisə, proses və təzahürləri zaman oxunda təsvir edir.

2. Mis-Daş dövründəki insanların həyat tərzini və məşğuliyyətlərini Azərbaycan ərazisinin təbii-coğrafi şəraiti ilə əlaqələndirir.

**Təlim forması:** kiçik qruplarla iş

**Təlim üsulu:** müzakirə

**Dərsin gedişi**

**Tədqiqat sualı: Mis-daş dövründəki qədim insanların həyat tərzi və məşğuliyyətlərində hansı dəyişikliklər baş verdi?**

**Tədqiqatın aparılması:** Tədqiqatın kiçik qruplarla iş formasında aparılmasını tövsiyə edərdik. Fəal təlimin müzakirə üsulundan istifadə etməyiniz məsləhətdir. Qruplara tədqiqat üçün aşağıdakı tapşırıqlar verilə bilər.

**I qrup**

Mis-Daş dövründə baş verən mühüm hadisə, proses və təzahürləri zaman oxunda təsvir edin.

____________________________________________

____________________________________________

**II qrup**

Mis-Daş dövründəki insanların həyat tərzində baş verən yenilikləri, insanların yayılma arealını təbii-coğrafi şəraitlə əlaqələndirin.

____________________________________________

____________________________________________

**III qrup**

Mis-Daş dövründəki sənət sahələrini (dulusçuluqdan başqa) dəyərləndirin.

____________________________________________

____________________________________________

**IV qrup**

Dulusçuluğu, Mis-Daş dövründə qadınların qəbilədaxili rolunu və mövqeyini qiymətləndirin.

______________________________________________________________________________

______________________________________________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi:** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra məlumatın mübadiləsi və müzakirəsi mərhələsinə keçilir. Bu mərhələdə şagirdlərə müəyyən vaxt verilir və onlardan bu vaxt ərzində cavabları hazırlayıb təqdim etmələri istənilir. Təqdim edilən cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir. Əvvəlcədən müəyyən edilən meyarlar əsasında qrupları qiymətləndirmək olar.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Dərsi ümumiləşdirib nəticə çıxartmaq üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət edilə bilər:

– Metal emalının əhəmiyyətini izah edin.
– Oturaq həyat tərzi nədir? Oturaq həyat tərzinə nə başlanğıc verdi?
– Nə üçün yaşayış yerləri su kənarında salınırdı?
– Sizcə, nə üçün ovçuluq ikinci dərəcəli təsərrüfat sahəsinə çevrildi?
– İctimai həyat dedikdə nə başa düşürsünüz?
– Sizcə, Mis-Daş dövründə qadın hansı işləri görürdü?
– Dulusçuluğun inkişafına səbəb olan amilləri müəyyən edin.
– Sizcə, nə üçün bu dövr Mis dövrü deyil, Mis-Daş dövrü adlanır? Fikrinizi əsaslandırın.

**Yaradıcı tətbiqetmə:** Bu zaman şagirdlərə xəritə əsasında Paleolit, Mezolit və Neolit dövrü abidələrinin yerinin müəyyənləşdirilməsi tapşırığı verilə bilər.

**Ev tapşırığı:** Dərsliyin 40-cı səhifəsindəki mənbə əsasında Əliköməktəpə yaşayış məskəninin planını hazırlamaq tapşırıla bilər.

**Qiymətləndirmə meyarları:** təsviretmə, əlaqələndirmə

Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə, bu mərhələ zamanı müxtəlif suallar verməklə də təlim prosesində izlənilmiş şagirdin hansı meyara cavab verdiyi dəqiqləşdirilə bilər.

Dərsin sonunda şagirdləri aşağıdakı formaya uyğun qrup təqdimatının qiymətləndirilməsi vərəqi ilə qiymətləndirmək olar. Cədvəli doldurarkən 2, 3, 4, 5 rəqəmli ballardan istifadə etmək məqsədəmüvafiqdir.

| Meyarlar | I qrup | I qrup | I qrup | I qrup |
|---|---|---|---|---|
| Tədqiqat dərsin məqsədinə nə səviyyədə cavab verdi? | | | | |
| Reqlamentə riayət olundumu? | | | | |
| Tapşırıq vaxtında yerinə yetirildimi? | | | | |
| Qrup daxilində əməkdaşlıq var idimi? | | | | |
| Təqdim edən sərbəst çıxış edirdi və ya oxuyurdu? | | | | |
| Məlumat üçün seçilən material nə qədər keyfiyyətlidir? | | | | |
| Çıxış edən əlavə suallara cavab verə bildimi? | | | | |
| Nəticə çıxarılıbmı? | | | | |

# 2 İbtidai cəmiyyət (altıncı saat)

**Standartlar:**

1.3.1. İnsanların birgə yaşayışının müxtəlif formalarını fərqləndirir.

2.1.1. Qədim insanların həyat tərzini və məşğuliyyətlərini Azərbaycan ərazisinin təbii-coğrafi şəraiti ilə əlaqələndirir.

**Təlim məqsədləri:**

1. Azərbaycanda yaşayan qədim insanların birgə yaşayışının müxtəlif formalarını fərqləndirir.

2. Tunc dövründəki insanların həyat tərzini və məşğuliyyətlərini Azərbaycan ərazisinin təbii-coğrafi şəraiti ilə əlaqələndirir.

**Təlim formaları:** böyük  və kiçik qruplarla iş

**Təlim üsulu:** "Üç cümlə"

## Dərsin mərhələləri

**Tədqiqat sualı: Tunc dövründəki qədim insanların həyat tərzi və məşğuliyyətlərində hansı dəyişikliklər baş verdi?**

**Tədqiqatın aparılması:** Tədqiqatın aparılmasını fəal təlimin “üç cümlə” üsulundan istifadə etməklə həyata keçirmək olar. Bu üsulla keçilən dərs zamanı şagirdlərə tapşırılır ki, verilmiş tapşırığı əsaslandırılmış şəkildə daha qısa həcmdə təqdim etsinlər. Və sonra onlara növbəti tövsiyələr xatırladılır – hansı qrup hekayəni daha qısa yazıbsa, o qalib gəlir. Bu zaman məzmun əsas götürülür. Bunun ardınca qruplara tədqiqat üçün aşağıdakı sual və tapşırıqlar verilə bilər.

**I qrup**

Kür-Araz mədəniyyətinin yaranmasını Azərbaycan ərazisinin təbii-coğrafi şəraiti ilə əlaqələndirin. Tayfanı digər insan kollektivlərindən fərqləndirin.

______________________________________________________________________________

__________________________________________________________________________

**II qrup**

Tunc necə əldə edildi? Erkən Tunc dövrünün nailiyyətlərini dəyərləndirin.

______________________________________________________________________________

__________________________________________________________________________

**III qrup**

Orta və Son Tunc dövrünün nailiyyətlərini qiymətləndirin.

______________________________________________________________________________

__________________________________________________________________________

**IV qrup**

Birinci böyük ictimai əmək bölgüsünü Azərbaycan ərazisinin təbii-coğrafi şəraiti ilə əlaqələndirin.

______________________________________________________________________________

__________________________________________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi:** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra dərsin mübadilə və müzakirə mərhələsi həyata keçirilir. Bu mərhələdə müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim etməlidirlər. Cavablar diqqətlə dinlənilir, onların müzakirə olunmasına, əlavələr edilməsinə şərait yaradılır. Dərsin bu mərhələsində bütün şagirdlərin müzakirələrdə iştirakı təmin edilir. Çünki müzakirələrdə çox sayda şagirdin iştirakı ümumi nəticəyə gəlməyə yardım etməklə yanaşı, qiymətləndirməni rahat həyata keçirməyə, şagird fəallığını təmin etməyə ümumilikdə dərsi maraqlı etməyə kömək etmiş olar.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Aparılan tədqiqatın ümumi nəticəsini çıxartmaq üçün bu mərhələdə şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət edilə bilər:

– Niyə Tunc-Daş dövrü yox, Tunc dövrü?
– Əkinçilik və maldarlığın bir-birindən ayrılması nə ilə nəticələndi?
– İbadət evlərinin inşa olunması nəyi sübut edir?
– Xış əkinçiliyi cəmiyyətdə hansı dəyişikliyə səbəb oldu?
– Maldarlığın sürətli inkişafı nə ilə nəticələndi?
– Azərbaycan ərazisinin təbii-coğrafi şəraiti Tunc dövründəki insanların həyat tərzinə və məşğuliyyətinə hansı təsiri göstərdi? Fikrinizi əsaslandırın.
– Tayfa ilə qəbilə arasında hansı fərqlər var?

**Yaradıcı tətbiqetmə:** mövzuya dair 5-6 sözdən ibarət krosvord qurun.

**Ev tapşırığı:** Tunc dövrü və Mis-Daş dövrünü Venn diaqramında müqayisə etmək tapşırılır.

**Qiymətləndirmə meyarları:** fərqləndirmə, əlaqələndirmə

Qiymətləndirmə sizin dərsi izləməyiniz nəticəsində baş verməlidir. Dərsin bu son mərhələsində yuxarıda verilmiş meyar nəzərə alınmaqla əvvəlcədən müəyyən edilən səviyyələr üzrə şagirdlər həm fərdi şəkildə, həm də aşağıda verilmiş qrupun özünüqiymətləndirmə vərəqinə uyğun qiymətləndirilə bilər.

Qrupun adı ______________________________________________

Hər meyara 1-dən 5-dək ballar verin.

| | |
|---|---|
| **Qrup üzvlərinin hazırlığı və təşkili qənaətbəxş idi.** | |
| **Qrupun hər bir üzvünün öz konkret mövzusu var idi.** | |
| **Hamı əlbir və ahəngdar işləyirdi.** | |
| **Qrup bütün sinfi fəal olmağa sövq edirdi.** | |
| **Qrupun hər bir üzvü səbirli idi və öz yoldaşlarına kömək edirdi.** | |
| **Qrup təqdimat üçün bir neçə üsuldan istifadə etmişdi.** | |

# 2 İbtidai cəmiyyət (yeddinci saat)

**Standartlar:**

1.1.1. Mühüm hadisə, proses və təzahürlərin xronoloji çərçivələrini müəyyənləşdirir.

2.1.1. Qədim insanların həyat tərzini və məşğuliyyətlərini Azərbaycan ərazisinin təbii-coğrafi şəraiti ilə əlaqələndirir.

**Təlim məqsədləri:**

1. İbtidai cəmiyyətdə baş verən mühüm hadisə, proses və təzahürlərin xronoloji çərçivələrini müəyyənləşdirir.
2. Azərbaycanda yaşayan qədim insanların həyat tərzini və məşğuliyyətlərini təbii-coğrafi şəraitlə əlaqələndirir.

**Təlim forması:** böyük qruplarla iş
**Təlim üsulu:** akvarium

**Dərsin mərhələləri**

**Tədqiqat sualı: Qədim insanların həyat tərzi və məşğuliyyətlərinə Azərbaycanın təbii-coğrafi şəraiti necə təsir göstərdi?**

**Tədqiqatın aparılması:** Tədqiqatın böyük qruplarla iş formasında akvarium təlim üsulunun köməyi ilə aparılması tövsiyə edilir. Bu iş üsulunun qaydalarına uyğun olaraq sinfi iki dairəyə iç və çöl dairələrinə bölməli, daha sonra iç dairəyə müəyyən vaxt ərzində hər hansı bir problemin müzakirəsi tapşırıla bilər. İç dairədə müzakirə aparılan zaman çöl dairədəki şagirdlər qarşısındakı şagirdin müzakirələrdə necə iştirak etdiyini diqqətlə izləməli və müzakirə bitəndən sonra ona "qiymət" verməli olduğunu unutmamalıdırlar. Sonra isə qaydalara uyğun olaraq dairədəki şagirdlər yerlərini dəyişib müzakirəni davam etdirməlidir. Müzakirə üçün aşağıdakı tapşırıqlardan istifadə edilə bilər.

– Orta Tunc dövründə əldə edilmiş nailiyyətləri Azərbaycanın təbii-coğrafi şəraiti ilə əlaqələndirin.

– İkinci ictimai əmək bölgüsü və onun insanların həyat tərzinə təsirini qiymətləndirin.

"Akvarium"da iş zamanı, əslində, dərsin məlumatın mübadiləsi və müzakirəsi mərhələsi də həyata keçirilmiş olur. "Akvarium"da iş üçün ayrılmış vaxt bitdikdən sonra dərsin növbəti mərhələsi başlayır.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Dərsin bu mərhələsində şagirdlərə verilən yönləndirici suallar vasitəsilə ümumiləşdirmə aparıla bilər. Bu da, öz növbəsində, tədqiqat sualına cavab tapmağa kömək etmiş olar. Bununla belə, tədqiqat sualının tam cavabını almaqdan ötrü aşağıdakı sual və tapşırıqlar da yardımçı ola bilər:

– Orta Tunc dövründə sosial bərabərsizliyin dərinləşməsinin səbəbi nə idi?

– Şəhər tipli yaşayış məskənlərinin meydana gəlməsinin səbəbi nə idi?

– “Boyalı qablar” mədəniyyəti ifadəsini necə başa düşək?
– Metalişləmə sənətinin inkişafını nədə görmək olar?

**Yaradıcı tətbiqetmə:** Xronoloji çərçivələr gözlənilməklə Tunc dövrünün təsərrüfat sahələrinə dair cədvəl qurun.

**Ev tapşırığı:** Dərsliyin 54-55-ci səhifələrindəki şəkillər və məlumatlardan istifadə etməklə kiçik hekayə hazırlamaq və bu hekayəni adlandırmaq tapşırılır.

**Qiymətləndirmə meyarları:** müəyyənləşdirmə, əlaqələndirmə

Formativ qiymətləndirmənin şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün də böyük əhəmiyyəti vardır. Mövcud dərsin qiymətləndirməsi yuxarıdakı meyara nəzərən dərs izləməsi nəticəsində həyata keçirilir. Dərsin sonunda şagird yuxarıda verilmiş meyar nəzərə alınmaqla səviyyələr üzrə qiymətləndirilə bilər.

Akvarium üsulunun xüsusiyyətini nəzərə alaraq qiymətləndirmə zamanı şagirdlərə aşağıdakı formaya uyğun cütlərin özünüqiymətləndirmə vərəqi də verilə bilər.

## CÜTLƏRİN ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ VƏRƏQİ

**Qeyd:** Fəaliyyətinizi 5 ballıq şkala ilə qiymətləndirin.

| Meyarlar | Şagirdlərin adı və soyadı | |
|---|---|---|
| | 1. | 2. |
| Fəallıq səviyyəsi | | |
| Əməkdaşlıq | | |
| Qaydalara əməl olunması | | |
| Tapşırığın icrası zamanı müzakirə etmə | | |
| Ümumi rəyə gəlmə | | |
| Təqdimat etmə | | |

# 2 İbtidai cəmiyyət (səkkizinci saat)

**Alt-standart:**

2.1.1. Qədim insanların həyat tərzini və məşğuliyyətlərini Azərbaycan ərazisinin təbii-coğrafi şəraiti ilə əlaqələndirir.

**Təlim məqsədi:**

Son tunc və erkən dəmir dövründəki insanların həyat tərzini və məşğuliyyətlərini Azərbaycan ərazisinin təbii-coğrafi şəraiti ilə əlaqələndirir.

**Təlim formaları:** böyük  və kiçik qruplarla iş
**Təlim üsulu:** "İki həqiqət və bir yanlış"

**Dərsin mərhələləri**

**Tədqiqat sualı: Son Tunc və Erkən Dəmir dövründəki qədim insanların həyat tərzi və məşğuliyyətlərində hansı dəyişikliklər baş verdi?**

**Tədqiqatın aparılması:** Tədqiqatın kiçik qruplarla iş formasında "iki həqiqət və bir yanlış" üsulu ilə həyata keçirilməsi tövsiyə edilir. Çox sadə və yarışmanı xatırladan bu dərs metodu şagirdlərdə dərsə həddən artıq maraq yaradacaqdır. Sinfi kiçik qruplara böləndən sonra hər qrupa bir mövzu verilir və onlara növbəti tapşırıq ünvanlanır:

– Bu mövzu haqqında üç fikir yazın.

– Yazdığınız bu üç fikirdən ikisi doğru, biri isə yanlış olmalıdır. Bu zaman yanlış doğruya bənzəməli, doğru fikirlər isə bir qədər qəribə görünməlidir.

– Yazdığınız fikirlər kitab cümləsi olmasın.

Təlim üsuluna uyğun olaraq qruplara aşağıdakı tapşırıqlar verilə bilər.

**I qrup**

Son Tunc və Erkən Dəmir dövründəki insanların məşğuliyyəti və dövrün nailiyyətləri haqqında fikirlərinizi yazın:

1. ______________________________
2. ______________________________
3. ______________________________

**II qrup**

Üçüncü əmək bölgüsünün səbəbləri və nəticələri haqda fikirlərinizi yazın:

1. ______________________________
2. ______________________________
3. ______________________________

**III qrup**

İbtidai icma quruluşunun dağılması haqqında fikirlərinizi yazın:

1. ______________________________________________

2. ______________________________________________

3. ______________________________________________

**IV qrup**

İlk tayfa birlikləri haqqında fikirlərinizi yazın:

1. ______________________________________________

2. ______________________________________________

3. ______________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi:** Qruplara hazırlaşmaq üçün ayrılmış vaxt bitdikdən sonra hər bir qrup təqdimatını edir. Hər qrup təqdim edilən bu üç fikirlərdən hansının səhv olduğunu təxmin etməlidir. Müzakirələr zamanı müəllimin də dərsin məqsədinə söykənəcək üç fikir söyləməyiniz (təbii ki, ikisi doğru, biri yanlış) məqsədəmüvafiq olardı. Bu həm qarşıya qoyulan məqsədə çatmağa kömək edər, həm də şagirdlərə dərs üsulunun tələblərinə uyğun olaraq doğru və yanlış fikirlərin necə formalaşdırılmalı olduğunu nümunə əsasında göstərmiş olar.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Qrup təqdimatları ilə dərsin məlumatın mübadiləsi və müzakirəsi bitdikdən sonra dərsi yekunlaşdırmaq üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət etmək olar:

– Son Tunc və Erkən Dəmir dövründə memarlığın inkişafını faktlarla necə sübut etmək olar?

– Əkinçiliyin qədim insanların həyatındakı əhəmiyyətini izah edin.

– Yarımköçmə həyat tərzi nədir?

– Tayfa ittifaqlarının yaradılmasını hansı amillər zəruri edirdi?

– Son tunc və erkən dəmir dövründəki insanların həyat tərzi necə dəyişdi?

– Son Tunc və Erkən Dəmir dövründəki insanların məşğuliyyətlərini Azərbaycanın təbii-coğrafi şəraiti ilə necə əlaqələndirmək olar?

**Yaradıcı tətbiqetmə:** Dərsliyin 59-cu səhifəsindəki “Tunc dövründə təsərrüfatda istifadə edilən heyvanlar”la bağlı cədvəldə uyğunluğu müəyyən edin.

**Ev tapşırığı:** Cədvəli tamamlamaq tapşırıla bilər.

| İctimai əmək bölgüləri | Baş verdiyi dövr | Məzmunu |
|---|---|---|
| Birinci | | |
| İkinci | | |
| Üçüncü | | |

**Qiymətləndirmə meyarları:** əlaqələndirmə

Dərs izləməsi nəticəsində şagirdlərin qiymətləndirilməsi həyata keçirilir. Dərsin bu mərhələsində müxtəlif suallar verməklə də təlim prosesində izlənilmiş şagirdin hansı meyara cavab verdiyi dəqiqləşdirilə və əvvəlcədən müəyyən olunan səviyyələr üzrə qiymətləndirilə bilər.

Qrup işini qiymətləndirmək üçün sonda şagirdlərə aşağıdakı formada qrup qiymətləndirmə vərəqi vermək olar.

**Qrupun adı:** ____________________

**Təlimat:** Aşağıdakı meyarlara hansı səviyyədə əməl olunduğunu nəzərə alaraq qrupu qiymətləndirin.

## ÖZÜNÜ QİYMƏTLƏNDİRMƏ VƏRƏQİ

**Adı və soyadı:** ______________________________________

Cədvəli doldurarkən 2, 3, 4, 5 rəqəmli ballardan istifadə etməyiniz məqsədəmüvafiqdir.

| MEYARLAR | Heç vaxt | Nadir hallarda | Bəzən | Tez-tez | Həmişə |
|---|---|---|---|---|---|
| Qrup üzvlərinin hamısı fəaliyyətə qoşulur. | | | | | |
| Qrup üzvlərinin hər biri tapşırıqlarda iştirak edir. | | | | | |
| Qrup üzvləri iş bölgüsünə əməl edirlər. | | | | | |
| Qrup üzvləri əldə etdikləri məlumatları müzakirə edirlər. | | | | | |
| Qrupda ziddiyyətli fikirləri müzakirə edirlər. | | | | | |
| Qrup üzvləri bir-birlərini cəsarətləndirir. | | | | | |
| Qrup üzvləri bir-birlərinə etimad göstərirlər. | | | | | |
| Qrup məhsuldar şəkildə işləyirmi. | | | | | |
| Qrup üzvləri birlikdə işləməkdən zövq alırlar. | | | | | |

ŞƏRHLƏR:

______________________________________________________________________________

______________________________________________________________________________

# 3 Erkən dövlətlər (birinci saat)

**Qeyd:** Tədris ediləcək paraqraf dərsliyin 64–71-ci səhifələrini əhatə edir. Bu paraqrafın tədrisinə iki saat vaxt ayrılmışdır. Paraqrafın saatlar üzrə bölgüsü aşağıdakı qaydada nəzərdə tutulmuşdur:

– Birinci tədris saatında dərsliyin 64–68-ci səhifələrindəki məlumatların mənimsənilməsi nəzərdə tutulmuşdur.

– 69–71-ci səhifələrdəki məlumatlar isə ikinci tədris saatı üçün nəzərə alınmışdır.

Onu da bildirək ki, bu bölgü mütləq deyil. Bu bölgünü müəllim öz tədris strategiyasına uyğun olaraq dəyişə, tədris üçün standartları ixtisar və ya yeni standartlar əlavə edə bilər.

**Standartlar:**

1.2.1. Dövrün öyrənilməsində maddi və yazılı mənbələrin rolunu izah edir.

3.1.1. Azərbaycanda dövlət qurumları və qədim dövlətlərin yaranmasını, idarə olunmasını, sosial-iqtisadi münasibətləri təsvir edir.

**Təlim məqsədləri:**

1. Aratta dövlətinin öyrənilməsində maddi və yazılı mənbələrin rolunu izah edir.
2. Aratta və Lullubi dövlətlərinin yaranmasını, idarə olunmasını, sosial-iqtisadi münasibətləri təsvir edir.

**Təlim formaları:** böyük qruplarla iş, fərdi iş

**Təlim üsulları:** anlayışın çıxarılması, ikihissəli gündəlik üsulu

**Dərsin mərhələləri**

**Motivasiya.** V sinif Azərbaycan tarixi fənninin tədrisi zamanı şagirdlərdə dövlət, dövlətçilik anlayışları haqda məlumatların olduğunu nəzərə alaraq mövcud dərs üçün motivasiya qurmağı anlayışın çıxarılması metodu ilə həyata keçirmək təklif edilir. Bunun üçün lövhədə aşağıdakı formaya uyğun dairələr cızır və bu dairələrə müvafiq sözləri yazmaq lazım gələcək.



Dövlətin əlamətləri cavabını alandan sonra şagirdləri yeni dərsə kökləyib tədqiqat sualı elan edilir.

**Tədqiqat sualı: Aratta və Lullubi dövlətləri necə yarandı və inkişaf etdi?**

**Tədqiqatın aparılması:** Tədqiqatın aparılması mərhələsini reallaşdırmaq üçün "İki hissəli gündəlik texnikası" üsulundan istifadə etmək məqsədəmüvafiq olardı. Bunun üçün şagirdlər dəftərlərində iki hissəli bir cədvəl qurur, cədvəlin birinci tərəfində "mövzuda diqqətimi daha çox cəlb edənlər", ikinci tərəfdə isə "bunun səbəbi" yazırlar. Bu "gündəlik" sizin seçiminizdən, yanaşmanızdan asılı olaraq, müxtəlif formalarda tətbiq oluna bilər. Şagirdlər mətni oxuya-oxuya gündəlikdə müvafiq qeydlər aparırlar. Mövzunun oxunması, qeydlərin aparılması başa çatdıqdan sonra şagirdlər yenidən mətnə müraciət edir, qeydlərini zənginləşdirirlər.

Təbii ki, müəllim dərs prosesində qiymətləndirməyi əvvəlcədən nəzərdə tutduğu şagirdlərin qeydlərini səsləndirilməsini istəməli və sinfin digər şagirdlərinin bu müzakirələrə qoşulmasını təmin etməlidir. Dərsin daha maraqlı, canlı, nəticə yönümlü keçməsi üçün yaxşı olardı ki, mövzu hissələrə bölünsün, hər hissənin oxunması üçün şagirdlərə vaxt verilsin və verilən vaxt bitəndən sonra şagirdlərlə bunun müzakirəsi aparılsın. Paraqrafın strukturuna uyğun olaraq keçilən dərsin Aratta və Lullubi dövlətləri kimi ayrı-ayrı hissələrə bölünüb keçilməsi daha məqsədəmüvafiq olardı.

Beləliklə, dərsin tədqiqatın aparılması mərhələsi ilə yanaşı, məlumatın mübadiləsi və müzakirəsi mərhələsi də bitmiş olar. Şagirdlər çıxışlarını yekunlaşdırandan sonra müəllim fikirlərini ifadə edib dərsin növbəti mərhələsinə keçə bilər.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Dərsin bu mərhələsində şagirdlər nəinki əldə olunan bilgiləri ümumiləşdirməli, həm də gəldikləri nəticəni tədqiqat sualı ilə və irəli sürülmüş fərziyyələrlə müstəqil olaraq tutuşdurmalıdır. Aparılan araşdırmanın yekunlaşdırılması, yeni biliklərin ümumiləşdirilməsi, nəticə çıxarılması məqsədilə aparılan müzakirə şagirdləri ortaq mövqeyə gəlməyə, ümumi qənaətlərə istiqamətləndirəcək. Bunun üçün də şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət etmək məqsədəmüvafiqdir:

– Arattanın Şumer ilə iqtisadi əlaqələr saxlaması hansı zərurətdən irəli gəlirdi?

– Arattada mühüm məsələlərin müzakirə əsasında həll olunması nəyi göstərir?

– Aratta dövləti tarixini öyrənmək baxımından Şumer mixi yazı mətnlərinin nə kimi rolu var? Fikrinizi əsaslandırın.

– Aratta dövlətinin yaranmasını və idarə olunmasını təsvir edin.

– Aratta dövlətinin sosial-iqtisadi münasibətlərini təsvir edin.

– Lullubi dövlətinin yaranmasını təsvir edin.

– Lullubi dövlətinin sosial-iqtisadi münasibətlərini təsvir edin.

– Anubaninin "Qələbə abidəsi" hansı sənət sahələrinin inkişafından xəbər verir?

**Yaradıcı tətbiqetmə:** Şagirdlərə: dərsliyin 64-cü səhifəsindəki mənbədən istifadə etməklə Aratta dövləti haqda kiçikhəcmli tarixi hekayə qurmaq tapşırılır. Bu tapşırığı şagirdlərə verəndə onlara yazdıqları hekayədə "mənbədən aydın olur ki, ...", "mənbənin verdiyi məlumatlara görə ...", "mənbəyə istinadən demək olar ki, ..." və s. bu kimi ifadələrdən istifadə etmələri tövsiyə edilir.

**Qiymətləndirmə meyarları:** izahetmə, təsviretmə

Qiymətləndirmə zamanı şagirdlərin informasiyanı yadda saxladığı yox, bu informasiyanı anlamaq səviyyəsi və hər hansı problemin həll edilməsi zamanı həmin bilikdən istifadə etmək bacarığı daha çox nəzərə alınmalıdır. Tədris prosesində aparılan qiymətləndirmə zamanı öyrənilmiş materialın şagirdlər tərəfindən nə dərəcədə mənimsənilməsi, mühakimə yürütmə qabiliyyətinin inkişafı, konkret faktları, hadisələri izah edərkən, müxtəlif tapşırıqları yerinə yetirərkən şagirdin əldə etdiyi biliyi tətbiqetmə bacarığı haqqında obyektiv təsəvvür yaranır. Qiymətləndirmə zamanı şagirdlərin yuxarıdakı meyarlara uyğun olaraq səviyyələr üzrə qiymətləndirilməsini unutmaq olmaz. Dərsin sonunda şagirdlərə aşağıdakı formada özünüqiymətləndirmə vərəqi də verilə bilər.

**Şagirdin özünüqiymətləndirmə vərəqi**

**Adı, soyadı** ________________________

Bu anket özünüqiymətləndirmə məqsədilə hazırlanmışdır. Gördüyünüz işləri ən düzgün formada ifadə edən seçimi işarələyin (X).

| **Qabiliyyətlər** | **Dərəcələr** | | |
|---|---|---|---|
| | **Həmişə** | **Bəzən** | **Heç vaxt** |
| 1. Müəllimin məsləhətlərini dinlədim. | | | |
| 2. Təlimata əməl etdim. | | | |
| 3. Oxuduğumu anladım. | | | |
| 4. İkihissəli gündəlik üsulundan səmərəli istifadə etdim. | | | |
| 5. Müvafiq qeydlər etməyi bacardım. | | | |
| 6. Mövzuya uyğun bir neçə sual verdim. | | | |
| 7. Verilən sualları cavablandırdım. | | | |

8. Bu dərsdə nələri öyrəndim?

______________________________________________

______________________________________________

9. Bu dərs müddətində ən yaxşı gördüyüm işlər:

______________________________________________

______________________________________________

**ŞƏRHLƏR:**

______________________________________________

______________________________________________

# 3 Erkən dövlətlər (ikinci saat)

**Standartlar:**

2.1.2. Xəritələrdə Azərbaycan ərazisində ilk insan məskənlərini, dövlət qurumları və qədim dövlətlərin yerini müəyyənləşdirir.

3.1.1. Azərbaycanda dövlət qurumları və qədim dövlətlərin yaranmasını, idarə olunmasını, sosial-iqtisadi münasibətləri təsvir edir.

3.1.3. Qədim Azərbaycan dövlətləri haqqında mənbələr əsasında məlumatlar toplayır, təqdim edir.

**Təlim məqsədləri:**

1. Xəritələrdə Azərbaycan ərazisində dövlət qurumları və qədim dövlətlərin yerini müəyyənləşdirir.
2. Kuti dövlətinin yaranmasını, idarə olunmasını və sosial-iqtisadi münasibətləri təsvir edir.
3. Kuti dövləti haqqında mənbələr əsasında məlumatlar toplayır, təqdim edir.

**Təlim formaları:** böyük qruplarla iş, fərdi iş

**Təlim üsulu:** İki hissəli gündəlik texnikası

**Dərsin mərhələləri**

**Qeyd:** Dərsi, birinci dərs saatında olduğu kimi, iki hissəli gündəlik texnikası üsulunun köməyi ilə keçirilməsi məqsədəmüvafiqdir. Belə yanaşma şagirdlərdə bu üsulla daha yaxşı işləməyi təmin etməklə yanaşı, onları seçimlərində, yanaşmalarında daha diqqətli olmağa, səbəb və nəticə əlaqələrini tapmağa, fikirlərini daha dolğun ifadə etməyə şərait yaradar.

**Tədqiqat sualı: Kuti dövləti necə yarandı və inkişaf etdi?**

**Tədqiqatın aparılması:** "İki hissəli gündəlik texnikası" üsulu ötən dərsdən şagirdlərə tanış olsa da, yenə də qaydalarını onlara izah etmək vacibdir:

"Əziz şagirdlər, dəftərlərinizdə iki hissəli bir cədvəl qurun. Cədvəlin birinci tərəfində "mövzuda diqqətimi daha çox cəlb edənlər", ikinci tərəfində "bunun səbəbi" yazılması məqsədəuyğundur. Daha sonra mətni oxuya-oxuya gündəlikdə müvafiq qeydlər aparın. Mövzunun oxunması, qeydlərin aparılması başa çatdıqdan sonra yenidən mətnə müraciət edə, qeydlərinizi zənginləşdirə bilərsiniz".

Təbii ki, müəllim dərs prosesində qiymətləndirməyi əvvəlcədən nəzərdə tutduğu şagirdlərin qeydlərini səsləndirməsini istəməli və digər şagirdlərin bu müzakirələrə qoşulmasını təmin etməlidir. Dərsin daha maraqlı, canlı, nəticə yönümlü keçməsi üçün yaxşı olardı ki, mövzunu hissələrə bölüb, hər hissənin oxunması üçün şagirdlərə vaxt verilə, verilən vaxt bitdikdən sonra şagirdlərlə bunun müzakirəsi aparılsın. Müzakirə apararkən şagirdlərə aşağıdakı suallar da verilə bilər:

– Mövzunu oxuyarkən nə hiss etdiniz?

– Mövzunu oxuduqdan sonra nə haqda fikirləşdiniz?
– Mövzunun xoşunuza gəlib-gəlməməsini necə əsaslandırarsınız?

Beləliklə, dərsin tədqiqatın aparılması mərhələsi ilə yanaşı, məlumatın mübadiləsi və müzakirəsi mərhələsi də bitmiş olur. Şagirdlər çıxışlarını yekunlaşdırandan sonra müəllim fikirlərini ifadə edib dərsin növbəti mərhələsinə keçid edir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Aparılan araşdırmanın yekunlaşdırılması, yeni biliklərin ümumiləşdirilməsi, nəticə çıxarılması məqsədilə aparılan müzakirə şagirdləri ortaq mövqeyə gəlməyə, ümumi qənaətlərə istiqamətləndirəcək. Müzakirə zamanı söylənilən fikirlərin ümumiləşdirilməsi, dərsin əvvəlində söylənilmiş fərziyyələrlə müqayisə aparılması və tədqiqat sualı ilə bağlı nəticə çıxarılması üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət edilə bilər:

– Kuti dövləti necə yarandı?
– Kutilərin İkiçayarasına müdaxilə etməsinə şərait yaradan amillər hansılardır?
– Turukkilərin Aşşur ilə müharibələrinin əsas səbəbi nə idi?
– E.Ə. II minilliyin əvvəllərində Urmiya gölü hövzəsində gedən prosesləri təsvir edin.
– Kuti dövlətinin yaranmasını təsvir edin.
– Kuti dövlətinin sosial-iqtisadi münasibətlərini təsvir edin.

**Yaradıcı tətbiqetmə:** Aşağıdakı tapşırıqlar verilə bilər:

1. Xəritə əsasında Aratta, Lullubi, Kuti dövlətlərinin və yeni tayfa ittifaqlarının yerini müəyyənləşdirin.
2. Cədvəli tamamlayın:

| Kutilərin İkiçayarasındakı fəaliyyəti | |
|---|---|
| **Siyasi** | **Mədəni** |

**Ev tapşırığı:** Aratta, Lullubi və Kuti dövlətləri haqqında mənbələr əsasında məlumatlar toplayıb təqdim etmək tapşırılır.

**Qiymətləndirmə meyarları:** müəyyənləşdirmə, təsvir etmə, məlumatlar toplayıb təqdim etmə

Tədris prosesində aparılan qiymətləndirmə zamanı öyrənilmiş materialın şagirdlər tərəfindən nə dərəcədə mənimsənilməsi, mühakimə yürütmə qabiliyyətinin inkişafı, konkret faktları, hadisələri izah edərkən, müxtəlif tapşırıqları yerinə yetirərkən şagirdin əldə etdiyi biliyi tətbiq etmə bacarığı haqqında obyektiv təsəvvür yaranır. Qiymətləndirmə zamanı şagirdlərin informasiyanı yadda saxladığı yox, bu informasiyanı anlamaq səviyyəsi və hər hansı problemin həll edilməsi zamanı həmin bilikdən istifadə etmək bacarığı daha çox nəzərə alınmalıdır. Qiymətləndirmə bütün dərs boyunca aparılmalı, lazımi qeydlər götürməli və sonda qiymətləndirilməsi düşünülən şagirdlər meyarlara və səviyyələrə görə qiymətləndirilməlidir. Sonuncu meyar olan "Kuti dövləti haqqında mənbələr əsasında məlumatlar toplayır, təqdim edir" meyarı əsasında şagirdləri qiymətləndirmək onlara verilən ev tapşırığının icrasından sonra mümkün olacaq. Bunun üçün də şagirdlərin ev tapşırığını icra edib təhvil verilməsinə həssas yanaşılmalıdır.

Dərsin sonunda şagirdlərə aşağıdakı formada özünüqiymətləndirmə cədvəli verilə bilər. Əvvəlki dərsdə istifadə edilmiş özünüqiymətləndirmə cədvəlindən də yararlanmaq olar.

## ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ CƏDVƏLİ

**Adı, soyadı** ___________________________

Cədvəli doldurarkən 2, 3, 4, 5 rəqəmli ballardan istifadə məqsədəmüvafiqdir.

| Qabiliyətlər | Qiymət |
|---|---|
| 1. Müəllimin izahlarını və məsləhətlərini dinlədim. | |
| 2. Çalışmalarımı bitirdim. | |
| 3. Təlimata əməl etdim. | |
| 4. Tapşırığı yerinə yetirərkən vaxtdan düzgün istifadə etdim. | |
| 5. Anlamadığım məsələyə aid sual verdim. | |
| 6. İkihissəli gündəlik üsuluna uyğun cədvəl qurmağı bacardım. | |
| 7. Cədvəl üzrə müvafiq qeydlər etdim. | |

ŞƏRHLƏR:

_______________________________________________________________

_______________________________________________________________

# 4 Manna dövləti (birinci saat)

**Qeyd:** Mövcud dərsin tədrisinə üç saat ayrılmışdır. Bu paraqraf dərsliyin 72–85-ci səhifələrini əhatə edir. Bu paraqraf tədris saatına uyğun olaraq aşağıdakı qaydada bölünmüşdür:

Birinci dərs səhifə 72-dən başlayaraq 78-ci səhifəyədək olan məlumatları əhatə edir. Təbii ki, bu səhifələrdə yer alan əyani vasitələri, mənbələri diqqətdən kənarda saxlamaq olmaz.

İkinci dərs saatı 78–82-ci səhifələri əhatə edir.

Paraqrafın mədəniyyət bölməsini əhatə edən səhifələr (83–85-ci səhifələr) üçüncü dərs saatının tədrisi üçün nəzərdə tutulmuşdur. Sözü gedən səhifələrin hər birində Manna mədəniyyətinə aid verilən təsvirlərin hamısı özündə bir informasiyanı cəmləyir. Bunu nəzərə alaraq şagirdlərə dərslikdə verilmiş şəkillərə diqqət yetirmələrini tövsiyə etmək çox vacibdir.

Yuxarıda bildirildiyi kimi, bu bölgü mütləq deyil. Bu bölgü dəyişdirilə və yeni bölgü forması yaradıla bilər.

**Standartlar:**

3.1.1. Azərbaycanda dövlət qurumları və qədim dövlətlərin yaranmasını, idarə olunmasını, sosial-iqtisadi münasibətləri təsvir edir.

3.1.2. Qədim dövlətlərin daxili və xarici siyasətini izah edir.

4.1.1. Dövlətlərin yaranmasında, inkişafında tarixi şəxsiyyətlərin (İranzu, Tomiris, Atropat, Oroys və b.) rolunu dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Manna dövlətinin yaranmasını, idarə olunmasını təsvir edir.
2. Mannanın xarici siyasətini izah edir.
3. Manna dövlətinin inkişafında İranzunun rolunu dəyərləndirir.

**Təlim forması:** böyük qruplarla iş

**Təlim üsulları:** beyin həmləsi, diskussiya

**Dərsin mərhələləri**

**Motivasiya:** Mövcud dərsə motivasiya qurmağın ən asan yolu şagirdlərin əvvəlki biliklərinə "müraciət etmək"dir. Şagirdlərin V sinif Azərbaycan tarixi dərsliyində Azərbaycanın qədim dövlətləri haqqında bilgiləri olduğunu nəzərə alaraq onlara aşağıdakı suallarla müraciət edilə bilər:

– Keçən il hansı qədim Azərbaycan dövlətləri haqqında məlumat almısınız?

– Bu dövlətlərdən hansılar sizə xüsusi təsir göstərmişdir? Nə üçün?

– Cənubi Azərbaycan ərazisində yaradılan, paytaxtı İzirtu, ən tanınmış hökmdarı İranzu olan qədim Azərbaycan dövləti haqqında nə bilirsiniz?

Şagirdlərin cavablarını ümumiləşdirib yeni dərsə keçid edilə bilər.

**Tədqiqat sualı: Manna dövləti necə yarandı və inkişaf etdi?**

**Tədqiqatın aparılması.** Tədqiqatın böyük qruplarla iş formasından və diskussiya üsulundan istifadə edilməklə qurulması məqsədəmüvafiqdir.

Diskussiya prosesində şagirdlər müzakirə olunan bu və ya digər məsələ barədə öz fikirlərini söyləməklə, öz baxışlarını əsaslandırmağı, faktları təhlil etməyi öyrənirlər. Bu zaman dinləmək və növbə ilə danışmaq bacarığı, başqa baxışlara dözümlülük, diskussiya mədəniyyəti kimi vərdişlər inkişaf etməyə başlayır.

Diskussiya mədəniyyəti olduqca vacib və geniş bir məsələdir. Diskussiya mədəniyyətinin mühüm cəhətlərindən biri başqalarının fikir və əqidəsinə dözümlü münasibətdir. Bu çoxcəhətli anlayış yalnız əxlaqi-normativ məzmuna deyil, həm də dərin sosial-pozitiv məzmuna malikdir. Belə ki o, ilk növbədə, ünsiyyət prosesini pozan mütləq dözümsüzlük amilinin antitezisi kimi çıxış edir.

Yuxarıda göstərilən vərdişlərə (dinləmək bacarığı, başqa baxışlara dözümlülük və s.) nail olmaq üçün şagirdlərə diskussiya aparmağı öyrətmək lazımdır. Şagirdlərlə birlikdə aşağıdakılara uyğun olaraq diskussiya aparmaq qaydaları tərtib etmək olar:

✓ danışanı dinləmək;
✓ sözü kəsməmək;
✓ eyni vaxtda yalnız bir nəfər danışa bilər;
✓ tənqid edəndə danışanı deyil, fikri tənqid etmək;
✓ reqlamenti nəzərə almaq;
✓ heç kəsi məsxərəyə qoymamaq;
✓ söz demək istədikdə əl qaldırmaq və s.

**Diskussiyanın gedişinin düzgünlüyünün qiymətləndirilməsi:**

✓ düzgün təriflər, aydın mülahizələr;
✓ yadda qalan və aktual misallar;
✓ sanballı dəlillər və analogiyalar;
✓ ümumiləşdirmə aparma və yekun vurma bacarığı;
✓ başqalarını dinləmək bacarığı.

Diskussiya vaxtı düzgün olmayan hərəkətlərə – mülahizələrdə təkrarlar, mövzuya aid olmayan faktlar, anlaşılmaz müddəalar, dəlillərin yoxluğu, mövzudan qaçma, çıxış edənləri günahlandırma, şəxsi təhdid və s. aid edilə bilər.

**Diskussiya aparmaq üçün şagirdlərə aşağıdakı tapşırıqları vermək olar:**

– Manna dövlətinin yaranmasını təsvir edin.
– Mannanın qonşu dövlətlərlə münasibətini dəyərləndirin.
– Mannanın daxili siyasətini izah edin.
– Mannanın xarici siyasətini izah edin.
– Mannanın ərazisini və siyasi quruluşunu təsvir edin.
– Manna dövlətinin inkişafında İranzunun rolunu dəyərləndirin.

Diskussiya aparılması əsnasında şagirdlər məlumatın mübadiləsi və müzakirəsini təşkil edir, müxtəlif yanaşmalarla, nəticələrlə, məlumatlarla tanış olurlar. Suallar verilir. Fikirlər dinlənilir, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi istiqamətə yönəldilir və yeni biliklər sistemləşdirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsi ümumiləşdirmək və müəyyən nəticələrə gəlmək üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət etmək olar:

– Manna dövlətinin yaranmasını necə qiymətləndirərdiniz?
– Sizcə, yadelli basqınların qarşısını almaq üçün nə lazımdır?
– Daxili çəkişmələr dövlətə necə təsir edir?
– Mannanı güclü dövlətə çevirən amilləri sadalayın.
– Sizcə, Aşşur hökmdarının Ullusununu bağışlamaqda məqsədi nə idi?
– Dövlət müstəqilliyini qorumaqdan ötrü Manna hökmdarlarının yürütdüyü xarici siyasəti necə dəyərləndirərdiniz?
– Manna dövlətinin inkişafında İranzunun rolunu necə dəyərləndirmək olar?

**Yaradıcı tətbiqetmə.** Dərsliyin 75-ci səhifəsində verilmiş sxem əsasında danışın.

**Ev tapşırığı:** Cədvəli doldurmaq tapşırıla bilər.

Cədvəli tamamlayın.

| **Manna** | |
|---|---|
| Daxili siyasət | Xarici siyasət |
| . . . . | . . . . |
| Daxili siyasəti Mannaya nə qazandırdı? | Xarici siyasəti Mannaya nə qazandırdı? |
| ? | ? |

**Qiymətləndirmə:** təsviretmə, izahetmə, dəyərləndirmə

Mövcud dərsin qiymətləndirməsi yuxarıdakı meyarlara nəzərən dərs izləməsi nəticəsində həyata keçirilməlidir. Əvvəlcədən qiymətləndirilməsi nəzərdə tutulmuş şagirdləri dərsin sonunda yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla müəyyənləşdirilən səviyyələr üzrə qiymətləndirmək olar.

Vaxt qalarsa, şagirdlərə aşağıdakı formada özünüqiymətləndirmə vərəqi verilə bilər.

**Diskussiya iştirakçısının özünüqiymətləndirmə vərəqi:**

**Adı, soyadı** ________________________

| Meyarlar | Heç vaxt | Bəzən | Tez-tez | Həmişə |
|---|---|---|---|---|
| Fəal iştirak edirdim. | | | | |
| Tapşırıqları yerinə yetirirdim. | | | | |
| Öz ideyalarımı dəqiq izah edirdim. | | | | |
| Başqalarını dinləyir və dəstəkləyirdim. | | | | |
| Mən bugünkü diskussiyaya hazır gəlmişəm. | ✓ HƏ<br>✓ YOX | | | |

# 4 Manna dövləti (ikinci saat)

**Standartlar:**

3.1.1. Azərbaycanda dövlət qurumları və qədim dövlətlərin yaranmasını, idarə olunmasını, sosial-iqtisadi münasibətləri təsvir edir.

3.1.2. Qədim dövlətlərin daxili və xarici siyasətini izah edir.

4.1.2. Tarixi şəxsiyyətlər haqqında kiçik hekayə qurur.

**Təlim məqsədləri:**

1. Manna dövlətində sosial-iqtisadi münasibətləri təsvir edir.
2. Mannanın daxili və xarici siyasətini izah edir.
3. İranzu və Ahşeri haqqında kiçik hekayə qurur.

**Təlim formaları:** böyük qruplarla iş, fərdi iş

**Təlim üsulu:** auksion

**Dərsin mərhələləri**

**Tədqiqat sualı: Müstəqil xarici siyasət necə yürüdüldü?**

**Tədqiqatın aparılması:** Tədqiqat sualı elan olunduqdan sonra fəal təlimin mərhələlərindən olan tədqiqatın aparılması mərhələsini reallaşdırmaq üçün "auksion" üsulundan istifadə etmək məqsədəmüvafiq olardı. V sinif Azərbaycan tarixi fənninin tədrisi zamanı bu interaktiv təlim formasından istifadə olunduğundan dərs zamanı şagirdlər özlərini daha rahat hiss edərlər. Bu da qarşıya qoyulan məqsədə rahat çatmağa kömək edəcək. Bunun üçün şagirdlərə materialla tanışlıq üçün vaxt verilə, bu dərs üsulunun qaydaları xatırladıla (materialla tanış olmaq üçün veriləcək müddət bitdikdən sonra sizə bir sual veriləcək. 1, 2, 3 sayanadək sualı cavablandıra bilməsəniz, cavab vermək şansı digər sinif yoldaşınıza keçəcək.) bilər.

Qarışıqlığın və sual "itkisi"nin olmaması üçün şagirdlərdən 5 nəfər ayırıb sıra ilə düzülür. (Bu zaman qeydlər aparmaq üçün bir nəfər lövhə qarşısında qalsa, daha yaxşı olar.) Sıradakı birinci şagirdə auksion üsulunun qaydasına uyğun olaraq sual verilir. Deyilən vaxtda cavablandıra bilməzsə, həmin sual yanındakı şagirdə ünvanlanır. O da bilməzsə, cavab növbəti şagirddən istənir. Beləcə cavab alınana qədər beşinci şəxsədək davam etmək olar.

**Qeyd:** Əslində, hazırda sizə bəhs etdiyimiz bu üsul "auksion" üsulunun bir az təcrübədə sınanılmış "improvizə" edilmiş formasıdır. Şagirdlərə daha maraqlı olması üçün müəllim hazırlanan sualları qeyd dəftərində nömrələyə və hər sualın nömrəsini də lövhədə yaza bilər. Proses zamanı şagirdlərin müstəqil şəkildə hər hansı nömrəni seçməsinə şərait yaradılır. Bir mövzudan bəhs edən suallar dərslikdəki məlumata uyğun olaraq qarışıq olmalıdır. Yəni xronoloji və ya məzmun ardıcıllığı gözlənilməməlidir. Hazırlanmış və nömrələnmiş suallarla yanaşı, ehtiyat üçün 3-5 nömrələnməmiş sualın da olması məsləhətdir. Şagirdlər nömrələri

seçdikcə lövhədən həmin rəqəm silinir. Hər bir şagirdə 3 və ya 4 sualın cavablandırılmasına şərait yaradılır. İlk şagird sualları “cavablandırdıqdan sonra yerinə oturur və onun yerinə sinifdən digər şagird sıraya qatılır. Hansı şagirdin neçə suala düzgün cavab verməsini lövhə qarşısındakı şagird qeyd edir. Lövhədə aparılan bu qeydlərin bütün şagirdlər tərəfindən görülməsi onlara əlavə stimul verir. Təcrübə göstərir ki, bəzən improvizə edilmiş bir üsul daha yaxşı effekt verir.

Bu üsulun tətbiqi zamanı aşağıdakı suallardan və düzülüş formasından istifadə etmək olar:

1. Necə oldu ki, Aşşurbanipal Manna ilə mübarizədə İskitlərin bitərəfliyinə nail oldu?
2. Mannada yetişdirilən nəyin şöhrəti qonşu ölkələrə yayılmışdı?
3. Manna hökmdarlarını Aşşurun sərhəd dəstələrinə hücum etməkdən çəkindirməyən hadisə hansıdır?
4. Manna dövləti nə vaxt süqut etdi?
5. Aşşurun paytaxtı Ninevaya kimlər hücum etdilər?
6. Urmiya gölü sahillərinin əkinçilik üçün yararlı olmamasının səbəbi nə idi?
7. E.ə. VII yüzilliyin birinci yarısında Cənubi Qafqazda baş verən hansı hadisə tarixin gedişatını dəyişdi?
8. Aşşurbanipal nə vaxt Mannaya hücuma başladı?
9. Mannanın müstəqilliyinin itirilməsinə səbəb olan hadisə hansıdır?
10. II Sarqon haranı “ilxılar evi” adlandırmışdı?
11. Ahşerinin Aşşur dövləti ilə ənənəvi ittifaqı pozmasının səbəbi nə idi?
12. İskitlərin Ninevaya hücum etməsi hansı faktlarla təsdiq olunur?
13. Həsənli adlı qədim yaşayış məskənində aparılan qazıntılar nəticəsində nələr aşkar edilmişdi?
14. E.ə. 650-ci ildə Mannanın məğlubiyyətinin hansı nəticələri oldu?
15. Ahşerinin öldürülməsinin səbəbi nə idi?
16. E.ə. VII yüzilliyin sonlarında Aşşura qarşı müharibəyə başladılar?

**Qeyd:** Yuxarıda verilən suallar nümunə xarakterlidir. Bunları artırmaq və ya dəyişdirmək olar. Eləcə də cavablandırılmayan sual təkrarən digər şagirdə verilə bilər.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Dərsi yuxarıda məsləhət görülən auksion üsulu ilə keçən zaman sinfin bütün diqqəti bu “bilik yarışına” cəmlənmiş olur ki, bu zaman da, əslində, dərsin tədqiqatın aparılması mərhələsində məlumatın mübadiləsi və müzakirəsi mərhələsi də yekunlaşdırılmış olur.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Dərsin bu mərhələsində şagirdləri son nəticələrə yönəldib tədqiqat sualına cavab tapılır. Bu zaman aşağıdakı sual və tapşırıqlardan istifadə etmək olar:

– Sizcə, Ahşerinin Aşşur dövlətinə qarşı ittifaq yaratmasının səbəbi nə idi?
– Nə üçün Manna və Midiya əhalisi dərhal iskitlərə qoşuldu?
– Mannanın xarici siyasətini izah edin.
– Sizcə, kotan, oraq, təkərli arabalardan istifadə nəyi sübut edir?
– Mannanın daxili siyasətini izah edin.
– Sizcə, yeraltı arxlar çəkilərkən hansı materiallardan istifadə oluna bilərdi?
– Manna dövlətində sosial-iqtisadi münasibətləri necə təsvir edərdiniz?

**Yaradıcı tətbiqetmə:** Dərsin bu mərhələsində şagirdlərdən dərsliyin 81-ci səhifəsindəki mənbə əsasında Manna əhalisinin məşğuliyyət növlərini müəyyən etmək istənilə bilər.

**Ev tapşırığı:** İranzu və ya Ahşeri haqqında kiçik hekayə yazmaq tapşırıla bilər.

**Qiymətləndirmə meyarları:** təsviretmə, izahetmə, hekayə qurma

Formativ qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə, bu mərhələ zamanı müxtəlif suallar verməklə də təlim prosesini izləyərək diqqətdə saxlanılan şagirdin hansı meyara cavab verdiyi dəqiqləşdirilə bilər. Qiymətləndirmə zamanı şagirdlərin yuxarıdakı meyarlara uyğun olaraq səviyyələr üzrə qiymətləndirilməsi unudulmamalıdır. Sonuncu meyar üzrə şagirdlərin qiymətləndirilməsi onlara verilmiş ev tapşırığının icrasından sonra mümkün olacaqdır.

Dərsin sonunda refleksiya üçün aşağıdakı suallar da verilə bilər:

– Yeni mövzu üzərində necə işlədiniz?
– Sizə, nə aydın olmadı?
– Hansı suallarınız var?
– Dərs əsnasında qarşıya qoyulan hədəfə çatdınızmı?
– Yeni materialın öyrənilməsi sizə hansı təsiri bağışladı?
– Dərsdə informasiya əldə etmənin hansı yeni metodunu öyrəndiniz? və s.

## 4 Manna dövləti (üçüncü saat)

**Standartlar:**

5.1.1. Sivilizasiyayaqədərki və sivilizasiya dövrünün mədəniyyətlərini izah edir.

5.1.2. Azərbaycan mədəniyyətinin müxtəlif xalqların mədəniyyəti ilə qarşılıqlı əlaqələrini izah edir.

**Təlim məqsədləri:**

1. Manna dövlətində mədəniyyətin inkişafını izah edir.
2. Manna mədəniyyətinin müxtəlif xalqların mədəniyyəti ilə qarşılıqlı əlaqələrini izah edir.

**Təlim formaları:** böyük və kiçik qruplarla iş
**Təlim üsulu:** restavrasiya

**Dərsin mərhələləri**

**Tədqiqat sualı: Manna dövlətində mədəniyyət necə inkişaf etdi?**

**Tədqiqatın aparılması:** Tədqiqatın aparılması mərhələsini reallaşdırmaq üçün restavrasiya üsulundan istifadə etmək məqsədəmüvafiq olardı. Əvvəlki dərslərdə şagirdlərə tanış olan

bu üsul onlara mətnlə işləmək, konspekt yazmaq və ondan istifadə etmək bacarığını formalaşdırır. Bunun üçün şagirdlərə xüsusi işarələrlə işarələnmiş, şərti işarələri olmayan ixtisar olunmuş mətn verilir. Şagirdlər müəyyən edilmiş vaxt çərçivəsində mətni bərpa edib onu genişləndirməlidirlər.

Bu zaman qruplara tədqiqat üçün aşağıdakı tapşırıqlar verilə bilər:

**I qrup**

Verilmiş mətni bərpa edin:

Manna mədəniyyəti, əsasən, Həsənli, Ziviyə və Mərlikdə aşkar edilən __________
______________________________________________________________________
______________________________________________________________________
_____________________________________________________________ ayinləri həyata keçirilmiş. Aşşur və Urartu mənbələri də _____________ ______________________
______________________________________________________________________
_______________________________________________________

Şəhər-qalalar böyük bir ərazini əhatə edən məskənlər idi. __________ ______________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
__________________________________________

**II qrup**

Verilmiş mətni bərpa edin:

Manna sənətkarları təbii ehtiyatların onlara verdiyi __________________ _____________
______________________________________________________________________
______________________________________________________________________
_____________________

Manna ustaları üzərində müxtəlif təsvirləri olan __________________ ______________
______________________________________________________________________
______________________________________________________________________
______________________________ məlumatlar verir. Həsənli, Ziviyə və digər yerlərdən
_______________________________________ ___________________________________
______________________________________________________________________
______________________________

**III qrup**

Verilmiş mətni bərpa edin:

Həsənlidən tapılmış qızıl camın üzərində _____________________________ _________
______________________________________________________________________
______________________________________________________________________
____________________________________________________ Tanrıları kahinlər qarşılayır. Kahinlərin arxasında _____________________________ _________________________
______________________________________________________________________
______________________________________________________________________
___ Günəş və ay tanrıları ilə eyniləşdirilir. Həsənli qızıl camı __________________________
_______________________ __________________________________________________
___________________

**IV qrup**

Verilmiş mətni bərpa edin:

Ziviyədən tapılan qızıl əşya üzərində ____________________________________________ _____
______________________________________________________________________________
______________________________________________________________________________
____________________________________________________________ Manna sənətkarları silah, zireh və dəbilqələr ____________________________ _____________________________
______________________________________________________________________________
______________________________________________________________________________
__________________________________________ bəzilərində əşyalar çox, bəzilərində isə azdır.

Tapılan müxtəlif əşyalar, şəhər-qala qalıqları _______________________________ _____
______________________________________________________________________________
__________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi:** Dərsin bu mərhələsində qruplara müəyyən vaxt verib tapşırıqlarını təqdim etmələri tapşırılır. Qrup təqdimatı zamanı qrupların tamamlaya bilmədikləri yerləri digər qrupların tamamlamalarına və lazım gələcəyi halda sual verməlērinə şərait yaradılır. Beləliklə, təqdim edilən cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Müzakirə zamanı söylənilən fikirlərin ümumiləşdirilməsi, dərsin əvvəlində söylənilmiş fərziyyələrlə müqayisə aparılması və tədqiqat sualı ilə bağlı nəticə çıxarılması vacibdir. Dərsin bu mərhələsində şagirdlərə verilən yönləndirici suallar vasitəsilə ümumiləşdirmə aparıla bilər. Bununla belə, tədqiqat sualının tam cavabını almaqdan ötrü aşağıdakı sual və tapşırıqlar da yardımçı ola bilər:

– Sizcə, yerli xammalın mövcudluğunun hansı üstünlükləri var?
– Qəbir abidələrində əşyaların azlığı və ya çox olması nəyi sübut edir?
– Manna dövlətində mədəniyyətin inkişafını izah edin.
– Şəhər-qalaların bəzisinin “hökmdar şəhəri” adlandırılmasının səbəbi nə idi?
– Manna mədəniyyətinin qonşu xalqların mədəniyyəti ilə qarşılıqlı əlaqələrini necə izah etmək olar?

**Yaradıcı tətbiqetmə:** Dərsliyin 85-ci səhifəsindəki sxemi tamamlamaq istənilə bilər.

**Ev tapşırığı:** İnternet resurslarından istifadə edərək Həsənli və Ziviyədə aparılan arxeoloji qazıntılar barədə məlumat toplamaq tapşırıla bilər.

**Qiymətləndirmə meyarı:** izahetmə

Tədris prosesində aparılan qiymətləndirmə zamanı materialın şagirdlər tərəfindən nə dərəcədə mənimsənilməsi, mühakimə yürütmə qabiliyyətinin inkişafı, konkret faktları, hadisələri izah edərkən, müxtəlif tapşırıqları yerinə yetirərkən şagirdin əldə etdiyi biliyi tətbiq etmə bacarığı haqqında obyektiv təsəvvür yaranır. Qiymətləndirmə bütün dərs boyunca aparılmalı, lazımi qeydləri götürməli və sonda qiymətləndiriləcək şagirdlər yuxarıdakı meyara və səviyyələrə görə qiymətləndirilməlidir.

Dərsin sonunda şagirdlərə aşağıdakı formada qrup qiymətləndirmə vərəqi verilə bilər.

**Qrupun adı:** ____________________

**Təlimat:** Aşağıdakı meyarlara hansı səviyyədə əməl olunduğunu nəzərə alaraq qrupu qiymətləndirin.

| MEYARLAR | SƏVİYYƏLƏR | | | | |
|---|---|---|---|---|---|
| | Heç vaxt | Nadir hallarda | Bəzən | Tez-tez | Həmişə |
| Qrup üzvlərinin hər biri tapşırıqlarda iştirak edirmi? | | | | | |
| Qrup üzvləri bir-birinin fikir və fəaliyyətinə hörmət edirlərmi? | | | | | |
| Qarşılıqlı şəkildə müzakirələr aparırlarmı? | | | | | |
| Qrup üzvləri qərarlarını bir-birinə bildirirmi? | | | | | |
| Qrup üzvləri iş bölgüsünə əməl edirlərmi? | | | | | |
| Qrup üzvləri bir-birinə etimad göstərirlərmi? | | | | | |
| Qrup üzvləri bir-birini cəsarətləndirirmi? | | | | | |
| Nəticələrin qrup üzvləri tərəfindən növbəli və ədalətli şəkildə təqdim olunmasına diqqət edirlərmi? | | | | | |
| Üzərində işlənilən mövzuda qrup üzvləri ortaq bir fikrə gəlirmi? | | | | | |

ŞƏRHLƏR:

______________________________________________________________

______________________________________________________________

# 5 Azərbaycan e.ə. VII–IV yüzilliklərdə (birinci saat)

**Qeyd:** Mövcud paraqrafın tədrisinə iki saat ayrılmışdır. Paraqraf 86–93-cü səhifələri əhatə edir. Tədris saatına uyğun olaraq bölgü aşağıdakı formada nəzərdə tutulmuşdur:

– Birinci tədris saatında dərsliyin 86-cı səhifəsindən 90-cı səhifəsindəki “Azərbaycan Əhəməni dövlətinin tərkibində” yarımbaşlığına qədərki materialların tədqiqi nəzərdə tutulmuşdur.

– İkinci tədris saatında dərsliyin 90-cı səhifəsindəki “Azərbaycan Əhəməni dövlətinin tərkibində” yarımbaşlığından paraqrafın sonuna qədər olan məlumatların araşdırılması qərara alınmışdır.

Bu bölgü mütləq deyil və müəllimin tədris strategiyasına uyğun olaraq dəyişdirilə bilər.

**Standartlar:**

1.1.2. Mühüm hadisə, proses və təzahürləri zaman oxunda təsvir edir.

3.1.1. Azərbaycanda dövlət qurumları və qədim dövlətlərin yaranmasını, idarə olunmasını, sosial-iqtisadi münasibətləri təsvir edir.

3.1.3. Qədim Azərbaycan dövlətləri haqqında mənbələr əsasında məlumatlar toplayır, təqdim edir.

**Təlim məqsədləri:**

1. Azərbaycan tarixində baş verən mühüm hadisə, proses və təzahürləri zaman oxunda təsvir edir.
2. Azərbaycanda qədim dövlətlərin yaranmasını təsvir edir.
3. İskit şahlığı haqqında mənbələr əsasında məlumatlar toplayır, təqdim edir.

**Təlim formaları:** kollektiv və fərdi iş

**Təlim üsulları:** beyin həmləsi, karvan üsulu

**Dərsin mərhələləri**

**Motivasiya:** Dərsin motivasiyasını əvvəlki dərsdə əldə edilən bilgilər əsasında qurmaq olar. Bunun üçün şagirdlərin diqqəti Manna dövləti paraqrafında “Müstəqil siyasət yürüdən hökmdar” yarımbaşlığına yönəldilir və onlara aşağıdakı suallarla müraciət edilir:

– Manna dövlətində müstəqil siyasət yürüdən hökmdar kim idi?

–Necə oldu ki, Ahşeri müstəqil siyasət yürüdərək asılılıqdan azad oldu və Aşşur dövləti ilə ənənəvi ittifaqı pozdu?

Cavablar ümumiləşdirilir, yeni dərslə əlaqələndirilir və tədqiqat sualını elan edilir.

**Tədqiqat sualı: Kimmer, İskit və Sak tayfaları necə dövlət qurdular?**

**Tədqiqatın aparılması:** Tədqiqatın aparılması mərhələsini reallaşdırmaq üçün Karvan üsulundan istifadə etmək məqsədəmüvafiq olardı. Bu, stansiyalarla iş üsuludur. Şagirdlər 4

qrupa ayrılırlar, 4 flipçartda hərəsində mövzu ilə bağlı bir sual qoyulur. Qruplar növbə ilə saat əqrəbi istiqamətində suallara, ən azı, 3 cavab yazırlar. Sonra növbə ilə digər qrupların cavablarını qiymətləndirərək öz cavablarını yazırlar. Hər cavabın qarşısında üç işarədən biri qoyulur: razıyam (√), razı deyiləm (-), başa düşmədim (?) işarəsi qoyulur. Qruplara fərqli qələmlər verilir: qırmızı, qara, göy, yaşıl və ya başqa rəng. Qruplarda olan üzvlərə iş tapşırıla bilər: vaxta nəzarət, yazan, təqdimatçı, nəzarətçi və s. Üsulun digər üsullardan ən üstün cəhəti ondan ibarətdir ki, heç kim boş qalmır, hamı müəyyən bir işlə məşğul olur.

**I qrup**

1. Suallara, ən azı, 3 cavab yazın.
2. Digər qrupların cavablarını qiymətləndirərək öz cavablarınızı yazın. Hər cavabın qarşısında üç işarədən birini qoyun: razıyam (√), razı deyiləm (-), başa düşmədim (?).

**Tapşırıq 1:** İskitlərin Azərbaycana yürüşünü təsvir edin.

____________________________________________________________

2. İskit şahlığının yaranmasını, Manna dövlətinin süqutunu və Midiya dövlətinin yaranmasını zaman oxunda təsvir edin.

____________________________________________________________

**II qrup**

1. Suallara ən azı 3 cavab yazın.
2. Digər qrupların cavablarını qiymətləndirərək öz cavablarınızı yazın. Hər cavabın qarşısında üç işarədən birini qoyun: razıyam (√), razı deyiləm (-), başa düşmədim (?).

**Tapşırıq 1:** Midiya dövlətinin yaranmasını və onun Azərbaycanla münasibətlərini təsvir edin.

____________________________________________________________

2. İskit şahlığının yaranmasını, Manna dövlətinin yaranmasını və Midiyada İskit ağalığına son qoyulmasını zaman oxunda təsvir edin.

____________________________________________________________

**III qrup**

1. Suallara, ən azı, 3 cavab yazın.
2. Digər qrupların cavablarını qiymətləndirərək öz cavablarınızı yazın. Hər cavabın qarşısında üç işarədən birini qoyun: razıyam (√), razı deyiləm (-), başa düşmədim (?).

**Tapşırıq 1:** Dərsliyin "Kimmer tayfaları" yarımbaşlığını şərh edin.

____________________________________________________________

2. İskit şahlığının Midiya tərəfindən işğalını, II Sarqonun Mannaya yürüşünu və iskitlərin Dərbənd keçidindən keçib Muğana və Urmiyaətrafı ərazilərə köçünü zaman oxunda təsvir edin.

______________________________________________________________________

**IV qrup**

1. Suallara, ən azı, 3 cavab yazın.
2. Digər qrupların cavablarını qiymətləndirərək öz cavablarınızı yazın. Hər cavabın qarşısında üç işarədən birini qoyun: razıyam (√), razı deyiləm (-), başa düşmədim (?).

**Tapşırıq 1:** İskit şahlığını təsvir edin.

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
________________________

2. Midiya dövlətinin yaranmasını, Manna dövlətinin yaranmasını və iskitlərin Dərbənd keçidindən keçib Muğana və Urmiyaətrafı ərazilərə köçünü zaman oxunda təsvir edin.

______________________________________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi:** Tədqiqatın aparılması bitəndən sonra müzakirə keçirilir. Bu zaman şagirdlərin qoyduqları işarələrin mənası açılır. Hər qrup işini müdafiə edir. Tədqiqatın gedişində şagirdlər əldə etdikləri məlumatları, yeni informasiyanın mübadiləsini aparırlar. Qoyulmuş suala cavab tapmaq zərurəti tədqiqatın bütün iştirakçılarını bir-birinin təqdimatını fəal dinləməyə sövq edir. Təqdimat bir növ yeni biliklərin dairəsini cızır və hələlik bu biliklər natamam və xaotik xarakter daşıyır. Yeni bir tələbat – həmin bilikləri qaydaya salmaq, sistemləşdirmək, müəyyən bir nəticəyə gəlmək üçün tədqiqat sualına cavab tapmaq zərurəti yaranır. Bütün bilik, bacarıq və vərdişlərin, təfəkkürün müxtəlif növlərinin (məntiqi, tənqidi, yaradıcı) səfərbərliyini tələb edir. Fasilitasiya əsasında (yönəldici, köməkçi suallardan istifadə etməklə) əldə edilmiş faktların məqsədyönlü müzakirəsinə və onların təşkilinə kömək etmək olar.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Bu mərhələdə şagirdlər yeni bilginin kəşfi yolunda son addımı ataraq konkret nəticəyə gəlir və ümumiləşdirmələr aparırlar. Şagirdlər nəinki əldə olunan bilgiləri ümumiləşdirməli, həm də gəldiyi nəticəni tədqiqat sualı və irəli sürülmüş fərziyyələrlə müstəqil olaraq tutuşdurmalıdır. Dərsin kulminasiyasını isə bilgiləri məhz özləri kəşf etdikləri üçün şagirdlərin duyduqları bənzərsiz sevinc və məmnuniyyət hissi təşkil edir. Bu proses zamanı dərsi yekunlaşdırmaq üçün aşağıdakı sual və tapşırıqlarla şagirdlərə müraciət edilə bilər.

– Kimmerlərin Cənubi Qafqaza yürüş etməsinin səbəbi nə idi?
– İskitlərin Azərbaycan türk xalqının təşəkkülündə rolunu dəyərləndirin.
– İskitlər hərb tarixində hansı yenilikdən istifadə etmişlər?
– Kimmer və iskitlərin yürüşü Azərbaycanın siyasi vəziyyətinə necə təsir göstərmişdi?
– Midiyalıların iskitlər və kimmerlərlə ittifaqı hansı zərurətdən yaranmışdır?
– İskit və Midiya dövlətlərini Azərbaycan dövlətçilik ənənələrinin davamı hesab etmək olarmı? Cavabınızı sübut edin.

**Yaradıcı tətbiqetmə:** Aşağıdakı tapşırıqları vermək olar:

- Midiya dövlətinin yarandığı və genişləndiyi ərazini xəritədə müəyyən edin.
- Dərsliyin 88-ci səhifəsindəki tapşırıqları yerinə yetirin.

**Ev tapşırığı:** İskit şahlığı haqqında mənbələr əsasında məlumatlar toplayıb, təqdim etmək tapşırılır.

**Qiymətləndirmə meyarları:** təsviretmə, məlumatlar toplayıb təqdimetmə

Yuxarıdakı meyarlara uyğun olaraq şagirdlər səviyyələr üzrə qiymətləndirilməlidir. Bununla yanaşı, şagirdlərə aşağıdakı formada özünüqiymətləndirmə vərəqi də verib cədvəli doldurmaq təklif edilə bilər.

Aşağıda sadalananlar barədə öz şəxsi keyfiyyətlərinizi necə qiymətləndirirsiniz?

| Meyarlar | Qeyri-kafi | Kafi | Yaxşı | Əla |
|---|---|---|---|---|
| Əməkdaşlıq | | | | |
| Başqalarına kömək | | | | |
| Başqalarına hörmət | | | | |
| Dinləmək bacarığı | | | | |
| Səhvin etirafı | | | | |
| Düzlük | | | | |
| Başqaları haqqında ədalətlə fikir yürütmə | | | | |

Şagirdlərin sonuncu meyar üzrə qiymətləndirilməsi onlara verilən "İskit şahlığı haqqında mənbələr əsasında məlumatlar toplayıb, təqdim edin" adlı ev tapşırığının yerinə yetirilib təhvil verilməsindən sonra mümkün olacaqdır.

# 5 Azərbaycan e.ə. VII–IV yüzilliklərdə (ikinci saat)

**Standartlar:**

1.1.2. Mühüm hadisə, proses və təzahürləri zaman oxunda təsvir edir.
3.1.2. Qədim dövlətlərin daxili və xarici siyasətini izah edir.
4.1.1. Dövlətlərin yaranmasında, inkişafında tarixi şəxsiyyətlərin (İranzu, Tomiris, Atropat, Oroys və b.) rolunu dəyərləndirir.

**Təlim məqsədləri:**

1. E.ə. VII–IV yüzillikdə Azərbaycanda baş verən mühüm hadisə, proses və təzahürləri zaman oxunda təsvir edir.
2. Əhəməni dövlətinin daxili və xarici siyasətini izah edir.
3. Xarici işğalçılara qarşı mübarizədə Tomirisin rolunu dəyərləndirir.

**Təlim formaları:** böyük qruplarla və fərdi iş

**Təlim üsulu:** bitməmiş cümlələr

**Dərsin gedişi**

**Tədqiqat sualı: Əhəməni dövləti Azərbaycanla bağlı necə siyasət yürüdürdü?**

**Tədqiqatın aparılması:** Dərsin bu mərhələsində "bitməmiş cümlələr" üsulunun köməyi ilə şagirdlərə öz ideyalarını söyləmələrinə şərait yaradılır. Bu zaman şagirdlərə səsləndirilən fikir üzərində diqqətlə və dərindən işləmək, onları digərləri ilə müqayisə etmək, təklif olunmuş mövzu üzrə daha sərbəst danışmaq, fikirlərini müstəqil şərh etmək bacarığını inkişaf etdirmək imkanı verilmiş olur. Bunun üçün şagirdlərə qısaca bu üsulun izahı verilsə, yaxşı olardı. "Uşaqlar, indi mən sizə bir bitməmiş cümlə deyərəm və siz bu cümləni 2-3 arqumentlə tamamlamalısınız".

Şagirdlərə aşağıdakı kimi "bitməmiş cümlələr" təklif etmək olar:

– Kiaksardan sonra Midiya dövlətinin zəifləməsini belə izah edərdim ki, ............................
– Midiya dövlətinin süqutunu belə əsaslandırardım ki, ..........................
– Əhəməni dövlətinin yaranmasının izahını belə verə bilərəm ki, ....................
– Əhəməni dövlətində ticarət əlaqələrinin inkişafı haqda mən ................... öyrəndim.
– Əhəməni dövlətinin ərazilərini işğallar hesabına genişləndirməsi bizə belə bir nəticə çıxarmağa imkan verir ki, .......................
– Makedoniyalı İskəndər haqqında mən ............................ öyrəndim.
– Massagetlərlə Əhəmənilər arasında toqquşmaları belə şərh etmək olar ki, .................
– I Daranın üsyançılara qarşı mübarizəsini belə qiymətləndirmək olar ki, ....................
– Bugünkü dərsdə mən Əhəməni dövləti haqqında ............................ öyrəndim.
– Əhəməni dövlətinin süqutu səbəblərini belə izah edərdim ki, .....................

– Əhəməni imperiyası tərkibində Azərbaycan mədəniyyətinin inkişafını belə şərh etmək olar ki, .................

– Qavqamela döyüşünü belə dəyərləndirərdim ki, ..........................

– Yunan-İran müharibələrində Əhəməni qoşununda azərbaycanlıların iştirakı bizə belə nəticə çıxarmağa imkan verir ki, ........................

Səsləndirilən cümlənin tamamlanması bir neçə şagirddən istənilir. Müzakirənin sonunda lazım gələcəyi halda müəllim öz fikrini ifadə edib şagirdlərin fikirlərini yekunlaşdıra bilər. Vaxt bölgüsünü əvvəlcədən elan etmək zəruridir ki, şagirdlər əlavə vaxt itkisinə şərait yaratmasınlar.

Əslində, dərsin bu mərhələsində dərsin məlumatın mübadiləsi və müzakirəsi mərhələsi də yekunlaşdırılmış olur. Şagirdlərin çıxışları bitəndən sonra müəllim söz alıb öz fikirlərini ifadə edir. Bu zaman şagirdlərdən əlavə fikirlər alınır və bu fikirlər yekunlaşdırılır.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Müzakirə başa çatdıqdan sonra tədqiqat sualına cavab tapmaq, təlim məqsədinin reallaşdırılmasını təmin etmək üçün aşağıdakı suallarla şagirdlərə müraciət edilə bilər.

– Midiyanın süqutuna hansı amillər təsir göstərmişdir?

– Əhəməni dövləti Azərbaycan tayfalarına münasibətdə hansı siyasəti yürüdürdü?

– Nə üçün Əhəməni dövlətini Azərbaycan dövləti saymaq olmaz? Fikrinizi əsaslandırın.

– Sizcə, Əhəməni dövlətinin zəifləməsinin səbəbi nə ola bilərdi?

**Yaradıcı tətbiqetmə:** Bu mərhələdə şagirdlərə yaradıcı təfəkkürün inkişafına kömək olacaq hər hansı bir tapşırıq verilə və ya dərslikdə olan sual və tapşırıqlardan istifadə edilə bilər.

– Midiya və Əhəməni dövründə Azərbaycanda baş vermiş hadisələrlə bağlı zaman oxu tərtib edin.

– Manna və Midiya dövlətlərini müqayisə edin.

| **Manna dövləti** | | **Midiya dövləti** |
|---|---|---|
| Fərqli cəhət | Oxşar cəhət | Fərqli cəhət |
| | | |

**Ev tapşırığı:** Tomiris haqqında məlumat toplayın, xarici işğalçılara qarşı mübarizədə onun rolunu dəyərləndirin.

**Qiymətləndirmə:** təsviretmə, izahetmə, rolunu dəyərləndirmə

Yuxarıda yazılmış meyarlar əsasında formativ qiymətləndirmə həyata keçirilir. Formativ qiymətləndirmənin şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün böyük əhəmiyyəti olduğunu nəzərə alaraq onların dərs zamanı müzakirələrdə iştirak səviyyəsi, verdiyi məntiqli cavabları barədə yığcam rəy mübadiləsi aparmaq məqsədəmüvafiq olardı.

Dərsin sonunda şagirdlərə aşağıdakı formaya uyğun qarşılıqlı qiymətləndirmə vərəqi verilə bilər.

## QARŞILIQLI QİYMƏTLƏNDİRMƏ VƏRƏQİ

Vərəqi doldurarkən 2, 3, 4, 5 rəqəmli ballardan istifadə məqsədəmüvafiqdir.

| Meyar | 1. Dostunun adı, soyadı: ____________ ____________ | 2. Dostunun adı, soyadı: ____________ ____________ | 3. Dostunun adı, soyadı: ____________ ____________ |
|---|---|---|---|
| Verilən suala düzgün cavab verdimi? | | | |
| Reqlamentə riayət etdimi? | | | |
| Çıxışı savadlı idimi (terminlərin səsləndirilməsi, vurğuların düzgünlüyü)? | | | |
| Tapşırığı başa düşüb fikrini izah etdimi? | | | |
| Nəticə çıxarılıbmı? | | | |
| Çıxış edən əlavə suallara cavab verə bildimi? | | | |
| Başqalarına maraq var idimi? | | | |
| Dinləmək bacarığı var idimi? | | | |
| Məntiqli yanaşma var idimi? | | | |

# 6 Atropatena dövləti (birinci saat)

**Qeyd.** Dərsliyin 94–107-ci səhifələrini əhatə edən mövcud paraqrafın (Atropatena dövləti) tədrisinə iki saat ayrılmışdır.

Birinci dərsdə (94–99-cu səhifələr) Əhəmənilər dövlətinin süqutu, Atropatena dövlətinin yaranması, Dövlətin ərazisi, siyasi quruluşu və əhalisi, Təsərrüfat həyatı kimi yarımbaşlıqlar öz əksini tapıb. Müxtəlif resursları özündə əks etdirən 6 səhifəlik bu materialda şagirdlərə dövlət və dövlətçiliyin nə olduğunu anlatmaq, Atropatenanın hansı şəraitdə, necə yarandığını, dövlətlərin əsas məqsədinin nə olduğunu, onun idarəçilik formasını, əhalisinin və onun məşğuliyyətini öyrətmək məqsədi daşıyır.

İkinci dərsdə (100–107-ci səhifələr) "Qonşu dövlətlərlə münasibətlər" və "Din" yarımbaşlıqları öz əksini tapır. Maraqlı resurslarla təsvir olunan növbəti səhifələrdə təqdim olunan materiallar şagirdlərə Atropatenanın daxili və xarici siyasətinin mahiyyətini, dövlət və dövlətçiliyin qorunmasının əhəmiyyətini, onun qonşu dövlətlərin təcavüzkar siyasətinə qarşı mübarizəsini və mədəniyyətin insanların həyatına necə təsir etdiyini öyrətmək məqsədi daşıyır.

**Standartlar:**

3.1.1. Azərbaycanda dövlət qurumları və qədim dövlətlərin yaranmasını, idarə olunmasını, sosial-iqtisadi münasibətləri təsvir edir.

4.1.1. Dövlətlərin yaranmasında, inkişafında tarixi şəxsiyyətlərin (İranzu, Tomiris, Atropat, Oroys və b.) rolunu dəyərləndirir.

4.1.2. Tarixi şəxsiyyətlər haqqında kiçik hekayə qurur.

**Təlim məqsədləri:**

1. Atropatena dövlətinin Azərbaycanın qədim dövlətlərindən biri olduğunu təsvir edir;
2. Atropatena dövlətinin yaranmasında Atropatın rolunu dəyərləndirir;
3. Atropat haqqında kiçik hekayə qurur.

**Təlim formaları:** qruplarla və fərdi iş

**Təlim üsulu:** birgə tədqiqat üsulu

**Dərsin gedişi**

**Motivasiya.** Motivasiya qurmaq üçün şagirdlərə aşağıdakı formada qısa məlumat verilə bilər:

Makedoniyalı İskəndər Ön Asiyanı, Əhəmənilər dövlətinin ərazilərini işğal etmişdi. Əhəmənilər dövlətinin tərkibində olan Azərbaycan ərazisində İskəndər yenidən canişin təyin etdi. Lakin onun Hindistan səfəri zamanı vəfat etməsi nəticəsində imperiyanın əhatə etdiyi ərazilərdə bir müddət sonra siyasi qarışıqlıq, parçalanma və müstəqillik uğrunda mübarizə başlandı. Kiçik Midiyada (Cənubi Azərbaycan) hansı hadisələr baş verə bilərdi? Gəlin bu qəhrəmanlıq yolunu birlikdə öyrənək!

**Tədqiqat sualı: Atropatena necə müstəqil dövlətə çevrildi?**

**Tədqiqatın aparılması.** "Birgə tədqiqat üsulu" fəal təlim strategiyalarından biri kimi, Atropatena dövləti mövzusunun öyrədilməsində şagirdlərin tədqiqat aparmaq, əməkdaşlıq etmək və nəticələr çıxarmaq bacarıqlarını inkişaf etdirmək üçün çox səmərəlidir. Bu üsuldan istifadəni aşağıdakı kimi qurmaq olar:

Tədqiqat qruplarının təşkili. Şagirdlər 4-5 nəfərlik qruplara bölünür. Hər qrupa Atropatena ilə bağlı bir alt mövzu verilir:

**I qrup**

Atropatena dövlətinin yaranma səbəbləri və Atropatın fəaliyyəti

______________________________________________
______________________________________________
______________________________________________

**II qrup**

Atropatenanın coğrafi ərazisi və paytaxtı

______________________________________________
______________________________________________
______________________________________________

**III qrup**

Atropatenanın siyasi quruluşu və əhalisi

______________________________________________
______________________________________________
______________________________________________

**IV qrup**

Atropatena dövlətinin yaranmasında Atropatın rolu

______________________________________________
______________________________________________
______________________________________________

**Məlumatın mübadiləsi:** Hər qrupa mənbə materialı (dərsliklər, xəritələr və ya internetdən seçilmiş məqalələr) təqdim edilir. Qruplar məlumat toplayır, müzakirə edir və qrup daxilində bölüşdürərək təqdimata hazırlaşır.

**Təqdimat mərhələsi:** Hər qrup tapdıqları məlumatı sinif qarşısında təqdim edir (plakat, slayd və ya sadəcə, şifahi şəkildə). Digər qruplar suallar verir, əlavələr edir və müzakirə aparılır.

**Ümumiləşdirmə və nəticələrin çıxarılması:** Dərsin sonunda müəllim şagirdlərin təqdim etdiyi məlumatları aşağıdakı kimi qısa şəkildə ümumiləşdirə bilər:

- Atropatena dövləti Makedoniyalı İskəndərin imperiyasının dağılmasından sonra yaranmışdır.
- Dövlətin banisi Atropat olmuşdur.
- Dövlət indiki Cənubi Azərbaycan və Şimali Azərbaycanın bəzi cənub ərazilərini əhatə edirdi.

• Dövlətin adı sonralar “Azərbaycan” şəklində formalaşmış və bu ad bu gün də yaşamaqdadır.

Şagirdlərə əlavə suallar verilə bilər ki, onlar da nəticənin çıxarılmasına öyrəşsinlər:

– Sizcə Atropatenanın tarixi əhəmiyyəti nədə idi?
– Atropat kim idi və onun rolunu necə qiymətləndirirsiniz?
– Niyə bu dövlətin adı bu gün də yaşamaqdadır?
– Atropatenanın coğrafi mövqeyi onun təsərrüfatına necə təsir edir?

**Ev tapşırığı:** Şagirdlərə aşağıdakılar ev tapşırığı kimi verilə bilər:

– “Atropatenanın Azərbaycan tarixində rolu” adlı kiçik təqdimat hazırlamaq;
– “Tarixi şəxsiyyətin tarixdə rolu” haqqında kiçikhəcmli hekayə qurmaq.

**Qiymətləndirmə meyarları:** təsviretmə, dəyərləndirmə, hekayə qurma

Dərsin sonunda şagirdlərin qiymətləndirilməsi həyata keçirilir. Dərsin bu mərhələsində müxtəlif suallar verməklə də təlim prosesində izlənmiş şagirdin hansı meyara cavab verdiyini müəyyənləşdirən səviyyələr üzrə yazılı və ya şifahi şəkildə suallar yönləndirilə bilər:

• “Bu dərsdə nə öyrəndim?”
• “Məni ən çox maraqlandıran nə oldu?”
• “Daha nəyi araşdırmaq istərdim?”

**Qrupları qiymətləndirmə meyarları:** Qiymətləndirmə rubrikası ilə təqdimat və əməkdaşlıq bacarıqları da qiymətləndirilə bilər.

| Qruplar | Mənbələrdən düzgün istifadə | Məlumatların mübadiləsi və müzakirəsi | Təqdimetmə | Üzvlər arasında əməkdaşlıq | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

# 6 Atropatena dövləti (ikinci saat)

**Standartlar:**

3.1.2. Qədim dövlətlərin daxili və xarici siyasətini izah edir.

5.1.2. Azərbaycan mədəniyyətinin müxtəlif xalqların mədəniyyəti ilə qarşılıqlı əlaqələrini izah edir.

**Təlim məqsədləri:**

1. Atropatena dövlətinin daxili və xarici siyasətini izah edir.
2. Atropatenanın Azərbaycan mədəniyyətindəki yerini müəyyənləşdirib izah edir.

**Təlim formaları:** kollektiv və fərdi iş

**Təlim üsulları:** müzakirə, faktların təhlili

**Dərsin gedişi**

**Tədqiqat sualı: Atropatenanın daxili və xarici siyasəti necə yürüdülürdü?**

**Tədqiqatın aparılması:**

**Müzakirə üsulu.** Sinfə suallar verilir və onlar cavablar üzərində fikir mübadiləsi aparırlar.

Sual nümunələri:

– Daxili siyasətdə ən vacib addım nə idi?
– Müstəqilliyi qoruyub saxlamaq üçün hansı tədbirlər görmək lazımdır?
– Atropatena hansı dövlətlərlə dostluq siyasəti aparırdı?
– Atropatenanın xarici hücumlara qarşı mübarizə forması nə idi?
– Atropatena mədəniyyəti hansı antik mədəniyyətlər hesabına formalaşırdı?

Bunun kimi suallar əsasında aparılan müzakirələr şagirdlər arasında səbəb-nəticə və məntiqi düşünmə bacarıqları inkişaf etdirir.

**Faktların təhlili üsulu:** Mətn, xəritə və ya cədvəl əsasında şagirdlər tarixi faktları araşdırır və nəticə çıxarır. Təhlil ediləcək faktlar:

• Dövlət başında duran hökmdarın səlahiyyətləri;
• Dövlətin inzibati bölgüsü;
• Ərazi bütövlüyünə qarşı mübarizə;
• Qazaka şəhərinin mədəni həyatda rolu;
• Yunan əsatirlərinin Atropatena mədəniyyətinə təsiri.

Faktların təhlilindən sonra şagird faktları müqayisə etməyi və tarixdə dəyişən situasiyaları anlamağı öyrənir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Atropatena dövləti ilk dövrlərdə qonşularla sülh siyasəti aparmağa çalışsa da, xüsusilə Selevkilər tərəfindən təhlükə ilə üz-üzə idi. Dövlətin müstəqilliyini qorumaq məqsədilə diplomatik yollarla və hərbi müdafiə tədbirləri ilə xarici siyasət aparılırdı. Atropatena öz müstəqilliyini qorumaq üçün daim güclü idarəçilik, ərazi müdafiəsi və qonşularla balanslı münasibət saxlamalı olmuşdur. Atropatena qədim mədəni

ənənələrdən, həm də yunan mədəniyyətindən təsirlənmiş, qonşularla mədəni əlaqələri də qorumuşdu.

**Qiymətləndirmə meyarları:** izahetmə

Dərs boyu izlənilmiş şagirdlər dərsin sonunda meyarlara uyğun qiymətləndirilməlidir.

Vaxt olarsa, şagirdlərə aşağıdakı formada özünüqiymətləndirmə vərəqi verilə bilər:

## ŞAGİRDİN ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ VƏRƏQİ

**Adı və soyadı:** ________________________________

Sinif: ______________ No: ____________________

Bu anket özünüqiymətləndirmə məqsədilə hazırlanmışdır. Gördüyünüz işləri ən düzgün formada ifadə edən seçimi işarələyin (X).

| Qabiliyyətlər | Dərəcələr | | |
|---|---|---|---|
| | Həmişə | Bəzən | Heç vaxt |
| 1. Başqalarının izahlarını və məsləhətlərini dinlədim. | | | |
| 2. Təlimata əməl etdim. | | | |
| 3. Müzakirədə fəallıq göstərdim. | | | |
| 4. Faktları təhlil edə bildim. | | | |
| 5. Anlamadığım məsələlərə aid sual verdim. | | | |
| 6. Atropatena dövlətinin daxili və xarici siyasətini izah edə bildim. | | | |
| 7. Atropatenanın Azərbaycan mədəniyyətindəki yerini müəyyən edib izah etdim. | | | |
| 8. Tapşırığı yerinə yetirərkən vaxtdan düzgün istifadə etdim. | | | |

9. Bu dərsdə nələri öyrəndim?

______________________________________________

______________________________________________

10. Bu tədbir müddətində sinif yoldaşlarıma necə kömək etdim?

______________________________________________

______________________________________________

11. Bu tədbir müddətində ən yaxşı gördüyüm işlər:

______________________________________________

______________________________________________

ŞƏRHLƏR:

______________________________________________

______________________________________________

# 7 Albaniya dövləti (birinci saat)

**Qeyd.** Dərsliyin 108–121-ci səhifələrini əhatə edən Albaniya dövləti mövzusunun tədrisinə üç saat ayrılmışdır.

Birinci dərsdə (108–116-cı səhifələr) "Azərbaycanın şimalında ilk mərkəzləşdirilmiş dövlətin meydana gəlməsi", İqtisadi inkişaf" kimi yarımbaşlıqlar öz əksini tapır. Müxtəlif formalı cədvəl, sxem, şəkil və xəritə kimi resurslarla zəngin olan bu materialda şagirdlərə Azərbaycanın şimalında yaranmış ilk mərkəzləşmiş dövlət – Albaniya haqqında, onun yaranması, siyasi və sosial-iqtisadi vəziyyəti ilə bağlı dolğun məlumatlar vermək, həmçinin Albaniyanın coğrafi mövqeyini və onun əhəmiyyətini öyrətmək məqsədi qarşıya qoyulmuşdur.

İkinci dərsdə (117–119-cu səhifələr) "Yadellilərə qarşı mübarizə" adlı yarımbaşlıq öz əksini tapır. Müxtəlif formalı cədvəl, sxem, şəkil və xəritə kimi resurslarla zəngin olan bu materialda şagirdlərə Azərbaycanın şimalında yaranmış ilk mərkəzləşmiş dövlət – Albaniyanın xarici işğallara qarşı mübarizəsi öyrədilir.

Üçüncü dərsdə (119–121-ci səhifələr) "Mədəniyyət" adlı yarımbaşlıq öz əksini tapır. Müxtəlif formalı cədvəl, sxem, şəkil və xəritə kimi resurslarla zəngin olan bu materialda şagirdlərə Albaniyanın mədəniyyəti və onun xarici təsirlərə məruz qalması öyrədilir.

**Standartlar:**

3.1.1. Azərbaycanda dövlət qurumları və qədim dövlətlərin yaranmasını, idarə olunmasını, sosial-iqtisadi münasibətləri təsvir edir.

3.1.2. Qədim dövlətlərin daxili və xarici siyasətini izah edir.

**Təlim məqsədləri:**

1. Albaniya dövlətinin yaranmasını, idarə olunmasını, sosial-iqtisadi münasibətləri təsvir edir.
2. Albaniya dövlətinin daxili siyasətini izah edir.

**Təlim formaları:** böyük və kiçik qruplarla iş

**Təlim üsulları:** "Düşün–paylaş–müzakirə et"

**Dərsin gedişi**

**Motivasiya.** Əvvəlcə şagirdlərə aşağıdakı formada qısa məlumat verilir, sonra isə onlara suallar ünvanlanır. "Təsəvvür edin ki, siz qədim bir ərazidə yaşayırsınız. İnsanlar dağınıq şəkildə yaşayır, ortaq qanun yoxdur, hər kəs bildiyi kimi yaşayır. Birdən kimsə deyir ki, "gəlin birgə yaşayaq, öz hökmdarımız, qanunlarımız, torpağımız, ordumuz olsun".

– Sizcə, insanlar niyə belə bir qərar verirlər?
– Dövlət qurmaq niyə lazım idi?

Əgər siz öz dövlətinizi qurmalı olsaydınız:

– Hökmdarınızı necə seçərdiniz?
– Qanunları kim müəyyən edərdi?
– Əhali necə dolanardı?
– Torpaqlar necə idarə olunardı?

Biz əvvəlki dərslərdə qədim Azərbaycan ərazisində yaranmış dövlətlərin – Mannanın, Atropatenanın necə qurulduğunu, necə idarə edildiyini və insanların necə yaşadığını araşdırmışıq. Bəs Azərbaycanın şimalında hansı dövlət yarandı?

**Tədqiqat sualı: Albaniya hansı tarixi, siyasi və coğrafi amillərin təsiri ilə formalaşaraq mərkəzləşmiş dövlətə çevrildi?**

**Tədqiqatın aparılması:** Böyük və kiçik qruplarla işin dərsdə tətbiqi şagirdlərin fəal öyrənmə prosesinə cəlb olunması, ünsiyyət bacarığının inkişafı və biliklərin mənimsənilməsinin möhkəmləndirilməsi baxımından çox əhəmiyyətlidir.

Böyük qrup – nəticələri birləşdirərək ümumi təqdimat edir.

Kiçik qruplar – hər qrup fərqli siyasət istiqamətini (daxili, xarici, iqtisadi) araşdırır.

**Tədqiqat qruplarının təşkili:** "Düşün–paylaş–müzakirə et" üsulu Albaniya mövzusunda uğurla tətbiq edilə bilər. Bu üsulda əvvəlcə şagirdlər fərdi şəkildə düşünür, sonra qruplarında paylaşır və sonda ümumi müzakirə apararaq sinfə təqdim edirlər.

**I qrup:** Albaniyanın yaranması və coğrafi mövqeyi
- Albanlar kim idi?
- Dövlətin yaranma tarixi və coğrafi sərhədləri necə idi?

______________________________________________
______________________________________________
______________________________________

**II qrup:** Siyasi quruluş və idarəetmə
- Qanunvericilik və idarəçilik necə təşkil olunmuşdu?
- Hökmdarlar və onların rolu nədən ibarət idi?

______________________________________________
______________________________________________
______________________________________

**III qrup:** Albaniya əhalisi və sosial-iqtisadi həyatı
- Əhalinin məşğuliyyəti nə idi?
- Əhalinin sosial təbəqələşməsi hansı formada idi?

______________________________________________
______________________________________________
______________________________________

**IV qrup:** Albaniya dövlətinin əhəmiyyəti
- Albaniya dövlətinin yaranmasının əhəmiyyəti nə idi?
- Atropatena və Albaniyanın oxşar və fərqli tərəfləri nələrdir?

______________________________________________
______________________________________________
______________________________________

**Məlumatın mübadiləsi:** Hər qrupa mənbə materialı (dərsliklər, xəritələr və ya internetdən seçilmiş məqalələr) təqdim edilir. Qruplar məlumat toplayır, müzakirə edir və qrup daxilində bölüşdürərək təqdimata hazırlaşır.

**Təqdimat mərhələsi:** Hər qrup tapdıqları məlumatı sinif qarşısında təqdim edir (plakat, slayd və ya sadəcə, şifahi şəkildə). Digər qruplar suallar verir, əlavələr edir və müzakirə aparır.

**Ümumiləşdirmə və nəticələrin çıxarılması:** Mövzunu ümumiləşdirən zaman aşağıdakı nəticələrdən istifadə etmək olar:

– Albaniya eramızdan əvvəl IV əsrdə Azərbaycanın şimalında yaranmış ilk mərkəzləşmiş dövlətdir.

– Əhalisi, əsasən, yerli tayfalardan ibarət idi.

– Dövlətin siyasi quruluşu monarxiya olmuş, əvvəlcə yerli sülalə tərəfindən idarə edilmişdir.

– İqtisadiyyat, əsasən, əkinçilik, maldarlıq və sənətkarlığa əsaslanırdı.

**Ev tapşırığı:** Şagirdlərə aşağıdakılar ev tapşırığı kimi verilə bilər:

– Oxuduqlarından əldə etdiyin əsas faktları yaz və hər faktın Albaniyanın inkişafına necə təsir etdiyini izah et.

– Azərbaycanın şimalında Qafqaz Albaniyasının yerləşdiyi ərazini xəritədə göstər və qonşu dövlətlərin adlarını yaz.

– Albaniyanın siyasi və iqtisadi əhəmiyyətini izah edən kiçik təqdimat hazırla (şifahi və ya yazılı).

**Qiymətləndirmə meyarı:** təsviretmə, izahetmə

Dərsin sonunda şagirdlərin qiymətləndirilməsi həyata keçirilir. Dərsin bu mərhələsində müxtəlif suallar verməklə də təlim prosesində izlənmiş şagirdin hansı meyara cavab verdiyini müəyyənləşdirən səviyyələr üzrə yazılı və ya şifahi şəkildə suallar yönləndirilə bilər:

- “Bu dərsdə nə öyrəndim?”
- “Məni ən çox maraqlandıran nə oldu?”
- “Daha nəyi araşdırmaq istərdim?”

**Qrupların qiymətləndirmə rubriki.** (10 ballıq qiymətləndirmə)

| Qiymətləndirmə meyarı | Tələblər | Bal |
|---|---|---|
| Mövzuya uyğunluq və məlumatın dolğunluğu | Qrup mövzusuna uyğun əsas faktları düzgün və tam təqdim edir. | 4 bal |
| Əməkdaşlıq | Qrup üzvləri arasında iş bölüşdürülür, hər kəs fəal iştirak edir. | 3 bal |
| Təqdimatın keyfiyyəti | Təqdimat aydın, sistemli və anlaşıqlı olur. | 2 bal |
| Suallara cavab vermə bacarığı | Qrup üzvləri təqdimatdan sonra suallara dolğun cavab verir. | 1 bal |
| | | 10 |

# 7 Albaniya dövləti (ikinci saat)

**Standartlar:**

3.1.2. Qədim dövlətlərin daxili və xarici siyasətini izah edir.

4.1.1. Dövlətlərin yaranmasında, inkişafında tarixi şəxsiyyətlərin (İranzu, Tomiris, Atropat, Oroys və b.) rolunu dəyərləndirir.

4.1.2. Tarixi şəxsiyyətlər haqqında kiçik hekayə qurur.

**Təlim məqsədləri:**

1. Albaniya dövlətinin daxili və xarici siyasətini izah edir.
2. Albaniya dövlətinin inkişafında Oroysun rolunu dəyərləndirir.
3. Oroys haqqında kiçik hekayə qurur.

**Təlim formaları:** kollektiv və qruplarla iş

**Təlim üsulu:** müzakirə

**Dərsin gedişi**

**Tədqiqat sualı: "Albaniyanın xarici yürüşlərə qarşı mübarizəsi dövlətin möhkəmlənməsinə necə təsir göstərmişdir?"**

**Tədqiqatın aparılması:** Qruplarla işin dərsdə tətbiqi şagirdlərin fəal öyrənmə prosesinə cəlb olunması, ünsiyyət bacarığının inkişafı və biliklərin mənimsənilməsinin möhkəmləndirilməsi baxımından çox əhəmiyyətlidir.

**Tədqiqat qruplarının təşkili:** Müzakirə üsulu Albaniyanın xarici yürüşlərə qarşı mübarizə mövzusunda da uğurla tətbiq edilə bilər. Bu üsulda şagirdlər qruplarda işləyir və sonda ümumi müzakirə apararaq sinfə təqdim edirlər.

**I qrup**

Albaniyaya qarşı e.ə. I əsrdə yaranmış xarici təhlükələri izah edin.

______________________________________________

______________________________________________

______________________________________________

**II qrup**

Xarici yürüşlərin səbəblərini izah edin.

______________________________________________

______________________________________________

______________________________________________

**III qrup**

Albaniyanın müdafiə üsulları və hərbi strategiyalarını dəyərləndirin.

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

**IV qrup**

Xarici yürüşlərin Albaniyanın siyasi həyatına təsirini dəyərləndirin.

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

**Məlumatın mübadiləsi:** Hər qrupa mənbə materialı (dərslik, xəritələr və ya internetdən seçilmiş məqalələr) təqdim edilir. Qruplar məlumat toplayır, müzakirə edir və qrup daxilində məlumatı bölüşdürərək təqdimata hazırlaşır.

**Təqdimat mərhələsi:** Hər qrup tapdıqları məlumatı sinif qarşısında təqdim edir (plakat, slayd və ya sadəcə, şifahi şəkildə). Digər qruplar suallar verir, əlavələr edir və müzakirə aparılır.

**Ümumiləşdirmə və nəticələrin çıxarılması:** Albaniyanın xarici yürüşlərə qarşı mübarizəsi onun dövlət kimi möhkəmlənməsində böyük rol oynadı. Bu mübarizə Albaniyanın siyasi, hərbi və mədəni inkişafına təsir edib. Beləliklə, Albaniya özünü müəyyən müddət qoruyub saxlaya bildi.

**Ev tapşırığı:** Albaniyanın xarici yürüşlərə qarşı mübarizəsi barədə qrup işində öyrəndikləriniz əsasında kiçik həcmli esse yazmaq tapşırılır Essedə Albaniyanın müdafiə üsulları və bu mübarizənin dövlətin inkişafına necə təsir etdiyi açıqlanmalıdır. Həmçinin hökmdar Oroysun Albaniyanın müdafiəsində oynadığı rol qiymətləndirilməlidir.

**Qiymətləndirmə meyarı:** izahetmə, dəyərləndirmə, hekayə qurma

Dərsin sonunda şagirdlərin qiymətləndirilməsi həyata keçirilir. Dərsin bu mərhələsində təlim prosesində qrupların hansı meyara cavab verdiyini müəyyənləşdirən səviyyələr üzrə yazılı və ya şifahi şəkildə suallar yönləndirilə bilər:

**Qrupların qiymətləndirmə cədvəli**

Qruplar qiymətləndirmə rubrikləri ilə aşağıdakı formada qiymətləndirilə bilər.

| Qruplar | Resurslardan düzgün istifadə | Təqdimetmə | Tapşırığı vaxtında hazırlama | Əməkdaşlıq | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

# 7 Albaniya dövləti (üçüncü saat)

**Standartlar:**

5.1.2. Azərbaycan mədəniyyətinin müxtəlif xalqların mədəniyyəti ilə qarşılıqlı əlaqələrini izah edir.

5.1.3. Mədəni əlaqələrə dair cədvəllər tərtib edir.

**Təlim məqsədləri:**

1. Qədim Albaniya mədəniyyətinin müxtəlif xalqların mədəniyyəti ilə qarşılıqlı əlaqələrini izah edir.
2. Albanların yunan və romalılarla mədəni əlaqələrinə dair cədvəl tərtib edir.

**Təlim formaları:** kollektiv və qruplarla iş

**Təlim üsulları:** Eyler-Venn diaqramı

**Dərsin gedişi**

**Tədqiqat sualı: Qədim Albaniya mədəniyyəti necə inkişaf etdi?**

**Tədqiqatın aparılması.** Qruplarla işin dərsdə tətbiqi şagirdlərin fəal öyrənmə prosesinə cəlb olunması, ünsiyyət bacarığının inkişafı və biliklərin mənimsənilməsinin möhkəmləndirilməsi baxımından çox əhəmiyyətlidir.

Müəllim slayd və şəkillərdən istifadə edərək din, yazı, memarlıq, incəsənət və s. haqqında məlumat verir.

**Tədqiqat qruplarının təşkili.** Qruplar təşkil olunur və ümumi iş aparılır. Tapşırıqlar əsasında iş vərəqləri tərtib edilir və qruplara paylanır.

**I qrup**

Albaniya mədəniyyətinin öyrənilməsində maddi mənbələrin rolunu izah edin.

______________________________________________

______________________________________________

______________________________________________

**II qrup**

Qədim Albaniya mədəniyyətinin müxtəlif xalqların mədəniyyəti ilə qarşılıqlı əlaqələrini izah edin.

______________________________________________

______________________________________________

______________________________________________

**III qrup**

Albaniyanın yunanlarla mədəni əlaqələrinə dair cədvəl tərtib edin.

**IV qrup**

Albaniyanın romalılarla mədəni əlaqələrinə dair cədvəl tərtib edin.

Qrup daxilində müzakirə və nəticələrin hazırlanması: Hər qrup öyrəndiyi məlumatları qısa təqdimat, cədvəl və ya poster şəklində hazırlayır.

**Təqdimatlar və ümumi müzakirə:** Qruplar sinif qarşısında təqdimat edir. Müəllim təqdimatları ümumiləşdirir və əsas fikirləri vurğulayır.

**Fərdi iş:** Hər şagird öz dəftərində Albaniyanın mədəni əlaqələrinə dair qısa esse və ya cədvəl tərtib edir.

**Ümumiləşdirmə və nəticələrin çıxarılması.** Tədqiqat nəticəsində şagirdlər müəyyən etdilər ki, Albaniya mədəniyyəti zəngin maddi və yazılı mənbələrlə öyrənilir. Bu mənbələr vasitəsilə qədim albanların memarlıq, yazı, din və gündəlik həyat sahəsində yüksək mədəniyyətə malik olduqları aydın oldu. Eyni zamanda Albaniyanın yunan və romalılarla sıx mədəni əlaqələri olmuş, bu da onların memarlığında, din sahəsində və yazı sistemində iz buraxmışdır.

Beləliklə, Albaniya mədəniyyəti həm yerli, həm də xarici təsirlərin sintezindən ibarət olmuş və bu onun tarixdə mühüm yer tutmasına səbəb olmuşdur.

**Ev tapşırığı:** Qədim Albaniya mədəniyyətinin öyrənilməsində maddi və yazılı mənbələrin rolu haqqında qısa mətn yazın.

**Qiymətləndirmə meyarları:** izahetmə, tərtibetmə

Dərsin sonunda şagirdlərin qiymətləndirilməsi həyata keçirilir. Dərsin bu mərhələsində müxtəlif suallar verməklə də şagirdləri qiymətləndirmək olar.

**Qrupların qiymətləndirmə meyarları:** Qiymətləndirmə rubriki ilə bütün bacarıqlar qiymətləndirilə bilər (maksimum 5 bal):

| Qiymətləndirmə meyarı | Tələblər | Bal |
|---|---|---|
| Mövzuya uyğunluq | Tədqiqat sualına cavab verilib, əsas məzmun düzgün seçilib. | 1 bal |
| Mənbələrdən istifadə | Maddi, yazılı mənbələrdən düzgün və yaradıcı şəkildə istifadə olunub. | 1 bal |
| Vizual təqdimat | Cədvəl, şəkil, xəritə və ya sxemlərdən faydalı və aydın şəkildə istifadə edilib. | 1 bal |
| Komanda işi və əməkdaşlıq | Qrup üzvləri arasında əməkdaşlıq, bərabər bölüşmə və aktiv iştirak müşahidə olunur. | 1 bal |
| Təqdimat bacarığı | Qrupun çıxışı aydın, məntiqi və maraqlı şəkildə təqdim olunub. | 1 bal |

# 8 Azərbaycanda feodal münasibətlərinin yaranması

**Standartlar:**

1.1.1. Mühüm hadisə, proses və təzahürlərin xronoloji çərçivələrini müəyyənləşdirir.

2.1.1. Qədim insanların həyat tərzini və məşğuliyyətlərini Azərbaycan ərazisinin təbii-coğrafi şəraiti ilə əlaqələndirir.

**Təlim məqsədləri:**

1. III–VI yüzillikdə Azərbaycanda baş verən mühüm hadisə, proses və təzahürlərin xronoloji çərçivələrini müəyyənləşdirir.
2. III–VI yüzillikdə Azərbaycanda insanların həyat tərzini və məşğuliyyətlərini təbii-coğrafi şəraitlə əlaqələndirir.

**Təlim formaları:** qrupla, kollektiv iş
**Təlim üsulları:** beyin həmləsi, müzakirə, klaster

**Dərsin gedişi**

**Motivasiya.** Dərsin motivasiyasını "Əgər sənin torpağın olsaydı..." tarixi dialoq əsasında qurmaq olar.

Müəllim sinfə müraciət edir: "Təsəvvür edin, siz III–VI əsrlərdə yaşadığınız üçün torpaq almaq istəyirsiniz. Ətrafınızda çoxlu torpaq sahəsi var. Sizcə, o dövrdə torpağa sahib olmaq nə demək idi? Bu torpağı kimlər işlədirdi?"

**Tədqiqat sualı: Azərbaycanda feodal münasibətləri necə yarandı?**

**Tədqiqatın aparılması.** Qruplarla iş şagirdlərin fəal öyrənmə və müzakirə prosesinə cəlb olunması, ünsiyyət bacarığının inkişafı baxımından xüsusi yer tutur. Kiçik qruplarda şagirdlərə aşağıdakı kimi suallar verilə bilər:

**I qrup**

Feodal münasibətlərinin yaranma səbəblərini əsaslandırın.

______________________________________________

______________________________________________

**II qrup**

Feodal münasibətlərinin yaranma xüsusiyyətlərini təbii-coğrafi şəraitlə əlaqələndirin.

______________________________________________

______________________________________________

**III qrup**

Torpaq mülkiyyətinin formaları və feodalların mövqeyini təsvir edin.

______________________________________________

______________________________________________

**IV qrup**

III–VI yüzillikdə Azərbaycanda baş verən mühüm hadisə, proses və təzahürlərin xronoloji çərçivələrini müəyyənləşdirin.

**Məlumatın mübadiləsi:** Azərbaycanda feodal münasibətlərinin yaranması mövzusu qrup işinə  tətbiq edilə bilər. Şagirdlər qrupda əməkdaşlıq çərçivəsində məlumatları əldə olan vasitələrdən istifadə edərək toplayır, müzakirə edir və təqdim etməyə hazır vəziyyətə gətirir.

**Təqdimat mərhələsi:** Hər qrup tədqiqat nəticəsində əldə etdiyi məlumatları digər qruplar qarşısında təqdim edir (plakat, slayd və ya sadəcə, şifahi şəkildə). Digər qruplar suallar verir, əlavələr edir və müzakirə aparır.

Hər qrup əldə etdiyi məlumatları ardıcıllıqla zaman oxu vasitəsilə sinfə təqdim edir.

**Ümumiləşdirmə və nəticələrin çıxarılması:** Müəllim qrupların təqdimatını ümumiləşdirir və aşağıdakı suallarla müzakirəni aparır:

– Feodal münasibətləri nə vaxt və necə yarandı?
– Torpağın kimə məxsus olması nəyi dəyişdi?
– Feodal münasibətlərinin inkişafının hansı sosial nəticələri oldu?
– Bu münasibətlər nə qədər ədalətli idi?
– Müasir dövrlə hansı oxşar və fərqli cəhətləri var?
– Feodal münasibətlərinin formalaşmasında torpaq faktoru nə qədər mühüm idi?

**Yaradıcı tətbiqetmə:**

Erkən feodalizm dövründə Azərbaycan kəndlilərinə aid xüsusiyyətləri müəyyən edin.




**Ev tapşırığı:** Aşağıdakı tapşırıqlar verilə bilər:

**Tapşırıq 1.** Aşağıdakı hadisələri xronoloji ardıcıllıqla düzüb hansı yüzillikdə baş verdiyini yazın.

– Feodal mülkiyyətinin yaranması
– Torpaqların iri feodalların əlinə keçməsi
– Kəndlilərin torpaqdan asılı vəziyyətə düşməsi

**Tapşırıq 2.** Azərbaycanda feodal münasibətlərinin yaranması ilə bağlı əsas mərhələləri zaman oxunda göstərin.

– Feodalizmin başlanğıcı → Torpaq münasibətləri → Sosial təbəqələşmə → İri feodalların güclənməsi

**Qiymətləndirmə meyarı:** müəyyənləşdirmə, əlaqələndirmə

Qrupların hazırladıqları cavablar diqqətlə dinlənilir, müzakirə olunur, əlavələr edilir. Müəyyən olunmuş meyarlar əsasında qiymətləndirmə aparılır.

| Qruplar | Mənbə və resurslardan düzgün istifadə | Tədqiqatın təqdim edilməsi | Vaxtdan səmərəli istifadə | Qarşılıqlı əməkdaşlıq | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

# 9 Azərbaycan Sasani imperiyası dövründə (birinci saat)

**Qeyd.** Dərsliyin 128–144-cü səhifələrini əhatə edən "Azərbaycan Sasani imperiyası dövründə" mövzusunun tədrisinə üç saat ayrılmışdır.

Birinci dərsdə (128–138-ci səhifələr) "Sasani dövlətinin yaranması", "Azərbaycanın Sasani dövləti tərəfindən işğal edilməsi" adlı yarımbaşlıqlar öz əksini tapır. Müxtəlif formalı cədvəl, sxem, şəkil və xəritə kimi resurslarla zəngin olan bu materialda şagirdlərə Sasani imperiyasının Azərbaycan torpaqlarını işğal etməsindən sonra ölkədə yaranmış siyasi vəziyyət haqqında maraqlı məlumatlar təqdim ediləcək, həmçinin Albaniyanın Sasanilərin müttəfiqi kimi Romanın işğalçılıq siyasətinə qarşı apardığı mübarizə öyrədiləcək.

İkinci dərsdə (139–141-ci səhifələr) "Məzdəkilər hərəkatı" yarımbaşlığının məzmununun tədqiq edilməsi nəzərdə tutulmuşdur. Müxtəlif formalı cədvəl, sxem, şəkil və xəritə kimi resurslarla zəngin olan bu materialda şagirdlər Sasani və feodal zülmünə qarşı baş vermiş üsyanının səbəb-nəticə əlaqələrini öyrənəcək.

Üçüncü dərsdə (142–144-cü səhifələr) "Albaniyanın ərazisi və iqtisadi vəziyyəti", "Atropatena ərazisi və şəhərləri" yarımbaşlıqları öz əksini tapır. Müxtəlif formalı cədvəl, sxem, şəkil və xəritə kimi resurslarla zəngin olan bu materialda şagirdlər Azərbaycanın cənubunun və Albaniyanın sosial-iqtisadi vəziyyətini mənimsəyəcək.

**Standartlar:**

3.1.2. Qədim dövlətlərin daxili və xarici siyasətini izah edir.

3.1.3. Qədim Azərbaycan dövlətləri haqqında mənbələr əsasında məlumatlar toplayır, təqdim edir.

**Təlim məqsədləri:**

1. Azərbaycana qarşı münasibətdə Sasani dövlətinin daxili və xarici siyasətini izah edir.
2. Azərbaycanın Sasani dövləti tərəfindən işğalına dair mənbələr əsasında məlumatlar toplayır, təqdim edir.

**Təlim formaları:** qrupla iş, kollektiv iş

**Təlim üsulları:** beyin həmləsi, müzakirə, klaster

**Dərsin gedişi**

**Motivasiya.** Motivasiya qurmaq üçün beyin həmləsi üsulundan istifadə etmək olar. Bunun üçün şagirdlərə aşağıdakı formada suallar verilə bilər:

– Sizcə, bir dövlət zəiflәyəndə onun yerinə yeni bir dövlət necə yaranır?

– Niyə qədim imperiyalar Azərbaycanın ərazisinə sahib olmaq istəyirdilər?

Qısa giriş: "Parfiya dövləti zəifləmişdi. Ölkədə daxili qarışıqlıqlar vardı. Belə bir zamanda yeni bir sülalə – Sasani sülaləsi hakimiyyətə gəldi. Bəs bu necə baş verdi? Bugünkü dərsimizdə biz bunu tədqiq edib öyrənəcəyik".

**Tədqiqat sualı: Sasanilər dövləti necə yarandı və Azərbaycanı necə işğal etdi?**

**Tədqiqatın aparılması.** Şagirdlər Parfiya dövlətinin zəifləməsini və Sasani dövlətinin hansı tarixi şəraitdə yaranmasını, Sasanilərin Azərbaycanı işğal etməsinin səbəblərini və nəticələrini araşdırırlar:

Müəllim tərəfindən qruplara tapşırıq verilir:

- Qrup halında məlumatı oxuyun.
- Cavabları qısa şəkildə yazın və təqdim edin.
- Əldə etdiyiniz məlumatla tədqiqat sualına cavab verin.

**I qrup**

Parfiyanın süqut səbəblərini araşdırın. Sasani dövlətinin yaranmasını izah edin.

______________________________________________

______________________________________________

**II qrup**

Sasanilərdə dövlət quruluşunu və yenilikləri izah edin.

______________________________________________

______________________________________________

**III qrup**

Sasanilərin Azərbaycanı işğal etməsinin səbəb və məqsədlərini izah edin.

______________________________________________

______________________________________________

**IV Qrup**

Əhali arasında işğala qarşı olan münasibətləri və müqaviməti izah edin.

______________________________________________

______________________________________________

**Məlumatın mübadiləsi:** "Sasani dövlətinin yaranması", "Azərbaycanın Sasani dövləti tərəfindən işğal edilməsi" mövzusu tətbiq edilir. Şagirdlər qrupda əməkdaşlıq çərçivəsində məlumatları əldə olan vasitələrdən istifadə edərək toplayır, müzakirə edir və təqdim etməyə hazır vəziyyətə gətirir.

**Təqdimat mərhələsi:** Hər qrup tədqiqat nəticəsində əldə etdiyi məlumatları digər qruplar qarşısında təqdim edir (plakat, slayd və ya sadəcə, şifahi şəkildə). Digər qruplar suallar verir, əlavələr edir və müzakirə aparır.

- Hər qrup növbə ilə öz işlərini təqdim edirlər.
- Tapşırığı necə yerinə yetirdiklərini qısa izah edirlər.
- Əsas nəticələri sadə və aydın şəkildə izah edirlər.

**Ümumiləşdirmə və nəticələrin çıxarılması:** Müəllim qrupların təqdimatını ümumiləşdirir və aşağıdakı sual və tapşırıqlarla müzakirəni aparır:

– Parfiya dövlətinin zəifləməsinə səbəb olan amillər hansılardır?
– Asılı dövlət və mərkəzləşdirilmiş dövlət sistemlərini müqayisə edin.
– Sasanilərin dövlət idarəçiliyində hansı yeniliklər var idi?
– Sasani dövlətinin yaranması Azərbaycanın siyasi vəziyyətinə necə təsir göstərdi?
– Sasanilər niyə Azərbaycanı işğal etmək istəyirdilər?
– Urnayrın daxili siyasətini dəyərləndirin.
– İşğaldan sonra xalqın dini və mədəni həyatı necə dəyişdi?

Verilən suallara cavablar alınandan sonra müəllim dərsi aşağıdakı formada ümumiləşdirə bilər.

Parfiya dövləti zəiflədikdən sonra onun yerində Sasani dövləti yaradıldı. Sasani dövləti güclü mərkəzləşmiş imperiya idi. Azərbaycanın işğal olunmasının əsas səbəbi onun coğrafi mövqeyi və təbii sərvətləri idi. Sasani dövləti qədim Şərqdə güclü imperiyalardan biri olmuşdur. Azərbaycan ərazisi Sasani imperiyasının vacib tərkib hissəsinə çevrildi. Bu dövr ölkənin dini, mədəni və siyasi həyatında iz qoymuşdur.

**Yaradıcı tətbiqetmə:** Aşağıdakı cədvəllərin doldurulması tapşırılır.

| **Urnayrın** | |
|---|---|
| Daxili siyasəti | Xarici siyasəti |
| | |

| | **Urnayr** | **III Vaçaqan** |
|---|---|---|
| Fərqli cəhət | | |
| Oxşar cəhət | | |

**Ev tapşırığı:**

Azərbaycanın Sasanilər tərəfindən işğalına dair mənbələr əsasında məlumatlar toplayıb təqdim etmək tapşırılır.

**Qiymətləndirmə meyarları:** izahetmə, təqdimetmə

Yuxarıdakı meyarlara uyğun olaraq şagirdlər səviyyələr üzrə qiymətləndirilməlidir. Sonuncu meyar üzrə şagirdlərin qiymətləndirilməsi onlara verilən ev tapşırığının icrasından sonra mümkün olacaqdır.

Müəyyən olunmuş meyarlar əsasında qrupların qiymətləndirməsi aparıla bilər.

| Qruplar | Mənbə və resurslardan düzgün istifadə | Tədqiqatın təqdim edilməsi | Vaxtdan səmərəli istifadə | Qarşılıqlı əməkdaşlıq | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

# 9 Azərbaycan Sasani imperiyası dövründə (ikinci saat)

**Standartlar:**

1.1.2. Mühüm hadisə, proses və təzahürləri zaman oxunda təsvir edir.
4.1.2. Tarixi şəxsiyyətlər haqqında kiçik hekayə qurur.

**Təlim məqsədləri:**

1. III–VI yüzilliklərə dair mühüm hadisə, proses və təzahürləri zaman oxunda təsvir edir.
2. Məzdək və Məzdəkilər hərəkatı haqqında kiçik hekayə qurur.

**Təlim formaları:** böyük və kiçik qruplarla iş

**Təlim üsulları:** beyin həmləsi, müzakirə

**Dərsin gedişi**

**Tədqiqat sualı: Məzdəkilər hərəkatı necə baş verdi?**

**Tədqiqatın aparılması.** Tədqiqatı ziqzaq üsulu ilə həyata keçirmək tövsiyə olunur. Bu üsul mətnin məzmununun qısa müddət ərzində şagirdlər tərəfindən mənimsənilməsinə imkan yaradır. Bunun üçün şagirdlər dörd nəfərlik qruplara bölünür (əsas qrup). Qruplardakı şagirdlər nömrələnir. Hər qrupdakı eyni rəqəmli şagirdlərdən yeni qrup (ekspert qrupu) yaradılır. Öyrəniləcək mətn qrupların sayı qədər hissələrə bölünüb ekspert qruplarına verilir. Ekspert qrupları onlara verilən hissəni oxumalı, məzmununu qavramalı və öz əvvəlki qrupuna

qayıdaraq öyrəndiyi hissəni qrup yoldaşlarına danışmalıdır. Bunun ardınca qruplara aşağıdakı formada tapşırıqlar verilə bilər.

**I qrup**

Məzdəkilər hərəkatını zaman baxımından qiymətləndirin.

**II qrup**

Məzdəkilər hərəkatının hansı sosial problemlərə cavab olaraq yaranmasına dair kiçik hekayə qurun.

**III qrup**

Məzdəkin əsas ideyaları haqqında kiçik hekayə qurun.

**IV qrup**

Sasani dövlətinin hərəkatla bağlı gördüyü tədbirlərə aid kiçik hekayə qurun.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Hazırlaşmaq üçün qruplara ayrılmış vaxt bitdikdən sonra hər biri öz təqdimatını edir. Bu zaman təqdimat ətrafında müzakirələrin aparılması üçün konkret vaxt ayrılmalıdır. Müzakirələr zamanı şagirdlərin də yerdən suallar verməsi təmin edilməlidir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Məlumatın mübadiləsi və müzakirəsi mərhələsi qrup təqdimatları ilə bitdikdən sonra dərsi yekunlaşdırmaq üçün şagirdlərə müvafiq sual və tapşırıqlarla müraciət edilə bilər. Alınan cavabları sonda aşağıdakı formada ümumiləşdirib nəticə çıxarmaq olar. Sasani dövlətində varlılarla kasıblar arasında böyük fərqlər var idi. Məzdək bu ədalətsizliyə qarşı çıxaraq hamının bərabər səviyyədə mal və sərvətə sahib olmasını istəyirdi. Hərəkat kasıblar tərəfindən dəstəklənsə də, varlılar və dövlət bu hərəkatı qəbul etmədi. Məzdəkin fikirləri təhlükəli hesab olundu, o və tərəfdarları cəzalandırıldı. Məzdəkilər hərəkatı qədim dövrlərdə sosial ədalət uğrunda baş vermiş ilk kütləvi hərəkatlardan biri idi. Hərəkat uğursuzluqla nəticələnsə də, cəmiyyətin sosial problemlərinə diqqət çəkməyi bacardı.

**Yaradıcı tətbiqetmə.** Dərsin bu mərhələsində şagirdlərdən dərsliyin 142-ci səhifəsindəki ən mühüm hadisələrlə bağlı zaman oxunun tamamlamaları istənilə bilər.

**Qiymətləndirmə meyarları:** təsviretmə, hekayə qurma

Formativ qiymətləndirməni daha yaxşı aparmaq üçün yuxarıdakı meyarları nəzərə alaraq qiymətləndiriləcək şagirdlər dərs boyu diqqətdə saxlanılmalı və onların fəaliyyətləri izlənməlidir. Dərsin sonunda yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla əvvəlcədən müəyyən

edilən səviyyələr üzrə şagirdlər qiymətləndirilə bilər. Qiymətləndirmə zamanı şagirdin fəaliyyəti ilə bağlı müəyyən suallar yaranarsa, şagirdə əlavə suallar vermək məqbuldur.

Dərsin sonunda qruplara aşağıdakı formada özünüqiymətləndirmə vərəqi verilə bilər.

## ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ CƏDVƏLİ

Qrupun adı ________________________________

Cədvəli doldurarkən 2, 3, 4, 5 rəqəmli ballardan istifadə məqsədəmüvafiqdir.

| Qabiliyyətlər | Qiymət |
|---|---|
| 1. Hekayədə mövzu açıqlanıbmı? | |
| 2. Müəllimin izahlarını və məsləhətlərini dinlədik. | |
| 3. Çalışmaları bitirdik. | |
| 4. Təlimata əməl etdik. | |
| 5. Tapşırığı yerinə yetirərkən vaxtdan düzgün istifadə etdik. | |
| 6. Anlamadığımız məsələyə aid sual verdik. | |
| 7. Hekayə savadlı idimi<br>(faktlardan, terminlərdən, durğu işarələrindən istifadə)? | |

ŞƏRHLƏR:

________________________________________________

________________________________________________

# 9 Azərbaycan Sasani imperiyası dövründə (üçüncü saat)

**Standartlar:**

3.1.1. Azərbaycanda dövlət qurumları və qədim dövlətlərin yaranmasını, idarə olunmasını, sosial-iqtisadi münasibətləri təsvir edir.

3.1.3. Qədim Azərbaycan dövlətləri haqqında mənbələr əsasında məlumatlar toplayır, təqdimat hazırlayır.

**Təlim məqsədləri:**

1. Albaniyanın və Atropatenanın sosial-iqtisadi münasibətlərini təsvir edir.
2. III–VI yüzilliklərdə Albaniya və Atropatena haqqında mənbələr əsasında məlumatlar toplayır, təqdimat hazırlayır.

**Təlim formaları:** böyük qruplarla iş, cütlərlə iş

**Təlim üsulu:** bir-birini öyrətmək

**Dərsin gedişi**

**Tədqiqat sualı: III-VI yüzilliklərdə Albaniyanın və Atropatenanın sosial-iqtisadi münasibətləri necə idi?**

**Tədqiqatın aparılması:** Dərsin tədqiqatın aparılması mərhələsini bir-birini öyrətmək üçün məsləhətlər üsulu ilə keçirmək məsləhətdir. Dərsə maraq göstərən şagirdlər tədris resursu kimi çox dəyərli ola bilərlər. Onlardan bir-birini öyrətmələrini istəmək önəmli nailiyyət əldə etməyə səbəb olar. Tədqiqatlarını auditoriyada həmyaşıdlarına anlaya biləcəyi bir yolla şifahi şəkildə izah etmək şagirdlərdən daha yüksək səviyyəli düşüncə tələb edir.

Bu zaman şagirdlərə tədqiq xarakterli tapşırıq verilir. Sonra onlara tədqiqat zamanı əldə etdikləri məlumatları yoxlamaq öyrədilir. Əgər şagirdlər digərini öyrədərlərsə, onda, həqiqətən, mövzunu mənimsəmiş olarlar. Bunun üçün şagirdlərə aşağıdakı tapşırıqlar verilə bilər.

**I cüt**

Albaniyanın sosial-iqtisadi münasibətlərini təsvir edin.

______________________________________________________________

______________________________________________________________

**II cüt**

Atropatenanın sosial-iqtisadi münasibətlərini təsvir edin.

______________________________________________________________

______________________________________________________________

**III cüt**

Albaniyanın ərazisini təsvir edin.

______________________________________________________________

______________________________________________________________

**IV cüt**

Albaniya və Atropatenada şəhərlərin iqtisadi əhəmiyyətini təsvir edin.

________________________________________

________________________________________

**V cüt**

Atropatenanın ərazisini təsvir edin.

________________________________________

________________________________________

**VI cüt**

Albaniyanın sərhədlərini  təsvir edin.

________________________________________

________________________________________

**VII cüt**

Atropatenanın sərhədlərini  təsvir edin.

________________________________________

________________________________________

**VIII cüt**

Dərsliyin 144-cü səhifəsindəki mənbə əsasında dövlətin ədaləti təmin etməsi baxımından əhəmiyyəti və rolunu dəyərləndirin.

________________________________________

________________________________________

**IX cüt**

Dərsliyin 142-ci səhifəsindəki mənbə əsasında Albaniyanın ərazisini müəyyən edin və insanların həyat tərzini və məşğuliyyətlərini Azərbaycan ərazisinin təbii-coğrafi şəraiti ilə əlaqələndirin.

________________________________________

________________________________________

**Qeyd:** Əgər sinifdə şagirdlərin sayı çoxdursa, daha əhəmiyyətli tapşırıqlar yeni cütlərə verilə bilər. Bu eyni problemə müxtəlif yanaşmaların ortaya çıxmasına yardımçı olacaq.

**Məlumatın mübadiləsi və müzakirəsi:** Tədqiqatın aparılması mərhələsi üçün nəzərdə tutulan vaxt bitdikdən sonra hər bir cütün təqdimatını etməsi təşkil edilir. Hər bir cüt öz təqdimatını edən zaman cüt üzvlərinin bir-birlərini öyrətmə bacarığının hansı səviyyədə olduğu ortaya çıxmış olar. Müzakirələr zamanı cütlərdən kimin "öyrədən", kimin "öyrənən" olduğu diqqətdə saxlanmalıdır. Təqdimat üçün konkret vaxt vermək və onu diqqətdə saxlamaq lazımdır. Təqdimat zamanı şagirdləri lazımi məcraya yönəltmək üçün onlara suallar verilsə, yaxşı olardı. Şagirdlərin də suallar verməsi qəbul ediləndir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması:** Dərsin kulminasiyasını bilgiləri məhz özləri kəşf etdikləri üçün şagirdlərin duyduqları bənzərsiz sevinc və məmnuniyyət hissi təşkil edir. Bu-

nun üçün də dərsin “tədqiqat” mərhələsinə yekun vurulmalı, daha doğrusu, əldə edilən bilik və bacarıqlar ümumiləşdirilməli və tədqiqat sualına cavab tapılmalıdır.

**Ev tapşırığı:** III–VI yüzilliklərdə Albaniya və Atropatena haqqında mənbələr əsasında məlumatlar toplayıb, təqdimat hazırlamaq tapşırılır.

**Qiymətləndirmə meyarları:** təsviretmə, təqdimat hazırlama

Formativ qiymətləndirməni daha yaxşı aparmaq üçün yuxarıdakı meyarı nəzərə alaraq qiymətləndiriləcək şagirdlər dərs boyu diqqətdə saxlanılmalı və onların fəaliyyətləri izlənməlidir. Dərsin sonunda yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla əvvəlcədən müəyyən edilən səviyyələr üzrə şagirdlər qiymətləndirilə bilər. Qiymətləndirmə zamanı şagirdin fəaliyyəti ilə bağlı müəyyən suallar yaranarsa, şagirdə əlavə suallar verilməsi məqbuldur. Sonuncu meyar üzrə şagirdlərin qiymətləndirilməsi onlara verilən ev tapşırığının icrasından sonra mümkün olacaqdır. Ona görə də şagirdlərin ev tapşırıqlarını yerinə yetirməsi məsələsinə ciddi yanaşılmalıdır.

Dərsin sonunda şagirdlərə refleksiya üçün aşağıdakı formada suallar verilə bilər:

– Sizin üçün dərsin ən önəmli nəticəsi nə oldu?
– Dərsdə hansı yeniliyi öyrəndiniz?
– Hansı suallarınız var?
– Yeni materialın öyrənilməsi sizə hansı təsiri bağışladı?
– Dərs əsnasında qarşıya qoyulan hədəfə çatdınızmı? və s.

## Buraxılış məlumatı

**AZƏRBAYCAN TARİXİ 6**

*Ümumi təhsil müəssisələrinin 6-cı sinifləri üçün*
*Azərbaycan tarixi fənni üzrə dərsliyin (qrif nömrəsi: 2025-032)*

**METODİK VƏSAİTİ**

**Tərtibçi heyət:**

Müəlliflər: **Elnur Hüseynov**
**Pərviz Ağalarov**
**Niyaməddin Quliyev**
**Ramil Tanrıverdi**

Layihə rəhbəri **Samirə Bektaşi**

Buraxılışa məsul **Rafiq Kazımov**
Dizayner və səhifələyici **Ayaz Abdulzadə**
Baş redaktor **Samirə Bektaşi**
Texniki direktor **Allahverdi Kərimov**
Nəşriyyat direktoru **Sevil İsmayılova**



**© "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti**



**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**



Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.



Hesab-nəşriyyat həcmi 12,8. Fiziki çap vərəqi 18. Formatı 57x82 $^1/_8$.
Kəsimdən sonra ölçüsü: 195x275. Səhifə sayı 144.
Şriftin adı və ölçüsü: məktəb qarnituru 10-12. Ofset kağızı. Ofset çapı.
Sifariş. Pulsuz. Bakı – 2025

Pulsuz